

# HEYDƏR ƏLİYEV

## MƏKTƏBLİLƏRİN GÖZÜ İLƏ

**KİTAB**
**ÜMUMMİLLİ LİDER**
**HEYDƏR ƏLİYEVİN**
**ANADAN OLMASININ**
**91-ci İLDÖNÜMÜNƏ**
**HƏSR OLUNUR.**

BAKI – 2014



***Azərbaycanın bugünkü gənc nəsli gələcək Azərbaycanı yüksəkliklərə qaldıracaqdır.***

**HEYDƏR ƏLİYEV**

# HEYDƏR ƏLİYEV

# MƏKTƏBLİLƏRİN GÖZÜ İLƏ

**VIII KİTAB**

Azf-281560

M.F.Axundov adına Azərbaycan Milli Kitabxanası

«TƏHSİL»
BAKI–2014

Tərtibçilər: **Faiq Şahbazlı,**
**Aydın Əhmədov,**
**Əsgər Quliyev,**
**Piralı Əliyev,**
**Şahbaz Balakişiyev**

**H39 Heydər Əliyev məktəblilərin gözü ilə.** Bakı, «Təhsil», 2014, 304 səh.

Kitaba ümummilli lider Heydər Əliyevin anadan olmasının 91-ci ildönümünə həsr olunmuş inşa müsabiqəsində yer tutmuş 91 yazı daxil edilmişdir.

**H $\frac{4702060201}{053}$ 2014**

**© Azərbaycan Respublikası Təhsil Nazirliyi, 2014**
**© «Təhsil», 2014**



## HEYDƏR ƏLİYEVİN MİLLİ TƏHSİL QURUCULUĞU İDEYALARI MÜASİRLƏŞMƏ YOLLARINDA

*«Xalqımızın ümummilli lideri Heydər Əliyev ictimai-siyasi quruluşdan asılı olmayaraq, bütün dövrlərdə öz xalqına sədaqətlə, ləyaqətlə xidmət etmişdir. Heydər Əliyevin Azərbaycanın tarixində rolu və fəaliyyəti əvəzolunmazdır...»*

**İLHAM ƏLİYEV,**
*Azərbaycan Respublikasının Prezidenti*

Azərbaycan xalqı mühüm tarixi bir hadisə – müasir dövlətçiliyimizin memarı və qurucusu, Vətənimizdə milli təhsil quruculuğunun ideya müəllifi və banisi, uşaqların, gənclərin, məktəblilərin sevimlisi ümummilli lider Heydər Əliyevin anadan olmasının 91-ci ildönümü ərəfəsindədir. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin milli təhsil sisteminin inkişafı sahəsində misilsiz xidmətləri nəzərə alınaraq təhsil müəssisələrində bu tarixi ildönümü yüksək səviyyədə qeyd etmək üçün Təhsil Nazirliyinin 26 fevral 2014-cü il tarixli 229 nömrəli əmri ilə Fəaliyyət Planı təsdiq olunmuş, onun icrasına başlanmışdır.

Təhsil Nazirliyi tərəfindən bu istiqamətdə gerçəkləşdirilən kompleks tədbirlərdən biri də ümumtəhsil məktəblərinin VIII–XI sinif şagirdləri, eləcə də ilk peşə və orta ixtisas təhsili müəssisələri tələbələri arasında Ulu öndər Heydər Əliyevin şərəfli ömür yolu və zəngin dövlətçilik fəaliyyətinə həsr olunmuş inşa yazı müsabiqəsinin keçirilməsidir. 300 mindən artıq şagird və tələbənin qatıldığı bu möhtəşəm bilik yarışı üç mərhələdə (məktəb, rayon (şəhər), respublika) təşkil edilmiş, sonuncu mərhələyə vəsiqə almış 119 məktəblinin **«Dünya azərbaycanlılarının ümummilli lideri, dahi şəxsiyyət Heydər Əliyevin şərəfli ömür yolu Vətənə və xalqa sədaqətlə xidmətin parlaq nümunəsidir»** nominasiyası üzrə yekun müsabiqəsi bu il aprelin 12-də Bakıda, akademik Zərifə Əliyeva adına liseyin binasında keçirilmişdir. İnşa yazıları qiymətləndirilmiş, 26 nəfər müsabiqənin qalibi (o cümlədən Naxçıvan MR-dən 10 nəfər) elan olunmuş, onlardan 8 nəfəri I yerə, 7 nəfəri II yerə, 11 nəfəri III yerə, 65 nəfəri isə həvəsləndirici yerə layiq görülmüşdür. Müsabiqənin yekun mərhələsində müxtəlif yerlərə layiq görülən və mükafatlandırılan şagird və tələbələrin inşa yazılarının artıq ənənəyə çevrilmiş **«Heydər Əliyev**

**məktəblilərin gözü ilə»** (indiyədək bu adda 7 kitab çap olunub) adı altında ayrıca kitab şəklində çap etdirilib qaliblərə və oxuduqları təhsil müəssisələrinə hədiyyə edilməsi qərara alınmışdır.

Bu gün Azərbaycanın təhsil ictimaiyyətinə təqdim olunan, nəfis tərtibat və yüksək poliqrafik keyfiyyətdə çap olunmuş bu dəyərli kitabda toplanan materiallarla ilkin tanışlıq göstərir ki, məktəblilərimiz bütün nəsillərə örnək olan böyük tarixi şəxsiyyət, çağdaş Azərbaycan dövlətçiliyinin simvoluna çevrilmiş Ulu öndər Heydər Əliyev haqqında öz fikir və düşüncələrini həm yeniyetmə təbiətinə uyğun səmimi hisslərlə, həm də bu dahi şəxsiyyətə dərin hörmət və sonsuz ehtiram duyğuları ilə ifadə etmişlər. Kitabda toplanan inşa yazıların hamısında Heydər Əliyev fenomeninə və şəxsiyyətinə sonsuz sevgi və sayğı qəlbimi iftixar hissi ilə doldurdu...

Bu mənada kitabda toplanan yazılardan aldığım xoş təəssürat altında mən də əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulan və bu gün ölkə Prezidenti İlham Əliyev tərəfindən uğurla davam və inkişaf etdirilən milli təhsil quruculuğu sahəsində qazanılan uğurlar, mövcud problemlər və gələcək inkişaf yolları barədə öz fikir və düşüncələrimi təhsil ictimaiyyəti ilə bölüşmək, bu sahədə qarşıda duran vəzifələrə diqqəti yönəltmək istərdim.

Müstəqil Azərbaycanda digər sahələrdə olduğu kimi, təhsil sferasında da ölkədə aparılan davamlı inkişaf strategiyasına uyğun olaraq əsaslı islahatlar prosesi dönməz xarakter almış, ümummilli lider Heydər Əliyevin müəyyənləşdirdiyi və dövlət başçısının uğurla gerçəkləşdirdiyi strateji yolla təhsil sisteminin infrastrukturu və idarə olunması, təhsil müəssisələrinin informasiyalaşdırılması, təhsilin məzmununun yeniləşdirilməsi sahəsində, eləcə də Azərbaycan təhsilinin dünya təhsil məkanına inteqrasiyası istiqamətində müəyyən addımlar atılmışdır.

Azərbaycan təhsilində ötən dövrdə qazanılan nailiyyətlər bilavasitə dövlət başçısı tərəfindən ölkəmizin modernləşdirilməsinə yönəlmiş sosial-iqtisadi siyasətlə bağlı olmuşdur. Təhsil sahəsinə ayrılan büdcə vəsaitlərinin ümumi həcminin əhəmiyyətli dərəcədə artması nəticəsində son 10 ildə ölkəmizdə təhsil infrastrukturunun müasirləşdirilməsi istiqamətində önəmli işlər görülmüş, 2700-dən çox orta məktəb binası tikilib istifadəyə verilmiş və ya əsaslı təmir olunmuş, nəticədə 1 milyondan artıq şagirdin təlim şəraitinin yaxşılaşdırılması mümkün olmuşdur. Bununla yanaşı, «2007–2015-ci illərdə Azərbaycan gənclərinin xaricdə təhsilinə dair Dövlət Proqramı» çərçivəsində indiyədək 2612 azərbaycanlı gənc Dövlət Neft Fondu hesabına maliyyələşdirilməklə, dünyanın inkişaf etmiş ölkələrinin tanınmış universitetlərinə ali təhsil almağa göndərilmişdir. Nəzərə alınmalıdır ki, dövlət vəsaiti hesabına xaricdə təhsil məsələsi, hətta dünyanın ən zəngin dövlətləri üçün nadir hadisədir. Düşünürəm



ki, müstəqil Azərbaycan dövləti və gəncliyi üçün bu faktın özü əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulan ənənənin davamı olaraq Prezident İlham Əliyevin ölkənin gələcəyinə yönələn tarixi addımı kimi dəyərləndirilməlidir.

Ötən müddətdə İKT üzrə iki Dövlət Proqramının icrası nəticəsində 2004-cü ildə hər 1063 şagirdə bir kompüter düşdüyü halda, hazırda hər 18 şagirdə bir kompüter nisbəti təmin olunmuş, məktəblərin 39 faizi internet şəbəkəsinə qoşulmuşdur.

Böyük minnətdarlıq duyğuları ilə onu da deməliyəm ki, ötən dövrdə Azərbaycanda ümumi təhsil müəssisələrinin infrastrukturunun müasirləşdirilməsi sahəsində Heydər Əliyev Fondunun Prezidenti, UNESCO və ISESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın müstəsna xidmətləri olmuşdur. Belə ki, Fondun dəstəyi ilə **«Yeniləşən Azərbaycana yeni məktəb»** layihəsi çərçivəsində 2005–2013-cü illərdə 100 mindən artıq şagirdin təhsil aldığı 400-ədək məktəb binası inşa olunmuşdur. Bu məktəblərin hər birində müasir laboratoriya, kitabxana, yeməkxana, ən müasir avadanlıqlarla təchiz edilmiş kompüter otaqları, emalatxana, idman zalları, geniş meydançalar və istilik sistemi quraşdırılmışdır. Bununla yanaşı, Fondun **«Uşaq evləri və internat məktəblərinin inkişafı»** layihəsi çərçivəsində respublika üzrə 30-dan çox uşaq müəssisəsi əsaslı şəkildə təmir edilmiş, yeni avadanlıqlarla təchiz olunmuş, onların kommunal şəraiti yaxşılaşdırılmışdır.

İftixar etməli haldır ki, bu il fevralın 24-də Heydər Əliyev Mərkəzində Fondun yeni təhsil layihəsinin – **«Məktəbəqədər təhsil müəssisələrinin inkişafı»** proqramının təqdimatı keçirilmiş, həmin layihənin icrasına start verilmişdir. Proqram ölkəmizin bütün bölgələrində uşaq bağçalarının genişmiqyaslı tikintisi, yenidənqurulması və əsaslı təmirinin dəstəklənməsini nəzərdə tutur. Ümid edirəm ki, Fondun digər təhsil layihələrində olduğu kimi, bu layihənin köməyi ilə məktəbəqədər təhsil infrastrukturunun müasirləşdirilməsi mümkün olacaq, məktəbəqədər yaşlı uşaqların bu təhsil müəssisələrinə cəlb olunma səviyyəsinin yüksəlməsi, yeni məktəbəhazırlıq mexanizminin qurulması təmin ediləcəkdir...

Bu da tarixi reallıqdır ki, həyat bir yerdə durmur, dünya hər gün dəyişir, inkişaf edir. Bu dəyişikliklərlə hər zaman ayaqlaşmaq, onlardan geri qalmamaq, dünyada baş verən qloballaşma çağırışlarına adekvat cavab vermək üçün öz üzərimizdə daim çalışmalı, böyük zəhmətlər bahasına qazandığımız uğurların qorunub saxlanılmasını və inkişaf etdirilməsini təmin etməliyik. Çünki müasir dövrdə ölkələrin inkişaf səviyyəsini təbii sərvətlərin bolluğu deyil, bu sərvətlərin yüksək potensiala malik insan kapitalına çevrilməsi təşkil edir ki, bu proseslərdə aparıcı missiya təhsil sisteminin üzərinə düşür. Müasirləşmə, ilk

növbədə, qabaqcıl texnologiyaların və idarəetmə üsullarının, elmi nailiyyətlər əsasında yaradılan innovasiyaların ölkənin sosial-iqtisadi həyatına uğurlu tətbiqi ilə bağlıdır. Bunun üçün həlledici amil ölkədə insan kapitalının inkişafı, şəxsin müasir bilik və bacarıqlara yiyələnməsinin təmin edilməsidir.

Bu mənada bu gün ölkəmizin sosial-iqtisadi və mədəni həyatının bütün sahələrində uğurla gerçəkləşdirilən müasirləşmə (modernləşmə) siyasətinin təməlində ölkə Prezidenti İlham Əliyevin belə bir konseptual ideyası durur ki, **«Azərbaycan yeniləşir, müasirləşir. Dünyanın ən qabaqcıl texnologiyaları Azərbaycanda tətbiq olunmalıdır... Ölkəmizi müasirləşdirməliyik, zənginləşdirməliyik. Çünki müasir dünyada hər şeyi bilik, savad, təhsil həll edir. İnkişaf etmiş ölkələrin təcrübəsinə nəzər salsaq görərik ki, orada tərəqqini müəyyən edən neft-qaz yox, məhz bilikdir, texnologiyadır, təhsildir. Ölkəmizin hərtərəfli və sürətli inkişafını təmin etmək üçün biz sərmayəni, ilk növbədə, təhsilə, biliyə, gənclərimizin maariflənmdirilməsinə yönəltməliyik...»**

Hesab edirəm ki, dövlət başçısının Azərbaycanın modernləşdirilməsi siyasətində təməl prinsiplərindən biri də ölkənin müasirləşməsini təmin edən insan kapitalının formalaşdırılmasına nail olmaqdan ibarətdir.

Ölkənin müasirləşdirilməsi siyasətinin əsaslarını özündə ehtiva edən **«Azərbaycan 2020: Gələcəyə baxış»** İnkişaf Konsepsiyasında ənənəvi iqtisadiyyatdan «bilik iqtisadiyyatı»na keçidin əsasının qoyulması, bunun üçün həlledici amil olan insan kapitalının inkişafının ön plana çəkilməsi nəzərdə tutulmuşdur. Bu tələb təhsil sisteminin də kökündən dəyişdirilməsinə, əlavə təhsil, ömürboyu təhsil kimi komponentlərin əhəmiyyətinin artırılmasına gətirib çıxarır, İKT və virtual təhsilin, kompüter şəbəkə biliklərinin rolunun yüksəldilməsini nəzərdə tutur. Başlıca strateji hədəfi davamlı iqtisadi artım və sosial rifah olan Konsepsiyada təhsildə keyfiyyətin yüksəldilməsi və müasir təhsil sisteminin qurulması da əsas strateji istiqamətlərdən biri kimi müəyyənləşdirilib. Başqa sözlə desək, bu sənəddə sürətlə modernləşən Azərbaycanda insan kapitalının formalaşdırılması təhsil sisteminin əsas strateji hədəfi kimi təsbit olunub.

Azərbaycanın İnkişaf Konsepsiyasından irəli gələrək hazırlanmış və dövlət başçısının 24 oktyabr 2013-cü il tarixli sərəncamı ilə təsdiq olunmuş **«Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası»**nın əsas missiyası da ölkəmizin modernləşdirilməsi üçün zəruri olan insan kapitalını inkişaf etdirmək və bununla ölkəmizin beynəlxalq rəqabət qabiliyyətini yüksəltməkdən ibarətdir.

Dövlət Strategiyası təhsil sahəsində qarşıdakı illərdə aparılacaq islahatların əsas strateji istiqamətlərini və hədəflərini müəyyənləşdirir, Azərbaycan təhsili-



nin XXI əsrin qlobal çağırışlarına uyğun inkişaf yollarını göstərir, nəhayət, təhsilin bütün pillələrində keyfiyyətcə yeni mərhələyə başlamağı – dövlət başçısının müasirləşdirmə konsepsiyasının təməl prinsiplərindən biri olan «Qara qızılı insan kapitalına çevirmək» fəlsəfəsinin gerçəkləşdirilməsini əsas vəzifə kimi qarşıya qoyur. Təhsillə bağlı olan bütün subyektləri və fəaliyyət sahələrini əhatə edən bu sənəd beş strateji istiqamətdə genişmiqyaslı tədbirlərin gerçəkləşdirilməsini nəzərdə tutur:

**Birinci strateji istiqamət** səriştəyə əsaslanan şəxsiyyətyönlü təhsil məzmununun yaradılmasına yönəlmişdir. Bu istiqamət təhsilin məktəbəqədər, ümumi, ilk peşə-ixtisas, orta ixtisas və ali olmaqla, bütün pillələri üzrə kurikulumların inkişafı kimi vacib hədəfləri əhatə edir.

**İkinci strateji istiqamət** təhsil sahəsində insan resurslarının müasirləşdirilməsini nəzərdə tutur. Bu istiqamət innovativ təlim metodlarını tətbiq edən, təhsilin məzmununun səmərəli mənimsənilməsini təmin edən səriştəli təhsilverənin formalaşdırılmasına xidmət edir. Eyni zamanda özündə təhsilverənlərin peşəkarlığının yüksəldilməsi, təhsilalanların nailiyyətlərinin qiymətləndirilməsi üzrə yeni sistemlərin qurulmasını, təhsil alanların istedadının aşkar olunması və inkişafı, eləcə də xüsusi qayğıya ehtiyacı olanlar üçün inklüziv təlim metodologiyasının yaradılmasını nəzərdə tutur.

**Üçüncü strateji istiqamət** təhsildə nəticələrə görə cavabdeh, şəffaf və səmərəli idarəetmə mexanizmlərinin yaradılmasını nəzərdə tutur. Bu istiqamət təhsil sistemində tənzimləmə və idarəetmənin qabaqcıl beynəlxalq təcrübə əsasında müasirləşdirilməsini, təhsil müəssisələrində nəticəyönlü və şəffaf idarəetmə modelinin, təhsilin keyfiyyətinin təminatı və idarəolunması üzrə məlumat və hesabat sistemlərinin yaradılması kimi hədəfləri əhatə edir.

**Dördüncü strateji istiqamət** müasir tələblərə uyğun və ömürboyu təhsili təmin edən təhsil infrastrukturunun yaradılmasını nəzərdə tutur. Bu istiqamət təhsil müəssisələrində İKT əsaslı təlim metodologiyasına uyğun infrastrukturun yaradılması, təhsil müəssisələri şəbəkəsinin rasionallaşdırılması, distant təhsil, istedadlı və xüsusi qayğıya ehtiyacı olan uşaqlar üçün təhsil və inkişaf, yaşlıların təhsili, peşə-ixtisas təhsili müəssisələri üzrə məsləhət xidmətləri göstərən regional universal mərkəzlərin, müasir təminatlı peşə-tədris mərkəzləri və komplekslərinin qurulması, ali təhsil kampuslarının yaradılması kimi tədbirlərin reallaşdırılmasını əhatə edir.

**Beşinci strateji istiqamət** Azərbaycanda iqtisadi cəhətdən dayanıqlı və dünyanın aparıcı təhsil sistemlərinin standartlarına uyğun təhsil sisteminin maliyyələşdirilməsi modelinin qurulmasıdır. Bu istiqamət müxtəlif mənbələrdən istifadə olunmaqla təhsili maliyyələşdirmə mexanizminin təkmilləşdirilməsini, təhsil müəssisələrinin adambaşına maliyyələşdirilməsinə keçilməsini,

ödənişli təhsil xidmətlərinin göstərilməsinin dəstəklənməsini, Təhsilin İnkişafı Fondunun yaradılmasını nəzərdə tutur.

Bütövlükdə Strategiyanın əsas məqsədi ölkəmizdə səriştəli təhsilverənlərə, ən yeni texnologiyalara əsaslanan infrastruktura malik, keyfiyyət nəticələri və əhatəliliyə görə dünya ölkələri sırasında qabaqcıl mövqe tutan təhsil sistemini yaratmaqdan ibarətdir. Azərbaycanda təhsil sisteminin iqtisadi cəhətdən dayanıqlılığının və dünyanın aparıcı təhsil sistemlərinin standartlarına uyğunluğunun təmin edilməsi Strategiyanın ali məqsədidir.

Düşünürəm ki, Strategiyanın gerçəkləşdirilməsi təhsilin məzmununun, kadr hazırlığının, təhsili idarəetmə sisteminin, təhsil infrastrukturu və maliyyələşməsinin qabaqcıl beynəlxalq təcrübəyə və Azərbaycanın İnkişaf Konsepsiyasına uyğun yenidən qurulmasına imkan verəcək, ölkəmizdə biliklərə əsaslanan iqtisadiyyatın və informasiya cəmiyyətinin təşəkkülünü, davamlı inkişafını təmin edəcəkdir.

Ümumi təhsil pilləsində nəzərdə tutulan islahatlarla bağlı bəzi məqamlara toxunmaq istərdim. Strategiyada ümumi təhsilin məzmunu sahəsində islahatların aparılması, mövcud kurikulumların əsaslı şəkildə yeniləşdirilməsi nəzərdə tutulur. Çünki təhsil strateqlərinin yekdil fikrinə görə, təhsilin məzmununu düzgün müəyyənləşdirmədən təhsildə uğurlu nəticədən, təhsildə keyfiyyətdən, eləcə də təhsilalanların layiqli vətəndaş kimi yetişdirilməsindən söhbət belə gedə bilməz. Bu mənada ümumi təhsilin məzmununun müəyyənləşdirilməsində ümummilli lider Heydər Əliyevin belə bir konseptual fikri əsas tutulmuşdur ki, **«Cəmiyyətin gələcək tərəqqisi indi gənclərimizə nəyi və necə öyrətməyimizdən asılıdır...»**

Təhsilin məzmununda tərbiyə məsələlərinə, milli-mənəvi dəyərlərə, azərbaycançılıq məfkurəsinə böyük önəm verilməsi də Strategiyanın əsas hədəflərindən biridir. Strategiyada deyildiyi kimi, təhsil prosesində əldə olunan bilik və bacarıqlar, həmçinin etik-əxlaqi norma və dəyərlər hər bir təhsilalanın cəmiyyətin layiqli üzvü olması üçün lazımi şərait yaradır, onu biliyi və etik davranışı sayəsində örnək ola biləcək həmkara, nümunəvi ailə üzvünə və vətəndaşa çevirir. Düşünürəm ki, Təhsil Nazirliyinin təşəbbüsü ilə 2013/14-cü dərs ilindən başlayaraq tədris ilinin ilk saatının ümumtəhsil məktəblərində vətənpərvərlik mövzusuna həsr olunması da məhz həmin ali məqsədə xidmət edir.

Ümumi təhsilin məzmununun təkmilləşdirilməsindən, yeniləşdirilməsindən danışarkən, dərsliklərdən söz açmamaq mümkün deyil. Təhsil sistemində mövcud olan bu problemi həll etmək üçün onun kökünə varmaq lazım gəlir. Kökü isə müəllifdir. Daha doğrusu, müəlliflərin az olmasıdır. Buna baxmayaraq, dərslik siyasəti sahəsində son bir ildə müsbət irəliləyişlər olmuşdur. Görülmüş tədbirlər nəticəsində bu il ümumtəhsil məktəbləri üçün dərslik yazan



müəlliflərin sayı xeyli artmışdır. Hazırda dərslik sahəsində beynəlxalq təcrübə əsasında mövcud dərslik müəllifləri və müəlliflik iddiasında olan mütəxəssislər üçün təlim kurslarının təşkili üçün hazırlıq işləri aparılır. Hesab edirəm ki, Strategiyada nəzərdə tutulan müxtəlif stimullaşdırıcı tədbirlər ölkənin elmi-pedaqoji kadr potensialının dərslik yaradıcılığına aktiv cəlb olunmasına yardım göstərəcək, nəticədə dərsliklərin keyfiyyətinin yüksəldilməsi təmin ediləcəkdir. Bu prosesə ali məktəblərin fəal şəkildə cəlb olunması üçün müvafiq iş aparılmalıdır.

2014/15-ci tədris ilindən yeni kurikulum əsasında hər il iki sinfin dərsliklərinin hazırlanmasını təşkil etmək və yeni dərsliklərin pilot məktəblərdə sınaqdan keçirildikdən sonra tətbiqinə başlamaq niyyətindəyik. Bu istiqamətdə artıq ilk addım atılmış, bu il VII və VIII siniflər üçün dərsliklərin hazırlanması üçün tender elan olunmuşdur. Hazırda VII sinif dərsliklərinin qiymətləndirilməsi prosesi gedir.

Strategiyada nəzərdə tutulduğu kimi, yaxın zamanlarda alternativ, variativ dərsliklərin, elektron dərsliklərin hazırlanması və tətbiqi mümkün olacaqdır. Yaxın gələcəkdə hər bir şagirdin fərdi planşetlə təmin olunması, dərsliklərin və digər tədris resurslarının həmin planşetdə yüklənməsi nəzərdə tutulmuşdur. Təhsil Nazirliyi dərslik islahatında keyfiyyətin yüksəldilməsinin prioritet sahə kimi inkişaf etdirilməsini əsas hədəflərdən hesab edir, keyfiyyətli dərsliklərin hazırlanması və nəşri üçün lazım olan bütün addımları atmaq əzmindədir. Qarşıdakı illərdə ümumi təhsilin 12 illik modelinə keçilməsi, xüsusən tam orta təhsil səviyyəsində tədrisin təmayüllər üzrə təşkili dərslik siyasətində əsaslı yeniləşmələr aparılmasını, variativ və alternativ dərsliklərin hazırlanmasını, müəllim və şagirdlərə seçim imkanlarının yaradılması zərurətini ortaya qoyur...

Ümumi təhsilin məzmunundan danışarkən bir məsələyə də toxunmağı vacib hesab edirik. Hazırda Azərbaycan cəmiyyətində ümumi təhsilin məzmununun «ağırlığı» ilə bağlı illərdən bəri kök salmış stereotiplər geniş müzakirə olunan məsələlərdəndir. Əslində, bu fikirlərdə həqiqət də var. Buna görə Strategiyada ümumi təhsilin strukturunda və məzmununda əsaslı dəyişikliklərin aparılması nəzərdə tutulub. Ümumi təhsilin inkişafına yardım edəcək əsas hədəflərdən biri Azərbaycanda məktəbəqədər yaşlı uşaqların fiziki və əqli inkişafını, sosiallaşmasını təmin edən, yaradıcılıq qabiliyyətini üzə çıxaran, onlarda həyati bilik və bacarıqları, davranış qaydalarını, ünsiyyət mədəniyyətini aşılayan müasir təhsil standartlarının və yeni kurikulumların hazırlanmasıdır. Strategiyada məktəbəqədər təhsillə əhatə dairəsinin inkişaf etmiş ölkələrdəki səviyyəyə (90%-ə) yüksəldilməsi, məktəbəqədər təhsil müəssisələri şəbəkəsinin genişləndirilməsi, əhalinin bütün təbəqələri üçün onun əlçatan

olması, **məktəbə hazırlıq təhsilinin (1il) icbariliyinin təmin olunması** ilə bağlı tədbirlər təhsilin bu pilləsinin aydın sabahından və nəticə etibarilə ümumi təhsilin uğurlu gələcəyindən xəbər verir.

Bu bir həqiqətdir ki, ibtidai təhsil səviyyəsində təhsilin keyfiyyəti, ilk növbədə, məktəbəqədər təhsilin normal təşkilindən, bu pillədə məzmunun düzgün müəyyənləşdirilməsindən çox asılıdır. Bunu nəzərə alaraq hazırda Təhsil Nazirliyi məktəbəqədər təhsil müəssisələri ilə yanaşı, mövcud ümumtəhsil məktəbləri şəbəkəsində də məktəbə hazırlıq siniflərinin təşkili imkanlarını araşdırır.

Strategiyada 12 illik ümumi təhsilə keçidin təmin olunması üçün təhsil standartları və kurikulumlarının yeniləşdirilməsi, tam orta təhsil səviyyəsində təlimin təmayüllər üzrə bölünməsi rəsmən təsbit olunmuşdur. Eyni zamanda istedadlı uşaqlar xüsusi inkişaf proqramları, xüsusi qayğıya ehtiyacı olan uşaqlar üçün inkişaf və inklüziv təlim proqramlarının hazırlanması nəzərdə tutulmuşdur.

Hesab edirəm ki, 1 illik məktəbə hazırlıq təhsilinin icbariliyinin təmin olunması və ümumi orta təhsil səviyyəsinin 1 il uzadılması ümumi təhsildə «məzmunun ağırlığı» barədə stereotiplərin aradan qaldırılmasına yardım edəcək, icbari ümumi orta təhsildə məzmunun təhsilalanlar tərəfindən mükəmməl şəkildə mənimsənilməsinə öz töhfələrini verəcəkdir.

Bir neçə kəlmə də ümumtəhsil məktəblərində tədris həftələrinin müddəti barədə demək istərdim. Dünyanın inkişaf etmiş ölkələrində, o cümlədən İqisadi Əməkdaşlıq və İnkişaf Təşkilatına üzv olan ölkələrdə illik tədris həftəsinin orta göstəricisi 38 həftə olduğu halda, Azərbaycanda 32 həftə təşkil edir. Əgər istirahət, bayram və tətil günlərini də nəzərə alsaq, onda beşgünlük tədris həftəsi ilə işləyən ümumtəhsil məktəblərində il ərzində 164 gün, altıgünlük rejimlə işləyən məktəblərdə isə 197 gün dərs keçilir. Deməli, uyğun olaraq şagirdlər ildə 201 (I siniflər 206 gün) və ya 168 gün istirahət edirlər. Bu isə tədris proqramlarının həcmi müqabilində şagirdlərin dərs yükünün artmasına səbəb olur. Sözsüz, bu yanaşma təhsilalanların həddən artıq yüklənməsinə (yuxarı siniflərdə beşgünlük iş rejimi ilə işləyən məktəblərdə həftədə 40 saat, gündə 8 saat) gətirib çıxarır, məzmunun lazımi səviyyədə mənimsənilməsinə əngəl törədir.

Strategiyada bu istiqamətdə islahatların aparılması, həftəlik (gündəlik) dərs yükünün azaldılması və tədris ilinin müddətinin uzadılması nəzərdə tutulmuşdur. 2014/15-ci tədris ilindən ümumi təhsil müəssisələrində tədris ilinin müddətinin 2 həftə uzadılması nəzərdə tutulmuşdur. Düşünürəm ki, bu tədbir təhsilalanların sağlamlığının qorunmasına, tədris prosesinin optimallaşdırılmasına və səmərəli təşkilinə, ən başlıcası isə təhsilin məzmununun keyfiyyətli mənim-



sənilməsinə imkan verəcəkdir. Digər tərəfdən tam orta təhsil səviyyəsində tədrisin təmayüllər əsasında təşkili ölkədə geniş ictimai müzakirələrə vəsilə olan «repititorluq» sindromunun sındırılmasına, məktəbin həqiqi «öyrənmə mərkəzi»nə çevrilməsinə yardım göstərəcəkdir.

Ümumi təhsildə mühüm amil olan bir məsələyə də toxunmaq istərdim. Ümumtəhsil məktəblərinə müəllimlərin işə qəbulu sahəsində beynəlxalq təcrübə nəzərə alınmaqla yeni mexanizmlər daha da təkmiləşdirilmiş, ötən il 3286 vakant yerə müsabiqə keçirilmişdir. Əvvəlki illərdən fərqli olaraq, vakant yerlərin sayı artsa da, keçid balı aşağı salınmamış, müəllimlərin peşəkarlığı əsas meyar kimi götürülmüşdür. Bu imtahan, həmçinin müəllimlərin peşə hazırlığında olan boşluqları da aşkarlamışdır. Hazırda müəllim hazırlığı sistemində paradoksal vəziyyət yaranmışdır. Təkcə ali təhsil müəssisələrinin hazırladıqları pedaqoji kadrların sayı real tələbatı təxminən iki dəfə üstələyir. Bu fakt müəllim hazırlığı sahəsində əsaslı islahatların aparılmasını qaçılmaz edir...

Strategiyada ümumtəhsil məktəb müəllimlərinin fəaliyyətinin sertifikatlaşdırılması, müəllimlərin peşəkarlıq səviyyəsinin attestasiya yolu ilə təkmilləşdirilməsi, attestasiya nəticəsində uğur əldə edən müəllimlərə aldıqları dərəcələrə görə differensiallaşdırılmış əməkhaqqının verilməsi nəzərdə tutulub. Attestasiyadan keçməyən müəllimlər üçün təlimlər təşkil olunacaq, növbəti attestasiyaya hazırlaşmaq üçün imkan yaradılacaqdır. Eyni zamanda ümumtəhsil məktəb direktorlarının fəaliyyətinin də sertifikatlaşdırılması gözlənilir. Bu il Təhsil Nazirliyi müsabiqə yolu ilə mövcud məktəb direktorları və direktorluq iddiasında olan müəllimlərdən müsabiqə yolu ilə 50 nəfəri təlim kurslarına cəlb etmişdir. Bu proses ardıcıl olaraq davam etdiriləcəkdir. Bütün bu deyilənlər və Strategiyada nəzərdə tutulan digər tədbirlərin gerçəkləşdirilməsi ümumi təhsildə keyfiyyətin yüksəldilməsinə kömək edəcəkdir. Düşünürəm ki, Strategiyanın Fəaliyyət Planı bu yaxınlarda təsdiq olunduqdan sonra bu mühüm sənəddə nəzərdə tutulan bütün tədbirlərin ardıcıl olaraq həyata keçirilməsi işinə başlanacaqdır.

Bu da tarixi reallıqdır ki, «**Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası**»nın hazırlanmasında ümummilli lider Heydər Əliyevin təhsil quruculuğu ilə bağlı ölməz ideyaları əsas mənbə kimi götürülmüş, qabaqcıl dünya təcrübəsi nəzərə alınmışdır.

Azərbaycanda təhsil quruculuğu konsepsiyasının ideya müəllifi, ümummilli lider Heydər Əliyevin haqq dünyasına qovuşmasından bizi 11 illik bir zaman kəsiyi ayırsa da, bu dahi şəxsiyyətin ideyaları bu gün də yaşayır və qalib gəlir. Heydər Əliyev bizim qəlbimizdə, əməllərimizdə yaşayır. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin dediyi kimi, «**Azərbaycanda müasir, demokratik, hüquqi və dünyəvi dövlət quruculuğu, vətəndaş cəmiyyə-**

**tinin təşəkkülü, milli-mənəvi dəyərlərə qayıdış və elmin, təhsilin, mədəniyyətin inkişafı əbədi surətdə Heydər Əliyevin adı ilə bağlıdır... Heydər Əliyev öz siyasi dühası ilə Azərbaycanın müasir simasını müəyyənləşdirmiş və xalqımızın taleyində silinməz izlər qoymuşdur...»**

Təhsil Nazirliyinin təşkilatçılığı və Heydər Əliyev Fondu, Yeni Azərbaycan Partiyası, Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin dəstəyi ilə keçirilən birgə layihə kimi, ümummilli lider Heydər Əliyevin anadan olmasının 91-ci ildönümünə həsr olunan bilik yarışının qaliblərinin inşa yazıları toplanan **«Heydər Əliyev məktəblilərin gözü ilə»** kitabının uşaq və gənclərimizin dövlətçilik və Vətənə sədaqət ruhunda tərbiyə olunmasında önəmli rol oynayacağına qəlbən inanırıq. Məktəblilərin yaradıcılıq məhsulu olan bu kitabı Ümummilli Liderin əziz xatirəsinə və müqəddəs ruhuna ithaf edirik!

**MİKAYIL CABBAROV,**
**Azərbaycan Respublikasının**
**təhsil naziri**

**Bakı şəhəri, 25 aprel 2014-cü il**





## *Abbasova Ləman Afiq qızı*

***Şuşa şəhəri, 9 nömrəli***
***tam orta məktəbin IX sinif şagirdi***

Əziz oxucum, məni sizinlə görüşdürən, həmsöhbət edən bu yazımın hər sözü, hər cümləsi Ulu Öndərə minnətdarlıq dolu bir ürəyin döyüntüləridir. Mən Heydər babaya olan sonsuz sevgimi bütün ruhum və qəlbimlə sizlərə çatdırmaq istəyirəm.

Azərbaycanın işıqlı əbədiyyəti olan Heydər Əlirza oğlu Əliyevdən bəhs etmək mənim üçün böyük şərəfdir! Bu şərəfə nail olduğum üçün özümü dünyanın ən xoşbəxt insanı sayıram. Ürəyimdə xoş duyğular oyanır.

Daim vətəninin qayğısını çəkmiş, şöhrətini uca tutmuş, onun toxunulmazlığı uğrunda fədakarcasına mübarizə aparmış Heydər babanın zəngin həyat yolundan, dövlətçilik fəaliyyətindən ən layiqli şəkildə bəhs etməyə çalışıram. Bunun üçün ürəyimin sevgisini köçürürəm sətirlərə...

Mən Heydər babanı lap kiçik yaşlarımdan tanıyıram. Anam kitabda şəkillərini göstərib onu tanıdardı mənə: «Bax, böyük babamız, xilaskarımızdır. Həmişə bizə kömək edib, bizi sevindirib...»

Heydər babaya sevgi, minnətdarlıq hissi hələ kiçik yaşlarımdan anamın qanadlı sözləri ilə qəlbimə süzülür, ruhuma hopurdu. Həmişə düşünürəm, anamın böyük məhəbbətlə anlatdığı Heydər baba dünyası mənim ruhumla «oxuduğum», körpə qəlbimlə məftun olduğum ilk və ən müqəddəs «kitab» idi.

Böyüdükcə məktəbdə müəllimlərimdən və kitablardan Ulu Öndər haqqında daha çox məlumat əldə etdim. Heyrətləndim, qibtə etdim, qürur duydum.

Heydər babanın ömür yolu, fəaliyyəti zəngin bir dünyadır. Müqəddəs arzular, amallar dünyası. Mənim gənc qəlbimi sevindirən, fərəhləndirən dünya. Bahar nəfəsli dünya...

...1923-cü il may ayının 10-u. Bir dahi doğulub gəldi dünyaya. 91 il öncə baharda Azərbaycan tarixinin baharı doğuldu.

*Naxçıvanda doğuldu*
*23-ün mayında.*
*Güllü bahar fəslinin*
*Ən işıqlı ayında.*
*Anası İzzət xanım,*
*Atası Əlirza,*
*Şükürlər oxudular,*
*Onlara oğul verən,*
*Tanrıya, İlahiyə,*
*Bu bahara, bu yaza.*

Bir zamanlar ata-anası şükür etmişdi Tanrıya. İndi isə 50 milyonluq Azərbaycan xalqı Tanrıya şükür edir ki, o Baharı, o Günəşi bizim yurdumuza bəxş edib.

Heydər baba Tanrının elçisi idi. XX əsrdə xalqımızı qaranlıqlardan aydınlıqlara çıxarmaq üçün göndərilmiş bir elçi. Onda səmavi bir qüdrət vardı... Bu qüdrəti onun günəş gözlərinə baxan kimi hiss olunurdu.

Tarixdən məlumdur ki, Heydər Əliyevin gənclik illəri Azərbaycan tarixinin ən çətin dövrünə təsadüf edib. Coşqun vətənpərvər ürəyə sahib olan gənc Heydər tarixin o təlatümlü illərində mükəmməl təhsil alaraq, Vətən üçün, xalq üçün çalışmağa başlamışdır.

Ulu Öndər əmək fəaliyyətinə başladığı ilk günlərdən böyük zəkası, idarəçilik bacarığı ilə vəzifəsindən irəli gələn bütün işləri uğurla yerinə yetirmiş və buna görə də ölkə rəhbərliyi tərəfindən ən məsul vəzifələrə təyin olunmuşdur.

Hələ sovetlər dönəmində Dahi Rəhbər Azərbaycanı böyük inkişaf yoluna istiqamətləndirmiş, ölkəmizdə nailiyyətlər bir-birini əvəz etmiş, Azərbaycan qüdrətli respublikaya çevrilmişdir.

Heydər Əliyevin Azərbaycan Respublikası rəhbərliyindən uzaqlaşdığı vaxtlar da olub. Bax o dönəmlərdə xalqımız ağır tarixi sınaqlar qarşısında qalıb...

90-cı illərin əvvəlləri. Bu, Azərbaycan tarixinin ən ağır dövrüdür. O zamanlar respublikamıza Heydər baba başçılıq etmirdi. Hakimiyyətin səriştəsiz adamların əlində olması, Ermənistanın torpaqlarımıza təcavüzü, daxili siyasi çəkişmələr, iqtisadi böhran xalqı çıxılmaz vəziyyətə salmışdı. Xalq ehtiyac içində boğulur, cəbhədə uğursuzluqlar, faciələr bir-birini əvəz edir, itkilərimiz çoxalır, taleyin ümidinə buraxılmış Qarabağ xarabazara çevrilirdi.



Valideynlərim Heydər Əliyevsiz Azərbaycanın ürək ağrıdan mənzərəsini görüblər. O dövrün fırtınalarının ruhlarında buraxdığı izlər bu gün belə gözlərinin dərinliklərində görünməkdədir. Onlar gəncliklərini yaşamayıblar. İtkilərin, təlaşın, tənəzzülün girdabında sürüklənib gəncikləri...

O çətin illərin şahidi olan atam, anam, müəllimlərim deyir: «O zaman Azərbaycana Heydər baba başçılıq etsəydi, xalqımızın başına heç bir müsibət gəlməzdi».

Bu, əslində, bütün Azərbaycan xalqının inancıdır. 1993-cü ildə amansız fırtınaların burulğanında çırpınan xalqımız bu inancla hərəkət etdi. Yeganə ümidi, pənahı olan Heydər Əliyevi Naxçıvandan Bakıya köməyə çağırdı. Vətəninin taleyi üçün narahat olan Milli Xilaskarımız xalqının harayına yetişdi. Bu, tariximizdə uğurlarla dolu yeni bir mərhələnin başlanğıcı oldu.

Azərbaycanı çətin vəziyyətdən çıxarmaq üçün Ulu Öndər gecəsini gündüzünə qatıb fədakarcasına çalışdı. Vətənini, xalqını xilas etmək üçün o, ölümündən qorxmayaraq birbaşa Gəncə şəhərinə qiyamçıların qərargahına belə getdi. Çıxdığı müqəddəs yolda çox çətinliklərlə rastlaşdı. Parlaq zəkası, siyasi qüdrəti və böyük fədakarlığı nəticəsində qardaş qırğınının qarşısını aldı. Azərbaycanı parçalanmaq təhlükəsindən xilas etdi, cəbhədə atəşkəsə nail oldu. Ermənistan Azərbaycan müharibəsini sülh yolu ilə həll etmək və dinc quruculuq üçün imkan yaratdı. 1994-cü ildə «Əsrin müqaviləsi» adlanan neft müqaviləsi imzalandı. Az bir vaxtda bu müqavilə öz töhfəsini verdi. Azərbaycan inkişaf etməkdə olan iqtisadiyyatı və ardıcıl xarici siyasəti olan müstəqil bir ölkəyə çevrildi. Xalqın rifah halı yaxşılaşdı. Kəndlərin, qəsəbələrin, şəhərlərin mənzərəsi dəyişdi.

Azf-281560

Dünyanın nüfuzlu dövlətlərinə səfərləri zamanı Milli Xilaskarımız Qarabağ həqiqətlərini dünyaya çatdırdı.

Heydər baba ümumxalq həmrəyliyini təmin etdi. Hamının olan, işığından hamıya pay düşən bir dünya yaratdı.

Ulu Öndər sovetlər dönəmində və müstəqillik illərində – 34 il Azərbaycana rəhbərlik etdi. Mən mübaliğəsiz deyə bilərəm ki, bu 34 il Azərbaycan tarixinin qızıl dövrüdür.

Ömrünü Vətən, xalq yolunda şam kimi əridən, tariximizə parlaq səhifələr bəxş edən Ulu Öndər bizim qürur mənbəyimiz, milli iftixarımızdır.

Heydər baba vətən övladlarının təhsilli olmasına, milli təhsilimizin inkişafına böyük qayğı və diqqətlə yanaşırdı. O istəyirdi ki, gənc nəsil təhsilli və mənəviyyatca pak olsun. Mərdlik, əməksevərlik, vətənpərvərlik bütün gənclərin ruhunda kök salsın. Biz gənclər bu istəyi doğrultmalıyıq. Bu bizim mənəvi borcumuzdur.

M.F.Axundov adına
Azərbaycan Milli
Kitabxanası

Biz Heydər Əliyev dövrünün – qızıl dövrün uşaqlarıyıq, yetişdirdiyi gənclərik. Gözümüzü açandan, dünyanı dərk edəndən ölkəmizi gülüstan görmüşük. Çətin dövrdə yaşamamışıq, məhrumiyyət görməmişik.

Məhz Heydər babanın sayəsində bizim uşaqlığımız fərəhli keçdi. Biz güllələrin yuxudan oyatdığı, yuxusunu göz yaşları yuyan, qorxunun, təlaşın küskünləşdirdiyi uşaqlar olmadıq.

Məhz Heydər babanın bizim üçün yaratdığı bu dünyada biz gələcəyə inamla addımlayan, sevinən, qürurlanan, güvənən gəncliyimizi yaşayırıq. Bunun üçün o dahi şəxsiyyətin ruhu qarşısında baş əyirəm!

Bu gün biz gənclər Heydər Əliyev siyasətinin uğurlu davamçısı Prezident İlham Əliyevin ətrafında sıx birləşərək, inamla gələcəyə addımlayır, Heydər babanın bizə etibar etdiyi qüdrətli Azərbaycana öz töhfələrimizi verməyə çalışırıq.

Üzü baharayıq... Hər il olduğu kimi, bu il də Heydər babanın doğum günü – may ayının 10-u ölkəmizdə təntənəli şəkildə qeyd olunacaq. Ürəyi minnətdarlıq hissi ilə döyünən milyonlarla insan Ən Böyük Azərbaycanlıya hörmət və ehtiramını bildirmək, onun abidəsini ziyarət etmək üçün Fəxri xiyabana axın edəcək.

Mən də hər il ailəmlə birlikdə Heydər babanın abidəsini ziyarət edirəm. Çiçək dəstələri düzürəm abidənin önünə. O müqəddəs məkanda ürəyimdə Şuşa həsrətli bir arzu baş qaldırır.

Mən şuşalıyam. Şuşa zirvədir! Şuşa cənnətdir! Şuşada dünyanın ən nadir çiçəkləri bitir. Mən arzu edirəm ki, Şuşa işğaldan azad olunsun, mən də Şuşada bitən cənnət çiçəklərindən bir dəstə bağlayıb, o zirvədən bu zirvəyə ərməğan gətirim.

Ən Böyük Azərbaycanlının ruhu, uyuduğu müqəddəs məkan Şuşa çiçəklərinin ətrinə bürünsün. Həm Heydər babanın Qarabağdakı nigaran ruhu, həm də mənim Şuşa həsrətli ürəyim dincəlsin. İnşallah, tezliklə bu arzum yerinə yetəcək.

Bu il Ulu Öndərin 91 illik yubileyi qeyd olunacaq. Ölkəmiz gül yağışına tutulacaq. Xalqımız Milli Xilaskarının doğum gününü yenə də ən layiqli şəkildə qeyd edəcək.

*Sən gəldin ki, bu torpağa*
*Millətimiz nicat tapa.*
*Axı necə deməyim ki,*
*Sən günəşsən, Heydər baba!*





## Bəhramlı İradə Fəxri qızı

*Xocalı şəhəri, 4 nömrəli*
*tam orta məktəbin XI sinif şagirdi*

Türk dünyasının ana kitabı adlandırılan «Kitabi-Dədə Qorqud» eposunda belə bir misra var:

*Gəlimli-gedimli dünya,*
*Son ucu ölümlü dünya.*

Bu gəlimli-gedimli dünyada Tanrı hər kəsə bir ömür payı vermişdir. Elə insanlar var ki, ölümündən sonra bir nöqtə kimi kiçilir, yaddaşlardan silinir, yox olur. Elə insanlar da var ki, yaddaşlara əbədi həkk olunur, illər keçsə də, unudulmur, yoxluğu hər zaman hiss olunur, xatirələrdə yaşayır, ürəklərdə özlərinə əbədi məskən qururlar. Belə insanların ömürləri günlərlə, aylarla, illərlə deyil, müqəddəs əməlləri ilə ölçülür. Belə şəxsiyyətlər nəinki yaşadığı dövrdə şöhrət qazanır, həm də gələcək neçə yüzilliklərə işıq salır, cəmiyyətin inkişaf istiqamətini müəyyən edir.

Türk dünyasının tarixi simalarından biri olan Mustafa Kamal Atatürkün belə bir məşhur kəlamı var: «Ən böyük şəxslər özündən çox mənsub olduğu cəmiyyəti düşünən, onun varlığının və xoşbəxtliyinin qorunması yolunda həyatını verən insanlardır». Belə şəxsiyyətlərdən biri də Ulu Tanrının Azərbaycan xalqına hədiyyəsi olan Heydər Əliyevdir.

Belə bir deyim var: «Min qəddi əyən mənəvi yük bir çiyinə düşdükdə dahilik yaranır». Tarix belə dühaları tez-tez yetişdirmir. Zaman-zaman yurdumuzun çətin dövrlərində Tanrı xalqımıza Koroğlu, Babək, Şah İsmayıl, Xətai kimi igid, qəhrəman oğullar bəxş etmişdir. Bu qəhrəmanlar bir neçə əsr bundan əvvəl yaşamışlar. Ötən əsrin ən böyük şəxsiyyəti isə xalqımızın çətin dövrlərində arxası, dayağı, xilaskarı olan Heydər Əliyev olmuşdur.

Ulu Tanrının bizə bəxş etdiyi cənnət guşə doqquz iqlimli, yerinin altı da, üstü də sərvətlərlə zəngin olan Odlar diyarı Azərbaycandır. Yaradanın

bu bölgüsünü gözləri götürməyən xain xislətli insanlar zaman-zaman bu gözəlliyi, bu sərvəti əlimizdən almağa çalışdılar. Zənginliyi və gözəlliyi başına bəla oldu xalqımın diyarının. Ata-baba yurdumuz parça-parça qoparılaraq düşmənlərin əlinə keçdi zaman-zaman.

Mən Xocalı sakini olduğum üçün müxtəlif dövrlərdə işğallara məruz qalan Azərbaycanımın başına gətirilən ən son fəlakətlərdən bəhs etmək istəyirəm.

1990–1993-cü illəri bir anlıq xatırlayaq. Bu elə bir müdhiş çağ idi ki, əzəli düşmənlərimiz olan xain ermənilər rus havadarları ilə birlikdə Azərbaycanın cənnət guşəsi olan Qarabağı ələ keçirmək üçün hər cür vəhşiliklərə əl atırdı. Hər gün cəbhədən bir yaşayış məskənimizin mənfur düşmənlərimiz tərəfindən işğal olunması haqqında xəbərlər gəlirdi. Sanki bütün bunların kürsü davasına başı qarışmış o dövrkü rəhbərlərə heç bir dəxli yox idi. Onların düşündüyü ancaq kürsü və sərvət idi. Xalq başsız qalmışdı. Bütün bunların nəticəsində, 1992-ci il fevralın 25-dən 26-na keçən gecə ötən əsrin ən dəhşətli soyqırımı olan Xocalı faciəsi baş verdi. Erməni qaniçənləri rus havadarlarının köməyi ilə qədim yaşayış məskəni olan Xocalını işğal etdi, yüzlərlə günahsız uşağı, qadını, qocanı, cavanı vəhşicəsinə qətlə yetirdi. O dəhşətdən sağ qurtulmağı bacarmış dinc sakinlər isə öz yaxınlarını itirməklə bərabər, doğma yurd-yuvalarını, evlərini tərk etmək məcburiyyətində qaldılar, ən utanc ad olan «qaçqın», «köçkün» adı istəmədən adlarının qarşısına həkk olundu.

Mən Xocalı faciəsinin bütün ağrı-acısını öz həyatında yaşamış bir ailədə dünyaya göz açmışam. Uşaqlığım digər uşaqlar kimi keçmədi. Çünki valideynlərimin doğma yurd, Vətən həsrətini görərkən xoşbəxt uşaqlıq keçirə bilməzdim. Faciədən 22 il ötməsinə baxmayaraq, hələ də bir çox yaxınlarımızın nə öldüsündən, nə də qaldısından xəbərimiz yoxdur. Nəslimizdə iki milli qəhrəman – Əlif Hacıyev və Ələsgər Novruzov öz canlarını doğma Vətənimizin müdafiəsi uğrunda qurban verdi. Hər iki babam öz yaxınlarının itkisinə dözməyib vəfat etdi. Atam erməni vəhşilərinin müvəqqəti məskunlaşdığımız Aşağı Ağcakənd qəsəbəsinə atıb qaçdıqları hərbi sursatın partlaması nəticəsində dünyasını dəyişdi. Amansız müharibə bizim qəlbimizdə dərin yaralar buraxdı.

Hər dəfə o dəhşətli günlərdən söhbət gedərkən bir xilaskar kimi Heydər babam yada düşür, anılır. Çünki o çətin dövrlərdə insanların yaşamaq inamı ölmüşdü. Artıq heç kim gələcəyə ümid bağlamırdı. Belə bir çətin dövrdə hər kəsin gözləri tək bir insanı axtarırdı. Xalq imdad dolu bir harayla «Heydər baba! Xalqı bu bəladan xilas et!» – deyərək hayqırdı,



inadla və israrla onun hakimiyyətə qayıtmasını tələb etdi. Ölkəmizi daxildən də parçalamağa çalışan bir qrup mənfur insanlar hər vasitə ilə Ulu Öndərin hakimiyyətə qayıtmasına mane olmaq istəyirdilər. Lakin bir yumruq kimi birləşən xalqımız yeganə çıxış yolunu Heydər Əliyev zəkasının nurunda gördü. Çünki məhz xalqımızın belə çətin dövründə zorla Vətənindən uzaqlaşdırılan dahi şəxsiyyət bir xilaskar kimi geri döndü, öz həmvətənlərinə arxa, dayaq oldu.

*Qorquda bənzətdi «Dədə» – deyənlər,*
*Kimi «Ata» – dedi, kimi «Ər» – dedi.*
*Ata-bala kimi qucaqlaşdılar.*
*Heydər: «Xalq» – deyəndə,*
*Xalq: «Heydər» – dedi.*

Sokratın belə bir kəlamı var: «Dahilərin həyatı müzakirə olunmaz, öyrənilər». Heydər Əliyevin də keşməkeşli həyat yolu bütöv bir epopeyanın canlı salnaməsidir. Onun şəxsiyyəti hələ öyrənilməmiş bir dünyadır. Xalqımıza xas olan ən yaxşı xüsusiyyətlər – bilik, ağıl, savad, müdriklik, uzaqgörənlik bu dahi şəxsiyyətin xarakterində öz təcəssümünü tapmışdı. O hamı kimi dünyaya göz açdı, hamı kimi böyüdü, amma hamı kimi yaşamadı. Bu keşməkeşli həyatda yalnız iki şeyi – Vətənini və xalqını düşündü, öz həyatını dəfələrlə təhlükələr qarşısında qoyaraq Vətəni üçün mübarizə apardı.

Dahi şairimiz Hüseyn Cavid demişdir:

*Kəssə hər kim tökülən qan izini,*
*Qurtaran dahi odur yer üzünü.*

Dahi Heydər Əliyevdir. Çünki məhz o, tökülən qan izini kəsdi, atəşkəs elan etdi, cəbhədən gələn tabut karvanının sayı azaldı.

Onun hakimiyyətə gəlişi ilə Azərbaycan çiçəklənmə dövrünü yaşadı və indi də qoyduğu təməl nəticəsində yaşayır, inkişaf edir. Dahi rəhbərin şəxsiyyəti də, fəaliyyəti də Azərbaycan tarixinin ayrılmaz bir hissəsidir. Ulu Öndər hakimiyyəti zamanı dəyəri adi sözlərlə ölçülməyən, bir insan ömrünə sığmayan nəhəng işlər gördü. 1994-cü il oktyabr, 1995-ci il mart aylarında dövlət çevrilişinin, qardaş qırğınının qarşısını aldı, ölkəmizi parçalanmaq təhlükəsindən qurtardı.

Heydər Əliyev dünyanın nadir, unikal, sayılıb-seçilən siyasi xadimi idi. O, dünya siyasətinə təsir etmək gücünə malik olan bir lider idi. Liderlər

var ki, siyasi fəaliyyəti ilə, idarəetmə sahəsində uzun illər çalışıb püxtələşdikdən sonra tanınırlar. Elə adamlar da var ki, bu qabiliyyət onlarda fitrən mövcuddur, genlərində kodlaşıb, bir sözlə, İlahi vergisidir. Buna Lider deyirlər. Heydər Əliyev də məhz belə liderlərdəndir. O sanki siyasət üçün yaradılmışdı. Təkcə bir ölkə miqyasında deyil, dünya əhəmiyyətli bir sıra məsələlərin həllində də öz sözünü qətiyyətlə deməyi bacarırdı. Bir zamanlar Azərbaycan adlı bir ölkənin mövcudluğunu belə bilməyən bir çox hegemon dövlətlər məhz onun uzaqgörən siyasəti nəticəsində bu gün bir çox məsələlərin həllində ölkəmizlə hesablaşmaq məcburiyyətində qalırlar.

Onun siyasətinin əsası milli maraqlarımız üzərində qurulmuşdu və Avropaya inteqrasiya yolu ilə irəliləməyi düşünürdü. Hakimiyyətdə olduğu müddətdə dünyanın 15 ölkəsinin 33 şirkəti ilə 21 neft sazişi imzaladı. Məhz onun uzaqgörən siyasəti nəticəsində ölkəmizə xarici sərmayədarların axını başladı. Memarı olduğu və tarixə «Əsrin müqaviləsi» kimi daxil olmuş neft müqavilələrinin imzalanması, Bakı–Tbilisi–Ceyhan neft kəməri və Bakı–Tbilisi–Ərzurum qaz kəmərinin çəkilişi bu böyük insanın qətiyyətli mövqeyinin, uzaqgörənliyinin nəticəsi kimi reallığa çevrildi.

Heydər Əliyev uzaqgörən siyasətçi kimi nəyi nə zaman deməyi, hansı addımı nə vaxt atmağı zərgər dəqiqliyi ilə bacarırdı. Ulu Öndər qeyd edirdi ki, biz nazik bir sapın üstü ilə gedirik. Odur ki, bu siyasəti o qədər ağılla, o qədər məharətlə aparmalıyıq ki, Azərbaycanın milli mənafeləri müdafiə olunsun.

Dahi şəxsiyyətin başqa bir xüsusiyyəti də hər kəsi öz dili ilə danışdıra bilmək məharətinin olması idi. Məhz bu nəcib, ali insani keyfiyyətlər onu hər kəsin sevimlisinə çevirmişdi. Kiçiklərin «Heydər baba», böyüklərin «Heydər ata» adlandırdıqları bu dahi şəxs yüksək intellektual qabiliyyəti və nəcib xüsusiyyətləri ilə nəinki ölkəmizdə, başqa ölkələrdə də onu tanıyanların sevimlisinə çevrilmiş, yaddaşlara əvəzolunmaz lider kimi həkk olunmuşdur.

«Siyasət üçün doğulmuşlar siyasətdən əl çəksələr də, siyasət onlardan əl çəkmir» deyimi məhz Heydər Əliyevə aid edilə bilər. Xalqımızın qarşısında duran problemləri uzaqgörənliyi ilə həll edən dahi Lider öz xilaskarlıq missiyasını son nəfəsinə kimi yüksək səviyyədə həyata keçirdi.

Heydər Əliyev Azərbaycan üçün yaşadı, Azərbaycanla yaşadı, Azərbaycanı yaşatdı.

O, Azərbaycanın gələcək inkişaf yolunda gənclərə böyük ümid bağlayırdı və hər an onlara dəstək olurdu.

«Azərbaycanın dövlət müstəqilliyi əbədi, sarsılmaz olacaq və Azərbaycanın bugünkü gənc nəsli gələcək Azərbaycanı daha da yüksəklərə



qaldıracaq». Bu fikrin müəllifi olan dahi şəxsiyyət öz arzusunu həyata keçirmək üçün yüzlərlə gəncimizi müxtəlif ölkələrə təhsil almağa göndərdi. Bu gün ölkəmizdə və xaricdə öz sözünü deməyi bacaran, ölkəmizin adını yüksəklərə qaldıran həmin gənclər milli, savadlı kadrlar kimi yetişərək müxtəlif sahələrdə xalqımıza layiqincə xidmət edirlər.

2003-cü il 12 dekabr türk dünyasının ən kədərli günlərindən biri oldu. Bütün dünyanın dahi şəxsiyyəti, bizimsə Heydər babamız gözlərini əbədi yumdu. Axirətə gedən yol bu dünyadan başlanar. Heydər babam da axirətini bu dünyada qazandı, saysız-hesabsız müqəddəs əməlləri köç etdiyi dünyaya nur saçacaq.

Yaratdığı, qurduğu Azərbaycanı etibarlı əllərdədir.

Bu gün prezidentimiz İlham Əliyevin fəaliyyəti nəticəsində Vətənimiz daha da inkişaf edir, gözəlləşir. O, Heydər Əliyev siyasətini layiqincə davam etdirir.

Gündən-günə gözəlləşən Azərbaycanı seyr edərkən belə bir fikir keçir ağlımdan: «Rahat uyu, Heydər babam. Oğlun siyasətini layiqincə davam etdirir, bizə qoyduğun əmanətə öz canı bahasına sahib çıxır».

Milli, tarixi abidələrimizə dəyər verən, milli musiqimizi sevən bir şəxsiyyət idi Ulu Öndər. Onun bu xüsusiyyətlərini indi UNESCO və İSESCO-nun xoşməramlı səfiri, ölkəmizin birinci xanımı, dahi liderin adını daşıyan fondun prezidenti Mehriban xanım Əliyeva layiqincə davam etdirir. Onun fəaliyyəti yalnız Vətənimizin inkişafı ilə məhdudlaşmır. Onun sayəsində milli-mədəni sərvətimiz olan muğam dünya inciləri sırasına daxil edildi. O, təkcə ölkəmizdə deyil, bir çox ölkələrdə də xeyriyyəçilik tədbirləri həyata keçirdi.

Heydər Əliyev ocağının daha bir qığılcımı, babasını çox sevən, ona şeirlər həsr edən, babasının adını daşıyan fondun vitse-prezidenti Leyla Əliyeva da bu nəsli layiqincə davam etdirir. Onun sayəsində Xocalı faciəsi bütün dünyada tanıdıldı.

Qədirbilən xalqımız Heydər Əliyevin vətəni üçün, bizim üçün gördüyü işləri heç vaxt unutmayacaq. Zamanın əsdiyi sərt külək dahi şəxsiyyətin qranitdən yonulmuş heykəlinə necə təsir etmirsə, onun fəaliyyəti də həmişə qəlbimizdən çıxmayacaq, Azərbaycan var olduğu müddətdə hər kəsin yaddaşına əbədi həkk olunacaq, unudulmayacaq!



## *Əliyeva Nigar Ramiz qızı*

***Bakı şəhəri, S.C.Pişəvəri adına Humanitar Fənlər Gimnaziyasının VIII sinif şagirdi***

*Fikirlər içində çırpınır könlüm,*
*Gedən yer üzünə bir daha gəlmir.*
*Həyatdan hamını ayıran ölüm*
*Yalnız dahilərə toxuna bilmir.*

**X.R.Ulutürk**

Həyat! Bu sözün mənası nə qədər dərin, nə qədər sirli və müəmmalıdır. Ulu Tanrı bizi elə xəlq edib ki, nə cismən, nə də ruhən bir-birimizə bənzəmirik. Düşüncələrimiz fərqli olduğu kimi, görünüşümüz də fərqli, hislərimiz kimi hiss etdiklərimiz də fərqlidir. Bu dünyada biz insanları birləşdirən cəhət qəlbimizin dərinliklərində gizlətdiyimiz sevgidir. Vətənə sevgidir. Bu müqəddəs hissi yalnız həyatı anlayan şəxslər duya bilər. Heydər Əlirza oğlu Əliyev kimi.

Bu insanla eyni soyadı daşıdığıma görə qürur hissi keçirirəm. Vətənə, ailəyə sadiq bir insana bənzəmək qürur hissi verməzmi? Ömrünü doğma xalqı üçün, yurdunun inkişafı yolunda sərf edən adamı unutmaq olarmı? Təbii ki, yox. Adını tarixə əbədi və əzəli həkk etdirmək hamıya nəsib olmur axı. Onun vətənə, ailəyə sadiq şəxs olması, qəlbində yaranan sevgi hissinin necə güclü olmasına işarədir.

Məni əsas maraqlandıran bu dahinin düşüncələri, həyata baxış nöqtəsidir. Görəsən, həyat onun üçün nə idi? Vətənə bağlılığı nəyə görə idi? Kaş ki, bu sualları ona vermək üçün əlimdə bircə şans olaydı.

Mən insanları çiçəyə bənzədirəm. Hər bir çiçəyin özünəməxsus rəngi, qoxusu var. Lakin istər-istəməz bu çiçəklərdən biri bizim gözümüzü daha çox oxşayır, bizim üçün daha çox sevimli olur. Yəqin ki, Heydər Əliyev də



valideynləri, müəllimləri üçün daha çox sevimli olub. Əlbəttə ki, bir dahinin duyğuları, düşüncələri hamı tərəfindən eyni qarşılanmır. Ətrafdakıların bəzisi üçün onun arzuları bir körpənin əlini səmaya uzadaraq ulduza toxunmaq arzusuna bənzəyir.

Bu şəxsi nə çətinlik, nə də məğlubiyyət qorxudurdu. Sadə bir ailənin övladı kimi dünyaya gələn Heydər Əliyev, əslində, bunu sübut etdi ki, həyatda hər şey insanın öz əlindədir. O, xalqına, yurduna xidmət etməyi, övladlarını vətənpərvər ruhda böyütməyi özünə mənəvi borc bilirdi.

«Həyat bir sınaqdır» deyirlər. Kimi bu sınaqdan qalib kimi, kimi isə məğlub kimi çıxır. Bunu anlamayan insan heç vaxt qalib gələ bilməz. Heydər Əliyevi məğlubedilməz edən, bəlkə də, budur. Onun bir dahi qurucu kimi yetişməsində valideynlərinin, müəllimlərinin də böyük əməyi olmuşdur.

Yağışdan sonra günəş öz isti şəfəqləri ilə torpağı qızdırır. Bu, həyatın qanunudur. Sanki Tanrı Heydər Əliyevi məhz Azərbaycanı yaratmaq, öz isti şəfəqləri ilə yurduna işıq saçmaq üçün göndərmişdi. Səmamızda görünən bu günəş Azərbaycan xalqını neçə-neçə müsibət və bəlalardan qoruyub. Bu günəşin istisi xalqa rahatlıq vermiş, mənfurlara isə göz dağı çəkmişdir.

Onun həyatda ən böyük dəstəyi xalqı və ömür-gün yoldaşı Zərifə xanım olmuşdur. Yəqin ki, Heydər Əliyev bu dəstəklərdən ilhamlanaraq xalqı ilə bağlı olan arzularını daha cəsarətlə həyata keçirirdi.

«Azərbaycan» adlı gəminin sükançısı, nə yaxşı ki, Heydər Əliyev olmuşdur. Bu gəminin sükanı səriştəsiz, siyasi cəhətdən savadsız, məntiqi cəhətdən kasad insanın əlinə keçsəydi, bu gəmi coşqun dalğaların qoynunda istiqaməti bəlli olmayan ümmanlara çarpar, sərnişinlərini isə intəhasız ümmanlarda azdırardı.

Heydər Əliyev uşaqlarla, gənclərlə tez-tez görüşərdi. Qayğısını, sevgisini onlardan əsirgəməzdi. Simasındakı saflıq, mehribanlıq onun daxili dünyasından xəbər verərdi. Baxışlarından duyulan sevgi hissi onu hamıya sevdirərdi. Heydər Əliyevin fikrincə, Azərbaycanın gələcəyi istedadlı gənclərin əlindədir. Buna görə də Heydər Əliyev təhsilin inkişafı üçün yeni məktəblər açmış, savadlı kadrların, ağıllı gənclərin yetişdirilməsini ön plana çəkmişdir.

Mən də bu gün Heydər adlı Günəşin şəfəqlərindən bəhrələnən Azərbaycan övladıyam. Sözün əsl mənasında, Heydərçiyəm. Doğrudur, bu insanla üzbəüz söhbət etmək mənə müəssər olmasa da, onun gənclərə söylədiyi nəsihətlərdən faydalanaraq, bu nəsihətlərin nəinki mənim, hətta

bütün Azərbaycan gəncliyinin həyat yolunda bir mayak kimi işıq saçacağına inanır və ümid edirəm.

Dağdan uzaqlaşdıqca onun əzəməti aydın hiss olunduğu kimi, zaman bizləri Heydər Əliyevdən ayırdıqca Azərbaycan xalqı bu dahinin əzəmətini, ucalığını daha aydın hiss edir.

Xalqımız xoşbəxtdir ki, onun – Ulu Öndərin yolunu uğurla davam etdirən İlham Əliyev kimi dövlət başçısı var. Bu yol Azərbaycanı işıqlı, firavan sabahlara aparır. Mən öz təhsilim və nümunəvi şagird olmaq idealımla gələcəkdə bu yolun inkişafında əməyim olacağına inanır və buna ümid edirəm. Mən bu diyarın işıqlı sabahına inanıram.

*Dayanın, dinləyin sizə sözüm var,*
*Siz ey gələcəyə gedən yolçular!*
*Mənim sözlərimin bir mənası var,*
*Heydər dastanından İlham alanda,*
*Vətən tarixinə nəzər salanda,*
*Xalqını şad görüb sevinəndə siz*
*Məni aranızda hesab edərsiz.*





## Əlixanlı Fəridə Rahim qızı

***Bakı şəhəri, 281 nömrəli tam orta məktəbin IX sinif şagirdi***

Onu zaman seçib! Zaman isə nəhr kimidir. Çalxalanır, qabarır, sängiyir, yenidən kükrəyir, paklığına xələl gətirən nə varsa, onu amansız bir qüvvə ilə kənara atır. Faktlar, hadisələr ayların, illərin süzgəcindən, xəlbirindən keçdikcə zaman ən adil bir hökmdar kimi həqiqəti üzə çıxarır.

Müdriklik, qəhrəmanlıq, xalqın rifahı naminə yüksək fədakarlıq göstərmək və son həddə olaraq həyat zirvəsini fəth etmək kimi məziyyətlər hər kişidə deyil, ər kişidə, ulu insanda olur. Belə insanları isə tarix, zaman yüz ildə, min ildə bir yetirir və yaşadır.

Zaman XX yüzillikdə qədim Odlar Yurdu Azərbaycanda Heydər Əliyev deyilən bir ər kişi, ulu insan yaratdı. Hər şeyin bilicisi idi o. Sadəliyi, müdrikliyi, uzaqgörənliyi, cəsarəti, insanlara ilahi ünsiyyəti onu hamıya sevdirdi. Uzun illər qartal kimi qanadlarını Azərbaycanın üzərinə gərərək onun maraqlarını, qan və gen yaddaşını qorudu. Mərtəbə-mərtəbə ucaldı, şöhrəti bütün dünyaya yayıldı Heydər babamın.

Yetmiş il başqa millətlərin təsiri altında yaşamağa məhkum olunmuş Azərbaycan xalqı, onun «Odlar Yurdu» adlanan vətəni «olum» və ya «ölüm» dilemması qarşısında qaldıqda millət atası, istiqlaliyyət öndəri Heydər Əliyevi harayladı. O da hay verdi onların səsinə.

Yaşının çoxluğuna, səhhətindəki bir çox problemlərə baxmayaraq, özünü oda-közə vurub ömrünün qalan hissəsini də xalqın səadəti uğrunda mübarizəyə həsr etdi. Elə bu amal uğrunda da həyatını çırağa döndərdi qüdrətli şəxsiyyət. Nağıla, dastana, həqiqətdən yaranmış əfsanəyə döndü onun həyatı. Bayraq kimi, himn kimi, azadlıq kimi Azərbaycan xalqının atributuna çevrildi.

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev dahi insan, ölkəsinin layiqli vətəndaşı kimi misilsiz xidmətləri ilə tarixi şəxsiyyətlər sırasında öz zirvə və mövqeyinə yüksəlmişdir. Hər şəhərdə, hər kənddə, hər ailədə, hər insanda üzümüzə açılan yeni epoxaya, yeni dünyaya bir günəş kimi doğan Heydər Əliyev dühasına sığınmaq istəyi, ona pənah aparmaq ehtiyacı yaranmışdı.

Xalq bu zərurəti özünün yenilməz iradəsi ilə gerçəkləşdirdi. Böyük xilaskar 1993-cü ilin fəlakətli iyununda xüsusi təyyarə ilə Bakıya gətirilərək dövlətin ali kürsüsündə əyləşdirildi. Ulu Öndər cəsarətli xilaskar kimi xalqı, milləti məhv olmaq təhlükəsindən qurtardı. Gecəli-gündüzlü çalışdı, bəlaları, ağrıları, acıları bir-bir aradan götürdü.

Azərbaycan tarixinin taleyüklü hadisələrlə dolu 34 ildən artıq bir dövrü Heydər Əliyevin adı ilə bağlıdır. Bu dövr ərzində Ulu Öndər xalqı tarixin ən çətin sınaqlarından çıxararaq millətin ictimai-siyasi, iqtisadi, maddi-mənəvi tərəqqisinə nail olmuş qüdrətli şəxsiyyətdir.

1969–1982-ci illərdə həyatımızın bütün sahələrində baş vermiş köklü dəyişikliklər öz miqyasına görə Azərbaycanın quruculuq salnaməsində ən dolğun səhifələri təşkil edir. Ölkənin müstəqilliyinin və dünya iqtisadiyyatına dərin inteqrasiyası proseslərinin hazırkı möhkəm təməli Heydər Əliyevin həmin dövrdə yaratdığı potensiala əsaslanır.

Ümummilli Liderimizin idarəçilik istedadı, misilsiz işgüzarlığı və xalqın həyatında baş vermiş ən ekstremal vəziyyətlərin aradan qaldırılmasının bilavasitə iştirakçısı olması onu dövrünün ən nüfuzlu siyasi xadimlərindən birinə çevirmişdir.

Heydər Əliyev dövrünün ən ideoloji əsaslarını yaratmış, xalqı həqiqi müstəqilliyə qovuşduraraq ictimai şüurda əbədiyaşarlıq qazanmışdır. XX əsr tariximizin ən parlaq nümunəsi, qüdrətli şəxsiyyəti olan Heydər Əliyevin siyasi obrazı xalqın dövlətçilik ənənələrinin və tarixin sınağından çıxmış bütöv bir idarəçilik məktəbinin canlı mənzərəsidir.

Azərbaycan xalqının milli kimliyinin və özünəməxsusluğunun bariz təcəssümünə çevrilmiş mütərəqqi ənənələrin təkmil ideoloji konsepsiya halına gətirilməsi və müasir dövlət modelində reallaşdırılması Ulu Öndərin adi ilə qırılmaz tellərlə bağlıdır. Heydər Əliyevin bütün fəaliyyəti boyunca milli amil aparıcı xətt kimi özünü büruzə verir. Heydər Əliyev siyasi fəlsəfəsinə görə, milli amil xalqın potensialını hərəkətə gətirən, ona stimul verən təkmil mexanizmdir.

Heydər Əliyev Azərbaycan xalqının perspektiv inkişaf prioritetlərini düzgün müəyyənləşdirərək sivil Qərb dəyərlərinin tam mənimsənilməsinə, insan və vətəndaş hüquq və azadlıqlarının etibarlı təminatına daim xüsusi diqqətlə yanaşmışdır.



Ölkəmizdə mühüm təsisatların yaradılması, demokratik normalara əsaslanan beynəlxalq hüquqi dövlət quruculuğunun böyük vüsət alması, vətəndaş cəmiyyətinin formalaşdırılması və bu kimi proseslərin həlli şəxsən Heydər Əliyevin xidmətləridir.

Heydər Əliyev yalnız dövləti idarə edən rəhbər deyil, o həm də insanları ən ülvi ideallar ətrafında səfərbər edən siyasi xadim, müasir tariximizin memarı idi. Nəsirəddin Tusinin «Ən böyük rəhbər odur ki, ölkədəki insanlar ona inansın, onun ardınca getsin, onun bütün tədbirlərinə şərik olsun və ən əsası, onu özünə ata saysın», – fikri Ulu Öndərimizə xas olan yüksək, bəşəri keyfiyyətlərdəndir. Bu bəşəri keyfiyyətləri ilə tarixdə iz qoyan Heydər Əliyev üzərinə düşən «atalıq» missiyasının öhdəsindən layiqincə gələ bilmişdir.

Türkiyə Respublikasının banisi Mustafa Kamal Atatürkün məşhur bir deyimi vardır: «Xalqa əfəndilik etmirlər, xalqa xidmət edirlər. Yalnız xalqa xidmət edənlər xalqın əfəndisi səviyyəsinə yüksəlirlər». Bəli, amalı xalqına xidmət etmək olan, xalqı üçün quran, yaradan insanlar xoşbəxt insanlardır. Onlar xalqın taleyini müəyyən etmək məsuliyyətinin nə demək olduğunu anlayır, bu məsuliyyəti layiqincə daşıyır, həyatda xoşbəxtliyi yalnız gələcək nəslin şərəfi, varlığı, firavanlığı üçün yaşamaqda görürlər.

Xalqımızın həyatında elə bir sahə yoxdur ki, o sahədə Heydər Əliyevin əvəzsiz rolu olmasın. Gənc nəsil isə Heydər Əliyevdən, sözün əsl mənasında, «ata»lıq qayğısı görmüşdür. Gənclərin inkişafında, onların milli kadr kimi formalaşmasında dahi şəxsiyyət əlindən gələni əsirgəməmişdir. Şübhəsiz ki, Heydər Əliyevin həyat yolu bütün insanların, xüsusilə də biz gənclərin əsl həyat məktəbidir.

Heydər Əliyev gənclərə qayğı və sevgi göstərməklə yanaşı, həm də onların qarşısına müəyyən vəzifələr qoyaraq deyirdi: «Sizin əsas vəzifəniz özünüzü Azərbaycan Respublikasının inkişafına, yaşamasına və əbədiliyinə həsr etməkdən ibarət olmalıdır».

Səviyyəmizin yüksəlməsində əsas amillərdən biri də Heydər Əliyevin həyatı ilə tanışlıq və onun ədəbi irsinin öyrənilməsidir.

«Ana dilini bilməmək, ana dilini qiymətləndirməmək, şübhəsiz ki, xalq qarşısında böyük qəbahətdir», – deyən Heydər Əliyevin dil sahəsindəki tədbirləri danılmazdır. Dilin inkişafında, yüksəlişində, yüksək zirvələrə qalxaraq böyük nüfuz qazanmasında xalqın dahi oğullarının rolu böyükdür.

Belə siyasi xadimlərdən, dövlət rəhbərlərindən biri və bəlkə də, əvəzolunmazı Heydər Əliyevdir. Qüdrətli vətəndaş Azərbaycan dilini zirvələrə qaldıraraq ardıcıl dil siyasəti işləyib hazırlamış və onu bütün çətinliklərə sinə gərərək müvəffəqiyyətlə başa çatdırmışdır. Heydər Əliyev danışarkən bütün ruhu, düşüncəsi, emosiyası və daxili inamı ilə danışırdı. Bu qeyri-adi xüsusiyyət isə yalnız dünyanın natiq-mütəfəkkirlərinə xas olmuşdur. Dahi şəxsiyyətin bu qabiliyyəti söylədiyi kəlamlarda, aforizmlərdə özünü büruzə verir. Təsadüfi deyildi ki, bu kəlamlar biz gənclərin örnəyidir:

«Demokratik prinsiplər bu günümüzün və gələcəyimizin əsasını təşkil edir».

«Bir var ki, hər hansı bir əsəri özün oxuyasan, bir də var ki, onu canlı olaraq səhnədə görəsən. Buna görə də teatrın həyatımızda rolu böyükdür».

«Azərbaycan xalqı əyilməzdir, yenilməzdir, qəhrəmandır».

«Bu günə qədər çətin sınaqlardan keçmişəm və həyatımı özümə yox, xalqıma həsr etmişəm». «Hər bir alim dəyərlidir. Lakin nəzəriyyəni təcrübə ilə birləşdirən, tətbiq edə bilən və əməli nəticə çıxarmağı bacaranlar isə alimlər arasında xüsusi yer tutur».

«İnanıram ki, mənim başa çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev tamamlaya biləcəkdir. Ona özüm qədər güvənirəm və gələcəyinə böyük ümid bəsləyirəm».

**Heydər Əliyev**

Həqiqətən də, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev xalqımızın dahi oğlu Heydər Əliyevin demokratik, hüquqi və dünyəvi dövlət quruculuğu siyasətini uğurla davam etdirir.

Təsadüfi deyildir ki, dünyanın bir çox söz sərrafları, natiqləri, tanınmış insanları Heydər Əliyevin fəaliyyətini yüksək qiymətləndirmişlər:

«Heydər Əliyevin rəhbərliyi altında başlamış müştərək layihələr dost və qardaş dövlətimiz arasındakı münasibətləri daha da yaxınlaşdıraraq ölkələrimizin bir-biri ilə qırılmaz əlaqələrlə bağlandığını bir daha sübut etmişdir».

**Əhməd Necdət Sezər,**
*Türkiyə Respublikasının sabiq prezidenti*



«Belə cəsur və dahi şəxsiyyəti tanıyanlar onun nurlu xatirəsini daim qəlbində saxlayacaqdır».

**Boris Yeltsin,**
*Rusiya Federasiyasının sabiq prezidenti*

«Vətən birdir və hamı bu Vətən uğrunda çalışmalıdır», – deyən Heydər Əliyev həm adını tarixə yazdı, həm də adı ilə tarix yazdı. Elə bir tarix ki, illərlə yaddaşlardan silinməyəcək güclü bir tarix.



## *Niftəliyeva Ema Etibar qızı*

***Siyəzən şəhəri, 3 nömrəli tam orta məktəbin XI sinif şagirdi***

Cəmiyyət yarandığı ilk vaxtlardan tarixdə şəxsiyyətin rolunu aydınlaşdırmağa çalışmış mütəfəkkirlər, filosoflar, alimlər bu problemi həll etməyə cəhd göstərmişlər. Fikir müxtəlifliyinin genişliyinə baxmayaraq, sonda qənaət həmişə belə olmuşdur ki, güclü şəxsiyyətlər tarixin inkişafına güclü təsir göstərə bilir. Tarixi şəxsiyyətlər uzaqgörənliyə, müdrikliyə, intellektuallığa malik olmalıdır. Bir dövləti filosofları, mütəfəkkirləri, alimləri, mədəniyyət xadimləri ilə bərabər, tarixi şəxsiyyətləri də bütün dünyada məşhurlaşdırır. Siyasət elmi digər elm sahələrindən üstün olduğu üçün bir siyasətçi də digər şəxslərdən fitri istedadına görə fərqlənir. Dahilik səviyyəsinə çatmış hər bir insan Tanrının sevilmiş və seçilmiş bəndəsidir. Yoxsa heç bir şəxs deyilən bütün bu keyfiyyətləri qazana bilməz. Tarixi şəxsiyyətlər zaman keçdikcə daha da şöhrətlənir, onların öz xalqları üçün etdiyi xidmətləri daha çox nəzərə çarpır və onlar əməlləri ilə müqəddəslik səviyyəsinə, zirvəsinə ucalır.

XX əsr isə hətta sovet totalitar rejimində belə Azərbaycan Respublikası yalnız SSRİ məkanında deyil, bütün dünyada tanınan bir şəxsiyyət yetişdirdi. Bu şəxsiyyət elə bir şəxsiyyətdir ki, ikinci dəfə müstəqillik qazanan Azərbaycan dövlətini yer üzündən silinməyə qoymadı, dirçəltdi. Bu şəxsiyyət Heydər Əliyevdir. Heydər Əliyev elə bir vaxtda Azərbaycanın köməyinə çatdı ki, Azərbaycanın başının üstünü qara buludlar almışdı. Azərbaycana o vaxtlar elə bir insan lazım idi ki, onu bu qara buludların altından xilas etsin, parlaq günəşin şəfəqləri altında işıqlandırsın.

O vaxtlar Azərbaycanda insanlar qorxudan gecə bayıra çıxa bilmir, sabaha ümidsizliklə yaşayırdılar. Heydər Əliyev gəlib xalqı zamanın ağır



məngənəsindən xilas etdi və özü insanların qəlbində heç zaman sönməyən günəşə çevrildi.

O vaxtlar ermənilər Dağlıq Qarabağa olan iddialarını irəli sürə bilmirdilər. 1987–1988-ci illərdə ermənilərin ümidləri, iddiaları ürəklərində qaldı. Heydər Əliyev SSRİ Nazirlər Sovetinin sədrinin birinci müavini vəzifəsindən istefa verdikdən sonra ermənilərin əlləri, qolları açıldı. Separatçılıq baş alıb gedirdi. Həmin bu separatçılıq xalqın daxili və xarici stabilliyini pozdu. O zaman hakimiyyətdə olanlar xalqı birləşdirib bu ağrılı-acılı günlərdən çıxarmaq əvəzinə, yalnız özlərini, vəzifə kürsülərini fikirləşirdilər. Xalq əziyyət çəkirdi. Belə bir vaxtda meydana çıxan dahi şəxsiyyət Heydər Əliyev çox ağır sınaqlardan fədakarcasına çıxaraq xalqı parçalanmaqdan qorudu. Necə ki, Mustafa Kamal Atatürk xristian dövlətlərinin hücumlarından Türkiyəni qorudu və dövlət yaratdı, eləcə də Heydər Əliyev Azərbaycan xalqını ikinci dəfə müstəqilliyinə qovuşdurdu. O, Azərbaycan xalqını bütün dünyada tanıtdı və onu dünyada sönməyən ulduza çevirdi.

Heydər Əliyev bütün həyatını xalqına xidmətə həsr etdi. Onun uzaqgörən siyasəti nəticəsində Azərbaycanın dövlətçiliyi bərpa olundu. O, gün ərzində xarici ölkələrin səfirləri, mədəniyyət xadimləri, müəllimləri, həkimləri, hətta sadə insanları ilə də görüşür, onların hamısına eyni həssaslıqla yanaşırdı. O, Azərbaycan xalqının tarixinə yox, bəxtinə yazılıb. Bu, tarixdir. Bu, həqiqətdir. Bu, zamanın sınağından çıxmış təkzibolunmaz faktdır.

Heydər Əliyev ikinci dəfə – 1993-cü il iyunun 15-də hakimiyyətə gələndə Azərbaycan xalqı dəhşətli günlərini yaşayırdı: torpaqlarımız işğal olunmuş, hər 8 nəfərdən biri qaçqın olmuşdu. Xalq elə bir möcüzə gözləyirdi ki, gəlib onları bu əziyyətlərdən xilas edəcək qüdrətə malik olsun. Həqiqətən də, Heydər Əliyev Azərbaycan xalqının ən böyük möcüzələrindən oldu. Azərbaycan xalqı bu möcüzə nəticəsində indi də dünyada məşhurdur.

Heydər Əliyev iti yaddaşa, güclü siyasətə, uzaqgörən və islahatçı keyfiyyətlərə malik olan dahi şəxsiyyətdir. O elə bir şəxsiyyətdir ki, 20 Yanvar hadisələrindən sonra xalqın üzünü güldürməyə müvəffəq oldu.

Azərbaycan xalqı bütün dünyada tanınan Heydər Əliyev kimi tarixi şəxsiyyətə mənsub olduğu üçün çox şanslıdır. Əgər indi yer üzündə Azərbaycan adlı bir dövlət varsa, biz hər yerdə bu kəlməni sərbəst şəkildə səsləndirə biliriksə, ilk növbədə, dahi şəxsiyyətimiz olan Heydər Əliyevə və

onun yolunu ardıcıl, düzgün davam etdirən İlham Əliyevə minnətdarıq. Heydər Əliyev siyasətinin əsasında xalqa arxalanması durur. O, həmişə xalqa inanmış və ona arxalanmışdır. Biz inanırıq ki, işğal olunmuş torpaqlarımız geri qayıdacaq və ölməz Liderin, parlaq günəşimiz Heydər Əliyevin heykəli bu torpaqlarda ucalacaq, necə ki o, ürəyimizdə ən yüksək zirvədə dayanır. O bizim parlaq günəşimizdir, sönməyən ulduzumuzdur, onun parlaq şüaları Azərbaycanı daim işıqlandıracaq. O bizim yalnız bu günümüzə deyil, həm də gələcəyimizə işıq salmışdır. Biz onun sayəsində gələcəyə uğurla, inamla addımlayırıq.









## Məmmədova Şəlalə Elxan qızı

*Goranboy rayonu,*
*Boluslu kənd tam orta məktəbin*
*IX sinif şagirdi*

Tarixi şəxsiyyətlər heç zaman unudulmur və dünyanın daimi sakinləri olaraq əbədi yaşamaq haqqı qazanırlar. Sözsüz ki, bu haqqı onlara qazandıran öz xeyirxah əməlləri, həyatda qoyduqları iz, gördükləri işlərdir. Belə şəxsiyyətlərdən biri də Azərbaycan xalqının böyük oğlu, ümummilli liderimiz Heydər Əliyevdir.

«Mən həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam». Bu sözlər Ümummilli Liderimiz, müstəqil Azərbaycan dövlətinin banisi Heydər Əliyevə məxsusdur. Onun azərbaycanlı olmağına görə fəxr etməyə, Azərbaycan xalqı adından danışmağa mənəvi haqqı var idi. Bizim də Heydər Əliyevlə fəxr etməyə, onun kimi liderimiz olduğu üçün qürur, iftixar hissi keçirməyə haqqımız çatır.

Heydər Əliyevi digər tarixi şəxsiyyətlərdən fərqləndirən bir çox amillər var. O, təkcə tarixə düşən yox, həm də tarix yazan şəxsiyyətdir. Hər hansı sahəni yaxşı bilmək, həmin sahədə kamilləşmək, püxtələşmək mümkündür. Lakin bütün sahələri həm eyni səviyyədə, həmin sahələrin mütəxəssislərindən daha yaxşı bilmək nəinki asan, hətta mümkün deyil. Heydər Əliyevin malik olduğu bütün bu xüsusiyyətlər isə Tanrı hədiyyəsi idi.

Heydər Əliyev bənzərsizliyi, əvəzedilməzliyi ilə dünyanı heyrətləndirə bilmişdir.

Dünyanın istənilən yerində fenomen şəxsiyyətlərdən söz düşəndə, ilk növbədə, onun adının qeyd edilməsi təsadüfi deyil. Onun müdrikliyi, humanistliyi, uzaqgörənliyi, savadı, fitri istedadı, bir sözlə, mənalı insani keyfiyyətlərə malik olması hər yerdə nümunə kimi göstərilir. Bu gün də Ümummilli Liderimizin həyat yolu araşdırılır, təhlil edilir, öyrənilir. Döv-

lət idarəçiliyi sahəsində özünəməxsus təşkilatçılıq, rəhbərlik qabiliyyəti müxtəlif ölkələrdə tətbiq edilir və öz bəhrəsini verir.

Bütün bunlar Azərbaycan xalqını sevindirir. Həm də ona görə ki, Heydər Əliyev Azərbaycanı dünyada tanıtmış, onun adını ucaltmış, zəngin milli-mənəvi dəyərlərimizi ölkə hüdudlarından uzaqlarda təbliğ etmişdir. O, dünyanı Azərbaycana, Azərbaycanı dünyaya tanıtmışdır. Ulu Öndərimizin Azərbaycan xalqı qarşısındakı tarixi xidmətlərini nəinki bir yazıda əks etdirmək, hətta cild-cild kitablara belə yerləşdirmək mümkün deyil. Azərbaycanın dövlət müstəqilliyi qazanması, bu tarixi nailiyyətlərin qorunub inkişaf etdirilməsi, xalqımızın müstəmləkəçilikdən azad olaraq istiqlaliyyətə qovuşması, təhlükələrdən sovuşması, yüksək səviyyədə yaşaması, ölkədə sabitliyin, əmin-amanlığın bərqərar edilməsi, bir sözlə, qürur hissi ilə sadaladığımız uğurların hər biri Ümummilli Liderimizin adıyla bağlıdır. Onun misilsiz xidmətlərinin nəticəsidir.

Ulu öndərimiz Heydər Əliyev Azərbaycan xalqı üçün çox işlər gördü. Tərəddüd etmədən deyə bilərik ki, ömrünü xalqına qurban verdi. Bütün bunların müqabilində ümumxalq sevgisi qazandı, insanların qəlbində əbədi abidəsini ucaltdı. Sevindirici digər bir məqam ondan ibarətdir ki, Heydər Əliyevi sevən, ona hörmət və ehtiram ifadə edən təkcə azərbaycanlılar yox, dünyanın sağlam düşüncəli insanlarıdır. Dəfələrlə beynəlxalq nüfuzlu təşkilatların ali tribunalarından dünyanı insanların hüquq və azadlıqlarının qorunmasına çağıran Heydər Əliyevin hər sözü, təklifi beynəlxalq aləmdə yüksək qiymətləndirilmiş və öz nəticəsini vermişdir.

Dünya xalqlarının Heydər Əliyevi necə ürəkdən sevdiyini 2003-cü ilin dekabr günlərində bir daha yəqin etdik. Nadir tarixi şəxsiyyət, Azərbaycan xalqının böyük oğlu Heydər Əliyevin ölüm xəbəri xalqımızın qəlbinə ox kimi sancıldı. O vaxt bütün Azərbaycan xalqı onu nə qədər sevdiyini nümayiş etdirdi.

Dünyanın bir çox ölkəsində Ümummilli Liderimizin əziz xatirəsinin əbədiləşdirilməsi üçün abidələr ucaldılmışdır. Bu, Ulu Öndərimizə olan ehtiramın, onun gördüyü işlərə verilən düzgün qiymətin nəticəsidir.

Ulu Öndərimizin cismən aramızda olmaması bizi sarsıtsa da, onun siyasi kursunun davam və inkişaf etdirilməsi, həyata keçirilməsi, bütün bunların əməli nəticələr verməsi bizim üçün böyük təsəllidir.

Ölkəmizin hər yerində Ulu Öndərimizin böyük əməllərini, xidmətlərini görürük. O, ölümü ilə ölümsüzlüyə qovuşmağın mümkün olduğunu sübuta yetirdi.



Son illər möhtərəm prezidentimiz İlham Əliyevin rəhbərliyi altında Azərbaycanın qazandığı saysız-hesabsız nailiyyətlər Ümummilli Liderimizin siyasi kursunun davam və inkişaf etdirilməsinin nəticəsidir. Bu siyasətin dövr ün tələblərinə, xalqın maraqlarına uyğun şəkildə davam və inkişaf etdirilməsi nəticəsində Azərbaycan bundan sonra da uğurlar qazanacaqdır.

Min illər bundan sonra da onun adı Azərbaycanla birlikdə ən ali zirvələrdən eşidiləcək. Onun mənalı ömür yolunun hər anı zaman-zaman öyrəniləcək. Heydər Əliyev hər zaman qəlblərdə yaşayacaqdır.



## Əzizova Nigar Elmir qızı

***Naxçıvan şəhəri, Heydər Əliyev adına tam orta məktəbin XI sinif şagirdi***

Ulu öndərimiz, əziz babamız, dünya azərbaycanlılarının ümummilli lideri Heydər Əliyevin Azərbaycanın inkişafı üçün gördüyü saysız-hesabsız işlər mənim həyat dərsliyimə çevrilmişdir.

Müstəqil Azərbaycan ulu öndər Heydər Əliyevin şah əsəri olmaqla, xalqımızın, millətimizin, dövlətçiliyimizin XX əsrdəki ən böyük milli sərvətidir. Dahi öndər, böyük rəhbər, qəlbimdə yaşayan şəxs, uşaqların babası, böyük bir elin atası Heydər Əliyevdən yazmaq yeni dünyadan, işıqlı Azərbaycandan yazmaq deməkdir. Azərbaycan adlı dünyanı quran mərd, mübariz, dərin biliyə malik sadə bir rəhbərdən ömrüm boyu yazsam, yorulmaram.

Ümummilli liderimiz Heydər Əliyev yaşadığı dövr ərzində xalqı üçün yaşadı, elini qəflət yuxusundan oyatdı. Azərbaycan əhalisi onun sayəsində işıqlı günlər görəcəyinə inandı. Xalqın vuran ürəyi, görən gözü oldu. Danışıqlar apardı, bütün dünyaya səs saldı.

Heydər Əliyevdə heç kəsdə olmayan ilahi, fitri istedad var idi. O elə bir şəxsiyyət idi ki, rəssamla rəssam, memarla memar, alimlə alim kimi danışırdı.

Hər bir ixtisası dərindən bilən el atası, müdrik rəhbərin gülümsər çöhrəsindən nur yağırdı. Onun dərin mənalı baxışlarını seyr edəndə insan istər-istəməz özünü yığışdırırdı. Torpağını sevən, xalqının yolunda şam kimi yanan Heydər Əliyev deyirdi: *«Azərbaycan xalqının tarixi nailiyyəti olan Azərbaycan Respublikasının dövlət müstəqilliyini qorumağı, möhkəmləndirməyi, inkişaf etdirməyi özüm üçün ən əsas vəzifələrdən biri hesab edirəm. Heç kəsin şübhəsi olmasın ki, ömrümün bundan sonrakı hissəsini harada olursa-olsun, yalnız və yalnız Azərbaycan Respublikasının müstəqil dövlət kimi inkişaf etməsinə həsr edəcəyəm. Azərbaycan Respublikası bundan sonra da onun başına nə gəlirsə-gəlsin müstəqilliyini itirməyəcək, yenidən heç bir dövlətin tərkibinə daxil olmayacaq, heç bir dövlətin əsarəti altına düşməyəcəkdir».*



Ulu öndər Heydər Əliyev həmişə azərbaycançılıq ideologiyasına söykənib və bu ideoloji prinsip dövlət siyasəti səviyyəsinə qaldırılıb.

*Daim yolumuza işıq salacaq,*
*Əbədi bizimlə birgə qalacaq.*
*Yüksəlişə yeni yollar açacaq,*
*Heydər ideyası, Heydər zəkası.*

XX–XXI əsrlərin siyasi xadimləri sırasında həmişəlik öz yerini tutmuş Heydər Əliyev *«Əsrin müqaviləsi»*, *«İpək yolu»* layihələrinin həyata keçirilməsi, *«Bakı–Tbilisi–Ceyhan»* neft boru kəmərinin inşa olunması işində böyük iqtisadçı olduğunu sübut etdi.

Ulu Öndər deyirdi ki, iqtisadiyyatı güclü olan dövlət bütün sahələrdə uğurlar qazana bilər. Məhz bu baxımdan 1993-cü ilin ikinci yarısından başlayaraq aparılan ardıcıl və məqsədyönlü siyasət nəticəsində ictimai-siyasi sabitliyin təmin olunması, istehsalda yaradılan geriləmə prosesinin qarşısının alınması və digər tədbirlərdən sonra iqtisadiyyatda tənəzzül tədricən aradan qaldırıldı və bununla da Azərbaycanın iqtisadi inkişafında mahiyyətcə yeni mərhələnin təməli qoyuldu.

Heydər Əliyev Azərbaycana rəhbərlik etdiyi müddətdə təkcə ətraf mühitin mühafizəsinə dair iyirmi adda qanun, qərar, normativ sənədlər qəbul etmişdir.

1997-ci ildə *«Əhalinin radiasiya təhlükəsizliyi»*, 1998-ci ildə *«Kökünün kəsilməsi təhlükəsi olan vəhşi fauna növlərinin beynəlxalq ticarəti haqqında»*, 1999-cu ildə *«Torpaq məcəlləsi» və sair hüquqi sənədlər qəbul olunmuş və tətbiq edilmişdir».*

Həyatı hamı üçün örnək olan Ulu Öndər təhsil sahəsində də böyük işlər görmüş, təhsilə yüksək qiymət vermişdir. Ulu Öndərimiz çıxışlarında dönə-dönə qeyd etmişdir: *«Məktəbdə təhsil alan hər bir şagird və gənc öz xalqının və millətinin qədim zamanlardan indiyə qədər olan tarixini gərək bilsin.*

Dahi öndərimiz Heydər Əliyev yaşadığı həyatı boyu Azərbaycan tarixində yüz illər boyu görülə bilməyən işləri gördü. İtirilməkdə olan dilinə, dininə, qədim mədəniyyətinə qaytardı Azərbaycanı. Azərbaycanlıların birlik və həmrəyliyinin əldə edilməsində çox böyük xidmətləri olan Heydər

Əliyevin ordu quruculuğunda, milli ordunun yaradılması və təşkilində də böyük nailiyyətləri olmuşdur.

Heydər Əliyevin şəxsi təşəbbüsü və böyük qayğısı ilə keçmiş SSRİ-nin 50-dən artıq böyük şəhərindəki 170 tanınmış ali məktəbində respublikamızın ehtiyacı olan 150-dən çox ixtisas üzrə 15 min azərbaycanlı gəncin təhsil alması, yüksəkixtisaslı mütəxəssislər hazırlanması xüsusi yer tutur.

Heydər Əliyev dühasına dünyanın bir çox ölkə liderləri həsəd aparır. Əhməd Necdət Sezer demişdir ki, *Heydər Əliyevin türkdilli ölkələrin birliyinin daha da möhkəmləndirilməsində xidmətləri böyükdür. XX əsr liderlər əsridir. Heydər Əliyev isə əsrimizin lideridir.*

Heydər Əliyev mənalı bir ömür yaşadı. Xalqın xilaskarı, millətin öndəri oldu. Bütün həyatını canı qədər sevdiyi Azərbaycana həsr etdi. Ən böyük qazancı da elə Azərbaycan adlı azad, müstəqil bir məmləkət və onun insanlarının sevgisi oldu. Hər kəs müstəqil Azərbaycanın şərəfli yollarında addımladıqca Heydər Əliyevin ölməz fikrinə, ideyalarına yiyələnmiş bir xalq kütləsi görür. Deməli, xalqımız yaşayır, Heydər baba yaşayır və yaşayacaqdır. Onun adı xalqım var olduqca yaşayacaq. Ulu Öndər qəlbimizin əbədi sakinidir.

Zaman keçdikcə Heydər Əliyev şəxsiyyətinin, onun yürütdüyü siyasətin min bir çaları meydana gəlir və gələcəkdir. Heydər Əliyev Azərbaycan adlı bir kitabdır, oxunduqca oxunur, qəlblərə hakim kəsilir, ruhları oxşayır.

Ulu Naxçıvanda dünyaya göz açan əziz babam Heydər Əliyev Azərbaycan xalqına onun əbədi xoşbəxtlik açarını bəxş etdi. Biz gənclər isə ülvi məqsəd və mübarizələrlə zəngin mənalı həyat əsərini hər dəfə səhifələyir və dərindən öyrənməyə çalışırıq.





## *Səfərova Aysun İntiqam qızı*

***Culfa rayonu, Saltaq kənd tam orta məktəbin X sinif şagirdi***

*Müstəqil Azərbaycan Respublikası Heydər Əliyev siyasəti və ideyaları ilə yaşayır.*

**İlham Əliyev,**
*Azərbaycan Respublikasının Prezidenti*

Hər bir xalqın tarixində əbədi qalan və dünyada tanınan böyük şəxsiyyətləri olur. Belə şəxsiyyətləri Tanrı az-az yaradır. Xalqın qarşısındakı çətinlikləri, onu gözləyən burulğanı və təlatümlü günlərini görərək yaradır. Yaradır ki, olumla ölüm qarşısında, əsarətlə azadlıq arasında – yol ayrıcında qalan bir xalqa öz ürəyini məşəl edib yol göstərsin, nicat versin, xilaskarı olsun, onu ağ günlərə – azadlığa çıxarsın. Ulu Tanrıya şükürlər olsun ki, Azərbaycan xalqına da zaman-zaman belə dahi şəxsiyyətlər bəxş etmişdir.

XX yüzilliyin birinci yarısında xalqımızın taleyinə belə bir şəxsiyyətin adı yazıldı. Azərbaycan səmasında parlaq bir ulduz parladı. Bu, Heydər Əlirza oğlu Əliyev idi. Heydər Əliyev yarım əsrdən çox Azərbaycan xalqının tarixini yaradan, tarixini yaşadan və tarixdə yaşayan bir şəxsiyyət, əbədi bir lider oldu. O, uzun illər xalqımıza rəhbərlik etmiş, nəinki bütöv bir Azərbaycan qurub-yaratmış, həm də xalqımızın qəlbində özünə bir abidə ucaltmışdır. Həyatımızın elə bir sahəsi yoxdur ki, orada Heydər Əliyevin izi görünməsin. Bu gün Azərbaycanın elə bir qarış torpağı yoxdur ki, oraya Heydər Əliyevin ayağı dəyməmiş olsun. O, canından artıq sevdiyi Azərbaycanı qarış-qarış gəzir, hər bir vətəndaşla onun öz dilində danışmağı, onun qəlbinə yol tapmağı bacarırdı. Axı ölkələr fəth etməyə nə var

ki? Əsl hünər odur ki, ürəkləri fəth edəsən, özü də bütün xalqın ürəyini. Bəli, Heydər Əliyev əlli milyonluq bir xalqın ürəyini fəth etmiş bir milli liderdir. Xalq isə ürəyində o övladına yer verir ki, o, vətənin, torpağın, xalqın xilaskarı, onun işıqlı gələcəyinin, müstəqillik və dövlətçiliyinin təminatçısı olsun. Yalnız bu təminatı öz xalqına verə bilən şəxsiyyətlər həmin xalqın tarixinə qızıl hərflərlə yazılır, xalq yaşadıqca o da yaşayır.

Müstəqil Azərbaycan Respublikası Heydər Əliyevin şah əsəridir. Əgər bu gün Azərbaycanı möhtəşəm və əzəmətli bir saraya bənzətsək, bu sarayın hər daşı, hər kərpici Heydər Əliyevin alın təriylə yoğrulub, ürəyinin odu, hərarəti ilə bişib, əlləri ilə yonulub. Bu saray Heydər Əliyevin öz əlləri ilə kərpic-kərpic ucalıb. Heydər Əliyev bu möhtəşəm sarayın qızıl tacıdır. Doğrudan da, bir ömür ki, özünü xalqın yolunda şam kimi əridib, xalqa çıraq olub, böyük bir xalqı azadlıq və müstəqilliyə çıxarıb, o ömrün qiymətini nə ilə ölçmək olar? Azadlıq ağacının meyvəsi ləyaqət və şərafətdir. Müstəqilliyə qovuşmuş xalqımız ləyaqət və şərafətlə yaşadığı üçün Heydər Əliyevə əbədi minnətdar olacaqdır.

Heydər Əliyev bir neçə dahinin görəcəyi işi təkbaşına görmüşdür. O, hər bir işdə, atdığı hər bir addımda xalqa arxalanır, gücünü xalqdan alırdı. Onun daxili və xarici siyasətini xalq həmişə dəstəkləmiş, ona arxa, dayaq olmuşdur. Atalar gözəl deyib: – «Arxası xalq olanın başı göylərə ucalar». «Heydər Əliyev Azərbaycan üçün çoxlu işlər görüb», – desək, çox az olar. O, bütöv bir Azərbaycan qurub-yaradıb, onu müstəqilliyinə qovuşdurub, bu müstəqilliyi neçə-neçə xarici və daxili hücumlardan, terrordan, sui-qəsddən, zamanın kəşməkəşlərindən qoruyub, onu möhkəmləndirib və bu günümüzə çatdırmışdır. Bu müstəqillik sayəsində xalqımız yeraltı və yerüstü sərvətlərinin əsl sahibi olmuşdur. Heydər Əliyevin apardığı məqsədyönlü və uğurlu siyasət nəticəsində Azərbaycan dünya ölkələri sırasında öndə gedən bir respublikaya çevrilmiş, onun qapıları bütün dünyaya açılmışdır. Dünyanın ən məşhur neft şirkətləri ilə bağlanan kontraktlar artıq öz bəhrəsini vermiş, ölkəmizin iqtisadi qüdrətini artırmış, xalqımızın rifahının yaxşılaşmasına kömək etmişdir. Əsrin müqaviləsi – neft kontraktı Heydər Əliyevin parlaq zəkasının, düşünülmüş siyasət və cəsarətinin nəticəsi idi. Dünyanın siyasət ulduzları içərisində ən parlaq ulduz olan Heydər Əliyev siyasət dəryasının mahir qəvvası idi. İti ağlı, işıqlı zəkası, dərin təfəkkürü, qərarvermə cəsarəti ilə çox-çox siyasətçini heyran qoymuşdu.Tarix ən böyük və ən ədalətli hakimdi. Bu gün tarix sübut etdi ki, Heydər Əliyevin Azərbaycan xalqı, Azərbaycan dövlətçiliyi naminə öz ömrü bahasına gördüyü bütün işlər, verdiyi bütün qərarlar haqlı, düzgün, ədalətli idi.



Onun gərgin əməyi nəticəsində Azərbaycan bir region dövləti səviyyəsindən çıxaraq, qabaqcıl dünya dövlətləri sırasında inamla addımlayır. Azərbaycan deyəndə bütün dünya dövlətləri Heydər Əliyevi, Heydər Əliyev deyəndə Azərbaycanı düşünür. Artıq Heydər Əliyev Azərbaycanın rəmzinə çevrilmişdir.

Deyirlər dahilərin tərifə ehtiyacı yoxdur. Onların qiymətini tarix özü verir. Heydər Əliyevin də layiqli qiymətini mənsub olduğu əlli milyonluq Azərbaycan xalqı və tərəqqipərvər dünya ictimaiyyəti çoxdan vermişdir. Bir də ki, görünən dağa nə bələdçi?! Heydər Əliyev elə bir zirvədir ki, dünyanın hər yerindən görünür.

Heydər Əliyevin Naxçıvan Muxtar Respublikasına hər gəlişi böyük bir bayrama çevrilər, hamı onu qarşılamağa, görməyə çalışardı. Doğma diyarımızın ən çətin zamanında – ermənilər Naxçıvana hücum edəndə o, bizimlə idi. Yalnız Heydər Əliyevin gərgin səyi nəticəsində Muxtar Respublikamızın ərazisindən bir qarış da belə, düşmən əlinə keçmədi.

Heydər Əliyev nuru, işığı, ziyası müstəqil Azərbaycanın yoluna əbədi olaraq işıq saçacaqdır.

Müstəqil Azərbaycan Respublikası yaşadıqca, üçrəngli bayrağımız dalğalandıqca Heydər Əliyevin ideyaları və əməlləri də yaşayacaqdır. Adı qəlbimizdə, sözü dilimizdə, işi əməlimizdə yaşayacaq Heydər Əliyev kimi vətəni, xalqı sevəcək, dövlətimizə, dövlətçiliyimizə, onun prezidentinə möhkəm sadiq olan sağlam gənclər kimi yetişəcək, layiqli vətəndaş olmağa çalışacağıq.

Ümummilli lider Heydər Əliyevin inkişaf yoluna çıxardığı Azərbaycan adlı sürət qatarının sükanı bu gün etibarlı əllərdədir. Heydər Əliyevin siyasi və dövlətçilik məktəbinin layiqli davamçısı prezident İlham Əliyevlə müstəqil Azərbaycan inamla daha işıqlı gələcəyə doğru irəliləyir.



## *Nuriyeva Dərya Ümidvar qızı*

***Şuşa Humanitar Kollecinin***
***II kurs tələbəsi***

Heydər Əliyev dahi şəxsiyyət, yenilməz sərkərdə, qüdrətli, məğrur bir dövlət başçısı, vətəninə və xalqına qəlbən bağlı olan bir vətənpərvərdir. Bu ifadələr onun şəxsiyyətini tərənnüm etmək üçün yetərli deyildir. O, bugünkü, müasir Azərbaycan Respublikasının qurucusudur. Müstəqilliyimizin, yenilməzliyimizin banisidir. Onun haqqında söylədiklərim gördüklərimdən azdır. Çünki mən özümü tanıdığımdan bəri müstəqil, demokratik, hüquqi bir dövlətin – Azərbaycan Respublikasının torpaqlarında addımlayıram. Atdığım hər addımda bu dahi şəxsiyyətin qurub-yaratdığı bu günün müasir Azərbaycanını görürəm. Düşünürəm ki, Heydər Əliyevin həyatı ölkəmizin tarixidir, onun həyatı ölkəmizin həyatıdır!

Bu gün mən müstəqil Azərbaycan Respublikasının vətəndaşıyam. Hansı ki, dünya şöhrətli siyasətçi, tanınmış ictimai xadim, dünyanın ən məşhur dövlət başçılarından biri olan Heydər Əliyevin qurub-yaratdığı və biz gənclərə əmanət etdiyi Azərbaycan Respublikası. Bu Respublika bu gün dünyaya inteqrasiya edir. Dəyişir, müasirləşir, dünya arenasında özünəməxsus yer tutaraq, öz sözünü deyə bilir.

Ulu Öndər yaratdı Azərbaycanı. Həm yenidən qurduğu bu ölkə ilə, həm də söylədiyi hər bir ifadə ilə qəlblərimizi nurlandırdı. Gəlişi ilə qəlbimizi nurlandırdığı kimi, gözlərimizə də işıq gətirdi. Dünyaya baxışımızı dəyişdi.

Böyük tarixi keçmişə malik Azərbaycanımız dünyanın bir çox inkişaf etmiş ölkələri ilə əlaqəsini qurdu. Bu gün Azərbaycan dilinin Azərbaycan Respublikasının rəsmi dövlət dili kimi işlənməsi, ölkə daxilində və yaxud xaricdə nəşr olunmuş vəsaitlərdə Azərbaycan dilindən istifadə olunması kimi məsələlər, məhz dilimizin bütün dünya səviyyəsində tanınması üçün görülən işlərə bariz nümunədir.



Heydər Əliyev təkcə Azərbaycan Respublikası sərhədləri daxilində deyil, bu sərhədlərdən çox-çox uzaq məsafələrdə mədəniyyətimizin, iqtisadiyyatımızın, təhsilimizin uğurlu bir şəkildə inkişafı, tanınması, müasir tələblərlə uyğunlaşması kimi prinsipial məsələlərin həllində böyük səylər göstərdi. Bugünkü inkişafımızda onun böyük xidmətləri var. Uğurlarımızda məhz Heydər Əliyev dühasının imzası vardır.

Uzaqgörənliyi, qeyri-adi siyasi baxışları ilə bütün dünyanı heyrətdə qoyan Heydər Əliyev siyasəti nəticəsində Azərbaycan Respublikası artıq dünyanın ən tanınmış ölkələrindən birinə çevrilmişdir. Əsası Naxçıvan Muxtar Respublikasında qoyulmağa başlayan möhtəşəm siyasi baxışların zərrələri zaman keçdikcə bütün Azərbaycana yayılmağa və öz səmərəli nəticələrini göstərməyə başladı.

Heydər Əliyev yekdilliklə Azərbaycan Respublikasının Prezidenti seçilməsi onun artıq özünü bu sahədə təsdiq etməsi demək idi. Onda alicənablıq, uzaqgörənlik, səmimiyyət və s. kimi insani xarakter və keyfiyyətlər toplanmışdı.

Bu gün hər bir azərbaycanlının ən böyük arzusu yerinə yetmişdir. Artıq dünyanın siyasi xəritəsində Azərbaycan Respublikası adlı bir ölkə var. O ölkə bu gün bütün dünyada tanınır və inkişaf edir.

Sanki ulu öndərimiz Heydər Əliyevin yandırdığı çıraq yolumuzu işıqlandırır. Onun yandırdığı çıraq azadlıq çırağıdır. Biz bu işıqlı və daim işıqlanmaqda davam edən azadlıq yolunda gələcəyə ünvanlanmış bir konsepsiya – vətəni qorumaq, onu daim sidq-ürəklə sevmək, onun uğrunda canından keçmək ifadələri ilə möhürlənmiş bir konsepsiya ilə irəliləyirik. Onu doğru ünvana çatdırmaq hər bir birimizin müqəddəs borcudur.

Tariximizin səhifələrinə XX əsr nurla gəldi. Tanrı bizə bu şəxsiyyəti 1923-cü il mayın 10-da göndərdi. 1993-cü ildə xalqın böyük və yüksək inamını qazanmış Heydər Əliyev Azərbaycan Respublikasının Prezidenti seçildi. Onun gəlişi ilə ölkəmizin hər bir guşəsində, hər bir sahəsində köklü dəyişikliklər baş verdi. Azərbaycanı yenidən qurdu, hər bir sahənin canlanmasını təmin etdi. Vətənin yenidən dirçəlməsinə, uğurlu, dinamik inkişafına nail oldu.

Onun vətənimiz üçün həyata keçirdiyi tədbirləri saymaqla bitirmək olmaz. Ulu Öndərin Cəmşid Naxçıvanski adına hərbi liseyin fəaliyyətə başlamasında, milli ordumuzun yenidən qurulması və bütün tələblərə uyğun şəkildə formalaşmasında böyük rolu olmuşdur. Bu kimi işlərin nəticəsidir ki, bu gün Azərbaycanın hər cəhətdən təlim görmüş və güclü Milli Ordusu vardır.

Heydər Əliyevin gəlişi ilə təkcə bir sahə çiçəklənmədi, ölkənin bütün sahələri yeni siyasətin uğurla aparılması sayəsində yenidən quruldu. Azərbaycanın təbii yeraltı və yerüstü sərvətlərinin daha səmərəli şəkildə dəyərləndirilməsi işinə xüsusi diqqət yetirildi. Bakı neftinin dünyanın bir çox ölkələrinə ixracı məhz bu dövrə təsadüf edir. Bakı–Ceyhan, Bakı–Supsa neft ixrac kəmərlərinin istifadəyə verilməsi neftimizin dəyərləndirilməsi sayəsində görülən ən yüksək səviyyəli işlərdir. Bunun üçün bir çox ölkələr arasında məhz Heydər Əliyevin təşəbbüsü nəticəsində müqavilələr bağlanmışdır. Bu müqavilələrin nəticəsində neft sektoru inkişaf etdi.

Bu gün dünyanın bir çox tanınmış beynəlxalq müsabiqələrinin Azərbaycanda keçirilməsi vətənimizin dünya ölkələri arasında tanınması üçün böyük əhəmiyyətə malikdir.

Heydər Əliyev təkcə Azərbaycanda yaşayan azərbaycanlıları deyil, bütün dünya azərbaycanlılarını düşünürdü. Bu mənada dünya azərbaycanlılarının I, II qurultaylarının keçirilməsini nümunə gətirmək olar. Bu qurultaylarda təkcə Azərbaycan sərhədləri daxilindəki azərbaycanlıların deyil, dünyanın müxtəlif bölgələrinə səpələnmiş hər bir azərbaycanlının vətənə sədaqət, vətənə məhəbbət və onu sevdirmək kimi fikirlərdə olması önə çəkildi. Azərbaycanın təkcə Azərbaycan vətəndaşlarının ölkəsi olmadığı bir daha vurğulandı. Bu kimi tədbirlərin həyata keçirilməsi ilə Azərbaycanımızın yetərincə əmin əllərdə olduğu bütün dünya xalqlarına bir daha sübut olundu. Heydər Əliyevi vətənin daim keşiyində duran bir sərkərdə adlandırmaq olardı. Çünki o, ölkənin hər bir sahəsində yeniliklər etdi. Hər bir sahənin uğurla inkişafına nail oldu.

Bu gün də Azərbaycan əmin əllərdədir. Heydər Əliyev siyasi kursunun davamçısı olan İlham Əliyev bu siyasi yolu uğurla davam etdirir.





## *Quliyeva Sara Rasim qızı*

***Bakı şəhəri, Heydər Əliyev adına liseyin VIII sinif şagirdi***

Bu inşanı yazmazdan əvvəl necə başlayacağım barədə fikirləşdim. Həm də çox fikirləşdim! Çünki kimin haqqında yazacağımı bilirdim. Bu barədə fikirləşəndə çox böyük sevinc, fərəh, qürur hisləri keçirdim. Çünki belə böyük, dahi, görkəmli şəxsiyyətlə, dövlət xadimi ilə eyni bir xalqın nümayəndəsiyəm. Əminəm ki, bütün azərbaycanlılar bu fikirlə tam razıdırlar və həmişə də razı olacaqlar. Çünki Heydər Əliyev ölməzdir, yaşayır və həmişə, hər zaman, hər yerdə bizim qürur mənbəyimiz olacaq!

Eyni zamanda qəlbimdə kiçik bir qorxu hissi də vardı. Görəsən, belə bir insan haqqında yazmağa gücüm çatacaqmı?! Bu məsuliyyətin altına girə biləcəyəmmi?! Yaşımın azlığı, həyata baxışım buna imkan verəcəkmi?! Bu suallar beynimdə dolaşır, məni heç tərk etmirdi. Axı o yalnız Azərbaycanda deyil, bütün dünyada tanınmış siyasi xadim, Allahın min ildən bir bəşəriyyətə bəxş etdiyi böyük, dahi insandır! Xalqımızın igid oğlu, ən böyük dühasıdır. Bilirdim ki, Heydər Əliyev kimi insanın həyatını, amalını, vətənə, xalqa, millətə olan sevgisini, xalq, dövlət, bizim gələcəyimiz uğrunda etdiklərinin hamısını vərəqlərə düzə bilmərəm. Çünki bu dahi şəxsiyyətin həyatı cildlərlə kitaba sığmaz. Mənə isə bir neçə səhifəlik inşa yazmaq imkanı verilib. Çalışacağam ki, bu imkanı yaxşı dəyərləndirim və möhtərəm insanı necə təsəvvür etdiyimi, onunla necə fəxr etdiyimi sizə çatdırım.

Elə bunları fikirləşirdim ki, mürgüləməyə başladım. Ulu Öndərimiz bir anlıq gözümün önündə canlandı. Mən heyranlıqla, təbəssümlə, eyni zamanda təəccüblə ona, onun əzəmətli duruşuna baxırdım. Mənə o qədər qəribə və maraqlı gəlirdi ki, bir an belə gözümü ondan çəkmirdim. Çünki onun kitablarda, televizorda və digər informasiya mənbələrində yalnız

şəkillərini görmüşdüm. Həyəcandan hərəkətsiz qalmışdım, sadəcə əllərim əsirdi. Heç ətrafda nə baş verdiyini, məndən başqa kimlərin burada olduğunu görə bilmirdim. O isə mənə xoş, fərəh dolu baxışlarla nəzər salırdı. Sanki nələr baş verdiyinin, niyə burada olduğumun səbəbini bilir, məni tanıyırdı. Bir az sonra mənə tərəf gəlməyə başladı. Əvvəlki sükutu onun addım səsləri pozdu. Mənə yaxınlaşdıqda gülümsədi, əlini çiynimə qoyub dedi:

– Qızım, rahat ol. Mən sizin kimi gənclərlə daim fəxr etmişəm, indi də fəxr edirəm. Siz bizim gələcəyimizsiniz.

Səsindəki əzəməti, məlahəti, qüruru, sevgini duyduqda ona olan hörmətim bir az da artdı. Üzümdə təbəssüm yarandı. Elə bu an yuxudan ayılıbmış kimi özümə gəldim və ətrafa nəzər salmağa başladım. Deyəsən, dahi şəxsiyyət, möcüzəvi insanla görüşmüşdüm axı.

Xalqımız onu «Heydər baba» deyərək çağırsa da, mən ona baba kimi yox, çox uca, çox üstün bir varlıq kimi baxırdım. Mənə elə gəlirdi ki, vaxtım daralır və o, indicə gedəcək. Odur ki, cəsarətimi toplayıb, – salam, – dedim. O, böyük əzəmətli kürsüsünə əyləşdi və təbəssümlə mənə baxdı. Həyəcanlı olduğumu görüb özü sözə başladı.

– Əziz qızım! Mən bilirəm ki, sən də vətənə layiqli, vətənpərvər, yurdsevər, ağıllı övladlardan birisən. Bu həyəcanının mənə olan hörmətindən irəli gəldiyini bilirəm, amma həyəcana səbəb yoxdur.

O, aramla, xüsusi ahənglə danışırdı! Fikirləşirdim ki, əsl siyasi xadim belə olmalıdır. Həyəcanım və narahatlığım qismən azaldı. Əslində, çox söz demək istəyirdim, amma çox tez də fikrimi dəyişirdim. Yanlış ifadə işlətmək istəmirdim. O məni gözləyirdi. Bu zaman ona Siz deyə müraciət etməyi qərara aldım. Qeyri-ixtiyari sual verdim:

– Sizin bu qədər müdrik, uzaqgörən olmağınızın səbəbi nədir?

Ulu Öndər isə cavabında bildirdi:

– Doğma xalqımın mənə olan inamı, hörməti, məhəbbəti olmasaydı, mən bu zirvələrə qalxa bilməzdim. Eyni zamanda bütün uğur və nailiyyətlərimə görə aldığım biliklərə, müəllimlərimə borcluyam.

Ulu Öndərimizlə qarşı-qarşıya əyləşib söhbət edirik. Onunla danışdıqdan sonra nə qədər ağıllı, savadlı, dünyagörmüş, gözəl nitqə sahib olmağından başqa, həm də çox sadə bir insan olduğunu dəqiqləşdirdim. Mənə bir dost, bir sirdaş kimi müraciət edirdi. Beləliklə, ona bir neçə sual verdim. O, məharətlə, asanlıqla bu suallara cavab verirdi. Fikirləşirdim ki, əsl siyasi xadim belə olmalıdır. O, çox səmimi idi. Arada mənimlə zarafat edir, özü də gülürdü. Özünəməxsus gülüşü vardı. Güləndə daha çox



nəzərə çarpan üzünün qırışları sanki illər boyu qarşılaşdığı çətinliklərdən, əziyyətlərdən xəbər verirdi. Mənə müasir təhsil barədə çoxlu suallar verdi. İrad və istəklərimi öyrəndi. Keçmiş, indiki, gələcək uğur və nailiyyətlərimə görə məni təbrik etdi. Qızıltək dəyərli cümlələr qururdu. Tez-tez məşhur insanlardan aforizmlər işlədirdi. Söhbətimiz maraqlı keçirdi.

Sonra mənim diqqətlə baxdığım kitab şkafına tərəf getdi və özünün də kitab oxumağı çox sevdiyini dedi. Səliqəli və kitablara qarşı diqqətcil olması rəflərdəki kitabların düzülüşündən bəlli olurdu. Şeir kitabları ayrı şkafda idi. Nəsr əsərlərini də ayırmışdı. Mənə ən çox sevdiyi yazıçı və şairləri, onların əsərlərini göstərdi. Mən də ən çox sevdiklərimin adlarını onunla bölüşdüm. Heç görmədiyim kitablar vardı. Odur ki, mən həddən artıq çox maraqlanırdım. Bu isə onun xoşuna gəlirdi. Mənə kitab oxumağın çox faydalı olduğunu, savadı, biliyi, dünyagörüşünü artırdığını, bu zirvələrə gəlib çatmasında ona kömək etdiyini, kitabların onun ən yaxşı dostu olduğunu bildirdi. Bir az bu haqda danışdıq. Sonra mənim çox böyük maraq və təəccüblə qarşıladığım bir neçə kitabı imzaladı və mənə hədiyyə etdi. O qədər xoşbəxt idim ki, təsəvvür edə bilməzsiniz! Ona sonsuz təşəkkürümü və bu kitabları ömrümün sonuna qədər saxlayacağımı bildirdim. Heydər Əliyev dedi:

– Qızım, əsas mən sənə təşəkkür etməliyəm. Gənc nəslin kitablara bu qədər maraqla yanaşdığını görmək məni çox sevindirir.

Sonra biz yenidən masa arxasında əyləşdik və söhbətə davam etdik. Artıq onunla rahatlıqla ünsiyyət qura bilirdim. Ona görə də fikrimdən keçənlərin hamısını, onunla bir millətdən, bir xalqdan olduğum üçün fəxr etdiyimi, bunun həmişə belə olacağını, nitq qabiliyyətini, aforizmlərini çox bəyəndiyimi, onunla söhbət edərkən özümü çox şən, xoşbəxt, ağıllı hiss etdiyimi dedim. O, saata baxdı və mənə minnətdarlığını bildirdi. Mən hiss edirdim ki, o mənimlə sağollaşır. Susdum. Elə bil ki, istəmirdim bu söhbətimiz bitsin. O isə son dəfə «sağ ol» dedi və birdən yoxa çıxdı.

Elə bu an ayıldım. Ətrafa baxdım. Heç kim yox idi. Nə əfsanəvi insan Heydər Əliyev vardı, nə də imzalı kitablar. Çox təəssüfləndim. Onunla danışmaq, birgə vaxt keçirmək o qədər xoş idi ki, yadıma düşəndə gözlərim dolur.

İndi görürsünüz, Ümummilli Liderimiz necə insan olub?! Onun haqqında fikirləşəndə belə özümü qəribə hiss edirəm. Ondan çox şey öyrəndim. Belə bir fikir var ki, «ömrü vaxt ilə deyil, əməllərlə ölçürlər». Bu səpkidə baxsaq, Heydər Əliyevin Azərbaycan xalqı üçün etdiklərini nəzərə alsaq, bu nəticəyə gələrik ki, o, ölməzdir, yaşayır və daimyaşardır.

Heydər Əliyev yalnız dövlət xadimi, prezident, rəhbər, siyasi xadim, dahi şəxsiyyət deyil, həm də gözəl ailə başçısı idi. Bu gün, hal-hazırda belə gözəl, abad, azad, demokratik, firavan Azərbaycan Respublikasında rahat, dinc yaşamağınızın əsas səbəbi onun ailəsində böyüyüb boya-başa çatmış, tərbiyə almış İlham Əliyevdir. İlham Əliyev atasının yolunu qürurla, layiqincə davam etdirir. İşğal altında olan torpaqlarımızın da qaytarılacağına zəmanət verir. Belə ölkədə yaşadığımıza, belə rəhbərlərimiz olduğuna görə fəxr edirik!

Məmməd Arazın bu misraları sanki ümummilli lider Heydər Əliyevin həyatdakı idealı idi:

*Vətən mənə oğul desə, nə dərdim,*
*Mamır olub qayasında bitərdim!*

Bu fikrimi onun öz fikri də təsdiqləyir: «Mən bütün həyatımı xalqıma xidmət etməyə həsr etmişəm. Bundan sonra da bu yolla gedəcəyəm. Başqa yolum yoxdur. Vətənə, millətə, xalqa məhəbbət, Azərbaycan Respublikasına hədsiz məhəbbət mənim həyatımın mənasıdır, məzmunudur!»

Biz bütün azərbaycanlılar bir vətəndaş, bir fərd kimi Heydər Əliyevə borcluyuq.

Bütün azərbaycanlılara üzümü tutub deyirəm ki, gəlin bu yolu – Heydər Əliyev yolunu tutaq. Çünki bu yol bizi işıqlı gələcəyə aparır.





## *Təhməzli İlahə Fərhad qızı*

***Bakı şəhəri, 47 nömrəli tam orta məktəbin XI sinif şagirdi***

Bir zamanlar SSRİ dövründə kağızdan «Sülh göyərçinləri» düzəldib uçuran uşaqlar ağıllarına belə gətirə bilməzdilər ki, nə vaxtsa bir-birilərinə sülh göyərçinləri yerinə güllə atacaqlar. Bu göyərçinlər daşa, daha sonra güllələrə, mərmilərə çevrilib üstümüzə atılanda anladıq ki, sülh qurtarıb, müharibə başlamışdır.

Biz müharibəni gördük və yaşadıq...

Bir gün anladıq ki, artıq uduzuruq. Elə burdaca anladıq ki, düşmənlə vuruşmaq əvəzinə, içimizdən parçalanmağa başlamışıq.

Bəli, bir-birinin ardınca rayonlarımız ermənilər tərəfindən işğal olunurdu, ən dəhşətlisi isə Azərbaycan daxildən də parçalanırdı.

20 Yanvar faciəsi! Belə bir vaxtda Heydər Əliyev Moskvada Azərbaycanın Daimi Nümayəndəliyinə gələrək: «Xalqımın ağır günü mənim ağır günümdür», – deyərək bütün dünyaya faciəmizi çatdırdı.

Mən deyərdim ki, 1923-cü ildə dünyaya göz açan Heydər Əliyevi Allah Azərbaycan xalqına ərməğan olaraq göndərmişdi. 1993-cü il oktyabr ayının 3-də xalq bir nəfər kimi Heydər Əliyevi Azərbaycan Respublikasının Prezidenti seçdi. Heydər Əliyev özü üçün yaşamadı. Həyatını, mübarizəsini xalqının xoşbəxtliyinə həsr edən Heydər Əliyev Azərbaycan üçün elə bir iş gördü ki, ölümündən sonra da bu iş uğurla davam etdirilir.

Xarici ölkələrin başçıları deyirlər ki, Heydər Əliyev kimi lideri olan xalq xoşbəxtdir.

Xarici ölkələrdə Heydər Əliyevin adı çəkilən zaman hər kəs Azərbaycanı tanıyır. «Azərbaycanlıyam» – söyləyən zaman hər kəs Heydər Əliyevi xatırlayır.

O, Azərbaycanın azadlığı yolunda şəhid olmuş igidlərimizi həmişə yad etmiş, onların xatirəsinin əbədiləşdirilməsinə çalışmışdır.

1991–92-ci illərin Çadır şəhərciyi Heydər Əliyevin fəaliyyəti nəticəsində abad qəsəbələrə çevrildi.

Qaçqınlıq və köçkünlük, Vətənin və xalqın bu böyük acısı Vətən Oğlunun qəlbində dərin iz buraxmışdı.

Görüşlərində hər bir uşağı əzizlərdi. Belə bir təşəbbüs yalnız Heydər Əliyevə məxsus idi.

Məhəmməd peyğəmbərdən (s.ə.s.) soruşurlar: «Müsəlmanlardan yaxşısı kimdir?»

Peyğəmbər söyləyir: «O adamdır ki, dilindən və əlindən müsəlmanlar xeyir görür!»

Heydər Əliyev bizə hər şeydən öncə azadlıq bəxş etdi. Bu azadlıq toxumları böyük bir çinar kimi mənəviyyat dünyamızda kök atmışdır.

Mən bu gün sadəcə öz fikirlərimi bir yerə cəmləmək istədim. Daxili dünyamın qapıları açıldı.

Ulu Öndər Azərbaycan Respublikasının siyasi, iqtisadi, mədəni inkişafında əvəzsiz rol oynamışdır. O, Azərbaycanı inkişaf etmiş ölkələr səviyyəsinə yüksəldə bilmişdir.

*Nə qədər Azərbaycan,*
*Nə qədər bu millət var,*
*Heydər «xalqım» – deyəcək,*
*Xalq «Heydər» – söyləyəcək.*

Heydər Əliyevin ən böyük xidmətlərindən biri də özündən sonra siyasi varis yetişdirməsidir. Azərbaycan Respublikasının Prezidenti İlham Heydər oğlu Əliyevin fəaliyyəti nəticəsində ölkəmiz sürətlə inkişaf edir. Bakı şəhəri dünyanın ən inkişaf etmiş şəhərləri sırasına daxil olub. Rayonlarımızda idman kompleksləri, gənclər mərkəzləri, parklar inşa edilib. Diaqnostik mərkəzlər yaradılıb, ölkədə hər şey insanların yaxşı yaşamasına xidmət göstərir.

Siyasi iradəyə, yaradıcı düşüncəyə malik olan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə gələcəyə uğurla addımlayırıq.





## *Nəcəfli Məcid Vüqar oğlu*

*Tərtər şəhəri, 2 nömrəli məktəb-liseyin XI sinif şagirdi*

Qərinələrin yaddaşından heç zaman silinməyəcək iz qoyan dahi şəxsiyyət Heydər Əliyev haqqında nəinki yazmaq, hətta düşünmək belə məndə qürur hissi doğurur.

Məsuliyyətli olsa da, ürəyimin dərinliklərindən gələn xoş sözləri, cümlələri böyük məhəbbətlə vərəq üzərinə köçürmək istəyirəm.

Mən bu inşada siyasətçidən, bütün elmlərdən xəbərdar olan bir insandan söhbət açacağam.

İşıqlı əməlləri ilə vaxtın fırtınalarından adlayıb zamansızlığa – ölümsüzlüyə ucalan böyük insan oğlu!

Əslində, xalq içərisindən çıxmış, xalqla yüksələrək xalqı yüksəltmiş, yeni Azərbaycanla yenidən doğulmuş böyük tarixi şəxsiyyət Heydər Əliyev haqda inşa yazmaq çox çətindir. Çünki Heydər Əliyevin həyat yolu cild-cild kitablara sığmayan bir ümmandır. Düşünürəm ki, mən də bu ümmandan bir damla götürə bilsəm, özümü xoşbəxt hiss edərəm.

Deyirlər ki, Məhəmməd (s.ə.s.) sonuncu peyğəmbər olduğuna görə dünyanın axırına qədər ona bir möcüzə verilməli idi. Həmin möcüzə «Qurani-Kərim»dir. Məhz bu möcüzənin nəticəsidir ki, bütün müsəlman dünyası «Quran»ın gözəlliyi qarşısında öz heyrətini gizlədə bilməyib. Heydər Əliyev dühası da bax beləcə Allahın bir möcüzəsidir. Onun mənalı həyat yolu, gənclər üçün söylədiyi nəsihətamiz fikirlər hər yeni nəsil üçün ilahi bir kəlamdır. Heydər Əliyev əzəli və əbədi varlıqdır. Allah onu ən gözəl bir biçimdə yaratdı, cəmi məxluqlardan üstün tutdu. O, Allah yolunu tutub getdi və doğru yolun yolçusu oldu. Tanrı onu sevərək yaratdı, qorudu, ucaltdı, o da xalqını, vətənini, el-obasını sevdi.

Bizim Ulu Öndərimiz! Siz 34 ildən artıq Azərbaycana rəhbərlik etdiniz. Bu illərdə ölkəmizin hərtərəfli inkişafına, tərəqqisinə, dünya dövlətləri arasında tanınmasına nail oldunuz. Siz müstəqil Azərbaycanın qurucusu, dövlətçiliyimizin qarantısınız.

1923-cü il 10 may tarixində qədim Naxçıvan torpağında dünyaya göz açan Heydər Əliyevi Tanrı bizə xoşbəxtliyin açarı olaraq göndərdi. O doğulanda, bəlkə də, otuz-qırx nəfərin dodağı gülümsədi, gözləri güldü. O, ana torpağın qoynuna köçəndə isə milyonlarla insanın qəlbi qan ağladı.

Hakimiyyətdə olduğu müddət ərzində: istər 1969–1982, istərsə də 1993–2003-cü illərdə bizim yaxşı yaşamağımız üçün mübarizə apardı.

Bu illəri ətraflı şərh etmək üçün mən tarixin nə az, nə də çox, düz otuz dörd ilini bilməliyəm. Bu isə zəngin bir zaman fasiləsidir. Yaxın bir keçmişə – 1993-cü ilə nəzər salsaq, səmadan odlu güllələrin yağdığı bir vaxtda Azərbaycan adlı dövlətin nə qədər mövcud olacağı sual altında idi. Belə çətin anda xalq ona həmişə dayaq olan Heydər Əliyevi hakimiyyət sükanının arxasına gətirdi. Mavi dalğalar qoynunda qasırğalarla çarpışan «Azərbaycan» adlı gəminin azadlıq yelkənləri bir daha enməmək ümidi ilə qalxdı. Heydər babanın özü dediyi kimi, Azərbaycan dünyaya günəş kimi doğdu. Onun qayğısı ilə həyat Azərbaycana, azərbaycanlılara yenidən gülümsədi. Gələcəyə dikilən inam dolu baxışlarda sevinc qığılcımı parladı.

Ulu Öndər beynəlxalq arenada Azərbaycanın dayaqlarını möhkəmləndirdi. Azərbaycan Respublikasının iqtisadiyyatını dirçəltdi. Dünya azərbaycanlılarının vahid birliyini və həmrəylik gününü rəsmiləşdirdi.

Müstəqilliyimizin atributlarından olan dilimiz və onun qorunması diqqət mərkəzində oldu. Ana dilimizin doğma adının bərpa olunması haqda qanun qəbul edildi. Azərbaycan dili Heydər Əliyev dili, xalqımızın dili, bütün azərbaycanlıların müqəddəs dilidir.

Heydər Əliyev təhsili millətin gələcəyi adlandırmışdır. O, hərb, hüquq və digər elm sahələrində böyük irəliləyiş yaratdı. Bu gün həmin sahədəki uğurlar Heydər Əliyevin başladığı yolun davamıdır. Heydər Əliyev qətiyyətli bir siyasətçi, səbirli dövlət başçısı idi. Çünki o, Azərbaycanın vahid ərazisini real parçalanma təhlükəsindən qurtardı, respublikanın daxilində yaranmış cinayətkar dəstəni, xalqın içərisindən çıxıb, xalqa qənim kəsilmiş basqınçıları yox edə bildi. O, dövlət çevrilişi cəhdlərinin, sui-qəsdlərin qarşısını qan tökməklə deyil, xalqın köməyi ilə ala bildi. Xalq isə öz prezidentinə arxa oldu.

Heydər Əliyev görkəmli diplomat, böyük iqtisadçı, təşkilatçı və təbliğatçı idi. Əsrin neft müqaviləsi, «İpək yolu» layihəsi, torpaq islahatlarının



keçirilməsi, Azərbaycanın dünya dövlətləri tərəfindən tanınması Heydər Əliyevin apardığı uğurlu, məqsədyönlü daxili və xarici siyasətin nəticəsidir. Heydər Əliyev müdrikliyinin parlaq göstəricilərindən biri də onun Yeni Azərbaycan Partiyasını yaratmasıdır.

Heydər Əliyev dosta sədaqətli, düşmənə qarşı barışmaz olmuşdur. Ulu Öndər Azərbaycanın 20% ərazisini işğal etmiş və bir milyondan artıq insanı yurd-yuvasından didərgin salmış erməni qəsbkarlarına qarşı barışmaz olmuşdur.

Bizim Ulu Öndərimiz! Siz əsl vətənpərvər sərkərdəsiniz! Azərbaycanda gedən qanlı müharibədə ermənilər havadarlarına arxalanaraq üstün mövqe qazandı və neçə-neçə soydaşımız həlak oldu. Lakin Heydər Əliyev bunun qarşısını almaq üçün atəşkəsə nail oldu. Bu dövr ərzində güclü nizami ordu yaratdı.

Heydər Əliyev Azərbaycan incəsənətinin, mədəniyyətinin, ədəbiyyatının vurğunu, elmin dayağı idi. Mədəniyyətsiz insanın həyatı sönük, elmsiz ölkə isə cəhalət içindədir.

Heydər Əliyevin qeyri-adi yaddaşı, qarşıdakı şəxsin psixologiyasına bələd olması, eyni zamanda gərgin vəziyyəti yumşaltmaq qabiliyyəti, ünsiyyətdə olduğu şəxsin daxilinə nüfuzetmə məharəti – bir sözlə, Heydər Əliyev varlığı ayrıca bir universitetdir.

İllər onu bizdən uzaqlaşdırdıqca sanki babamız bizə daha da yaxınlaşır. Çünki tarix heç nəyi silmir. Bitib-tükənmək bilməyən sevgimizi daha da artırır.

Mən Heydər baba məktəbindən çox şey öyrənmişəm. Bunlardan ən başlıcası isə mən vətəni sevməyi öyrənmişəm. Biz ondan dərs aldıq, onun kimi olmağa çalışdıq.

Heydər baba! Nəvələrin Azərbaycanımızı beynəlxalq olimpiadalarda layiqincə təmsil edir. Bunlar sənin təhsilə göstərdiyin qayğının təzahürüdür.

Bugünkü Azərbaycan Heydər babanın şah əsəridir. O məhz bu gün üçün gecəsini gündüzünə qatıb çalışırdı. Xalqını, millətini xoşbəxt, firavan görmək onun ən böyük arzusu idi.

Əminəm ki, gələcəyimiz daha parlaq olacaq. Çünki babamızın siyasətini onun yetişdirdiyi, tərbiyə verdiyi, vətən eşqi ilə böyütdüyü İlham Əliyev davam etdirir. O hər bir addımı ilə sübut edir ki, babamızın siyasi varisidir. Bu işdə ona xanımı Mehriban Əliyeva dəstək olur. Onlar babamızın ideyalarını yaşadırlar və yaşadacaqlar. Prezidentimizin gördüyü saysız-hesabsız işlər bizi gələcəyə nikbin baxmağa ruhlandırır.

İlham Əliyevlə Azərbaycan daha da inkişaf edəcəkdir.

Heydər Əliyevin adı qurub-yaratdığı Azərbaycanın adı ilə əbədi yaşayacaqdır. Nə qədər ki müstəqil Azərbaycan var, nə qədər ki müstəqil Azərbaycan xalqı var, Heydər Əliyev ürəklərdə yaşayacaqdır. Onun mənalı həyat yolu xalqımızın bu günündən sabahına uzanan bir körpüdür. Bu ömür xalqına bağışlanmış bir ömürdür.





## *Ələkbərova Sürəyya Kamal qızı*

***Şərur şəhəri, 2 nömrəli tam orta məktəbin XI sinif şagirdi***

Heydər Əliyev Azərbaycan müstəqilliyinin tarixi yaradıcısıdır. O, neçə ömürlərə bəs edən bir ömür yaşamışdır. Qarşılaşdığı bütün dramatik şəraitlərdən, çıxılmaz və ağır anlardan qalib kimi çıxmışdır.

Heydər Əliyev totalitarizm labirintlərindən Azərbaycanı məharətlə və salamat çıxarmış, SSRİ dağıldıqdan sonra isə Azərbaycan siyasi liderin təcrübəsindən bir daha yararlanmışdı.

O, ölkədə stabilliyi bərqərar etdi, həmçinin Azərbaycanı dünya arenasında sayılıb seçilən ölkələr içərisinə çıxartdı.

Heydər Əliyev 10 may 1923-cü ildə Naxçıvan şəhərində fəhlə ailəsində anadan olmuşdur. Sonra Azərbaycan Respublikasının Dövlət Təhlükəsizlik Komitəsinin rəhbəri, Azərbaycan Respublikası Kommunist Partiyasının Mərkəzi Komitəsinin birinci katibi, SSRİ Nazirlər Kabineti sədrinin birinci müavini vəzifəsinə qədər yüksəlmişdir. 1993-cü ilin oktyabr ayında müstəqil Azərbaycanın sayca üçüncü prezidenti seçilmişdir. Avtoritet, müdrik və uğurlu siyasətçi olan Heydər Əliyev 34 il məmləkətimizə rəhbərlik etmişdir.

Heydər Əliyev fantastik zəhmətkeşliyə malik bir şəxs idi. Onun iş günü 11–12 saat davam edirdi. O, gözəl natiq idi və heç bir çətinlik çəkmədən, qabaqcadan hazırlaşmadan hər hansı mövzu barəsində saatlarla danışa bilərdi. Heydər Əliyev xariqüladə dözümlüyə və polad əsəblərə malik idi. Vətəndaş müharibəsinə sürüklənmiş ölkəni xilas edən Heydər Əliyev məmləkətə tarixi perspektiv bəxş etdi. Çəkdiyi bu zəhmətlərə görə, yəqin ki, onun ardıcılları onun ölkə siyasətində yerini Türkiyədə prezident olmuş Atatürklə, Fransada general Şarl de Qolla, Amerikada Ruzveltlə müqayisə edəcəklər.

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev hələ 1993-cü ilin 15 iyununda Milli Məclisin tarixi iclasında ölkə parlamentinin başçısı seçilərkən demişdi: «Azərbaycan Respublikasının bugünkü ağır, mürəkkəb və gərgin vəziyyətini tam məsuliyyətlə dərk edirəm... Azərbaycan xalqının tarixi nailiyyəti olan Azərbaycan Respublikasının dövlət müstəqilliyini qorumağı, möhkəmləndirməyi, inkişaf etdirməyi özüm üçün ən əsas vəzifələrdən biri hesab edirəm... Heç kəsin şübhəsi olmasın ki, ömrümün bundan sonrakı hissəsini harada olursa-olsun, yalnız və yalnız Azərbaycan Respublikasının müstəqil dövlət kimi inkişaf etməsinə həsr edəcəyəm. Azərbaycan Respublikası bundan sonra da onun başına nə gəlirsə-gəlsin, müstəqilliyini itirməyəcək, yenidən heç bir dövlətin tərkibinə daxil olmayacaq, heç bir dövlətin əsarəti altına düşməyəcək».

Həmin sözlər deyilərkən ölkəmiz ağır günlərini yaşayırdı. Azərbaycan vətəndaş müharibəsi ərəfəsində, qanımız bahasına əldə etdiyimiz müstəqillik təhlükə altında idi. Xalqın təkidi ilə Heydər Əliyevin Bakıya dəvəti və hakimiyyətə qayıdışı yaranmış ağır vəziyyətdən çıxışa yol açdı. Ən əvvəl qardaş qırğınının qarşısı alındı. Əllərdə oyuncağa çevrilmiş silahlar yığıldı. İnsanların bir-birinə yad münasibətlərinə son qoyuldu. Soyğunçuluq, talançılıq dayandırıldı. Cinayətkarlar məsuliyyətə cəlb edildi. Hüquqi dövlətin əsası qoyuldu. Bütün bunlara nail olmaq üçün isə böyük zəka və tükənməz enerji sərf etmək lazım gəldi.

Bugünkü sabitliyin, quruculuq işlərinin, demokratiya sahəsində əldə olunan nailiyyətlərin hamısı məhz böyük prezidentimiz Heydər Əliyevin adı və fəaliyyəti ilə bağlıdır.

Heydər Əliyev öz xalqı qarşısında övladlıq borcunun məsuliyyətini dərk edərək onun çağırışını cavabsız qoymadı, millətin ağır günündə xilaskar kimi siyasi səhnəyə qayıdaraq ona olan etimadı yüksək səviyyədə doğrultdu.

Bir neçə il bundan əvvəl Moskvanın Ostankino televiziyasının məşhur «Pole çudes» verilişinə baxırdım. Oyunun final mərhələsində finala çıxmış qadına aparıcı belə bir sual verdi: «Dünyanın ən məşhur siyasətçisi kimdir?» Qadın heç düşünmədən: «Əlbəttə, Heydər Əliyev!» – dedi. Cavab düz idi. Həmin anlarda qəlbimi bir iftixar hissi bürüdü, yüksək qürur hissi keçirdim.

Mən bu gün özümü xoşbəxt sanıram. Ona görə ki, Heydər Əliyevin prezident olduğu bir ölkədə yaşayıram. Ona görə ki, bütün xalqımız kimi, mən də onun ideyalarına inanıram. İnanıram ki, onun ideyaları sayəsində Azərbaycan yüksək inkişaf səviyyəsinə qalxacaq, xalqımız xoşbəxt və firavan bir həyat sürəcəkdir.



Heydər Əliyev respublikamıza müxtəlif ictimai-siyasi formasiyalarda rəhbərlik etmişdir və bu cəhətdən onun Azərbaycana rəhbərlik illərini iki mərhələyə bölmək olar. Birinci mərhələ 1969–1985-ci illəri əhatə edir. Heydər Əliyev ikinci dəfə Azərbaycan Respublikası müstəqillik qazandıqdan sonra – 1993–2003-cü illərdə rəhbərlik etmişdir. Böyük öndər 1993-cü ilin iyun ayında ikinci dəfə Azərbaycanın ali rəhbərliyinə qayıdanda ölkəmizdə çox ağır vəziyyət hökm sürürdü. Ayrı-ayrı qüvvələr, nadan siyasətçilər Azərbaycanı vətəndaş qarşıdurmasının astanasına gətirib çıxarmışdılar, müstəqilliyimizin əldən getməsi, ölkənin parçalanma təhlükəsi yaranmışdı. Belə ağır vəziyyətdə xalq öz böyük oğlu Heydər Əliyevi Azərbaycana rəhbərliyə dəvət etdi. Xalqının səsinə səs verən və xalqına arxalanan Heydər Əliyev özünəməxsus müdrikliklə xaosun qarşısını aldı, Azərbaycanı ahəngdar relslərin üstünə çıxartdı.

Buna görə də Heydər Əliyevin adı tarixə digər böyük xidmətləri ilə yanaşı, ilk növbədə, müstəqil Azərbaycanın qurucusu kimi daxil olmuşdur. Onun rəhbərliyi altında keçən illər respublikamız üçün sabitliyin möhkəmlənməsi, iqtisadi çiçəklənmə, nüfuzlu beynəlxalq təşkilatlarla, dünya dövlətləri ilə sıx əməkdaşlıq qurulması, əhalinin rifah halının yaxşılaşması illəri olmuşdur.

Ümummilli lider Heydər Əliyev üçün ən böyük ağrı xalqın, Vətənin ağrısı idi. Məmləkətin ayağına dəyən daş onun qəlbinə dəyirdi. Bu sözləri yazarkən 1990-cı ilin qanlı 20 Yanvar faciəsi yada düşür. Azərbaycanın üstünə qoşun yeridiləndə, günahsız soydaşlarımız qətlə yetiriləndə Heydər Əliyev xalqımıza qarşı törədilən bu ağır cinayətə laqeyd yanaşa bilmədi. O, təqiblərə, özünə və ailəsinə yönələn təhlükələrə məhəl qoymadan respublikamızın Moskvadakı daimi nümayəndəliyinə gələrək ittifaq rəhbərliyinin vəhşi hərəkətlərinə qəti etirazını bildirdi. Həmin dövrdə qapalı həyat tərzi keçirməyə məcbur edilən insan üçün belə bir addımı atmaq, sözün əsl mənasında, qəhrəmanlığa bərabər idi.

Bəli, Heydər Əliyevin böyüklüyü, ilk növbədə, onun milliliyində, mənsub olduğu xalqa, adət-ənənələrə bağlılığında, vətənpərvərliyində idi. O, varlığı, duyğuları ilə əsl azərbaycanlı idi. Heydər Əliyevin həyatsevərliyinin, bitib-tükənməyən həvəsinin təməlində ana Vətən, doğma Azərbaycan dayanırdı. Bu böyük insan köklərə möhkəm bağlı olduğuna görə güclü, qüdrətli idi.

Böyük öndər bütün həyatı və fəaliyyəti boyu xalqını özünə arxa sanmış və özü də xalqa dayaq durmuşdur. Dillər əzbəri olan «Xalq–Heydər, Heydər–Xalq» deyimi də məhz bu qırılmaz bağlılığın dəqiq ifadəsidir.



## *İbrahimova İnnab Elsevər qızı*

***Ordubad şəhəri, 3 nömrəli tam orta məktəbin XI sinif şagirdi***

Dünya tarixini vərəqlədikcə qüdrətli zəka sahiblərinə, dünyaşöhrətli siyasətçilərə nadir hallarda rast gəlinir. Xalqımıza Tanrı tərəfindən bəxş olunan belə şəxsiyyətlərdən biri də türk dünyasının böyük siması, müstəqil Azərbaycanın qurucusu və xilaskarı ulu öndərimiz Heydər Əliyevdir. Onun adı Azərbaycan xalqının tarixi salnaməsinə qızıl hərflərlə həkk olunmuşdur.

Ümummilli lider Heydər Əliyev yalnız və yalnız Azərbaycan üçün yaşadı, xalqı, Vətəni üçün mübarizə apardı.1969-cu ildə onun Azərbaycan siyasi rəhbərliyinə gəlişi dövlətçilik tariximizdə mühüm əhəmiyyət kəsb etdi.

Heydər Əliyev Azərbaycan və onun xalqının rifahı, respublikamızın ildən-ilə yüksəlişi, dünyada tanınması naminə əlindən gələni əsirgəmədi. Azərbaycanın otuz beş ilə yaxın bir dövrü, bu illər ərzində xalqın ictimai-siyasi, iqtisadi-mədəni həyatının bütün sahələrində yüksəliş tarixi bu böyük şəxsiyyətin adı ilə qırılmaz tellərlə bağlıdır.

Ümummilli liderimizin xalq və Vətən naminə gördüyü işlər və söylədiyi hər bir söz xalqımızın milli sərvətidir.

«Mənim yaratdığım hər şey mənim üçün əzizdir. Zavod da, fabrik də, elektrik stansiyaları da, saraylar da – hər bir şey. Amma mənim üçün hər şeydən əziz mənim torpağımdır», – deyən ulu öndər Heydər Əliyev alovlu vətənpərvər, millətsevər olduğunu təsdiq edirdi. Bütün bunlar onun əməli fəaliyyətində, ölkənin inkişafında öz əksini tapmışdır.

Təkcə qurub yaratmaqla öz işini bitmiş hesab etməyən bu tarixi şəxsiyyət millətin adət-ənənələrinə, milli-mənəvi dəyərlərə çox böyük hörmət bəsləyir, xalqın dərdi-sərinə şərik çıxır, ən çətin anlarda xalqı ilə birlikdə olur və çətinlikləri böyük ustalıqla aradan qaldırmağı bacarırdı.



Azərbaycanda yaşayan xalqların monolit birliyini, dilindən, dinindən, etnik mənsubiyyətindən asılı olmayaraq, Azərbaycanın – burada yaşayan hər bir kəsin doğma ata-baba yurdu, vahid coğrafi-siyasi məkanda bütün vətəndaşların hüquq və azadlıqlarının təminatı onun tərəfindən böyük ustalıqla həyata keçirilirdi. O, eyni zamanda Azərbaycan vətəndaşı olmağın, azərbaycanlı adını daşımağın məsuliyyətini dərk etməyi, vətənə ləyaqətlə xidmət göstərməyi tövsiyə edirdi. Ümummilli Liderin «Hər bir insan üçün milli mənsubiyyəti onun qürur mənbəyidir» aforizmi uzaqgörənliklə söylənmişdir.

«Mən həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam» çağırışı bu günümüzə, gələcəyimizə ünvanlanmış əsl vətəndaşlıq qayəsi kimi qiymətləndirilməlidir.

Beləliklə, dahi şəxsiyyət dövlət rəhbərinə, azərbaycanlıya xas gözəl nə varsa, onların hamısını öz timsalında cəmləşdirmişdi. Dünyaşöhrətli siyasətçi Azərbaycanı çox çətinliklərdən çıxararaq düz yola apardı.

Dövlət başçısı necə olmalıdır? Əsl azərbaycanlı hansı xüsusiyyətlərə malik olmalıdır? – kimi bir çox suallara cavab tapmaq üçün Ulu Öndərimizin həyat və fəaliyyətinə möhkəm bələd olmaq lazımdır. Bu unudulmaz liderin bütöv əmək və həyat fəaliyyəti tədqiq olunmalı, öyrənilməlidir. Çünki Azərbaycanı böyük çətinliklərdən xilas edərək düz yola çıxaran bu böyük xilaskar onun gələcək inkişafını müəyyənləşdirdi.

Türk dünyasının Atatürkü qədər özünə şöhrət tapan, adı və əməlləri ilə xalqın sevimlisi olan ulu öndərimiz Heydər Əliyev hər bir azərbaycanlının, hər bir Azərbaycan gəncinin həyatında örnək, nümunəvi, parlaq ziyalı bir rəhbər, dahi bir şəxsiyyət kimi yaddaşlara həkk olunmuşdur.

Dahilər, qəhrəmanlar doğulmurlar, onlar öz əməlləri ilə bunu qazanır və ucalır, zirvələr fəth edir, qəhrəman, yaxud dahi şəxsiyyət olurlar. Ümummilli liderimiz Heydər Əliyev də məhz belə şəxsiyyətlərdəndir.

Bəli, o, Azərbaycan xalqının dahi oğlu, Vətənimizi yüksək zirvələrə ucaldan, əbədi bir rəhbər oldu. Onun apardığı hər bir siyasət, bütün islahatlar, gördüyü işlər xalqın ürəyindən xəbər verən, xalqın arzusunu, istəyini ifadə edən işlər idi. O, nəinki yaşlı nəslin, nəinki ata-anaların, həmçinin yeniyetmə gənclərin, uşaqların sevimlisi idi. Ulu Öndərimizin o parlaq siması, o təbəssüm dolu baxışları, qayğı dolu gözləri hər bir azərbaycanlının həyatında dərin bir iz buraxmışdır.

34 illik hakimiyyəti dövründə xalqın ən mühüm işlərində öndə gedərək, ağır yükü öz çiyinlərində daşıyaraq böyük bir rəhbər, unudulmaz bir

insan oldu. Düşmənə qarşı qorxmadan, çəkinmədən xalqla birlikdə olduğunu dönə-dönə sübut etdi.

Azərbaycanda tökülən qanlar dayandı. Onun səyi və iradəsi nəticəsində atəşkəs elan edildi. Azərbaycan öz müstəqilliyini qazandı. Hamı rahat nəfəs almağa başladı. Ulu Öndər xalqını yaşatdı. Azərbaycanın üçrəngli bayrağını dünyanın ən yüksək təşkilatlarında, böyük şəhərlərdə dalğalandırdı. Qurduğu iş planları ilə dünya ölkələrinin Azərbaycana olan marağı daha da artdı. Yeni islahatlar başlandı. Azərbaycan öz sərvətinin sahibi oldu. Qaçqınlara böyük qayğı göstərildi. Şəhid ailələrinə yardımlar edildi. Onların ailəsinə böyük hörmət, yüksək dəyər verildi. Gənclərə qayğı artdı, onlar üçün yeni iş yerləri, istirahət, idman kompleksləri salındı. Azərbaycan idmanı beynəlxalq aləmdə tanınmağa başladı. Təhsilimizin, mədəniyyətimizin, musiqimizin inkişafı böyük vüsət aldı. Azərbaycan tanındı, inkişaf etməyə başladı. O dahi şəxsiyyət yenidən «Azərbaycan» adlı möhtəşəm əsərini yaratdı.

Onun əməlləri, gördüyü işlər saymaqla bitməz. Bəli, Ümummilli Lider hər kəsin həyatına girdi, hamının qəlbinə yol tapdı. İndi o bizimlə olmasa da, arzuları, əməlləri, xeyirxah işləri bizimlədir. Bu gün Ulu Öndərimizin siyasətini onun layiqli davamçısı, möhtərəm prezidentimiz İlham Əliyev uğurla davam etdirir.

Bu gün Heydər Əliyev siyasəti yaşayır, davam etdirilir, yeni formalarla zənginləşir. Heydər Əliyev siyasətinin, siyasi kursunun davamı dövlətin milli maraqları və xalqın mənafeyi ilə tam uzlaşır. Əlbəttə ki, Prezident İlham Əliyevin xalq tərəfindən dəstəklənməsini şərtləndirən amillər onun yalnız Heydər Əliyev siyasi kursunun davamçısı olması ilə bitmir. Buraya möhtərəm prezidentimiz İlham Əliyevin siyasi imici, təmiz karyerası, diplomatik keyfiyyətləri, vaxtilə dünyanın iri neft şirkətləri ilə aparılan danışıqların uğurla başa çatmasında xidmətləri və digər amillər də daxildir. O, nüfuzlu rəhbər kimi Heydər Əliyev ideyalarına dərin sədaqətini Azərbaycanın müstəqilliyinə göstərdiyi xidmətlərlə sübut etməkdədir. Sabitliyi dönməz bir prosesə çevirmək, islahatları uğurla tamamlamaq və əhalinin rifahını yaxşılaşdırmaq İlham Əliyevin fəaliyyətinin əsasını təşkil edir.

O, Azərbaycanı XXI əsrin tələblərinə, dövrün, zamanın ruhuna uyğun olaraq təkmilləşdirən və inkişaf etdirən bir liderdir. İlham Əliyev az müddətdə Azərbaycanın qonşu və uzaq dövlətlərlə mehriban dostluq və əməkdaşlıq münasibətləri yaratmasına nail oldu. Təbii ki, bu gün Azərbaycan dövləti üçün prioritet mövzu Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin ölkəmizin ərazi bütövlüyü çərçivəsində həllidir. Hörmətli



prezidentimiz bütün xarici səfərlərində keçirdiyi görüşlərdə problemin beynəlxalq hüquq normaları çərçivəsində həllinin vacibliyini bildirir, Ermənistanın təcavüzkar siyasətini ifşa edir.

İnanırıq ki, bütün sahələrdə böyük uğurlar əldə etməyə nail olan görkəmli dövlət xadimi doğma torpaqlarımızın geri qaytarılmasına, qaçqın və köçkünlərimizin doğma ocaqlarına qayıdacaqlarına da nail olacaq, xalqımızın Qarabağ həsrətinə son qoyulacaqdır.

*Bu bahar bir özgə bahar olacaq,*
*Qələbə müjdəli zəfər baharı.*
*Ağdama, Şuşaya zəfər olacaq*
*Sınacaq həsrətin şaxta, buz, qarı.*
*Duman çəkiləcək, çən çəkiləcək,*
*Doğma Qarabağda dan söküləcək*
*Daşacaq zəhmətin bəhəri, barı,*
*Çin olacaq elin sülh arzuları.*

Azərbaycan rəhbəri kimi prezidentimizin gördüyü işlər deməyə əsas verir ki, Azərbaycan yaxın gələcəkdə fövqəldövlətə çevriləcəkdir. Xalqımız daha xoşbəxt və firavan günlərə qovuşacaqdır. Bu günləri xalqımıza bəxş etmək üçün möhtərəm prezidentimizə gələcək fəaliyyətində uğurlar arzulayırıq.



## Cəfərli Əmrah Nadir oğlu

***Naxçıvan şəhəri, 11 nömrəli tam orta məktəbin IX sinif şagirdi***

Azərbaycan xalqının tarixində dövlət xadimləri çox olmuşdur. Belə tarixi şəxsiyyətlər içərisində Azərbaycan xalqının ümummilli lideri adını qazanmış dövlət xadimi, dünyamiqyaslı siyasətçi Heydər Əliyevin xüsusi rolu vardır. O, 1923-cü ildə Naxçıvan şəhərində anadan olmuşdur. 1944-cü ildə iş fəaliyyətinə başlamış, ta ömrünün sonuna qədər gərgin əməklə məşğul olmuşdur.

Ən yüksək vəzifələrdə fəaliyyət göstərmişdir. Hətta SSRİ Nazirlər soveti sədrinin birinci müavini kimi məsul vəzifəyə təyin olunmuşdur. Hansı vəzifədə işləməyindən asılı olmayaraq, Azərbaycanın taleyini düşünmüş, ona biganə qalmamışdır.

Adı müasir tariximizə qızıl hərflərlə yazılan Heydər Əliyevi ancaq yeri-göyü işığa qərq edən, qaranlıqları aydınlaşdıran günəşlə, bir də qartal məskəni, uca göylərə yüksələn zirvə ilə müqayisə etmək mümkündür. O, bütün cəhətlərə görə hər zaman zirvədə dayanacaq bir şəxsiyyətdir. Onun zəkası, ideyaları daim Azərbaycanın üzərində günəş kimi parlamış, yolumuzu nura qərq etmişdir. Xalqımız fəxr edə bilər ki, onun ləyaqətli övladı Heydər Əliyev hələ sağlığında öz adını dünyanın sayılıb-seçilən görkəmli dövlət xadimlərinin, tarixi simaların siyahısına yazmış və bununla da hər birimizə başucalığı gətirmişdir.

Həyatının böyük hissəsini vətəninə, torpağına, xalqına həsr etmiş ulu öndərimiz Heydər Əliyev hər zaman azərbaycanlı olması ilə fəxr etmişdir. İstər Azərbaycana rəhbərlik etdiyi illər ərzində, istərsə də SSRİ adlanan bir imperiyada fəxri kürsülərdə əyləşdiyi, fəaliyyət göstərdiyi zamanlarda Azərbaycan məhəbbəti, azərbaycançılıq hisləri bir an da olsa onu tərk etməmişdir. O, Vətəndə də, Vətəndən uzaqlarda da olduğu vaxtlarda özünü vətənində xalqı ilə bir yerdə hiss etmişdir.



Heydər Əliyevin dövlətçiliyimizin ən ağır günlərində göstərdiyi fəaliyyət və iradə sonsuz vətən sevgisinin parlaq nümunəsidir. Əsl vətəndaş, gözəl tarixi şəxsiyyət olan Heydər Əliyev millətini, torpağını sevmiş, onu labüd fəlakətlərdən qurtarıb, qiyam cəhdlərindən xilas etmişdir. Ulu Öndərimiz ömrünün hər bir anında vətən, xalq sevgisindən uzaq olmamış, daim qəlbi gənclik eşqi ilə alışıb-yanmışdır. Belə bir deyim var: «Adam var ev üçün, adam da var el üçün doğulur». Ulu Tanrı bəşər övladının düçar olduğu sıxıntıdan, üzləşdiyi bəladan xilas olması üçün hər əsrdə ona bir dahi şəxs bəxş edir. Bu baxımdan Azərbaycan xalqı Tanrıya daha yaxın olan xalqdır. Allahın bu millətə bəxş etdiyi bu dahi Heydər Əlirza oğlu Əliyevdir.

Heydər Əliyev heç bir çərçivəyə sığmayan, öz xalqının, vətəninin xoşbəxtliyi və azadlığı naminə canından belə keçməyə hazır olan fədakar insan idi. O, Azərbaycan tarixinin tək-tək dahilərinə, böyük dövlət xadimlərinə nəsib olan əvəzsiz işlər görmüş, doğma Azərbaycanımız naminə misilsiz fəaliyyət göstərmişdir. Tarix bu şəxsiyyətin işini, əməllərini, özü öz səhifəsinə yazaraq yetişən nəsillərə məğrurluqla çatdıracaqdır.

Ümummilli Liderimiz həyatı boyu parlaq zəkası ilə doğma xalqına təmənnasız xidmət etmiş, qəlbən millətinə bağlı olmuşdur. Azərbaycan məhv olmaq təhlükəsi qarşısında qalanda vətənimizin xilası üçün 1990-cı ilin iyul ayının 20-də Moskvadan Bakıya, iki gün sonra isə Naxçıvana qayıtmışdı. Azərbaycanın xilası 1990-cı ilin 22 iyulunda Naxçıvandan başlandı. Ölkəmizin belə bir dövründə Naxçıvan Muxtar Respublikasının adından «Sovet Sosialist» sözlərinin çıxarılması müstəqil dövlət quruculuğu yolunda atılan ilk addımlar idi. Naxçıvanda başlanan bu yol sonrakı dövrdə bütün Azərbaycanın nicat yoluna çevrildi.

Tale 1993-cü ildə Azərbaycanı növbəti dəfə çətin sınaqlarla üz-üzə qoyanda xalqın yeganə xilaskar kimi Heydər Əliyevi hakimiyyətdə görmək istəyi məhz bu gerçəklikdən qaynaqlanırdı. Ulu öndər Heydər Əliyevin hakimiyyətə qayıdışı ilə Azərbaycan qədim tarixinin əzəmətli bir mərhələsinə qədəm qoydu. Heydər Əliyevin zərgər dəqiqliyi ilə ölçülmüş siyasəti nəticəsində Azərbaycanın beynəlxalq nüfuzu yüksəldi, respublikamız sürətlə dünya dövlətləri birliyinə, inteqrasiya prosesinə qoşuldu. İndi Azərbaycan özünün şərəfli və məsul günlərini yaşayır.

Ümummilli liderimiz Heydər Əliyevin dövlətçilik tarixində rolu əvəzsizdir. Azərbaycan tarixinin 40 ilə yaxın müddəti əhatə edən dövrü, bila-

vasitə, Heydər Əliyevin adı ilə bağlıdır. Bu mərhələdəki bütün uğurlarımızın, siyasi, iqtisadi, sosial-mədəni tərəqqimizin ilhamvericisi, təminatçısı odur.

Bu böyük insanın parlaq əməlləri, möhtəşəm fəaliyyəti dünya durduqca nəsillərə örnəkdir. Yurdu, milləti, vətəni sevməyin, ona fədakar xidmət etməyin, əsl dövlət başçısı və xalq adamı olmağın etalonu da məhz Ümummilli Liderimizdir. Ulu Öndər bütün həyatı və fəaliyyəti boyu xalqa dayaq olmuşdur. Dillər əzbəri olan, bu gün də hamının güc aldığı «Xalq–Heydər, Heydər–Xalq» birliyi bu qırılmaz bağlılığın dəqiq ifadəsidir.

Dahi rəhbərin ideyaları müstəqil Azərbaycanın dinamik inkişafının uğur mənbəyidir. Ölkəmizdə daxili sabitlik bərqərar olub, döyüş bölgələrində atəşkəs əldə olunub. Bütün sahələrdə islahatlar keçirilib, ölkənin iqtisadi, siyasi və mədəni infrastrukturunun müstəqil Azərbaycanın dövlətçilik prinsipləri əsasında qurulması, tarixə «Əsrin müqaviləsi» kimi daxil olmuş neft müqavilələrinin imzalanması, tarixi İpək yolunun bərpası və Bakı–Ceyhan əsas ixrac neft kəmərinin çəkilişi sahəsində qlobal işlər görülüb. Bütün bu tarixi uğurlar Azərbaycanın dünya birliyində demokratik ölkə imicini yüksəldib.

Heydər Əliyevin Azərbaycanda həyata keçirdiyi uğurlu milli dövlət quruculuğu siyasəti müstəqilliyimizin atributlarının, dövlət rəmzlərinin tam formalaşmasına zəmin hazırlayıb. Müstəqil Azərbaycanın dövlət rəmzləri Azərbaycan Xalq Cümhuriyyətinin bizə miras qalmış tarixi milli-mənəvi və dövlətçilik dəyərlərindən biridir. Biz onlara hörmətlə yanaşmalı və qorumalıyıq.

Beləliklə, bu dahi insan tarixi yazan və yaradan, onu yönəltməyi və fövqündə durmağı bacaran nadir şəxsiyyətlərdən idi. O, təkcə güclü idarəedici deyil, həm də sözlərinin çəkisi, sanbalı olan, kütləni arxasınca aparmağı bacaran bir siyasi xadim idi. O, mahir psixoloq, insan qəlbinin dərin bilicisi idi. Buna görə də onun gələcəyi görmə qabiliyyəti başqalarına nisbətən daha güclü idi. Siyasətçilər bu dahi insanı «Liderlərin lideri» adlandırırdılar.

Biz qürur duyuruq ki, Naxçıvan torpağı belə bir dahini yetirib. Bu gün ölkəmiz bu siyasətin uğurlarını hiss edir, onunla yaşayır, faydalanır.

Heydər Əliyev siyasətinin Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsini aydın görən xalqımız bu siyasəti yüksək dəyərləndirir və onun ətrafında sıx birləşir.






## *Mehdiyeva Nəzrin Əmirxan qızı*

***Balakən şəhəri, 1 nömrəli tam orta məktəbin XI sinif şagirdi***


*«Ən böyük şəxsiyyətlər özündən çox mənsub olduğu millətin varlığı və qorunması yolunda həyatını verən insanlardır».*

**Mustafa Kamal Atatürk**

Əlimdə böyük bir həyəcanla tutduğum qələmim, qarşımda az sonra böyük bir ömrü, şərəfli həyat yolunu sığışdırmağa çalışacağım dəftərim, qəlbimdə isə sətirlərə tökülmək istəyən ürək sözlərim var. Yazacağım kiçik əsərin qəhrəmanı isə özündən çox mənsub olduğu millətin varlığı və qorunması yolunda həyatını verən, ömrünü xalqına bağışlayan, millətinin tarixinə öz adını yazmağı, üçrəngli bayrağımızı dünyanın dörd bir yanında dalğalandırmağı bacaran şəxsdir.

*Yaşamaq yanmaqdır, yanasan gərək*
*Həyatın mənası yalnız ondadır.*
*Şam əgər yanmırsa, yaşamır demək*
*Şamın yaşamağı yanmağındadır.*

Dahi şairimiz Bəxtiyar Vahabzadə bu misraları sanki o Tanrının bəxş etdiyi ömür payını öz xalqına bağışlayan dahi lider, ulu öndər Heydər Əlirza oğlu Əliyev haqqında yazmışdır.

1923-cü ilin mayında səmada qeyri-adi bir ulduz doğuldu, böyüdü, böyüdükcə nurlandı. Nurlandıqca ziyası artdı, «Qoca şərqin qapısı» zülmətdən azad oldu. Bu ulduzun parıltısına bütün dünya heyrətləndi. Bu ulduz sənsən, ey mənim tarixən başı qovğalı xalqımın ümid yeri, güvənc yeri, Heydər babam!

*Dahilər dahisi, ey böyük insan,*
*Fatehlər fatehi nəhəng sərkərdə.*
*Yandırıb qəlbini bir məşəl kimi,*
*Əlli il mərdanə durdun səngərdə.*

Heydər Əliyev, həqiqətən də, fenomen bir şəxsiyyət idi. Onun minlərdən, milyonlardan üstün cəhəti ondan ibarət idi ki, o, xalq üçün zəruri olan məqamları əvvəldən görür, saatlarla düşünür, qərar verir, qərarı həyata keçirmək üçün bütün qüvvələri səfərbər edir, düzgün istiqamətləndirirdi. Ulu öndər Heydər Əliyev Azərbaycanda müxtəlif sahələrin – iqtisadiyyatın, təhsilin, səhiyyənin inkişafı ilə bərabər, milli və bəşəri dəyərlərin təbliğatı ilə bağlı işlər də görürdü. «İqtisadiyyatı güclü olan dövlət hər şeyə qadirdir», – deyən Heydər Əliyev bu sahədə də planları məqsədəuyğun şəkildə həyata keçirirdi.

1993-cü ildə xalqın təkidi ilə yenidən siyasi rəhbərliyə qayıdan Heydər Əliyev dövlət quruculuğu ilə paralel, milli bayramların, tədbirlərin, tarixi yaddaşın bərpası ilə bağlı işlər gördü. Vaxtilə qadağan olunan milli və dini bayramlar xalqımıza geri qaytarıldı:

*O gəldi, özünə qayıtdı millət,*
*O gəldi, yüksəldi üçrəngli bayraq.*
*Gəzdi ölkə-ölkə şöhrəti, şanı,*
*Dünyaya tanıtdı Azərbaycanı.*

Heydər Əliyev qaranlıqdan doğan bir günəş, vətən üçün alovlanan bir atəş idi. O atəş ki, qəlbimizi isitdi, bizi nurlu sabahlara apardı, xalqının milli simvolu, görən gözü, vuran nəbzi, düşünən beyni oldu.

Heydər Əliyev sözünə, əməlinə sadiq, xalqın gələcəyini düşünən bir insan idi. O, nəvələrimizin babası, onu çox sevən körpələrin Heydər babası idi. Azərbaycançılıq, vətənpərvərlik, dövlətçilik ənənələrinə sadiqlik Heydər Əliyev ruhunun qidası idi.

Şəxsiyyətlər var ki, tarix onu öz səhifələrinə həkk edir, lakin şəxsiyyətlər də var ki, o özü tarix yaradır. Heydər Əliyev məhz belə şəxsiyyətlərdən idi. Tanrı ondan heç nəyi əsirgəməmişdi. Kamil bir insan üçün nə lazım idisə, böyük bir səxavətlə vermişdi ona.

Heydər Əliyevi çoxsaylı dünya liderləri və dühaları ilə müqayisə etmək olar. Ancaq mən və damarlarından azərbaycanlı qanı axan hər bir vətən övladı əminik ki, o bütün müqayisələrdə yenə də öndə olacaq. Çünki müqayisə olunanların hamısı qılınc gücünə, top gücünə arxalanıb, zora



üstünlük veriblər. Heydər Əliyev isə ağılla siyasəti birləşdirərək vətənini, xalqını qoruyub, dünyada lider olmağı bacarıb.

Heydər Əliyev rəhbər kimi müdrik və uzaqgörən idi. Ata kimi məsuliyyətli və qeyrətli, sərkərdə kimi qətiyyətli, baba kimi cəfakeş idi. O yalnız bir ocağın deyil, minlərin, milyonların pənahı idi. O, vətənpərvər bir övlad, yurdu, yuvası ilə fəxr edən bir insan idi. Onun sayəsində Azərbaycan xalqının tarixinə qızıl hərflərlə əvəzolunmaz səhifələr əlavə olundu.

*O, böyük bir insan, böyük bir aləm,*
*Adı xalqımızın fəxri adıdır.*
*Necə vəsf etməyim əlimdə qələm,*
*O mənim xalqımın iftixarıdır.*

Həqiqətən də, Heydər Əliyev bizim iftixarımız, qürur mənbəyimizdir.

Deyirlər, Tanrı insana çəkə bilməyəcəyi dərd verməz. Çoxsaylı işğal və talandan sonra Tanrı Azərbaycan taleyinə bir oğul bəxş etdi. Uca dağlardan qamətinə boy, mavi Xəzərdən gözlərinə rəng verdi. Görkəminə görə Vətəninə, müdrikliyinə, uzaqgörənliyinə, sədaqət və səxavətinə görə xalqına bənzətdi. Sonradan bu bənzəyiş «Heydər–xalq», «xalq–Heydər» vəhdətinə çevrildi. Bu vəhdətdən bəhrələnərək o, böyük bir ölkənin yükünü çiyinlərinə qaldırdı.

*Xalqı zirvələrə qaldırmaq üçün*
*Sevgi şahlığının taxtına çıxdın.*
*Oğul xalq üçündür, yürüş dağ üçün,*
*Nə yaxşı bu xalqın bəxtinə çıxdın.*

Heydər Əliyev mənim üçün bir tərbiyə məktəbidir. Çünki vətəni sevməyi, ana dilimə məhəbbəti ondan öyrənmişəm. Siyasətin kamil bilicisi kimi dünyada məşhur olan Heydər Əliyev xarici ölkələrə səfəri zamanı ana dilində danışmağı özünə fəxr bilirdi və gələcək nəsillərə ana dilimizi sevdirməyi bacardı. O bununla yanaşı, Milli Ordumuzun möhkəmləndirilməsində, mədəniyyətin, təhsilin inkişafında da əlindən gələni əsirgəmirdi. Ulu Öndər geridə qalmış aqrar bir ölkəni dünyanın inkişaf etmiş mütərəqqi dövlətlər sırasına qaldırmağa müvəffəq oldu. O, «Əsrin müqaviləsi»nin imzalanmasına nail oldu. Bu, siyasi qələbə idi.

Heydər Əliyev oxuduqca bitməyən bir kitabdır. Elə bir kitabdır ki, onu vərəqlədikcə səhifələrindəki dərin mənalar səni öz ağuşuna alıb aparır. Qurmaq, yaratmaq istəyirsən. Sənə miras qoyulan bu torpağın çiçəklən-

məsi üçün əlindən gələni etmək istəyirsən. Məncə, budur dahilik. Fəth etdiyin zirvələri özündən sonrakı nəsillərə ərmağan edən dahi! Dünya tarixinin azərbaycanlı dahisi! Dahilərin dahisi!

Çevik taktikaya, iti məntiqə, siyasi strategiyaya, millətin ictimai-siyasi tarazlığının saxlanması səriştəsinə malik olan Heydər Əliyev dünyadan köçdükdən sonra bizə böyük bir miras qoyub getdi. Prezidentimiz İlham Əliyev Heydər Əliyev kursunun layiqli davamçısıdır. O, hələ fəaliyyətinin ilk günlərindən demişdi: «Mən Heydər Əliyev kursunu inamla davam etdirəcəyəm». Atadan qalan müstəqillik varisliyini İlham Əliyev qoruyur və onu daha da möhkəmləndirir.

Mən müstəqil bir dövlətin vətəndaşı olduğum üçün fəxr edir, qürur duyuram. Üzümü Ulu Tanrıya tutub deyirəm: «Ulu Tanrım, qoru istiqlalımızı, yaşat onu qoruyanları!»

Sən ölmədin, Heydər baba! Sən vətən eşqi ilə əbədiliyə qovuşdun. Sən bizim qəlbimizə köçdün, yaddaşlarımıza həkk oldun.

İllər keçəcək, nəsillər bir-birini əvəz edəcək. Heydər Əliyevin yaratdığı Azərbaycan adlı bağçanın heç bir çiçəyi solmayacaq, bu bağçanın heç bir yarpağı xəzan görməyəcək, heç bir külək onu yıxa bilməyəcək. Bu vətənin övladlarının dilində əbədi olaraq yalnız bir ata sözü təkrarlanacaq: «Mən həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam!»

*Memarı olduğun Azərbaycanın,*
*Nə qədər adı var, yaşayacaqsan.*
*İnsana nur verən Ulu Tanrının*
*Sönməz günəşi tək parlayacaqsan.*





## *Hacızadə Rafət Mərasim oğlu*

*Astara rayonu, Kijəbə qəsəbə*
*tam orta məktəbin X sinif şagirdi*

Azərbaycan xalqı dünya xalqları arasında zəngin mədəniyyəti, şərəfli tarixi ilə öyündüyü kimi, yetirdiyi qəhrəman övladları ilə də daim fəxr etmiş, qürur duymuşdur. O qəhrəmanlar ki, daim dar ayaqda elinə, obasına dayaq olmuş, həyatını xalqına həsr etmişdir. Mən bu yazımda onlardan biri, lakin onlardan daha fərqli bir qəhrəman haqqında danışacağam – səbri, müdrikliyi, əzmkarlığı, xalqına və millətinə olan sonsuz sevgisi ilə bütün dünyanı heyrətləndirən ulu öndər Heydər Əliyev haqqında. Mənə elə gəlirdi ki, tanıdığım, mənə doğma, yaxın bir şəxsiyyət haqqında yazmaq o qədər də çətin olmayacaq. Lakin haqqında yazılanları oxuduqca, gördüyü böyük işlərə nəzər yetirdikcə bu şücaəti, bu əzəməti qələmə almağın nə qədər çətin olduğunu anlayıram. Çətinliyi qədər qürurverici olduğunu düşündükcə isə həvəslənirəm. Yaxşı dərk edirəm ki, Ulu Öndərin həyat və fəaliyyəti nəhayətsiz bir ümmandır. Ümmanın suyunu qətrə-qətrə boşaltmaq mümkün olmadığı kimi, kiçik bir inşada da Ulu Öndərin həyat fəaliyyətini tam şəkildə əhatə etmək qeyri-mümkündür. Bir sözlə, ürək dolu, qələm isə acizdir.

Heydər Əliyev Azərbaycan xalqının ümummilli lideridir. Ondan önceki qəhrəmanların, sərkərdələrin heç biri bu titulu daşımamışdır. Çoxmillətli ölkəmizdə məhz xalq tərəfindən bu titul ilk dəfə Heydər Əliyevə verilmişdir. O, lider olduğunu işi, əməli, zəkası, xalqına sədaqəti ilə, həyatı bahasına sübut etmişdir.

O, Azərbaycan adlı bir gəminin mahir kapitanı kimi, onu qayalara çırpılıb məhv olmağa qoymadı. Onu sərt dalğaların arasından məharətlə çıxarıb, işıqlı, xoş gələcəyə inamla yol aldı. Bu gün müstəqillik yollarında sürətlə addımlayan, iqtisadi uğurları, siyasi sabitliyi, elm, təhsil nailiyyət-

ləri ilə bütün dünyanın diqqət mərkəzində duran Azərbaycan Ulu Öndər müdrikliyinə, zəkasına borcludur. Bəzən televiziya ekranlarından dünyanın müxtəlif ölkələrində Ulu Öndərimizə ucaldılan abidələri, adını daşıyan parkları gördükcə qəlbimi fəxarət hissi bürüyür. Belə bir şəxsiyyət ilə eyni bir xalqın, eyni bir vətənin övladı olmağımla qürur duyuram, onun azərbaycanlı olması ilə qürur duyduğu kimi.

Heydər Əliyev haqqında dünyanın əksər siyasi liderləri fikirlər söyləmiş, heyrətlərini gizlədə bilməmişlər. Hamı onun dahiliyini, uzaqgörənliyini, qətiyyətini etiraf etməyə məcbur olmuşdur. Bu mənada ABŞ-ın sabiq prezidenti Bill Klintonun dediyi sözlər bunun bariz nümunəsidir: «Heydər Əliyev nəinki Azərbaycanı və ABŞ-ı, hətta bütün dünyanı idarə edə biləcək siyasi liderdir».

Bəli, o, böyük bir şəxsiyyət idi. Sözü ilə əməli bir olan şəxsiyyət. Bütün həyatını xalqına həsr etdi. İçindəki pak arzularını ilk fürsətdəcə reallaşdırdı. Siyasi müstəqillik, uğurlu neft strategiyası, daxili sabitlik, cəbhədə tökülən günahsız qanların kəsilməsi... yazmaqla bitməyən tikinti-quruculuq işləri onun illərlə qəlbində daşıdığı, sonra isə həyata keçirdiyi arzuları idi. Öz xalqını tanıyan, ona inanan Ulu Öndər bugünkü yüksəlişin möhkəm əsasını qoymaqla inanırdı ki, Azərbaycan dünyaya bir günəş kimi doğacaq. Bu gün Heydər Əliyev özü Azərbaycan üfüqlərində doğan bir günəşdir.

Öz əli ilə çəkdiyi «Azərbaycan» adlı əsərinə onun kimi yeni naxışlar, cizgilər əlavə edən prezidentimiz İlham Əliyev bu yola işıq saçır. Ölkəmizin xoş gələcəyi üçün bəslədiyi arzuların reallaşdığını gördükcə ruhu sevinir.

Rahat uyu, Ulu Öndərimiz! Sənin yolunu davam etdirən hər bir gənc günü-gündən gözəlləşən, inkişaf edən vətənimizin rifahı naminə prezidentimiz İlham Əliyevin ətrafında birləşərək, müstəqilliyimizin daha da əbədi olmasını təmin edəcəkdir.

*Ata günəş, oğul aydır,*
*İlahidən bizə paydır.*
*Zirvələrdə qoşa qartal*
*İlham – Heydər, Heydər – İlham.*

Ulu Öndərin adını daşıyan, Azərbaycanın birinci xanımı, millət vəkili Mehriban Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu bu gün dünyada beynəlxalq layihələrə imza atır, bütün dünyada vətənimizin nüfuzunu daha da qaldırır.



Bu gün bizi Ulu Öndər yoxluğundan 11 il ayırır. Bu, cismani yoxluqdur. Onsuz da nə vaxtsa hamımız bu dünyadan gedəcəyik. Ancaq Heydər Əliyev kimi insanlar xalqı, vətəni var olduqca, insanların qəlbində daim yaşayacaqdır.



## *Həsənli Ləman Rəfail qızı*

***Bakı şəhəri, Kimya-biologiya təmayüllü liseyin VIII sinif şagirdi***

Yazın əvvəlləri idi. İlıq may günəşi əngin səmanı, göz işlədikcə uzanıb gedən düzənlikləri öz isti nəfəsi ilə qızdırmağa çalışırdı. Ulu Naxçıvan öz adi günlərindən birini yaşayırdı. Buranın yerli sakini olan Əlirza kişinin evində bir qələbəlik, şadyanalıq vardı ki, gəl görəsən. Ailəyə yeni övlad gəlmişdi. Qonum-qonşu, qohum-əqrəba gözaydınlığına yığışdılar, «ayağı uğurlu, ruzi-bərəkətli olsun, ana-atasına, el-obasına layiq bir övlad kimi yetişsin» – dedilər və adını Heydər qoydular.

Aylar keçdi, illər ötdü. Əlirza kişinin balaca oğlu Heydər böyüyüb yaşa doldu. Orta məktəb, texnikum, böyüdüyü mühit, yaşadığı qədim Naxçıvan torpağı bu gəncin parlaq düşüncələrini gələcəkdə həyata keçirməsi üçün zəmin oldu. Dərin düşüncəyə, iti zəkaya, yüksək qavrama qabiliyyətinə malik olan bu gənc öz bacarığı və səyi nəticəsində ətrafdakıların sevimlisinə çevrilir. Gənc Heydərin sonrakı həyat yolu Azərbaycan Sənaye İnstitutundan keçir.

Başlanan müharibə o dövrdə bir çox insanlar kimi bu gənc tələbənin də həyatından izsiz ötüb keçmədi. Təhsilinə bir müddət ara verən Heydər Əliyev doğulduğu şəhərdə müxtəlif məsul vəzifələrdə işləyərək həyat təcrübəsi qazanmaqla yanaşı, yüksələn xətt üzrə inkişaf etməyə başladı. 1964-cü ildən Azərbaycan SSR Nazirlər Soveti yanında Dövlət Təhlükəsizliyi Komitəsinin sədr müavini, sonra isə sədri vəzifəsinə təyin edildi. Böyük əməllərin yorulmaz yolçusu sonrakı illərdə Leninqrad şəhərində xüsusi təhsil almış, 1957-ci ildə Azərbaycan Dövlət Universitetinin Tarix fakültəsinə daxil olmuşdur.

O, 1969-cu il iyul plenumunda Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin Birinci katibi vəzifəsinə təyin edilmişdir. Sonralar onun



səs-sorağı SSRİ rəhbərliyindən gəldi. Əlbəttə, bunların hamısı təkcə onun yox, bütövlükdə xalqımızın uğuru, zəfəri idi.

Bir insanın ləyaqətinin dəyəri heç nə ilə ölçülə bilməz, qaldı ki, bir xalqın milli hissiyyatı ola. Doxsanıncı illərdə xalqımıza qarşı törədilən faciələrə görə Heydər Əliyev böyük sarsıntı keçirdi. Bu ədalətsizliyə və xalqımıza qarşı törədilən böyük cinayətə etiraz olaraq tutduğu vəzifədən istefa verdi. Bu çətin dönəmdə xalqımızın yanında olmaq, kədərinə ortaq olmaq onun üçün çox önəmli idi.

Faciələrin baş verdiyi dövrdə nə edəcəyini, sabah hansı vəziyyətlə qarşılaşacağını bilməyən kütlə tufanda səmtini itirmiş nəhəng gəmiyə bənzəyirdi. Hara gedəcəyini, hansı qayalıqlara çırpılacağını, nəyə məruz qalacaqlarını bilmədən öz xilaskarlarını gözləyirdilər. Səmtini itirmiş gəmiyə öz işini səhvsiz yerinə yetirməyi bacaran və təcrübəli bir kapitan lazım idi. Bu xilaskar Heydər Əlirza oğlu Əliyev oldu. Doğrudur, itkilərimiz, qurbanlarımız oldu. Amma Heydər Əliyev öz gəmisini limana yönəldə bildi. Müstəqilliyimiz verilmədi, qanlar bahasına alındı. Bunun üçün də Vətən bizim üçün müqəddəs və əzizdir. Vətənimizin müqəddəs göylərində dalğalanan üçrəngli bayrağımızdakı qırmızı zolaq öz rəngini şəhidlərimizin qanından, göy rəngi sonsuz fəzanınənginliyindən, yaşıl rəngi isə füsunkar çəmənlərin, yamacların yaşıllığından almışdır. Üçrəngli bayrağımız Vətənimizin mavi səmasında dalğalandığı müddətdə canını qurban verənlərin ruhları dinclik tapacaq və qanları hədər getmiş olmayacaq.

İstər təhsil, səhiyyə, idman, iqtisadiyyatda, istərsə də dövlətlərarası və ölkədaxili münasibətlərdə əlaqələrin inkişaf edərək tərəqqiyə aparılmasında Heydər Əliyevin rolu çox böyük olmuşdur.

Hər bir millətin tərəqqi etdiyi dövrdə təlim və təhsilə olduqca önəm verilir. Məktəblərdə maddi-texniki bazaların möhkəmləndirilməsi, yeni dərsliklər, tədris plan və proqramlarının məzmunca yeniləşdirilməsi gələcək təhsilin inkişafı üçün vacibdir. Azərbaycan təhsili bu cür inkişaf etdiyi üçün hər kəs Heydər Əliyevə borcludur. Həmçinin Heydər Əliyev öz daxili və xarici siyasətindəki uğurları ilə Azərbaycanı iqtisadi cəhətdən dinamik inkişaf edən bir dövlətə çevirmişdir. Ümumiyyətlə, Heydər Əliyev vətənini, xalqını sevdiyi, ona sədaqətlə xidmət etdiyi kimi, Vətənimiz və xalqımız da onun xatirəsini əziz tutur, onu həmişə ehtiram və hörmətlə yad edir.



## *Məhərrəmli Aytən Saleh qızı*

***Oğuz şəhəri, 1 nömrəli tam orta məktəbin XI sinif şagirdi***

Tarixi reallıqlar təsdiqləyir ki, xalqları dünya miqyasında tanıdan, məşhurlaşdıran təkcə onların maddi-mədəniyyət inciləri deyil, həm də dünya siyasətində mühüm rol oynamış tarixi şəxsiyyətləridir. Müəyyən mürəkkəb və taleyüklü siyasi mərhələdə məsuliyyətdən çəkinməyərək dövlət iradəçiliyi missiyasını üzərinə götürmüş belə liderlər xalqlarının daim can atdığı azadlıq, müstəqillik və milli dövlətçilik kimi müqəddəs amallarının gerçəkləşməsində əvəzsiz rol oynayır, tarixdə əbədiyaşarlıq hüququ qazanırlar.

XX əsrdə xalqımızın yetişdirdiyi ən böyük tarixi şəxsiyyət – ümummilli liderimiz Heydər Əliyev müasir dövlətimizin ideoloji-siyasi əsaslarını milli-mənəvi dəyərlər zəminində yaradaraq, praktik surətdə həyata keçirmişdi. Yalnız bir yolla – bütöv və tam həqiqət yolu ilə gedən və böyük uğurlar qazanan Öndərimiz Azərbaycan xalqının tarixində şanlı salnamələr açmışdır.

«Mənim həyat amalım bütün varlığım qədər sevdiyim Azərbaycan xalqına, dövlətçiliyinə, ölkəmizin iqtisadi, siyasi, mənəvi inkişafına xidmət olub», – deyən rəhbərin dövlətçiliyimizin ən ağır günlərində göstərdiyi misli görünməmiş qətiyyət bu sözlərdəki gerçəkliyi dəfələrlə sübut edib. Əsl vətəndaş, tarixi şəxsiyyət kimi Heydər Əliyev millətini, torpağını fəlakətdən qurtarıb, ölkəni çevriliş, qiyam cəhdlərindən qoruyaraq sabitlik və firavanlığa təminat yaradıb.

Azərbaycanın son onilliklər ərzində əldə etdiyi uğurlar ümummilli lider Heydər Əliyevin həyat və fəaliyyəti ilə birbaşa bağlıdır. 1969-cu ildə onun ölkəmizin rəhbəri seçilməsi, əslində, çağdaş dövrümüzə Azərbaycanın sürətli və uzunmüddətli inkişafının əsasının qoyulması kimi daxil olmuşdur.



Hələ 1970–1980-ci illərdə haqq-ədalət uğrunda mücadiləni öz həyat kredosuna çevirməklə, hakimiyyətdə olduğu bütün dövrlərdə xalqın maraq və mənafeyini üstün tutmaqla və bununla da kütləvi-ictimai rəğbət qazanmaqla ümummilli lider Heydər Əliyev Azərbaycan xalqının əbədiyaşar liderinə çevrilmişdir.

Təsadüfi deyildir ki, Heydər Əliyevin respublikada hakimiyyətə gəlişindən sonrakı dövr, həm də milli özünüdərk və özünəqayıdışın başlanğıcı hesab olunur. Böyük öndər Heydər Əliyev qeyd edirdi ki, intellektual baza istənilən ölkədə milli müstəqilliyin əsasını təşkil edən ən mühüm amillərdən biridir. Hələ o dövrlərdə milli oyanışın yeganə yolunu xalqın yüksək təhsilində, maariflənməsində görmüş, elmin, təhsilin inkişafı üçün bütün zəruri tədbirləri həyata keçirmişdir. O, milli-hərbi kadrların hazırlanmasına xüsusi önəm vermişdir.

Heydər Əliyev ana dilimizin ictimai həyatımızdakı müstəsna roluna böyük əhəmiyyət vermiş, onun fəaliyyət dairəsinin genişləndirilməsi və inkişafına xüsusi diqqət yetirmişdir. Məhz böyük öndərimizin prinsipiallığı və qətiyyəti nəticəsində 1978-ci ildə Azərbaycan dili Konstitusiyada dövlət dili kimi təsbit olunmuşdur.

Beləliklə, Heydər Əliyev Azərbaycanın müstəqillik əldə edəcəyini öncədən görmüş, bunun üçün ölkədə iqtisadi-siyasi, intellektual və hüquqi baza formalaşdırmışdır. Bütün bu addımlar müstəqilliyimizin mövcudluğunun təmin edilməsinə yönəldiyindən 1991-ci ildə müstəqillik qazanan Azərbaycanın iqtisadi potensialı bir sıra ölkələrdə qibtə doğururdu.

Müstəqilliyin ilk illərində hakimiyyətdə olan səriştəsiz qüvvələrin yeritdiyi yarıtmaz siyasət üzündən demokratik və qüdrətli dövlətin yaradılması sadəcə xoş ideya olaraq qalırdı. 1991–1993-cü illərdə ölkədə iqtisadi tənəzzül güclənmiş, vətəndaş qarşıdurması parçalanma həddinə çatmışdı. Yalnız dəmir iradəyə, fitri idarəçilik qabiliyyətinə malik lider Azərbaycanın dövlət müstəqilliyini qorumaq və yaratmaq kimi ağır bir missiyanın öhdəsindən gələ bilərdi. Dövlətçiliyimizin məhv olması təhlükəsini dərindən hiss edən müdrik xalqımız bu acınacaqlı vəziyyətdə yeganə çıxış yolunu məhz Heydər Əliyevin şəxsində görmüşdür.

1993-cü ilin iyununda Bakıya gələn Heydər Əliyev ölkəni iflasdan, fəlakətdən qurtarmış, dirçəlişə, inkişafa yönəltmişdi. Bu qayıdış əsrlərin sınağından keçə-keçə, min bir əziyyətlə öz məqsədinə doğru addımlayan bir millətin özünəqayıdışına çevrilmişdir.

Məhz böyük siyasi xadimin gərgin səyi nəticəsində demokratik, hüquqi, dünyəvi dövlət quruculuğu yolu ilə gedən müstəqil respublikamızda insan-

ların azad, sərbəst yaşaması, qanunun aliliyinin təmin olunması yolunda ən yüksək tələblərə cavab verən hüquqi baza yaradıldı. Heydər Əliyevin rəhbərliyi altında hazırlanaraq 1995-ci ilin 12 noyabrında qəbul edilmiş müstəqil Azərbaycan Respublikasının ilk Konstitusiyası dövlətin gələcək inkişaf istiqamətlərini müəyyənləşdirməklə yanaşı, insanların hüquq və azadlıqlarının təmin olunmasını dövlətin ali məqsədi kimi ön plana çıxarmışdır.

Tarixin konkret məqamında Heydər Əliyev siyasi kursunun davam etdirilməsinin labüdlüyünü şərtləndirən amillər isə heç şübhəsiz ki, bu kursun bütünlüklə Azərbaycanın dövlətçilik maraqlarının həyata keçirilməsinə yönəldilməsindən ibarət idi. Belə bir zamanda Heydər Əliyev siyasətinin, dövlətçiliyimizin davam etdirilməsi zərurəti ortaya çıxırdı.

Hakimiyyətdə olduğu dövrlərdə dəfələrlə təsdiqini tapmış bu ideyaların tətbiqi dövlətçiliyimizin inkişafı, müstəqilliyimizin bütün dövrlərdə əbədiliyi, Azərbaycanın yüksəlişi deməkdir.

Ümummilli lider Heydər Əliyevin başladığı iş və irəli sürdüyü ideyalar bu gün İlham Əliyev tərəfindən yaradıcı şəkildə reallığa çevrildiyi Azərbaycan həyatının sevindirici gerçəklikləridir. Prezident İlham Əliyev xalqımızın mərdlik, müdriklik, cəsarət simvolu, böyük öndər Heydər Əliyevin davamçısı olmaqla, respublikaya rəhbərlik etməsi ilə xalqın inamını daha da artırır.

Dövlətimizin memarı olan Heydər Əliyevin başladığı bütün işlər, taleyüklü məsələlər, planlar, gənc dövlətin maraq və mənafeyinə uyğun müstəqil daxili və xarici siyasət İlham Əliyevin rəhbərliyi altında həyata keçirilir. Prezidentimiz İlham Əliyev başladığı hər bir işi həcmindən və mahiyyətindən asılı olmayaraq, ən yüksək nəticə ilə sona yetirmək iqtidarında olduğunu öz fəaliyyəti ilə təsdiqləyir. Xalqımıza bəllidir ki, ölkəmizin inkişafı, yüksəlişi, əhalinin rifahının yaxşılaşdırılması sahəsində Heydər Əliyev siyasətinin davam etdirilməsinin təminatı etibarlı əllərdədir.

Dövlətimizin və xalqımızın gələcəyi naminə görülən bu işlər insanlarımızın Heydər Əliyev siyasi kursuna inamını daha da artırır və bu kursun əbədiyaşarlığını təmin edir. İlham Əliyev də öz fəaliyyəti ilə təsdiqləyir ki, ümummilli liderimiz Heydər Əliyevin siyasəti Azərbaycanda daim yaşayacaqdır.





## *Nağıyeva Nəzifə Vüqar qızı*

***Bakı şəhəri, «Elitar» gimnaziyanın XI sinif şagirdi***

*«Heydər Əliyev Azərbaycan dövlətini və millətini zamanın ağır sınaqlarından çıxararaq ölkənin ictimai-siyasi və mədəni-mənəvi tərəqqisinə nail olmuş qüdrətli şəxsiyyətdir...».*

**İlham Əliyev,**
*Azərbaycan Respublikasının Prezidenti*

Bir məktəbli üçün Azərbaycan xalqının tarixində və taleyüklü məsələlərin həllində müstəsna xidmətləri olan tarixi şəxsiyyət haqqında söz demək heç də asan məsələ deyil.

Çünki Heydər Əlirza oğlu Əliyev xalqımızın milli iftixarı, ürəklərimizdə özünə yer tapan milli liderimiz, arxa bildiyimiz azərbaycanlı idi.

...1923-cü il mayın 10-da qədim Azərbaycan torpağı Naxçıvanda mavi-gözlü, sarışın saçlı bir oğlan dünyaya gəldi. İzzət nənə və Əlirza baba imanlı adamlar idilər. Ona görə öz övladlarına müsəlman aləmində geniş yayılmış və müqəddəs hesab olunan Heydər adını qoydular. Onda heç kəs bilmirdi ki, bu körpə XX əsrin dahi şəxsiyyətlərindəni biri olacaqdır. Heydər XX əsrin ikinci yarısı üçün Ulu Yaradanın Azərbaycan xalqına bəxş etdiyi ən böyük ərməğan idi. Heydər Əliyev öz adını Azərbaycanla, Azərbaycan xalqı üçün gördüyü böyük işlərlə əbədiləşdirmişdir. Heydər Əliyevin adı tarixə əbədi həkk olunmuşdur. Çünki o, Azərbaycan xalqının ən ağır vaxtlarında köməyi olmuşdur.

Məlum olduğu kimi, 60-cı illərin ortalarında Azərbaycan keçmiş ittifaq respublikaları arasında axırıncı yerdə dururdu. Ona görə Azərbaycan daim

tənbeh, tənqid, məzəmmət olunurdu. Elə bu anda Ulu Yaradan Heydər baba deyilən bir ər kişi, ulu insan yetirdi. O, rəhbərlik etdiyi 14 il ərzində Azərbaycanımızın, xalqımızın şərəfini, şöhrətini göylərə qaldırdı.

1993-cü ildə Heydər Əlirza oğlu Əliyev prezident seçildi. Həmin zamanda Azərbaycan tufanlı dənizdə yolunu azmış gəmini xatırladırdı. Onu ya qayalara çırpılaraq dağılmaq, ya da okeanda batıb qərq olmaq aqibəti gözləyirdi.

Lakin Heydər Əliyev ona qarşı edilən hədə-qorxulara məhəl qoymayaraq xalqını müdafiə etməyə çalışırdı. Elə bu amal uğrunda da öz həyatını çırağa döndərdi. Öz həyatını son zərrəsinə qədər şam kimi əritdi. Heydər baba nağıla, dastana, həqiqətdən yaranmış əfsanəyə döndü. Heydər Əliyev himn kimi, gerb kimi, bayraq kimi, azadlıq kimi dövlətçiliyimizin atributuna çevrildi.

Heydər Əliyev Bakıya qədəm qoyduğu ilk gündən hadisələr müsbət istiqamətdə cərəyan etməyə başladı. Vətəndaş müharibəsi təhlükəsi aradan qalxdı. Xalqımızda sabaha olan inam hissi bərpa olundu.

1993-cü ilin mayında uzun sürən, minlərlə insan həyatını məhv edən müharibədə atəşkəs elan olundu. Yaranmış fasilədən istifadə edən yeni iqtidar ölkədə siyasi sabitlik, iqtisadi yüksəliş, ordu quruculuğu məsələlərini ön plana çəkdi və əvvəlki hakimiyyətin dövründə fəaliyyəti hiss olunmayan xarici siyasət yeni mərhələyə qədəm qoydu. Bu siyasətin davamı olaraq «Əsrin müqaviləsi» adlandırılacaq müqavilələrin planları cızılmağa başlandı. Bu müqavilələr sayəsində Azərbaycan dünya birliyində yeni müttəfiqlər və tərəfdaşlar qazandı.

Heydər Əliyevin əməlləri zəfər bayrağımızdır, əbədi dalğalanacaq!

Möhtəşəm adı himnimizdir, daim səslənəcək!

Heydər Əliyev həmişə söyləyərdi ki, məni Allah qoruyur, xalqa lazım olduğum üçün yaşadır.

«Qoy xarici və daxili düşmənlər, şər qüvvələr bilsinlər ki, Allah-Taalanın hökmü qarşısında gücsüzdürlər». İlham Əliyevin bu sözlərini tarixdə olmuş, olan və olacaq xilaskarların taleyinə epiqraf seçmək olar.

*Əzəldən bir nur ki haqdan yanarsa,*
*Onu ildırımlar söndürə bilməz.*
*Allah ucaldanı dünya da qopsa,*
*Heç kəs yüksəklərdən endirə bilməz.*

Mən Heydər Əliyevin uşaqlara qayğısını, məhəbbətini məktəbə təzəcə qədəm qoyanda hiss etdim. Birincilərin pulsuz çanta və dərs ləvazimatları ilə təmin olunması onun uşaqlara qayğısından və sevgisindən xəbər verirdi.



Mən də o uşaqlar sırasında idim. Heydər Əliyevin nur saçan simasını gördüyüm və qayğısını hiss etdiyim üçün çox xoşbəxtəm.

Heydər Əliyev yaxşı əməlləri və xoş niyyətləri ilə mənim yaddaşımda qurucu və xilaskar kimi qalıb. Şübhəsiz, sağlığında fikri-zikri xalqa xidmətə köklənmiş dahi şəxsiyyəti ölüm də xalqdan ayıra bilməzdi. Görəsən, ömrünün son dəqiqələrində vətəndən uzaqlarda nələr düşünürdü Millət Atası? Mən əminəm ki, mübarizələrlə dolu həyatını təsəvvürünə gətirirdi. Sevdiyi xalqını fikirləşirdi. Memarı olduğu Azərbaycan canlanırdı xəyalında. Bəlkə də, daha çox balaca Heydər düşürdü yadına...

Heydər Əliyev sanki xalqına üz tutub deyirdi: «İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, işləri sizin dəstəyiniz və köməyinizlə İlham Əliyev başa çatdıracaq».

Mən inanıram ki, ulu öndər Heydər Əliyev ocağının istedadlı yetirməsi İlham Əliyev sayəsində bayrağımız Qarabağda dalğalanacaq!



## *Cavadova Gülər Mais qızı*

***Qobustan şəhəri, 2 nömrəli tam orta məktəbin X sinif şagirdi***

*... Ölüm sevinməsin qoy, ömrünü vermir bada,*
*El qədrini canından daha əziz bilənlər.*
*Şirin xatirətək qalacaqdır dünyada,*
*Sevərək yaşayanlar, sevilərək ölənlər!*

**Səməd Vurğun**

Mən sözlərimi dahi şairimiz Səməd Vurğunun bu gözəl misraları ilə başlamaq istəyirəm. Çünki bu yazıda ömrünü adi insanlar kimi yaşamayan, vətənimizin taleyi, xalqımızın gələcəyi üçün ömrünü şam kimi əridən bir şəxsiyyətdən, onun şərəfli ömür yolundan söhbət açacağam.

Bu şəxsiyyət adı Azərbaycanımızın tarixinə qızıl hərflərlə həkk olunmuş Heydər Əliyevdir. O, bir dahi idi. Azərbaycanı yaşadan, onun boz-bulanıq sularını duruldan, xalqımızı qaranlıqdan çıxarıb, işığa doğru aparan bir dahi!

Heydər Əliyev elə bir tarixi şəxsiyyətdir ki, onun fəaliyyəti zamana, əməlləri cild-cild kitablara sığmaz. Biz onun həyat yoluna nəzər saldıqda görəcəyik ki, Vətənə olan sonsuz məhəbbəti, xalqına olan sonsuz sevgisi qaranlıq yolda ona daim məşəl olub.

Heydər Əlirza oğlu Əliyev 1923-cü il mayın 10-da Azərbaycanın ən gözəl bölgələrindən biri olan Naxçıvanda anadan olub. Azərbaycan xalqı, Azərbaycan milləti onu vətənpərvər ruhda böyütmüş, qəlbini Vətən eşqi, millət sevgisiylə doldurmuşdur. O, altı yaşında məktəbə daxil olmuş, on altı yaşında Naxçıvan Pedaqoji Texnikumunu bitirmişdir. Sonralar Azərbaycan Sənaye İnstitutunda təhsil almağa başlamış, həmin vaxtlarda da Azərbaycan Xalq Daxili İşlər Komissarlığında işə başlamışdır. Heydər Əliyev öncə Dövlət Təhlükəsizlik Komitəsində sədr müavini olaraq işə



başlamış, sonralar həmin komitənin sədri olmuş və general-mayor rütbəsinə qədər yüksəlmişdir.

Ulu Öndər hakimiyyətə ilk dəfə 1969-cu ildə gəlmişdir. Onun getdiyi yol azadlıq yolu idi və bu dahi şəxsiyyət xalqını da getdiyi bu uğurlu yolla aparırdı. Doğrudan da, o, hakimiyyətə gələndən sonra Azərbaycanı müstəqilliyə addım-addım yaxınlaşdırırdı. Xalq ona arxalanırdı, o da xalqına.

Heydər Əliyev hakimiyyətin ona verdiyi bütün imkanlardan ölkənin inkişaf etdirilməsində istifadə edirdi. Bütün bu quruculuq işləri Azərbaycanı müstəqil həyata hazırlayırdı. Lakin bu, uzun sürmədi. Vətənimizin əlverişli coğrafi mövqedə yerləşməsi, torpaqlarının bol sərvətli olması mənfur düşmənlərin buraya göz dikməsinə səbəb oldu. Onların ən böyük işğalçılıq niyyəti Azərbaycanın ən gözəl guşələrindən biri olan Dağlıq Qarabağa olan iddiaları ilə başladı. Elə bu səbəbdən də Heydər Əliyev həmişə qətiyyətlə bildirirdi ki, «Dağlıq Qarabağ Azərbaycanın ayrılmaz hissəsidir və ayrılmaz hissəsi olaraq da qalacaqdır!»

Qanlı yanvarda xalqımızın başına gətirilən faciəyə ilk etiraz səsini Heydər Əliyev ucaltdı. Bu faciənin ertəsi günü o öz həyatını təhlükəyə ataraq Moskvaya getdi. Xalqımızın başına gətirilmiş bu vəhşilikləri ilk dəfə o, televiziya vasitəsi ilə bütün dünyaya çatdırdı. O zaman Azərbaycanda özbaşınalıq hökm sürürdü. Xalq yeni bir təhlükənin yaxınlaşdığını hiss edirdi və bütün ümidini Heydər Əliyevə bağlamışdı. Bu dahi şəxsiyyət daim xalqının müdafiəsinə hazır idi və o, xalqına arxalanaraq deyirdi: «Mən xalqıma arxalanıram və ömrümün qalan hissəsini də xalqıma bağışlayıram».

O, xalqına güvənirdi, arxalanırdı. O, xalqı üçün ömrünü şamtək əridirdi. Yana-yana yaşayırdı.

1993-cü il 15 İyun tarixi Azərbaycanın qurtuluş günüdür. Çünki bu gün Vətənin xilaskarı yenidən hakimiyyətə gəldi. Onun bu gəlişi ilə ölkədə olan özbaşınalıq, hakimiyyətsizlik, soyğunçuluq, talançılıq sona çatdı. Dahi şəxsiyyət qarşıda duran vəzifələri yerinə yetirmək üçün dayanmadan çalışırdı. Heydər Əliyev Azərbaycanı elmin, texnikanın, sənayenin durmadan inkişaf etdiyi bir ölkəyə çevirmək istəyirdi. İnkişaf etmiş Azərbaycanın – yeni Azərbaycanın təməlini Ulu Öndər elə o vaxtlardan qoymuşdu. Onun bu yaradıcılıq işləri getdikcə daha da inkişaf edirdi.

Heydər Əliyev hakimiyyətdə olarkən Azərbaycan yeni-yeni sahələrdə tanınmağa başladı. Azərbaycan Avropa Şurasına daxil oldu. Dünyanın əlli üç ölkəsi ilk dəfə olaraq Azərbaycanın ərazi bütövlüyünü tanıdı. Ulu Öndər xalqına azad bir həyat bəxş etdi. Sakit, firavan, gözəl bir həyat!

Heydər Əliyev Azərbaycan Respublikasının Konstitusiyasını, məhkəməsini yaratdı. Onun ən böyük xidmətlərindən biri də «Əsrin müqaviləsi» adlanan neft müqaviləsini bağlaması, dünya azərbaycanlılarının həmrəyliyini təmin etməsi və bu məqsədlə də Bakıda Dünya Azərbaycanlılarının qurultayını keçirməsi oldu.

Biz hər birimiz bu gün Ulu Öndərə borcluyuq. Onun uzaqgörən siyasəti nəticəsində Vətənimiz belə bir səviyyəyə yüksəldi. Hamı ona ölkəmizin inkişafı naminə həyata keçirdiyi siyasətinə görə minnətdardır. Heydər Əliyev hər birimiz üçün örnək ola biləcək birinci şəxsdir. Hamı onun bu işlərindən danışarkən bildirir ki, o, rəssamla rəssam dilində, şairlə şair dilində, müəllimlə müəllim dilində, həkimlə həkim dilində danışırdı. Rəssamın çəkdiyi şəklə münasibəti, şairin yazdığı əsərə verdiyi dəyəri, müəllimə olan sonsuz hörməti insanlarda elə düşüncə yaradırdı ki, sanki bu dahi şəxsiyyət bu sahələrin hamısının mütəxəssisidir. Dahi şəxsiyyətin portretinə baxarkən onun üzündə olan qətiyyətin, duruşunda olan qorxmazlığın şəklini də görürük. O danışarkən nitqinin səlisliyi, sözlərin dolğunluğu insanı hey oturub ona qulaq asmağa sövq edir.

Bu gün sevinirəm ki, mən azərbaycanlıyam və mənim vətəndaşı olduğum ölkənin Heydər Əliyev kimi tarixi şəxsiyyəti var.

Biz sevinirik ki, Ulu Öndərin fəaliyyətlərini bu gün görkəmli prezidentimiz olan İlham Əliyev layiqincə davam etdirir. Onun tərəfindən əsası qoyulmuş ideyaları həyata keçirir və inkişaf etdirir. Biz də çalışmalıyıq ki, bu böyük şəxsiyyətlərin gördükləri işlərin uğurla davam etdirilməsinə öz töhfəmizi verək.





## Allahverdiyeva Nəzrin Əli qızı

***Naxçıvan şəhəri, V.Zeynalov adına 3 nömrəli tam orta məktəbin X sinif şagirdi***

*«Həyatın mənası çox və yaxud az yaşamaqdan ibarət deyil, onun əsas mənası bu həyatda öz yerini tutmaq, mövqeyini müəyyən etmək, ləyaqət göstərmək və başqaları üçün nümunə olmaqdır».*

**Heydər Əliyev**

Bu gözəl sözlərin müəllifi olan o böyük insan, doğrudan da, elə yaşadı, elə işlədi ki, adı tarixin salnaməsinə qızıl hərflərlə yazıldı. Bir xalqın böyüklüyü onun sayca çoxluğunda deyil, bəşəriyyət tarixində yetirmiş olduğu böyük şəxsiyyətləri ilə müəyyən olunur. Xalqımızın öz şərəfli tarixi boyunca bəşəriyyətə örnək kimi təqdim etdiyi dahi şəxsiyyətlər çox olub. Şah İsmayıl Xətai, Nizami Gəncəvi, Məhəmməd Füzuli, Mirzə Fətəli Axundzadə kimi öz xalqı qarşısında böyük xidmətləri olan mütəfəkkirlərimizin adı tarix səhifəsinə qızıl hərflərlə həkk olunub. Onların mənəvi varisi, layiqli davamçısı olan ümummilli liderimiz Heydər Əliyev – fenomen şəxsiyyət mərdliyin, yenilməzliyin, parlaq zəkanın təcəssümü və simvolu idi. Dahi bir şəxsiyyət, mahir siyasətçi, qüdrətli vətəndaş kimi Heydər Əliyev – fenomeni möcüzə idi. Əqlin və zəkanın həqiqət naminə, qəlbin və hissiyyatın azadlıq naminə mübarizə apardığı bir dünyanın möcüzəsi idi Heydər Əliyev.

Onun mübarizə yolu xalqının xoşbəxtliyi, Vətənin azadlığı naminə ardıcıl fəaliyyət yollarındakı sınaqlardan həmişə alnıaçıq, üzüağ şəkildə çıxmışdır. O, həmişə xalqa söykənmiş, ona arxalanmış və böyük xalq məhəbbətinə... nafeyindən çıxış etmişdir. Təsadüfi deyildir ki, «Xalq–Heydər, Heydər–Xalq» devizi böyüklü-kiçikli hər bir azərbaycanlının dilinin əzbəri olmuşdur.

*Elinə, gününə yanmayan bir kəs*
*Tutaq ki, sultandı, xandı, nə fayda?*
*Zülmət gecələrdə yanmayan çıraq*
*Günəşli günlərdə yandı, nə fayda?*

Heydər Əliyev ömrü böyük həyat məktəbi, həyat dərsliyidir. Azərbaycan xalqı bu həyat məktəbinin dərsliyini dərin fərəh, qürur hissi ilə mənimsəməkdə, ömrünün mənası hesab etməkdə haqlıdır. Ona görə ki, bu məktəb, bu dərslik əyilməzlik, mərdlik məktəbidir. Bu məktəb bizə öyrədir ki, həyatı sev, onun mübarizələrlə dolu yollarında çətinliklərlə üzləşsən də, bəzən büdrəsən də, möhkəm dayan, inamını itirmə, heç vaxt unutma ki, həyat yalnız təmiz insanları sevir, gələcək də onlarındır, səadət də!

Heydər Əliyev cismən dünyasını dəyişəndən sonra itkimizin qədərini, ölçüsünü göstərə bilən meyar tanımırıq. Bu itkinin ağrısı zaman keçdikcə bilinir və bilinəcək. Xalq ona arxayın yaşayırdı, çünki xalqın taleyi etibarlı əllərdə idi.

Heydər Əliyev 80 il yaşadı. Belə gərgin həyat üçün az ömür deyil.

Heydər Əliyev özünə ad günü keçirməyi sevmirdi. Hələ 1993-cü il may ayının 10-da Naxçıvan ziyalıları Heydər Əliyevin 70 illiyini keçirməyi təklif edirlər. O razılaşır. Bakıdan və Türkiyədən bir neçə dostları gəlir. Türkiyəli qonaqlardan biri: Qars valisi Heydər Əliyevin şərəfinə badə qaldırıb bir bənd şeir söyləyir. Şeir bitdikdən sonra Heydər Əliyev deyir: «Nazim Hikmət – «İnsan mənzərələri» poeması».

Türkiyəli qonaq başını tutaraq heyrətlənir: «İlahi, sovet imperiyasına sığmayan bir dahinin Naxçıvan kimi balaca bir yerə sığmasını sən necə özünə sığışdırdın?»

Yüksək kübarlıq, ziyalılıq etalonu olan Heydər Əliyevin nitq mədəniyyəti, sözlərinin seçimi, ifadə tərzi əvəzsiz idi. O, doğulduğu, boya-başa çatdığı diyarın ləhcəsini, şivəsini və dialektini yaxşı bilsə də, sırf ədəbi dildə danışırdı.

Böyük şəxsiyyətin bir üstün cəhəti də onda idi ki, heç zaman fikrini ifadə etməkdə çətinlik çəkmir, özünü təkrar etmirdi. Belə ki, bu müdrik insanın 1969-cu ildən bəri, demək olar ki, bütün çıxışlarına diqqətlə qulaq asmışam. Bunlardan görmək olar ki, qurultaylarda, plenumlarda bəzən beş-altı saat danışan Heydər Əliyev nə konspektə baxırdı, nə də əvvəlcədən yazılmış məruzəyə!



Heydər Əliyevlə bir dövrdə yaşamağın özü bir səadətdir. O, xilaskar olmaqla yanaşı, eyni zamanda qurucu, yaradıcı bir rəhbər, xalqa tərəqqinin, işıqlı sabahın yolunu göstərən mənəvi bir liderdir.

Heydər Əliyevin insanların düşüncəsinə nüfuz etmək, onları inandıra bilmək bacarığı Tanrı vergisi idi. O, məşhur rus jurnalisti Karaulovun dediyi kimi «Hakimiyyət ustası» idi.

Azərbaycanın 1990–1992-ci illər təcrübəsi bunu bir daha təsdiqlədi. Heydər Əliyev üçün hakimiyyətə gəlmək çətin deyildi. Ən çətini şəhidlər, qurbanlar hesabına qazanılmış müstəqilliyi qoruyub saxlamaq idi. Heydər Əliyev hakimiyyəti saxlaya bildi, dünyanın aparıcı dövlətlərini respublikanın müstəqilliyi ilə hesablaşmağa məcbur etdi, çünki onu öz xalqı, türk dünyasının ləyaqətli övladları qoruyurdu, Heydər Əliyevi Tanrı qoruyurdu.

O, Tanrının xalqımıza bəxş etdiyi bənzərsiz bir şəxsiyyət idi. Onun ömrü əsrin o başından bu başına yanar iz saldı. Amma sönmədi. Çünki xalqına, Vətəninə bağlı olan insanlar ölmürlər, əbədi yaşayırlar! Yaradanlar ölməz olur!

İndi o böyük insan aramızda yoxdur, amma Ulu Öndərin işi, əməlləri onun övladı – Azərbaycan xalqının sevimlisi, müstəqilliyimizin qarantı, gələcəyimiz olan İlham Heydər oğlu Əliyev tərəfindən davam etdirilir. Azərbaycan xalqı rahat və arxayınlıqla onun ardınca gedir!



***Cəfərli Ülviyyə Mübariz qızı***

***Şahbuz şəhəri, 1 nömrəli tam orta məktəbin VIII sinif şagirdi***

Məşhur alman filosoflarından birinin belə bir fikri var: «Dahilik dahiyanə bir iş görməyi, həlli qeyri-mümkün görünən vəzifənin öhdəsindən gəlməyi bacarmaqdır». Elə şəxsiyyətlər, dövlət xadimləri olmuşdur ki, onlar öz ölkəsinin, öz millətinin taleyində müstəsna xidmətlər göstərmişlər. Dərin zəkası, əməli fəaliyyəti ilə Azərbaycanımızın müstəqilliyinə əbədi möhür vuran ulu öndər Heydər Əliyev böyük tarixi missiyası ilə öz doğma yurdunu qəlbən sevən hər bir azərbaycanlının qəlbində əbədi və sönməz günəşə çevrilmişdir.

Dünyada fenomen şəxsiyyət kimi tanınan görkəmli dövlət xadimi Heydər Əliyev zəkasının qüdrəti ilə insan ömrünə sığmayan işlər görmüş və ölkəmizin müstəqilliyini hər cür təhlükədən, bəladan xilas etmişdir. Fırtınalar qoynunda qalmış Azərbaycan adlı dövlət gəmisini hadisələrin girdabından qurtarmaqla dahi rəhbər dünya azərbaycanlılarının qəlbində əbədiləşmişdir.

Ümummilli lider Heydər Əliyev Azərbaycanda, xüsusilə elm, təhsil və mədəniyyət adamlarının əməyinin qiymətləndirilməsinə hər zaman diqqət göstərmişdir. Dahi rəhbər yaxşı bilirdi ki, xalqın gələcək azadlığını, onun öz tarixi və mədəniyyəti üstündə köklənməsini məhz ziyalı təbəqənin köməyi ilə təmin etmək mümkündür. Bu baxımdan görkəmli dövlət xadimi Heydər Əliyev ziyalılarla görüşündə dilimizin, tariximizin, mədəniyyətimizin, ümumiyyətlə, xalqımıza məxsus bütün dəyərlərin milli zəmində araşdırılmasını onlara məsləhət görürdü. Dahi rəhbər xalqa, onun dövlətçiliyinə xidmət etməyi ümumxalq işinə çevirmişdir.

Azərbaycançılıq ideologiyasının yaradıcısı olan ulu öndər Heydər Əliyev bu ideologiyanın gənclər tərəfindən mənimsənilməsinə, onların əməli işlərinə çevrilməsinə çalışırdı. Çünki hər hansı bir cəmiyyətin inkişafı



aparıcı qüvvə olan gəncliyin necə tərbiyə olunmasından, hansı ideyalarla silahlanmasından asılıdır. Bu mənada müdrik rəhbər azərbaycançılıq ideologiyasının həyata keçirilməsində gənclərin fəallığını istəyirdi. Əlbəttə ki, bu fəallıqda ziyalı təbəqənin də rolu az deyil. Belə ki, azərbaycançılıq ideologiyasının mənimsənilməsi, gənclərin bu ruhda tərbiyə edilməsi bilavasitə ziyalıların üzərinə düşən vəzifələrdəndir.

Dərin və hərtərəfli bilik, siyasət elminin incəliklərinə bələdlik, güclü məntiq, unikal yaddaş, böyük əməksevərlik, tələbkarlıq, obyektivlik və fədakarlıq, ən başlıcası isə insanlara, xalqına sonsuz məhəbbət mücəssəməsinə çevrilmiş dahi şəxsiyyət Heydər Əliyevin həyat və fəaliyyəti hamımız üçün zəngin nümunə mənbəyidir.

Zəngin dəyərlər xəzinəmiz olan tarixi yaddaşımız və milli kökümüz bizim qürurumuzdur. Dahi rəhbər bu mənəvi, əxlaqi, mədəni və sosial dəyərlərə misilsiz qayğı ilə yanaşaraq hər birimizə, millətə bağlılıq, vətənə sevgi nümunəsi göstərmişdir. Vətən sevgisi millət sevgisi ilə bağlıdır. Millət sevgisi milli qürurla bağlıdır. Milli qüruru olmayandan əsl vətən övladı ola bilməz. Xalqımızın böyük oğlu Heydər Əliyev əməli fəaliyyəti, müdrik uzaqgörənliyi ilə milli qüruru, milli şüuru bizə təlqin etmişdir.

Ulu Öndərin qüdrətli dövlətçilik siyasəti ilə biz gənclərə əmanət qoyduğu müstəqilliyimizlə qürur duyur və bu müstəqilliyi bizə bəxş etmiş dahi şəxsiyyəti daim ehtiramla yad edirik.

Ümummilli liderimiz, dahi rəhbər Heydər Əliyev və onun ideyaları xalqımızın ürəyində, qəlbində yaşayır və daima yaşayacaqdır! Bir xilaskar, heç vaxt unudulmayacaq dahi rəhbər olaraq ürəklərdə yaşayacaqdır!

*Həyatda inam yerim,*
*Qurtuluşum, sevincim,*
*Ümidim, gələcəyim,*
*Heydər babamdır mənim!*



## Dünyamalıyeva Səriyyə Dərdayıl qızı

**Şərur rayonu, Yuxarı Daşarx kənd tam orta məktəbin X sinif şagirdi**

Heydər Əliyev 1923-cü il mayın 10-da Naxçıvan şəhərində fəhlə ailəsində anadan olmuşdur. 1941-ci ildə Naxçıvan MSSR Xalq Daxili İşlər və Xalq Komissarları Sovetində şöbə müdiri, 1944-cü ildən Dövlət Təhlükəsizlik Komitəsində işləməyə başlamışdır.

1964-cü ildə Azərbaycanda SSR Dövlət Təhlükəsizlik Komitəsi sədrinin müavini, 1967-ci ildə isə sədri təyin edilmişdir.

Heydər Əliyev ilk günlərdən respublikada qanunçuluğun qorunması, idarəçiliyin möhkəmləndirilməsi, kadrlara tələbkarlığın artırılması işində əhəmiyyətli addımlar atdı. O, korrupsiyaya qarşı ciddi mübarizəyə başladı.

Heydər Əliyev hakimiyyəti dövründə erməni separatçıları açıq çıxışlardan çəkinirdilər.

Ümumxalq dəstəyi ilə yenidən prezident seçilmiş Heydər Əliyev andiçmə mərasimindəki nitqində dövlət müstəqilliyini möhkəmləndirmək, ərazi bütövlüyünü və tam suverenliyini təmin etmək, əhalinin rifahını yaxşılaşdırmaq vəzifələrini həyata keçirəcəyini bəyan etdi. Həmin vəzifələri həyata keçirmək işi dövlət intizamının, qanunçuluğun, hüquq-mühafizə orqanlarının, ordunun möhkəmləndirilməsindən başlandı.

Azərbaycan Respublikası XXI əsrə siyasi cəhətdən sabit, sosial-iqtisadi və mədəni cəhətdən inkişaf etməkdə olan bir ölkə kimi qədəm qoydu. İctimai-siyasi sabitliyin yaradılması demokratik prinsiplərin bərqərar olması sahəsində ardıcıl addımların atılması, Azərbaycan cəmiyyətinin və ictimai-siyasi qüvvələrin anarxiyadan demokratiyaya və qanunçuluğa keçid yolunda ciddi dönüş yaratdı. Qanunun aliliyi prinsipinin reallaşdırılması, dövlət orqanlarının nüfuzunun bərpa olunması, azad düşüncənin təzahürü olan sərbəst siyasi fəaliyyəti məhdudlaşdıran bütün maneələrin aradan qal-



dırılması demokratiyanın təşəkkül tapıb daha da möhkəmlənməsi üçün şərait yaratdı. Azərbaycan Respublikası Prezidenti Heydər Əliyevin rəhbərliyi altında həyata keçirilən hüquq islahatları ölkəmizin tərəqqisi, hər bir vətəndaşın azad cəmiyyətdə yaşaması, hüquqlarının müdafiə olunması və şəxsiyyətin inkişafında böyük rol oynadı.

Özünün mənalı əməli fəaliyyəti ilə həyatımızın bütün sahələrində birbirindən uca və əzəmətli zirvələr fəth etmiş Heydər Əliyev dühası bu gün, sözün əsl mənasında, dünyanın hər yerindən görünən və hamı tərəfindən şəksiz qəbul olunan uca bir zirvəyə çevrilmişdir. Elə bir zirvəyə ki, o ucalıqdan, yüksəklikdən müstəqil Azərbaycanımızın bu günü, sabahı və əbədi nurlu gələcəyi görünür.

Heydər Əliyevin xalq xidməti anlayışı kifayət qədər tutumlu olduğundan, onun uca zirvəsi xalqa xidmətinin kompleks xarakter daşıması ilə əlaqədardır. Həyatımızın elə bir sahəsi yoxdur ki, Heydər Əliyevin rəhbərlik etdiyi illərdə əhəmiyyətli inkişafla müşayiət olunmasın. Milli təhsilimizə göstərilən qayğı da buna bariz nümunədir. Heydər Əliyev Azərbaycanda onun tarixi və bu günü ilə bağlı biliklərin tədrisinə böyük önəm verir, bunu vətənpərvərlik tərbiyəsinin tərkib hissəsi hesab edirdi. Bununla əlaqədar Heydər Əliyev belə demişdir: «Müstəqil Azərbaycanın hər bir gənci öz xalqının, millətinin qədim zamanlardan indiyə qədər olan tarixini gərək yaxşı bilsin, əgər bunu bilməsə, o həqiqi vətəndaş ola bilməz, əgər bunu bilməsə, o, millətinə olan münasibəti ilə istənilən səviyyədə fəxr edə bilməz».

Sovet imperiyası dönəmində Azərbaycana Heydər Əliyev kimi milli ruhlu bir şəxsiyyətin rəhbərliyə gəlməsi, sözün əsl mənasında, xalqımızın xoşbəxtliyi idi. Burada böyük Atatürkün sözləri yada düşür. «Ən böyük şəxsiyyətlər özündən çox mənsub olduğu cəmiyyəti düşünən, onun varlığı və xoşbəxtliyinin qorunması yolunda həyatını verən insanlardır». Heydər Əliyev məhz belə böyük şəxsiyyətlərdəndir.

Azərbaycanımızın, müstəqilliyimizin təhlükə altında olduğu vaxtlarda – 1993-cü ilin iyununda xalqın təkidli tələbi ilə Heydər Əliyevin hakimiyyətə qayıdışı, sözün həqiqi mənasında, əsl müstəqillik dövrünün başlanğıcı oldu. Heydər Əliyev də Şah İsmayıl Xətai kimi Azərbaycan dövlətçiliyini qurdu, qorudu və bizə ərməğan etdi. Bu, Heydər Əliyev şəxsiyyətinin uzaqgörən siyasətinin başlıca qayəsi idi.

Ulu öndərimiz Heydər Əliyevin hakimiyyətə ikinci qayıdışı dövlətimizi, xalqımızı hər cür bəlalardan, dağıdıcı fəlakətlərdən xilas etdi. Azərbaycanın müstəqilliyinin möhkəmlənməsi üçün onun gördüyü işlərin miqyası

ölçüyəgəlməzdir. Onun fəaliyyəti xalqımızın yalnız bu gününü müəyyən etmir, onun gələcəyini müəyyənləşdirir, istiqamətləndirir.

Dövlət quruculuğu prosesində həm tarixi, həm milli, həm də bəşəri dəyərlərdən istifadə edəcəyi, həmçinin dövrlərin hansı prinsiplərlə qurulacağı xalqımıza və dünyaya belə bəyan olundu: «Respublikamızda hüquqi dövlət quruculuğu, demokratik sivilizasiyalı cəmiyyət yaradılması, insan azadlığı, söz, vicdan azadlığının, müasir plüralizmin təmin edilməsi, çoxpartiyalı sistemin bərqərar olunması bizim əvvəldən qəbul etdiyimiz prinsiplərdir». Budur, dünya şöhrətli siyasətçi Heydər Əliyev şəxsiyyətinin parlaqlığı.

2003-cü il dekabrın 12-də Azərbaycan xalqı, bütün türk dünyası ona üz vermiş böyük itkidən sarsıldı. Ümummilli lider Heydər Əliyev vəfat etdi. Onun dəfni ümumxalq matəminə çevrildi. Bu gün Heydər Əliyevin siyasi xətti onun davamçısı Prezident İlham Əliyev tərəfindən inamla davam etdirilir.

Heydər Əliyev Azərbaycan xalqının ümummilli lideridir. Xalqımız bütün dünyada tanınmış siyasətçi, görkəmli dövlət xadimi ümummilli liderimiz Heydər Əliyevlə fəxr edir.

2012-ci il dekabr ayının 22-də dördüncü çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin altıncı sessiyasında Ali Məclisin sədri Vasif Talıbov 2013-cü ili Naxçıvan Muxtar Respublikasında «Heydər Əliyev ili» elan etmişdir.

Heydər Əliyev öz xalqını çox sevirdi. O, varlığı, duyğuları ilə əsl azərbaycanlı idi. Bununla həmişə fəxr etmişdir. O, həmişə xalqına arxalanmış, ömrünün qalan hissəsini ona bağışlamışdır. Heydər Əliyev insanların qəlbində qürur mənbəyidir. Həmişə, hər yerdə yeri görünən bir şəxsiyyətdir.

Nə qədər ki, Azərbaycan yaşayır, Azərbaycan xalqı yaşayır, Heydər Əliyev dühası yaşayır. Əbədilik qazanmış Ulu Öndərin həyatı xalqımızın, Azərbaycanın fəxarət tarixidir. Heydər Əliyevin həyat və fəaliyyəti hər birimiz üçün həm nümunə, həm də böyük məktəbdir.









***Muradova Aysel Namiq qızı***
***Babək rayonu, Şəkərabad kənd***
***tam orta məktəbin***
***XI sinif şagirdi***

Biz hər birimiz rəssam qəlbli bir insanın yaratdığı gözəl sənət əsərinə bənzəyən Azərbaycan torpağının övladlarıyıq. Azərbaycan təkcə gözəllikləri, sərvətləri ilə deyil, şəxsiyyətləri ilə özünü tanıdıb və yaşadıb. Uca dağlar planetimizin ən yüksək zirvəsi olduğu kimi, dahilər də bəşəriyyətin ən uca, mənəvi zirvələridirlər. Onlar zaman fövqündə dayanaraq, mənsub olduqları xalqa zirvə şərəfi, zirvə ucalığı gətirirlər.

Vətənimizdə elə bir zirvə var ki, bu zirvədən Azərbaycanın bu günü, sabahı, keçmişi, yaralı sinəsi, tapdanan torpaqları Şəhidlər Xiyabanı, qaçqın düşərgələri daha aydın görünür, bu, Heydər Əliyev zirvəsidir. Ucada dayanmış bu zirvə, bu insan xalqın haqq səsi, qeyrət səsiydi. Bu o insandır ki, düşmənlərin üzərinə od püskürən bir atəşə bənzəyir, viran olmuş Vətənin ürəyinə məlhəmdir, cümlələri, kəlmələri düşməni qorxuya salır, hamı onun haqq səsindən güc alır, əyilməz bir varlıq, yenilməz bir qüvvədir, damarında qeyrət qanı qaynayır. O insan yox olmağa doğru gedən gözəl yurdu xilas edən bir xilaskardır. Belə dahi şəxsiyyətlərdən biri də müstəqil Azərbaycan dövlətinin qurucusu Heydər Əliyev idi.

Bütün həyatını və fəaliyyətini öz xalqının xoşbəxtliyinə və doğma Vətəninin qüdrətlənməsinə həsr edən Ulu Öndərimiz hələ sağlığında Ümummilli Lider adını qazanmış, milyonlarla insanın qəlbində özünə möhtəşəm abidə ucaltmışdır.

Möhtərəm Heydər Əliyev yalnız və yalnız Azərbaycan üçün çalışmış və Azərbaycan üçün mübarizə aparmışdır. Saysız-hesabsız təqiblərə məruz qalan, torpaqları talan olan, vətəndaşları bir-birinə silah çəkən Azərbaycan məhz Heydər Əliyevin zəkası ilə sabitliyə qovuşmuş, əmin-amanlığa çatmış, birliyini təmin etmişdir. Möhtərəm Heydər Əliyev yeganə tarixi

şəxsiyyət idi ki, respublikada baş alıb gedən özbaşınalığa son qoydu. Müdrik Heydər Əliyev təkcə böyük siyasətçi deyildi. O, eyni zamanda böyük dövlət qurucusu, böyük xilaskar və ümid yerimiz idi.

Bugünkü Azərbaycan möhtərəm Heydər Əliyevin qurduğu, yaratdığı Azərbaycandır.

Azərbaycanın çoxəsrlik dövlətçilik tarixində Heydər Əliyev epoxasının müstəsna yeri və rolu var. Dünya şöhrətli siyasi xadim Heydər Əliyev öz müdrik fəaliyyəti ilə müasir tariximizin ən şanlı və parlaq salnaməsini yaradıb. Azərbaycanın dünyaya tanıdılması, nüfuzunun yüksəklərə qaldırılması və beynəlxalq aləmə inteqrasiyası Ulu Öndərin adı ilə bağlıdır. Dahi şəxsiyyət 34 ilə yaxın bir dövrdə Azərbaycana rəhbərlik edib.

Görkəmli dövlət və siyasi xadim Heydər Əliyev respublikaya rəhbərliyə başladığı ilk gündən qarşıya qoyduğu prioritet məsələ Azərbaycanın iqtisadiyyatını möhkəmləndirmək, onun şöhrətini, nüfuzunu yüksəklərə qaldırmaq, milli mənafeyini, milli mentalitetini, mədəniyyət və mənəviyyatını qorumaq və inkişaf etdirmək olmuşdur. Ulu Öndərin bir-birinin ardınca həyata keçirdiyi mühüm əhəmiyyətli tədbirlər nəticəsində Sovet hakimiyyəti dövründə respublikamız keçmiş SSRİ-də bütün sahələrdə öncül yerlərdə olmuşdur.

Azərbaycana rəhbərlik etdiyi illər ərzində minilliklər boyu əldə edilməsi mümkün olmayan arzu və istəkləri gerçəkləşdirməyi bacaran Heydər Əliyevə bütün bunları həyata keçirməyə onun vətənə, xalqa, torpağa hədsiz məhəbbət və sədaqət hissi, qurub-yaratmaq amalı kömək etmişdir. Ulu Öndər Azərbaycanın inkişafı və çiçəklənməsi, əhalinin rifah halının daha da yüksəlməsi üçün bütün imkanlardan istifadə etmişdir.

Müdrik şəxsiyyət Heydər Əliyev öz işıqlı əməlləri ilə müstəqilliyimizin bərpasında, möhkəmləndirilməsində, ölkəmizin dünya miqyasında tanınmasında müstəsna xidmətlər göstərmişdir. Ümummilli Liderin şəxsi təşəbbüsləri, gecəli-gündüzlü zəhməti sayəsində ölkədə demokratik islahatlara start verildi. Çünki bunlarsız dünyəvi, hüquqi, demokratik dövlət qurmaq mümkün deyildi.

Hazırda Azərbaycan dünyanın inkişaf etmiş demokratik dövlətləri sırasına qoşulub. Ölkəmizin dünya birliyində mövqeyinin getdikcə möhkəmlənməsi, reytinqinin artması və əlaqələrinin getdikcə genişləndirilməsi Heydər Əliyev siyasi xəttinin nəticəsidir. Sevinirik və fəxr edirik ki, bu siyasi kursu Ulu Öndərin ən layiqli davamçısı möhtərəm prezidentimiz İlham Əliyev kimi praqmatik düşüncəli, yüksək intellektual təfəkkürə malik uzaqgörən bir şəxsiyyət davam etdirir. Məhz dövlətimizin başçısının



həyata keçirdiyi düşünülmüş daxili və xarici siyasət nəticəsində Azərbaycan dünya birliyində sayılıb-seçilən, söz sahibi olan demokratik dövlətə çevrilib. Ölkəmiz dünyanın nüfuzlu beynəlxalq təşkilatlarının tədbirlərinin keçirdiyi məkana çevrilib. Bu, Azərbaycanın iqtisadi qüdrətinin sürətli artımının nəticəsidir. Doğrudan da, o böyük insan, dahi şəxsiyyət bu gün işi və əməli ilə bizimlədir.

Bu gün hər bir Azərbaycan vətəndaşı Heydər Əliyevin əziz xatirəsini qəlbində yaşadır və iftixarla deyir ki, bəli, Ümummilli Liderimiz, müstəqil Azərbaycan dövlətinin xilaskarı və memarı daim yaşayır və həyat durduqca yaşayacaqdır.

*Xəzər vuran ürəyi, Kür, Araz coşan qanı*
*Qoşqar, Şahdağ, Savalan əyilməyən başıdır.*
*Əlli milyon insanın ən xoş sözü, kəlməsi*
*Əlli milyon ürəyin fəxri vətəndaşıdır, – Heydər Əliyev.*



## Rüstəmova Nigar Şükür qızı

**Kəngərli rayonu, Yurdcu kənd tam orta məktəbin X sinif şagirdi**

Tarixi yaradan insanlardır. Şəxsiyyətlərin də yaratdıqları, qoyub getdikləri irs bu tarixi yaradır. Deməli, tarix şəxsiyyətlər yetirməyə qadirdir. Azərbaycan tarixi də taleyinə dövlətçiliyimizin memarı olmaq nəsib olan Heydər Əliyev kimi dahi insan yetirmişdir. Doğma Azərbaycanımızı Heydər Əliyevsiz təsəvvür etmək mümkün deyil. Nə qədər ki, Azərbaycan var, Heydər Əliyev var. O, daim ürəklərdə yaşayacaqdır.

*Odlar yurdu, sinəsi qan olanım,*
*Bulud kimi boşalanım, dolanım.*
*Əsrlərdən-əsrlərə qalanım,*
*Yadlar gəlib torpağına daş atdı,*
*Azərbaycan, səni Heydər yaşatdı!*

Ürəklərdə yaşayan Heydər Əliyevin dövlətçiliyimizin yaranması və qorunub saxlanmasında göstərdiyi misilsiz xidmətləri tariximizin səhifələrinə qızıl hərflərlə yazılmışdır. Azərbaycan onun həyatının mənası idi. Azərbaycan dövlətinin gücü qüdrətli, milli birliyimizin sarsılmazlığı Ümummilli Liderimizin xidmətləri sayəsində mümkün olmuşdur. Ölməz liderimizin bu uğurları, məhz Azərbaycana olan sonsuz məhəbbətinin, torpağa hədsiz bağlılığının nəticəsidir. Ona görə də nə qədər ki, Azərbaycan var, Heydər Əliyev də var.

*Sən haqqın öz adısan,*
*Sarsılmaz birliyinin*
*Qolusan – qanadısan!*
*Ətirli çiçək olub*
*Müqəddəs vətənimin*
*Qayasında bitmisən.*



Doğma Azərbaycanımızı özünün qibləgahı adlandıran Heydər Əliyevin həyatı bu günümüzün, gələcəyimizin məqsədidir. Sağlığında canlı əfsanəyə çevrilən Ümummilli Liderimiz müstəqil Azərbaycanımızın – dövlətçiliyimizin memarı kimi daim var olacaqdır. Çünki yurdumuzun başını qara buludlar alanda yeganə ümidimiz, qurtuluşumuz oldu. Vaxtında yetişdi, vaxtında milli dövlətçiliyimizin itirilmə təhlükəsinin qarşısını aldı. Onun ürəyində bu sözlər iftixarla səsləndi: «Heç kəsin şübhəsi olmasın ki, ömrümün bundan sonrakı hissəsini harada olursa-olsun yalnız və yalnız Azərbaycan Respublikasının müstəqil dövlət kimi inkişaf etməsinə həsr edəcəyəm».

Bu gün tərəddüd etmədən deyə bilərik ki, nə qədər ki, Azərbaycan var, Heydər Əliyev də var. Çünki onun bütün həyatı və amalı Azərbaycana olan sevgisi üzərində qurulmuşdur. Qəlbindəki azərbaycançılıq eşqi də sanki ən çox sevdiyi «Azərbaycan» şeirində ifadə olunmuşdur:

*El bilir ki, sən mənimsən,*
*Yurdum, yuvam məskənimsən,*
*Anam doğma vətənimsən.*
*Ayrılarmı könül candan?*
*Azərbaycan, Azərbaycan!*

Tanrı ona bir ömür bəxş etmişdi. Lakin o, Azərbaycan tarixində əbədi bir ömür qazandı. «Mən Azərbaycanı və Azərbaycan xalqını Heydər Əliyev qədər sevən ikinci adam tanımıram» deyənlər haqlıdırlar. «Azərbaycan dünyaya günəş kimi doğacaq», – deyən Ulu Öndərimiz də Azərbaycan üçün daim doğan günəş kimi olacaq, öz nuru ilə gələcəyimizi nurlandıracaqdır. Xalqımız onun yolunda həmişə qürur və əzəmətlə addımlayacaqdır.

Bu gün ulu öndər Heydər Əliyevin işıqlı ideyaları müstəqil Azərbaycanın dinamik inkişafının uğur mənbəyidir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin dediyi kimi: «Bizim iqtisadi göstəricilərimiz dünya miqyasında ən gözəl göstəricilərdir. Bizim iqtisadi inkişafımız dünya miqyasında ən sürətlidir. Təkcə son on ilin yekunlarına baxmaq kifayətdir. Azərbaycanda yaşanan inkişaf dünyada çox nadir hallarda müşahidə edilir – həm siyasi, iqtisadi, həm energetika, mədəniyyət sahələrində».

Müasir müstəqil Azərbaycan inkişafının yeni mərhələsinə qədəm qoymuşdur. Bu dinamik inkişaf tarixi reallıqdır. Çünki bu reallığın mənbəyində ulu öndər Heydər Əliyevin zəkası dayanır. Bu zəkanın işığında Azərbaycan dünyaya günəş kimi doğmuşdur.



## Nəbizadə Nərgiz Etiqad qızı

**Biləsuvar şəhəri, 1 nömrəli tam orta məktəbin IX sinif şagirdi**

*...Ölüm sevinməsin qoy, ömrünü vermir bada,*
*El qədrini canından daha əziz bilənlər.*
*Şirin xatirə tək qalacaqdır dünyada,*
*Sevərək yaşayanlar, sevilərək ölənlər!*

**Səməd Vurğun**

Azərbaycan tarix boyunca dahilər, qəhrəmanlar yurdu olmuşdur. Dahilik yalnız özü üçün deyil, əksinə, özünü, öz taleyini unudub el üçün yaşamaq, elin, xalqın məsuliyyətini öz ömrünün ayrılmaz tərkib hissəsi hesab etməkdir. Belə olub dahilər həmişə. Fövqəlbəşər olmuşlar dahilər. Dünya yaranandan yalnız ən çətin məqamlarda dahilər yaranmış, insana, insanlığa mayak olaraq doğru yol göstərmişlər.

Azərbaycan 71 il Sovet imperiyasının işğalı altında yaşamışdır. Bu illərdə sovet diktatura maşını yüzlərlə oğullarımızı məhv etmiş, xalqımızın inkişafına mane olmuşdur.

Azərbaycan 1991-ci ildə ikinci dəfə öz müstəqilliyini bərpa etdi. Bu dəfə əbədi olacaq müstəqilliyin arxasında onun əsas ideoloqu olan xalqımızın ümummilli lideri Heydər Əlirza oğlu Əliyev dayandığı üçün bu sükanın istiqaməti gələcəyə doğru dayanmadan uzanan uğurlu bir yola yönəldi.

Heydər Əliyev – Azərbaycan xalqının tarix boyu arzuladığı fenomen bir şəxsiyyət!

Heydər Əliyev – millətimizin fəxrinə çevrilən zəka sahibi, dahi!

Bəli, Azərbaycan bəşəriyyətə belə bir insan bəxş etdiyi üçün möhtəşəm bir diyardır.



*Vərəq-vərəq dastanlara*
*Sığışmayır sənin adın,*
*Sən şöhrətin zirvəsinə*
*Asan yolla ucalmadın!*
*Yana-yana yaşayaraq*
*Zinət verdin bu həyata,*
*Bu dünyada hər şey, hər kəs*
*Qocalsa da, qocalmadın!*
*O, əbədi zaman-zaman*
*Tarixlərə sinə gərdi*
*Qədim yeni Azərbaycan!*

Əziz babam, doğrudur, mən şair deyiləm, lakin müqəddəs abidən və yeni Azərbaycanı dolaşan ruhun qarşısında baş əyərkən ixtiyarsız olaraq dodaqlarım ürək sözlərimi şeirlə pıçıldadı. Səni vəsf etməyə qüdrətim olsaydı, elə bir dastan yazardım ki, bəşəriyyət xalqımızın bu dahi oğlunu bütün varlığı ilə görə bilsin. Təəssüf ki, dahiliyini göstərməyə mənim qüdrətim çatmır.

...10 may 1923-cü il. Bu tarix xalqımızın həyatında ən müqəddəs gündür. Ona görə yox ki, dünyaya insan gəlib... Ona görə ki, həmin gün Azərbaycan adlı qədim yurdu gələcəkdə öz müqəddəs əməlləri ilə ucaldacaq, dünya dövlətləri içində onun bayrağını ən yüksək zirvələrə sancacaq böyük, dahi sərkərdə, fenomen bir siyasətçi doğulub. Budur, bu günün əzəməti, müqəddəsliyi. Dağ boyda ömrünü xalqının səadəti yolunda qurban verən Heydər Əliyevin doğum günü məhz öz erasına yönüm biçən bir gün oldu.

Uşaqlıq və yeniyetməlik dövrünü sadə bir ailədə keçirən gələcəyin dahisi doğma Naxçıvan torpağında təhsil illərini uğurla başa vurub ali təhsil almaq üçün Bakıya gəlib. O, əvvəlcə memarlıq, sonra isə tarix fakültələrində təhsil alaraq, Azərbaycanın gələcəyi üçün çalışmağa başlayıb. Azərbaycanın təhlükəsizlik orqanlarında çalışdığı ağır illərdə onlarla dəyərli insanın həyatını sovet cəlladlarının əlindən xilas etmişdir. O, zamanın çətin sınaq illərindən ləyaqətlə çıxaraq yurdumuzun, torpağımızın hər qarışını göz bəbəyi kimi qorumuş, millətimizin imzasının dünyada tanınmasına xidmət etmişdir.

1969-cu ildən Azərbaycana rəhbərlik edən Heydər Əliyev respublikanın bütün sosial, iqtisadi, siyasi və mədəni həyatında dönüş yaradaraq ölkəmizi keçmiş sovet respublikaları arasında öncül mövqeyə qaldıra bilmişdi.

Özünəməxsus idarəetmə qabiliyyəti, fövqəladə bacarığı, dahi uzaqgörənliyi ilə siyasi arenada tanınan Heydər Əliyevin nüfuzu sayəsində Azərbaycan 1982-ci ilə qədər hər il addım-addım irəliləmiş, dəfələrlə ən yüksək mükafatlara layiq görülmüşdü. Elə bunun nəticəsidir ki, zamanın nəhəng dövləti sayılan Sovet İttifaqının rəhbərliyi onun zəkasından istifadə etmək məqsədilə Heydər Əliyevi Moskvaya dəvət etmişdir. O, Moskvada ali rəhbər orqanlarda çalışdığı illərdə də doğma xalqını, Azərbaycanı unutmamış, Vətənini ləyaqətlə təmsil etmişdir. Hətta ən ciddi siyasi rəqibləri belə onunla hesablaşmağa məcbur olmuşdur. Daim artan nüfuzu sayəsində Ulu Öndər bütövlükdə Sovetlər Birliyi xalqlarının sevimlisinə çevrilmişdi. Elə buna görə də onun siyasi nüfuzundan qorxuya düşən keçmiş Kreml rəhbərliyi ona qarşı təzyiqləri artırmışdı. Bütün bunları şəxsi ləyaqətinə sığışdıra bilməyən Heydər Əliyev 1987-ci ildə istefa vermiş və belə xəyanətkar rəhbərlərlə işləməyi lazım bilməmişdi. Əslində, onun sıxışdırılması Azərbaycana qarşı hazırlanmış erməni planının bir tərkib hissəsi idi. Məhz Heydər Əliyevin rəhbərlikdən uzaqlaşması ilə ermənilərin Qarabağ iddiaları eyni vaxtda başlandı. Bu, bir həqiqət idi ki, Heydər Əliyev rəhbərlikdə ikən onlar öz çirkin planlarını həyata keçirə bilməzdilər.

Azərbaycan xalqı öz dahi övladını daim sevmiş və müstəqilliyimizin memarını 1993-cü ilin ən ağır və çətin dövründə özünə yenidən rəhbər seçmişdir. «Müstəqilliyi, suverenliyi qoruyub saxlamaq onu qazanmaqdan daha çətin bir işdir», – deyən Ulu Öndər Azərbaycanın vətəndaş müharibəsi qarşısında olduğu, müstəqilliyimizin təhlükə qarşısında qaldığı çox ağır bir zamanda xalqın tələbi ilə hakimiyyətə gəldi.

Bu gəliş bir dahinin böyük qayıdışı idi. Elə buna görə də xalqımız onun yenidən hakimiyyətə qayıtdığı günü – 15 iyunu Qurtuluş Günü kimi qeyd edir. Gündən-günə öz fövqəladə bacarığını nümayiş etdirən Ulu Öndər qısa müddətdə ölkədə baş alıb gedən anarxiyanın, alovlanmaqda olan vətəndaş müharibəsinin qarşısını alaraq əyalətlərə bölünməkdə olan Azərbaycanı müstəqil və qüdrətli dövlətə çevirdi. Ona qarşı olan hücumları səbirlə dəf edərək vətəndaş həmrəyliyinə nail oldu. Onun ən böyük dühası 1994-cü ildə sentyabrın 20-də bağlanmış «Əsrin müqaviləsi» ilə bir daha öz parlaqlığını göstərdi. Bu neft müqaviləsi nəticəsində Azərbaycan nəinki Qafqazda, həm də Avropada, habelə bütün dünyada aparıcı dövlətlərdən birinə çevrildi. Əldə olunan atəşkəs nəticəsində tökülən qanların qarşısı alındı, ordu quruculuğu başladı. İndi Azərbaycan ordusu regionun ən güclü ordusu sayılır. Həm daxili, həm də xarici siyasət sahəsində uğurlu addımlar atan Heydər Əliyevin sayəsində Azərbaycanın səsi BMT, ATƏT kimi nüfuzlu



beynəlxalq təşkilatlarda eşidildi. Suveren, demokratik, müstəqil Azərbaycanda təhsil, mədəniyyət, səhiyyə, sənaye və kənd təsərrüfatı qısa zamanda inkişaf etdi.

Heydər Əliyevin xalq, vətən qarşısındakı xidmətlərini saymaqla qurtaran deyil. Əslində, onun ən böyük xidməti memarı olduğu Azərbaycanı yenidən qurması, onu coğrafi məkandan siyasi subyektə çevirməsidir. Beləliklə, «Azərbaycan ulu öndər Heydər Əliyevin şah əsəridir» – desək yanılmarıq.

Təəssüf ki, Ulu Öndərin həyat yolu 2003-cü ildə qırıldı. Onun dahiliklə döyünən ürəyində hələ xalqla, vətənimiz Azərbaycanla bağlı həyata keçirilməsi vacib olan nə qədər ideyaları var idi. Dahilər ölmürlər, onlar ölə bilməzlər, sadəcə dünyalarını dəyişib əbədiyyətə qovuşurlar.

Mənə elə gəlir ki, 80 illik bir ömür yolu keçən Heydər Əliyev yalnız cismən həyatdan getmişdir. O, ruhən hər evdə, hər ocaq başında, hər ürəkdə, ölkənin hər yerində yaşayır, memarı olduğu Azərbaycanın səmasında şüası tükənməyən günəş kimi daim şəfəq saçır. Harada Azərbaycan var, harada yurdumuzun, millətimizin adı çəkilir, orada Heydər Əliyev var!

Əziz babam, qoy ruhun daim şad olsun! Sən bu dünyaya hər şeydən öncə iki varlıq bəxş etmisən: Bunlardan biri müstəqil Azərbaycandırsa, digəri bu ölkəni idarə edəcək, sənin başa çatdıra bilmədiyin yüzlərlə planları ləyaqətlə həyata keçirməyə addım-addım nail olan hörmətli prezidentimiz, sizin yadigarınız İlham Əliyevdir. İlham Əliyev də sənin kimi doğma yurduna, xalqına, xüsusən adına layiq sədaqətli bir davamçıdır. Məhz Azərbaycan xalqı ən azı sənə ona görə minnətdardır ki, ona İlham Əliyev kimi ləyaqətli oğul bəxş etmisən.

Əziz babam, bu il qədirbilən xalqımız 91 yaşını qeyd edir. Ölkənin hər yerində sənin izin, gördüyün işlərin bəhrəsi özünü göstərməklə, hər bir vətəndaşın qəlbində ruhuna dərin ehtiram hissi oyadır. Xatirənə ölkənin hər yerində abidələr qoyulmuş və bu abidələr önündə baş əyənlərin ardı-arası kəsilmir. Lakin ən böyük abidə xalqımızın hər bir vətəndaşının qəlbində yaratdığın abidədir ki, heç vaxt öz möhtəşəmliyini itirməyəcək. Azərbaycan nə qədər ki var, onun hər qarışında siz yaşayacaqsınız!



## Allahverdiyeva Pərvanə Azər qızı

**Mingəçevir şəhəri, 18 nömrəli tam orta məktəbin XI sinif şagirdi**

Məlum aforizmlərin birində deyilir ki, dağın zirvəsinin əzəmətini ətəyindən yox, kənardan baxmaqla görmək mümkündür. Azərbaycanın dahi şəxsiyyəti, ümummilli liderimiz Heydər Əliyev, həqiqətən, yüksəklərə qalxmış əlçatmaz bir zirvə idi. Azərbaycanın XX əsrdəki son onillik tarixi bilavasitə onun adı ilə bağlıdır. Otuz ildən artıq bir dövr ərzində siyasi hakimiyyətin zirvəsində olan Heydər Əliyevi Azərbaycanın milli sərvəti, vətənimizin qismətinə yazılmış Tanrı payı adlandıranlar hələ sağlığında əfsanəyə çevrildiyini deyənlər heç də yanılmırlar.

Azərbaycanın hüquqi, demokratik, dünyəvi dövlət quruculuğu, ictimai-siyasi tərəqqisi, elmin, təhsilin, mədəniyyətin, incəsənətin inkişafı bilavasitə onun adı ilə bağlıdır. Onun Azərbaycana birinci rəhbərliyi dövrü yeni tariximizə ictimai-siyasi tərəqqi, dönüş illəri kimi daxil olmuşdur.

Heydər Əliyevin Azərbaycan xalqı üçün ən böyük xidməti dövlətimizin müstəqilliyinin təmin olunması, onun qorunması, dövlətimizin dünya birliyində layiqli yer tutmasına nail olmasıdır. Bu taleyüklü məsələlərin arxasında gecəli-gündüzlü məqsədyönlü, əziyyətli bir fəaliyyət dayanır.

Ümummilli liderimiz Heydər Əliyev bu çətin məsələlərin öhdəsindən məharətlə gəlmişdir. Əgər bu gün Azərbaycan beynəlxalq arenada öz sözünü deyən bir ölkə kimi tanınırsa, deməli, bu, Heydər Əliyevin gərgin fəaliyyətinin nəticəsidir.

Müstəqilliyimizin ilk illərində Azərbaycanda siyasi vəziyyət gərgin idi. Azərbaycanın parçalanmaq, bir ölkə kimi məhv olmaq təhlükəsi var idi. Ölkədə vətəndaş müharibəsi başlamışdı. Bu vaxt Azərbaycan xalqı və ziyalıları müdriklik göstərərək Heydər Əliyevi siyasi hakimiyyətə, Azərbaycanı xilas etməyə dəvət etdilər. Ömrünü xalq yolunda əridən Heydər



Əliyev xalqının səsinə səs verdi. Onun 1993-cü il 15 iyunda siyasi hakimiyyətə xilaskar gəlişi Azərbaycanı parçalanmaqdan, bir ölkə kimi məhv olmaqdan xilas etdi. Ölkədə vətəndaş müharibəsi sona çatdı, dövlətimiz xaosdan, dağılmaqdan xilas oldu.

«Hər şeyin əsası inkişafdır», – deyən Ulu Öndər ölkədəki siyasi hərcmərcliyin, özbaşınalığın qarşısını aldı, normal şəraiti bərpa etdi. Ölkəmizdə bütün sahələrdə inkişaf başladı. Milli Ordumuzun yaradılması, torpaqlarımızın müdafiə olunması, ölkədə vəziyyətin sabitləşməsi bu illərə təsadüf edir.

Onun gərgin fəaliyyəti nəticəsində 1994-cü il mayın 12-də atəşkəs elan olundu. Bu mühüm bir addım idi. Çünki sabitlik olmadan bir ölkəni inkişaf etdirmək mümkün deyil.

Siyasi hakimiyyətdə olduğu dövr ərzində Heydər Əliyev xalqımız üçün mühüm işlər həyata keçirdi. İlk növbədə, yoxsulluğun, işsizliyin azaldılmasına başlanıldı. Heydər Əliyev yaxşı bilirdi ki, bir ölkəni inkişaf etdirmək üçün əvvəlcə həmin ölkənin əhalisinin rifahını yaxşılaşdırmaq lazımdır.

Ulu Öndərimiz təhsil sahəsində mühüm yeniliklərə əl atdı. Təhsil sistemində əsaslı dəyişikliklər edildi. Bu gün Azərbaycan təhsilinin bu cür inkişafının əsasında Heydər Əliyevin təhsilə göstərdiyi qayğı, diqqət dayanır.

Azərbaycan tarixi həqiqətlərinin dünyaya çatdırılmasında Heydər Əliyev mühüm işlər gördü. Əgər bu gün dünya Xocalı soyqırımından, «20 Yanvar» faciəsindən xəbərdardırsa, bu, Heydər Əliyevin sayəsindədir. Onun əzmkar və yorulmaz fəaliyyətinin nəticəsidir ki, hal-hazırda dünya ölkələrinin çoxu Azərbaycanı müstəqil ölkə kimi tanıyır.

Dahi Heydər Əliyev ölkəmizi sənayecə yüksək inkişaf etmiş ölkələr səviyyəsinə qaldırmışdır. 1994-cü il 20 sentyabrda «Əsrin müqaviləsi»nin imzalanması ilə Azərbaycanın dünya iqtisadiyyatına inteqrasiyasının əsası qoyuldu. Bir çox ölkələrdə neft, qaz sahəsində kontraktlar imzalandı. Ölkəmizin təbii sərvətlərinin digər ölkələrə satışı başlandı. Bu gün bir çox ölkələrin neftə, qaza olan tələbatını Azərbaycan ödəyir.

Bəli, bu qeyd etdiklərim sadəcə dahi rəhbərimizin Azərbaycanımızın rifahı naminə gördüyü tədbirlərinin bir hissəsidir. Heydər Əliyev həqiqi mənada müstəqil Azərbaycanın memarı və qurucusudur.

O, Azərbaycan üçün, xalqı üçün yaşadı. Bütün ömrünü öz xalqına həsr etdi. Bu dahi şəxsiyyət sadəcə Tanrının Azərbaycan xalqına göndərdiyi bir xilaskar idi.

Bu gün Azərbaycan xalqı, Azərbaycan gəncliyi siyasi meydanda öz sözünü deyən dahi bir liderinin olması ilə fəxr edir. Heydər Əliyevin özündən sonra bizə qoyub getdiyi ən dəyərli sərvət müstəqil Azərbaycan və ona rəhbərlik edən İlham Əliyevdir. Heydər Əliyevin gördüyü tədbirlər hər bir azərbaycanlı üçün nümunə olmalıdır. Biz onun getdiyi yol ilə getməliyik, çünki bu yol bizi işıqlı gələcəyə aparacaq. Nə qədər ki, müstəqil Azərbaycan var, Heydər Əliyev dedikdə Azərbaycan, Azərbaycan dedikdə isə Heydər Əliyev yada düşəcəkdir.






## *İsmayılzadə Aytac Niyazi qızı*

***Qubadlı rayonu, Çaytumas kənd məktəb-liseyin IX sinif şagirdi***


*«Vətənə, xalqıma, millətimə məhəbbət, müstəqil Azərbaycan dövlətinə, Azərbaycan Respublikasına hədsiz məhəbbət, mənim həyatımın mənasıdır, məzmunudur...»*

**Heydər Əliyev**

Hər bir dövlətin nüfuzu, qüdrəti və sərvətləri qiymətləndirilərkən onun ərazisi, əhalisi, təbii və maddi sərvətləri, hərbi qüdrəti ilə yanaşı, mənəvi zənginlikləri də nəzərə alınmalıdır. Hər dövrdə, hər vəziyyətdə onun dünya şöhrətli dahiləri, tanınmış şəxsiyyətləri varsa, o, zəngin xalqdır.

Bəli, Azərbaycan xalqının da tarixdə tanınmış, dahi şəxsiyyətləri olmuşdur. Azərbaycan tarix boyu qəhrəman və mərd oğullarına, müdrik sərkərdələrinə güvənmişdir. Onlarla həmişə fəxr etmiş, onların sayəsində xoşbəxt yaşamışdır.

Bu dahi şəxsiyyətlərdən biri də həyat və fəaliyyətinin vurğunu olduğum, böyük məhəbbət bəslədiyim, Azərbaycanın vətənpərvər, uzaqgörən və müdrik oğlu Heydər Əliyev idi.

Bəli, adı müasir tariximizə qızıl hərflərlə yazılan Heydər Əliyevi ancaq yeri-göyü işığa qərq edən, qaranlıqları aydınlaşdıran günəşlə, bir də qartal məskəni, uca göylərə yüksələn zirvə ilə müqayisə etmək mümkündür. Onun zəkası, ideyaları daim Azərbaycanın üzərində Günəş kimi parlayacaq, yolumuzu nura qərq edəcək. Azərbaycan xalqı xoşbəxtdir ki, onun ləyaqətli oğlu Heydər Əliyev hələ sağlığında ikən öz adını dünyanın sayı-

lıb-seçilən, görkəmli dövlət xadimlərinin, tarixi simaların siyahısına yazmış, bununla da hər birimizə başucalığı gətirmişdir.

Təsadüfi deyil ki, Türkiyənin sabiq prezidenti Süleyman Dəmirəl Heydər Əliyevi «Azərbaycan xalqının nicatı üçün bir şans, canını vətəni və xalqı yolunda sipərə çevirən qeyrətli oğul» adlandırıb.

*Adın, sanın yenilməz bir ordudur,*
*İndi Odlar diyarının özüsən.*
*Azərbaycan Heydərlərin yurdudur,*
*Gələcəyə baxanların gözüsən.*

Bu dahi insan Azərbaycan xalqının yaddaşında qurucu və xilaskar dövlət xadimi, Ümummilli Lider və xalq məhəbbətini qazanan Ulu Öndər kimi qalmışdır.

Məncə, Heydər Əliyevin ən böyük qələbəsi məhz sabitliyə nail olmasıdır. Ölkədə sabitlik yaratmaqla Heydər Əliyev öz gücünə, təcrübəsinə inanan və güvənən dahi siyasətçi kimi dəfələrlə söylədiyi kəlamın bir daha həqiqət olduğunu sübut etdi. «Azərbaycanın dövlət müstəqilliyi əbədi olacaqdır, sarsılmaz olacaqdır, dönməz olacaqdır!» Heydər Əliyev Naxçıvanın övladı olmaqdan, nəinki Azərbaycanın, həm də bütün türk dünyasının böyük oğlu zirvəsinə yüksəlib. Və bir də bu fenomenal şəxsiyyətin, qüdrətli dövlət və siyasət adamının ömür salnaməsi, eyni zamanda bütün varlığı ilə sevdiyi Azərbaycanımızın canlı tarixidir. Heydər Əliyev Azərbaycanın gələcəyini düşünür, bu gününü qururdu. O heç kəsin duya bilmədiyi bir şəkildə Azərbaycanın dövlət quruculuğuna aparan yolu müəyyən edirdi. Əslində, Heydər Əliyevin tale payı Azərbaycanın gələcəyi ilə bağlıdır. Onun üzərində bu milləti bir əsrdə iki dəfə xilas etmək missiyası vardı. Azərbaycan dövlətini qurmaq, yaratmaq, inkişaf etdirmək, möhkəmləndirmək, ölkələr arasında layiqli yerini tutmaq onun missiyası idi. Bu missiyanın uğurla həyata keçirilməsi isə Azərbaycanın əbədiyaşar rəhbərinə verilmişdir.

Düşünürəm ki, Heydər Əliyevin adı tarixə bir çox fəaliyyətləri ilə yanaşı, ilk növbədə, müstəqil Azərbaycanın qurucusu kimi daxil olmuşdur. Müasir Azərbaycan tarixində Heydər Əliyevin diplomatik fəaliyyəti xüsusi əhəmiyyət kəsb etməkdədir. Dünyanın bir çox böyük siyasət adamlarının Heydər Əliyevi bəşəriyyətin liderindən biri adlandırmaları da təsadüfi deyildir. Çünki hakimiyyət başında olduğu illərdə Heydər Əliyev milyonların on illər ərzində görə bilmədiyi işi gördü. İndi bütün dünya Azərbaycan həqiqətlərini qəbul edir, ona dayaq durur.



Mən bir şagird kimi düşünürəm ki, Azərbaycanın hər bir binasında əlinin hərarəti, hər ağacının böyüməsində əməyi olan, hər mütəxəssisinin ərsəyə gəlməsində böyük zəhmət çəkən, millətin gələcəyini düşünən Heydər Əlirza oğlu Əliyev, həqiqətən də, tarixi bir şəxsiyyətdir.

Mən bu gün özümü xoşbəxt şagird sanıram. Ona görə ki, Heydər Əliyevin qurucusu olduğu bir dövlətdə yaşayıram. Ona görə ki, bütün xalqımız kimi mən də inanıram ki, onun sayəsində Azərbaycan yüksək inkişaf səviyyəsinə qalxacaq, xalqımız xoşbəxt və firavan bir həyat sürəcək!

*Bu Vətən xidmətində,*
*Bu millət hörmətində,*
*Bu dövlətin qüdrətində,*
*Yaşayır Heydər babamız!*
*Əməli zəfər babamız!*



### *İmanova Ayşən Əlisəfa qızı*

***Bakı şəhəri, 204 nömrəli tam orta məktəbin X sinif şagirdi***

*Xalqı zirvələrə qaldırmaq üçün*
*Sevgi şahlığının taxtına çıxdın.*
*Oğul xalq üçündür, zirvə dağ üçün*
*Nə yaxşı, bu xalqın baxtına çıxdın.*

Görkəmli filosof Sokratın çox müdrik sözləri var: «Dahilər müzakirə olunmur, öyrənilir». Biz də mərhum prezidentimiz Heydər Əliyevi müzakirə etmirik, daim onlardan, onun dəyərli fikirlərindən bəhrələnirik. Günəşə hansı tərəfdən baxılsa, günəş elə günəşdir. Onun hərarəti hamıya bəs edir. Əgər mübaliğə kimi səslənməsə, Ulu Öndəri Vətənimiz üçün günəş hesab etmək olar. Onun xoş əməlləri daim yadda qalacaq, tarixdə öz layiqli yerini tutacaqdır. Azərbaycan dövlətçiliyi var olduqca Heydər Əliyev şəxsiyyəti əbədi yaşayacaqdır.

Əbədiyaşar türk lideri Atatürkün sözləri yada düşür: «Ən böyük şəxsiyyətlər özündən çox mənsub olduğu xalqın xoşbəxtliyini, gələcəyini düşünən insanlardır». Heydər Əliyev də öz həyat çırağını xalqın yolunda yandıraraq hələ sağlığında ürəklərdə heykəl ucaltmışdı. Fəaliyyətində müdriklik, dövlət idarəçiliyində ustalıq bu böyük siyasətin ana xəttini təşkil edirdi. Zəmanəmizin böyük azərbaycanlısı olan, millətlər arasında öz imzası ilə tanınan dahi şəxsiyyət haqqında söz demək, həqiqətən də, çətindir. Lakin həddən artıq şərəflidir. Onun böyüklüyü, müdrikliyi elə bunda idi. Ulu Öndər xalqın məhəbbətini, tükənməz sevgisini elə qazanmışdı ki, hamı «Heydər–Xalq, Xalq–Heydər!» deyirdi. Bu, şüar xətrinə deyilən sözlər deyildi. Heydər Əliyev və xalq arasındakı vəhdəti ifadə edən milli gerçəklik idi. Doğrudan da, biz çox xoşbəxt xalqıq. Ona görə ki, müstəqil dövlətimiz var, öz əqidəsi ilə xalqın gələcəyini quran əbədiyaşar liderimiz var.



Ulu Öndər öz ömrünün, mənalı həyatının çox hissəsini siyasətə, qurub-yaratmağa həsr etmişdir. Onun Vətən üçün etdiyi xidmətləri heç nə ilə müqayisə etmək olmaz. O elə şəxsiyyət idi ki, təkcə ölkəmizdə deyil, həm də Azərbaycanın hüdudlarından çox-çox uzaqlarda tanınmış və hər zaman mənsub olduğu xalqa nüfuz və hörmət gətirmişdir. Son illərdə Azərbaycanın qazandığı nailiyyətlər onun adı ilə birbaşa bağlıdır.

1994-cü il sentyabrın 20-də «Əsrin müqaviləsi» Azərbaycanın siyasi, iqtisadi və informasiya blokadasında olduğu bir vaxtda imzalandı. Bu müqavilənin bağlanması ölkədə sabitliyin bərqərar olmasında, ölkəmizin dünyada tanınmasında müstəsna rol oynadı.

Mən indi adi bir məktəbliyəm. Özümü çox xoşbəxt hiss edirəm. Çünki onun əmanət qoyub getdiyi müstəqil dövlətin vətəndaşıyam. Məni və məktəbli yoldaşlarımı xoşbəxt gələcəyə qovuşduran Heydər Əliyev daim bizləri düşünmüş, vətənin tərəqqisi üçün hər şeyi etmişdi. Biz məktəblilərin qarşısında böyük vəzifələr durur: vətənin inkişafı üçün əlimizdən gələni etməli, Ulu Öndərin tutduğu bu yolda inamla irəliləməliyik.

Şükürlər olsun ki, ölkəmiz etibarlı varis tərəfindən idarə olunur. Ata ocağının ləyaqətli oğlu İlham Əliyev Ulu Öndərin yolunu layiqincə davam etdirir. Ümid edirəm ki, Qarabağ düyününü İlham Əliyev açacaq və bu prosesdə prinsipial mövqe tutacaqdır.

Vətən bizim bu günümüz, xoş gələcəyimizdir. Tarixə nəzər salsaq, çoxlu silinməz izlər görərik. Bu izlər sırasında əbədiyaşar Heydər Əliyevin də silinməz, qətiyyətli, böyük izi var.

Ulu babamız, sən vətən torpağında əbədi yuxuya getmisən, rahat uyu. Tanrıdan sənə rəhmət diləyirəm.



***Əhmədli Nigar Araz qızı***

***Bakı şəhəri, akademik Zərifə Əliyeva adına liseyin X sinif şagirdi***

Hər dəfə təhsil aldığım liseyin xatirə zalına daxil olduqda Heydər Əliyev üçün ayrılmış guşəyə baxarkən onun təkcə dünya şöhətli siyasi xadim, bacarıqlı, qüdrətli dövlət başçısı deyil, həm də gözəl ailə başçısı, sədaqətli həyat yoldaşı, mehriban ata, qayğıkeş baba olduğuna da əmin oluram.

«Azərbaycan mənim ürəyimdir. Azərbaycan mənim vətənimdir, Azərbaycan mənim həyatımdır. Həyatım boyu vətənimə, ölkəmə, xalqıma xidmət etmişəm. Mən bəxtəvərəm ki, xalqıma etdiyim xidmətlərim qiymətləndirilibdir». Bu ifadələrin müəllifi Azərbaycanın yaradıcısı və qurucusu ümummilli lider Heydər Əliyevdir. Azərbaycanın hər qarış torpağına öz imzasını əməlləri ilə həkk edib. Buna səbəb onun Azərbaycana olan xidmətlərinin, azərbaycançılıq ideologiyasını yaratmasının nəticəsi idi.

Müstəqil Azərbaycan dövlətinin memarı, Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin əbədiyyətə qovuşmasından 11 il keçir. Bu 11 il ərzində xalqımız öz liderini bir an belə unutmayıb. Dünya şöhrətli siyasi xadim, ümumtürk dünyasının böyük oğlu Heydər Əliyev tarix boyu fəxr hissi ilə yad edilib.

Hər gün xalqımızın müxtəlif təbəqələrindən olan insanlar axın-axın Fəxri Xiyabana gedərək ona olan məhəbbətlərini və sevgilərini ifadə edirlər. Azərbaycanın son 40 ildən artıq bir dövrünün tarixinin taleyi Heydər Əliyevin adı ilə qırılmaz tellərlə bağlıdır. Bu dövrdə xalqın ictimai-siyasi və mədəni həyatının bütün sahələrindəki dirçəliş onun adı ilə əlaqədardır. Rəhbərlik etdiyi dövr ərzində Heydər Əliyevin daim tərəqqisi üçün çalışdığı, zəngin mədəniyyəti, böyük tarixi keçmişi ilə qürur duyduğu Azərbaycan bir dövlət kimi zamanın ağır və sərt sınaqlarından çıxmışdır.



Tarixin yetirdiyi görkəmli şəxsiyyətlərdən olan ulu öndər Heydər Əliyevin parlaq, siyasi zəkası sayəsində iki minilliyin, iki əsrin qovşağındakı Azərbaycan öz milli-mənəvi dəyərlərini qoruyaraq üçüncü minilliyə inamla qədəm qoydu. Heydər Əliyev bir çox siyasi xadimin edə bilmədiyini gerçəkləşdirərək müasir dünyanın ən aktual çağırışlarına cavab vermək bacarığı ilə XX və XXI əsrin tanınmış dövlət xadimləri sırasında həmişəlik öz layiqli yerini tutub.

Xalqımızın yetişdirdiyi nadir dövlət xadimlərindən olan Heydər Əliyev yaşadığı fırtınalı həyatı boyu həmişə öz xalqını, vətənini düşünürdü. Onun ürəyi Azərbaycan müstəqilliyinin möhkəmləndirilməsi, doğma xalqının xoşbəxtliyi üçün çırpınırdı. Heydər Əliyev bir dövlət başçısı kimi Azərbaycanın ən çətin anlarında onu xilas etmək üçün misilsiz fədakarlıq göstərmiş, ölkəsini bəlalardan qurtarmağı bacarmışdı.

Azərbaycanın müstəqil dövlət quruculuğuna aparan yolu, əslində, 1969-cu ildən, məhz onun hakimiyyətə gəlişindən sonra başlamışdı. Heydər Əliyevin rəhbərliyə gəldiyi dövr milli özünüdərkin, milli özünəqayıdışın başlanğıcı kimi qəbul edilir.

1969-cu il iyulun 14-də siyasi rəhbərliyə gələn Heydər Əliyev keçmiş ittifaqın iqtisadiyyatı üçün xammal mənbəyinə çevrilmiş Azərbaycanın yeni inkişaf strategiyasını hazırlayıb, qısa müddətdə həyata keçirdi. Bunun nəticəsində əvvəllər bütün əsas göstəricilər üzrə ölkə miqyasından geridə qalan Azərbaycan tezliklə İttifaqın ən inkişaf etmiş respublikalarından birinə çevrildi.

Heydər Əliyevin siyasəti nəticəsində ölkədə yaranmış güclü sosial, iqtisadi və intellektual potensial Azərbaycanın müstəqilliyi üçün mühüm zəmin oldu. Azərbaycanın inkişafı həmin illərdə ölkədə yaradılmış bünövrə üzərində qurulub və bu gün də uğurla davam edir. 1993-cü ilin iyun ayında Azərbaycanda ictimai-siyasi böhran yaranmışdı, hakimiyyət iflic vəziyyətdə idi. Belə bir dövrdə Heydər Əliyevin hakimiyyətə qayıdışı bütün təhlükəli proseslərin qarşısını aldı.

Heydər Əliyevin hakimiyyətinin ikinci mərhələsi nə qədər ziddiyyətli, təlatümlü, ictimai-siyasi gərginliklərlə səciyyələnən dövrə təsadüf etsə də, ona xas uzaqgörənlik və siyasi müdriklik, iradə yenilməzliyi, ən əsası, Vətənini düçar olduğu bəlalardan xilas etmək istəyi və bacarığı ölkəmizi sürətlə fəlakətə doğru aparan proseslərin qarşısını almağa, xalqımızın müstəqilliyə, firavan gələcəyə olan inamının qayıtmasına imkan yaratdı.

Heydər Əliyev hakimiyyətə gəlişi ilə bütün qüvvələri öz yerinə qoydu. Atəşkəs əldə olunmasından istifadə edərək ölkədə siyasi sabitliyin bərpa-

sına, vahid komandanlıq altında nizami ordunun yaradılmasına, bütün sahələrdə islahatların keçirilməsinə rəvac verdi. Müstəqil Azərbaycan Respublikasının ilk Konstitusiyasının qəbul edilməsi, demokratik yolla prezident və parlament, habelə respublikada ilk dəfə olaraq bələdiyyə seçkilərinin keçirilməsi, Şərqdə ilk dəfə ölüm cəzasının ləğvi, senzuranın aradan qaldırılması, çoxpartiyalı sistemin, terrorçuluqla mübarizənin dəstəklənməsi, «Əsrin müqaviləsi»nin imzalanması, Bakı–Tbilisi–Ceyhan neft boru kəmərinin və Bakı–Tbilisi–Ərzurum qaz kəmərinin ərsəyə gəlməsi, «İpək yolu»nun bərpası Ulu Öndərin adı ilə bağlıdır.

Yürütdüyü xarici siyasətin milli maraqlara və bəşəri dəyərlərə söykənməsi, habelə beynəlxalq terrorçuluqla mübarizənin dəstəklənməsi və bu sahədə xüsusi fəallıq göstərilməsi Azərbaycanın nüfuzunu əhəmiyyətli dərəcədə yüksəldərək, onu sivil dövlətlər səviyyəsinə qaldırdı. Məqsədyönlü və uğurlu fəaliyyət nəticəsində yeni əsrin başlanğıcı xalqımız üçün böyük uğurla – Azərbaycanın Avropa Şurasına üzv qəbul edilməsi ilə səciyyələndi. Azərbaycanın müstəqilliyinin onuncu ildönümünün qeyd edilməsi, Dünya Azərbaycanlılarının Birinci Qurultayının müvəffəqiyyətlə keçirilməsi, onların azərbaycançılıq və milli dövlətçilik, milli-mənəvi dəyərlər ətrafında birləşməsi, diasporumuzun güclənməsi və formalaşması istiqamətində əhəmiyyətli addım oldu. 2003-cü il dekabrın 12-də vəfat edən Heydər Əliyevin dəfn mərasimi xalqımızın ona olan ehtiramının dərinliyini, onun parlaq və unudulmaz xatirəsinin Azərbaycan xalqının qəlbində daim yaşayacağını bütün dünyaya əyani şəkildə göstərmiş oldu. Möhtərəm prezidentimiz İlham Əliyev tərəfindən 2004-cü ildə imzalanmış «Ümummilli lider Heydər Əlirza oğlu Əliyevin xatirəsinin əbədiləşdirilməsi haqqında» fərman da dahi rəhbərimizə olan ümumxalq məhəbbətinin təzahürüdür.

Heydər Əliyev azərbaycanlı olduğu üçün özünü xoşbəxt sayırdı. Azərbaycan xalqı da bütün dünyanın qibtə edəcəyi bir rəhbəri olduğu üçün xoşbəxt idi. İndi də ona görə xoşbəxtdir ki, əsası Heydər Əliyev tərəfindən qoyulmuş xoşbəxtliyə Heydər Əliyev idarəçilik məktəbinin layiqli davamçısı, möhtərəm İlham Əliyev tərəfindən güclü və sarsılmaz təminat yaradılmışdır. Heydər Əliyev əbədi yaşardır. O, dünya durduqca xalqımızın qəlbində yaşayacaq və həmişə dünya şöhrətli xadim kimi xatırlanacaqdır.

Heydər Əliyev Azərbaycanın günəşli səması altında dünyaya göz açmışdır. Bu işığı nə vaxtsa Vətəninə, hər bir insana paylamaq üçün qəlbini nura qərq etmişdi. Tale ona 80 illik bir ömür qismət etdi. Lakin onun nurlu ideyaları Azərbaycanın inkişaf yolunu daim işıqlandıracaqdır.



Heydər Əliyev həyatını cismən başa vursa da, ruhən bizimlədir, nailiyyətimizin, fəaliyyətimizin istiqamətvericisidir. Heydər Əliyevi cismən bizdən ayıran illər ötdükcə onun şəxsiyyətinin böyüklüyünü, dahiliyini daha dərindən dərk edirik. Aradan illər, qərinələr, əsrlər keçəcək, nəsillər dəyişəcək, Ümummilli Liderimizə olan xalq məhəbbəti isə bitməyəcəkdir.

Adətən, böyük tarixi şəxsiyyətlər haqqında tarix kitablarından məlumat alırıq. Lakin mən xoşbəxtəm ki, Heydər Əliyevlə eyni dövrdə yaşamış, onun gerçəkləşdirdiyi işlərin şahidi olmuşam.



## Kərəmova Hüryal Afiq qızı

*Qəbələ şəhəri, 2 nömrəli tam orta məktəbin XI sinif şagirdi*

Yollardan çox karvanlar gəlib-keçib. Lakin heç biri bir-birinə bənzəməyib. Əslində, belə də olmalıdır. Çünki o karvanların sarbanları da eyni deyildir, karvandakılar da. Həyat yolu deyilən bir karvan da var. Yükü ağır, yolu daşlı-kəsəkli, sonsuz... «Ömrümün bundan sonrakı hissəsini xalqıma həsr edirəm», – deyən bir millət atasının ömür yoluna işıq tutmaq, həyatının ağrısını, acısını, fərəhini, sevincini bir tale süzgəcindən keçirmək şərəfli olduğu qədər də çətindir.

Dahilərin adı hər zaman dillərdə əzbər olur. O da dahi idi. Bütün dövrlərin dahisi olaraq da qalacaq. Axı vətənpərvər, xalqının mənafeyini hər şeydən uca tutmağı bacaran, həyatının hər anı xalqının həyatına bağlı olan insanlar haqqında heç zaman keçmişdə danışmırlar. Çünki belə insanların bioloji yoxluğu onların mənəvi varlığı ilə əvəzlənir. Yəni onlar bizi cismən tərk etsələr də, mənəvi cəhətdən hər zaman bizimlədirlər.

Azərbaycan xalqının əbədi and yerinə çevrilən, daim yaddaşlarda olan bir İnsan – Heydər Əliyev haqqında olan düşüncələrimi, ürəyimdən, qəlbimdən gələnləri sizinlə paylaşmaq istəyirəm. Əslində, ona olan məhəbbətimi hayqırmaq, hər kəsə bəyan etmək istəyirəm. Lakin bu möhtəşəm dilimin sözləri ilə ona olan sevgimi tərənnüm etməkdə aciz qalıram.

Mən onu günəşə bənzədərdim. Naxçıvanda doğan, öz işığı və ziyası ilə bütün kainata şəfəq salacaq, heç vaxt qürub etməyəcək günəşə.

Mən onu nura bənzədərdim. Haqdan gələn könüllərə, qəlblərə əbədi səpələnən nura.

Mən onu qartala bənzədərdim. Daim zirvələri özünə məkan seçən, zamanın ən sərt rüzgarlarında belə zirvələrdən enməyən qartala.

Mən onu simurq quşuna bənzədərdim. Daim xalqı üçün yanan, qəlbinin odunu, atəşini xalqı üçün məşələ çevirən simurq quşuna.



Mən onu dağa bənzədərdim. Başı qarlı, vüqar və ucalıq rəmzi, əzmkarlıq siması qocaman bir dağa.

Mən onu siyasət loğmanına bənzədərdim. Milli varlığımızın qarantı ola biləcək qədər ən ali siyasət loğmanına.

Dünyada çox siyasi liderlər, müdriklər, dahilər olub və dünya durduqca da olacaq. Belə dahilərdən biri də anamız Azərbaycanın qismətinə düşüb. Əslində, Heydər Əliyev Tanrının Azərbaycan xalqına bəxş etdiyi ən böyük azərbaycanlı idi.

O, bir rəhbər kimi qətiyyətli, bir tarixçi kimi dünyanın bütün qlobal sirlərinə bələd idi. O, bir sərkərdə kimi qətiyyətli, bir vətəndaş kimi qeyrətli idi. Eyni zamanda o, mərd, ləyaqətli, ata kimi mehriban və xeyirxah idi.

Heydər Əliyev bir fenomen şəxsiyyət idi. O, sözün əsl mənasında, hər bir azərbaycanlının örnək götürə biləcəyi bir şəxs idi. O, elə bir xalqın oğludur ki, mənsub olduğu xalqın şərəf, ləyaqət, mərdlik kimi ən ali keyfiyyətlərini özündə hifz edirdi. Bu gün hər bir Azərbaycan vətəndaşı əminliklə deyə bilər ki, müstəqil Azərbaycan dövləti bu dahi şəxsiyyətin sağlığında özünə ucaltdığı ən möhtəşəm abidə, Heydər Əliyev dühasının ən böyük şah əsəridir.

Ümummilli lider Heydər Əliyev qəbul etdiyi tarixi qərarlarına görə müstəqil Azərbaycan dövlətinin qurucusuna çevrildi. Məhz bu tarixi missiyasına görə onu «xilaskar» adlandırırlar. 1994-cü ilin oktyabr hadisələri zamanı Ulu Öndərin «Kim Azərbaycana doğrudan ürək yandırırsa, bu həlledici dəqiqələrdə bizimlə olmalıdır» kəlməsi minlərlə insan dənizini kükrətdi, «Heydər Əliyev – Xalq», «Xalq – Heydər Əliyev» birliyini sübut etdi.

1994-cü ilin 20 sentyabrında Azərbaycan xalqının xoşbəxt həyatının zəmanətinə çevrilən, tərəqqiyə, müstəqilliyin təhlükəsizliyinə zəmanət verən neft müqaviləsi – «Əsrin müqaviləsi» imzalandı.

Ümummilli Liderin iradəsi və cəsarəti sayəsində Azərbaycanın qara qızılı bu millətin ağ günlərinin tarixini yazmağa başladı.

Ulu Öndərin ağıllı və taktiki addımları sayəsində dünyanın transmilli neft korporasiyaları Bakıya axışmağa başladı. Bu, Azərbaycan iqtisadiyyatının zəfər təntənəsi idi. Bir müddət sonra Ulu Öndərin zəhməti sayəsində Bakı–Tbilisi–Ceyhan ixrac boru kəməri reallığa çevrildi. Bu, əslində, üç dəniz əfsanəsini gerçəkləşdirdi. Azərbaycan dövləti regionda sülhün dayağına, qədim tarixə malik Bakı şəhəri isə əməkdaşlıq paytaxtına çevrildi. Buna ancaq Heydər Əliyev kimi bir dahi nail ola bilərdi. Çünki o, Xətai babamızın varisi, Atatürk məktəbinin yetirməsi idi. Heydər Əliyev azadlığa susayan Azərbaycan xalqının hayqıran səsi idi. O, işığa möhtac

Azərbaycan üçün bir məşəl idi. Uçurumun bir addımlığında dayanan Azərbaycanımızı məhv olmaq təhlükəsindən yalnız o, xilas edə bilərdi. Heydər Əliyev üzərinə düşən bu vəzifəni ləyaqətlə yerinə yetirdi. Məhz bu tarixi missiyanın gerçəkləşməsinə görə Azərbaycan dövlətinin müstəqilliyini əbədi, dönməz və sarsılmaz etdi. Heydər Əliyev dünyada Azərbaycanın mövqeyini möhkəmləndirdi.

Dünya şöhrətli siyasi xadim Heydər Əliyevin ömrü doğma Vətənin siyasi, sosial və mədəni tərəqqisinə, xalqımızın firavanlığı və xoşbəxtliyi, ölkəmizin dünya birliyində özünəməxsus yer tutması uğrunda mübarizəyə həsr olunmuşdur. Yaxın tariximizin ən şanlı səhifələri məhz onun adı ilə bağlıdır. Ondan Vətənə xidmət əzmi, azərbaycançılıq ideologiyası, milli-tarixi dəyərlərə sədaqət ruhu heç vaxt əksik olmamışdır.

Ulu Öndər daim xalqını düşünmüş, onu başına gələn fəlakətlərdən xilas etmək üçün əlindən gələni etmişdir. Bu gün müstəqil dövlətimizin yaşaması, bir ölkə kimi təşəkkül tapmasında ulu öndər Heydər Əliyevə borcluyuq. O, bizə möhkəm sosial və iqtisadi təməl üzərində qurulmuş Azərbaycan qoyub getdi.

Ulu Öndərin 1993–2003-cü illər arasında gördüyü möhtəşəm işlər onun Azərbaycana rəhbərliyinin birinci dövründə gördüyü işlərin ardı kimi qiymətləndirilir.

Ölkədə baş verən xaosun, özbaşınalığın qarşısı birdəfəlik alındı. Qanunsuz silahlı dəstələr zərərsizləşdirildi, respublikada siyasi sabitlik bərpa olundu. Torpağa axıdılan şəhid qanının qarşısı alındı, atəşkəs dövründən yararlanaraq güclü Azərbaycan ordusu yaradıldı.

O bütün varlığı ilə azərbaycanlı idi və bunu qürurla bəyan edirdi: «Azərbaycan xalqının tarixi nailiyyəti olan Azərbaycan Respublikasının müstəqilliyini qorumağı, möhkəmləndirməyi özüm üçün ən əsas vəzifələrdən biri hesab edirəm. Heç kəsin şübhəsi olmasın ki, ömrümün bundan sonrakı hissəsini, harada oluramsa-olum, yalnız və yalnız Azərbaycan Respublikasının inkişafına həsr edəcəyəm. Azərbaycan Respublikası bundan sonra da onun başına nə gəlirsə-gəlsin yenidən heç bir dövlətin tərkibinə daxil edilməyəcək, heç bir dövlətin əsarəti altına düşməyəcək».

Ümummilli Lider dünənin, bu günün, gələcəyin partiyası olan – Yeni Azərbaycan Partiyasını qurdu.

Ulu Öndər uşaqlarımızın babası, Azərbaycan gənclərinin arxası və dayağı idi. Azərbaycan ədəbiyyatı və mədəniyyətinin qazandığı ən böyük uğurlar onun adı ilə bağlıdır. Heydər Əliyevin rəhbər olduğu dövr Azərbaycan təhsilinin intibah mərhələsi, qızıl dövrü idi. Heydər Əliyev Azərbaycan elminin himayədarı idi



Heydər Əliyev dünyanın harasında yaşamasından asılı olmayaraq, daim xalqına, millətinə bağlı bir insan idi. O, hər zaman bütün dünya azərbaycanlılarını həmrəy görmək istəyirdi. Xaricə səfərləri zamanı işinin gərgin olmasına baxmayaraq, həmin ölkədəki həmvətəndaşlarımızla görüşüb, onların problemləri ilə maraqlanırdı. Onları Azərbaycan ətrafında sıx birləşməyə çağırırdı. Heydər Əliyev Azərbaycan xalqının həmrəyliyinə, birliyinə, təşkilatlanmasına nail oldu. Ulu Öndər zamanının şövqündə dayanan elə dahi şəxsiyyətlərdəndir ki, o, heç vaxt özü üçün yaşamayıb, özünün tarixi qayğıları ilə maraqlanmayıb. Onun Azərbaycana ən böyük xidmətlərindən biri də odur ki, o, Azərbaycanın tarixi keçmişini bərpa etmiş, milli-mənəvi dəyərlərimizi özümüzə qaytarmış, milli adət-ənənələrimizi yaşatmışdır. Heydər Əliyev xalqımızın inkaredilməz qürur mənbəyi, bütün nailiyyətlərimizin səbəbkarı idi.

O, müəllifi olduğu inkişaf strategiyasının sonrakı onilliklərdə də davam etməsi, gələcək nəsillər üçün əlamətdar olması naminə fədakarlıqla çalışmışdır.

Bu gün Azərbaycanda Heydər Əliyev siyasi kursuna alternativ yoxdur və prezident İlham Əliyev tərəfindən qloballaşan dünyanın tələblərinə uyğun şəkildə həmin ideyaların davam etməsi qazandığımız uğurların rəmzidir.

Bəli, o, hamı kimi doğuldu, hamı kimi böyüdü, amma hamı kimi yaşamadı. O, yalnız xalqı üçün yaşadı. Mən bu gün fəxr edirəm ki, Heydər Əliyev ideyalarını daşıyan, inkişaf edən, müasirləşən Azərbaycanda, ən əsası, möhkəm dövlətçilik təməli olan bir ölkədə yaşayıram.

Bəli, nə qədər ki, müstəqil Azərbaycan dövləti var, nə qədər ki, Azərbaycan xalqı var, Heydər Əliyevin adı daim qəlblərdə, könüllərdə yaşayır və yaşayacaq!



## Quliyeva Nurtac Tahir qızı

**Bakı şəhəri, S.Rüstəm adına Xarici Dillər Təmayüllü Gimnaziyanın XI sinif şagirdi**

Heydər Əliyev – bu dahi şəxsiyyət haqqında yazmaq o qədər də asan deyil. Mənim zənnimcə, bu yazı Heydər babanın özü kimi həm sadə, həm də dərin və dəyərli olmalıdır.

Heydər Əliyev çox çətin, məşəqqətli, həm də hər birimizə nümunə olacaq həyat yaşamışdır.

*Yaşamaq yanmaqdır, yanasan gərək,*
*Həyatın mənası yalnız ondadır.*
*Şam əgər yanmırsa, yaşamır, demək.*
*Onun da mənası yanmağındadır.*

Bəli, Heydər Əliyev bütün ömrü boyu şam kimi yanaraq Azərbaycan xalqının yolunu işıqlandırmışdır. Bilik, bacarıq, istedad, yüksək idarəetmə qabiliyyəti, vətənə sevgi, sadəlik – bir sözlə, bütün insani keyfiyyətlər bu dahi şəxsiyyətdə birləşmişdir.

Heydər Əliyev adını eşidib, bu ad qarşısında baş əyməyən insan əsl azərbaycanlı ola bilməz. Çünki ən azından bu gün azad və xoşbəxt yaşayırıqsa, bunu Heydər babamıza borcluyuq.

Heydər Əliyev elə bir vaxtda xalqın köməyinə çatdı ki, Azərbaycan yox olmaq təhlükəsi qarşısında idi. Ulu öndər Heydər Əliyevin söylədiyi «Heç kimin şübhəsi olmasın ki, bütün ömrümü yalnız və yalnız Azərbaycan Respublikasının müstəqil dövlət kimi inkişaf etməsinə həsr edəcəyəm» deyimini bu gün də həyəcansız xatırlamaq mümkün deyil. Ona görə ki xalqımızın əsrlərdən bəri uğrunda mübarizə apardığı müstəqillik arzusu bu gün əsl reallığına qovuşub. Dahi şəxsiyyət Heydər Əliyevin həyat manifesti bizdə ölçüyəgəlməz qürur hissi oyadır. Heydər Əliyev qeyri-adi şəxsiyyət, fenomenal siyasətçi və dövlət xadimidir. Onun ən böyük gücü



misilsiz yaddaşında, idarəetmə bacarığında, həmsöhbətinə təsir etməkdə, müdrikliyində, mahir siyasətçi, diplomat və natiq olmasında idi.

Görkəmli siyasətçi, dahi şəxsiyyət olan Heydər Əliyevin siyasi obrazı zamanın sınağından şərəflə çıxmış bütöv bir ictimai-siyasi fikrin ən davamlı keyfiyyətlərinin təcəssümüdür.

Heydər Əliyevin hakimiyyətə gəlməsi ilə Azərbaycanda idarəçilik sahəsində ciddi nizam-intizam yaradıldı. Azərbaycan xalqı dahi rəhbərinin ətrafında sıx birləşərək nəhəng problemləri həll etməyə başladı. İlk növbədə, təhsil, mədəniyyət, incəsənət, milli-mənəvi dəyərlərin qorunması və inkişaf etdirilməsi qarşıya məqsəd kimi qoyulmuşdu. Çünki Vətənimizin – Azərbaycanın gələcəyi bunlardan asılı idi. Heydər babamız gənc nəslin inkişafına xüsusi önəm verirdi. O, dönə-dönə bunu vurğulayırdı. Bizim sağlam, savadlı, bacarıqlı gənclər olmağımız üçün əlindən gələni əsirgəmirdi. Babamız tez-tez uşaqlarla, gənclərlə görüşər, şirin söhbətlər edərdi.

Biz gənclər də Azərbaycanımıza, Heydər babamıza layiq gənclər olduğumuzu yaxşı əməllərimizlə sübut etməyə borcluyuq.

Müstəqil Azərbaycan ulu öndərimiz, babamız Heydər Əliyevin vətən sevgisi ilə yazılmış şah əsəridir. Biz bu şah əsəri nəyin bahasına olursa-olsun gözümüz kimi qorumağa borcluyuq.

Heydər baba nurlu bir günəştək parlayıb, bizə doğru yol göstərir. Bizim Azərbaycanımıza, Heydər babamıza layiq gənclər olduğumuzu gördükcə bu günəşin nuru daha da çoxalır, işıqlı gələcəyə yol göstərən bir cığır açır.

Biz yaşadıqca bizim qəlbimizdə yaşayacaqsan, Heydər baba! Atdığımız hər addımda, aldığımız hər nəfəsdə bizimlə birlikdə olacaq, Azərbaycanımızla yaşayacaqsan, Heydər baba!

*Nə qədər Azərbaycan,*
*Nə qədər bu millət var,*
*Heydər: «Xalqım», – deyəcək,*
*Xalq: «Heydər», – söyləyəcək.*

Heydər Əliyevin uğurlu siyasəti nəticəsində inamla irəliləyən Azərbaycan Respublikası bu gün prezidentimiz İlham Əliyevin rəhbərliyi ilə daha böyük nailiyyətlər əldə edərək, daha uca zirvələr fəth edəcəkdir. Bu gün Azərbaycanımızın əldə etdiyi uğurlar dahi şəxsiyyət Heydər Əliyevin bizə miras qoyduğu irsin, milli tərəqqi ideyalarının təzahürüdür.

Mənim ən böyük arzum Heydər babamın ən gözəl, ən böyük, ən möhtəşəm, ən əzəmətli heykəlinin Qarabağımızda ucaldılmasıdır. Allahın köməkliyi ilə o gün bizə qismət olacaqdır. Mən buna bütün varlığımla inanıram.



## İbrahimli Ləman Əhliman qızı

*Ucar şəhəri, 5 nömrəli tam orta məktəbin IX sinif şagirdi*

*Dahilər müzakirə olunmur, öyrənilir.*

**Sokrat**

Tanrı bəşəriyyətə neçə əsrlərdən bir nadir şəxsiyyətlər, dahilər bəxş edir. Həmin şəxslər isə doğulduğu əsrin xilaskarı və ən böyük vətəndaşı hesab olunurlar.

Vətəni, torpağı sevmək, onun dərdini çəkmək, milli mənafeyi şəxsi mənafedən üstün tutmaq isə ən böyük vətənpərvərlik və ən böyük vətəndaşlıqdır. Vaxtından, zamanından, harada işləməsindən asılı olmayaraq, qəlbi daim milli mənafe, milli təəssübkeşliklə döyünən, zamanənin ən böyük azərbaycanlısı, dahi şəxsiyyət, ümummilli lider Heydər Əliyev bu ölkənin – Azərbaycanın vətəndaşı olduğunu hər yerdə böyük qürurla, fəxrlə, cəsarətlə söyləmişdir. Məhz buna görə də XX əsr Azərbaycan tarixinin parlaq səhifələrinin bir dövrü Heydər Əliyevin adı ilə bağlıdır.

Heydər Əliyev Azərbaycanın dövlətçilik tarixində əsl diplomat, dövlət xadimi olmaqla bərabər, Azərbaycan ədəbiyyatının qabaqcıl ictimai fikrinin müzakirəçisi kimi mədəniyyət tariximizdə şərəfli bir səhifə açmışdır.

Dahi liderimizin Vətənimiz Azərbaycana olan sonsuz xidmətləri, Vətənə olan eşqi haqqında yazmaq, sözün düzü, məni ruhlandırır, həyəcanlandırır. Hələ sağlığında dünya azərbaycanlılarına müraciətində belə demişdir: «Keçmişinlə qürur duy, bu gününlə öyün, gələcəyinlə fəxr et, hər işini Azərbaycan adı ilə başla!» Bəli, müdrik rəhbərimiz, mən də sizin sözlərinizə qoşularaq deyərdim ki, keçmişimlə qürur duyuram, bu günümlə öyünürəm, gələcəyimlə fəxr edirəm, edəcəyəm də! Bu, başqa cür ola da bilməz! Çünki bu ibrətamiz sözlər məhz sizin dilinizdən səslənibdir.



Heydər Əliyev polad kimi möhkəm iradəyə, natiqlik bacarığına, dərin məntiqə, məhsuldar iş qabiliyyətinə, Ümummilli Lider kimi hər kəsə nəsib olmayan ada mənsub şəxsiyyətdir. Bir sözlə, bəşəriyyət üçün əsl möcüzə idi Heydər Əliyev. Uşaqdan tutmuş qocaya qədər hər kəsin dostu idi. Hər uşağın babası idi. O baba ki, bir təbəssümü ilə dünyaları bəxş edərdi öz nəvələrinə.

Heydər Əliyev çox xoşbəxt insandır. Çünki bu qədər insan onu sevir. Xalqının ona olan sonsuz məhəbbəti, sevgi və ehtiramı maneələri dəf etməkdə əsl ilham mənbəyi idi bu el oğlunun. Bu sevgi qarşılıqlı idi. O da xalqını böyük məhəbbətlə sevirdi. Daxilində daşıdığı o böyük ürəyi xalqı ilə döyünürdü, nəbzi xalqının nəbzinə uyğun olaraq vururdu və bütün bunları «Mən ömrümün qalan hissəsini xalqıma bəxş edəcəyəm», – deyərək bir daha sübut edirdi.

Heydər Əliyev oxunduqca, öyrəndikcə bitib-tükənməyən bir kitabdır. Elə bir kitabdır ki, vərəqlədikcə kitabın dərin məna kəsb edən səhifələri səni öz ağuşuna alıb irəli aparır. Yaratmaq, qurmaq istəyirsən. Sənə əmanət olan bu torpağın çiçəklənməsi üçün əlindən gələni edirsən.

Yəqin, elə budur dahilik və dahi. Fəth etdiyi zirvələri özündən sonrakı nəsillərə ərməğan edəndir dahi! Əməlləri özündən sonra da yaşayan, həyatı hamıya nümunə olandır dahi.

Dahi insan misilsiz xidmətləri ilə Azərbaycanı dünyaya tanıtdı. O bütün sahələrə xüsusi diqqət yetirirdi. Təhsil sahəsində bir sıra uğurlara imza atdı. Belə ki, Ulu Öndər hakimiyyətə gəldiyi birinci il ölkədən kənarda təhsil alanların sayı 50 rəqəmini aşa bilməzdi. Lakin 1980-ci illərdə onun inadlı səyləri nəticəsində 50 rəqəmi 1300 rəqəmi ilə əvəzləndi. Ulu Öndər təhsilə xüsusi qiymət verirdi və deyirdi: «Təhsil mürəkkəb bir sahədir. Təhsil nə kənd təsərrüfatı, nə sənaye, nə də ticarətdir. Təhsil cəmiyyətin xüsusi intellektual cəhətini əks etdirən bir sahədir. Təhsil millətin gələcəyidir».

Hər bir xalq dili, tarixi ənənələri, mədəniyyəti ilə tanınır. Ulu Öndərin ana dilimizə verdiyi töhfələr onun öz ana dilinə sevgi və məhəbbətindən irəli gəlirdi. O demişdir: «Ana dilimiz müstəqil Azərbaycan dövlətinin, Azərbaycan xalqının ən böyük milli sərvətidir. İndi biz müstəqil bir dövlət kimi, azad bir xalq kimi öz dilimizlə fəxr edirik».

Ulu öndər Heydər Əliyev ikinci dəfə Azərbaycanda hakimiyyətə gəldikdən sonra, ölkəni vətəndaş müharibəsindən, xaos, anarxiyadan xilas etdi. Ölkədə ordu quruculuğu işlərinə başlanıldı.

1995-ci il noyabrın 12-də ilk dəfə olaraq müxtəlif prinsiplərə arxalanan Azərbaycan Respublikasının Konstitusiyası qəbul olundu. Ölkədə hüquqi dövlət quruculuğu prosesinə başlanıldı.

Konstitusiyada insan və vətəndaş hüquqları və azadlıqlarına geniş yer verildi. Hakimiyyətin bölgü prinsipi öz əksini tapdı. İlk müstəqil Azərbaycan parlamenti formalaşdı.

Dünya miqyaslı layihələr, əsrin neft kontraktı imzalandı. Ölkənin ərzaq təhlükəsizliyini təmin etmək üçün MDB məkanında birinci olaraq Azərbaycanda torpaq islahatı həyata keçirildi. Ən yararlı münbit torpaqlar əvəzi ödənilmədən bütün vətəndaşlara paylanıldı. Bununla da ərzaq təminatının əsası qoyuldu.

Faciələrimizə hüquqi-siyasi qiymət verildi. Bununla da müharibə şəraitində yaşayan və torpaqları işğal edilən bir xalqın haqq səsi dünya dövlətlərinə çatdırıldı. Erməni vandalizminin eybəcərlikləri ifşa olundu.

Ayrı-ayrı elm xadimlərinin, şairlərin yubileyləri qeyd olundu. «Kitabi-Dədə Qorqud» dastanının 1300 illik yubileyinin keçirilməsi isə mühüm bir tarixi hadisə olaraq yaddaşlardan silinməyəcək.

Ümummilli lider Heydər Əliyev Azərbaycanın gələcəyi olan gənclərdən də diqqət və qayğısını əsirgəməmişdir.

Məhz Heydər Əliyevin rəhbərliyi altında 1996-cı il fevral ayının 2-də Gənclərin birinci forumunun keçirilməsi onun gənclərə diqqət və qayğısının bariz nümunəsidir.

Ulu Öndər zəmanənin dövlət xadimləri arasında öz bacarığı, işgüzarlığı, siyasi fəaliyyəti ilə seçilən dahilərdən biri olmuşdur.

Təsadüfi deyildir ki, bir çox şəxsiyyətlər XX əsri «Heydər Əliyev əsri» adlandırmışlar. Rusiya Federasiyasının Prezidenti Vladimir Putin Heydər Əliyevi «Siyasət nəhəngi» adlandırmış, Böyük Britaniyanın keçmiş xarici işlər naziri Duqlas Hörd isə Heydər Əliyevi özünə müəllim hesab etmişdir. Türkiyənin böyük dövlət xadimi, tanınmış siyasətçi Bülənt Ecevit Heydər Əliyevin təkcə Azərbaycan deyil, bütün türk dünyası qarşısındakı xidmətlərini belə dəyərləndirmişdir:

*«Qüdrətli öndərsiz bir millət heç nəyə nail ola bilməz.*
*Heydər Əlirza oğlu isə min ildən bir yetişən dahilərdəndir».*

Mustafa Kamal Atatürk Osmanlı dövlətinin yanıb kül olmuş xarabalıqları üzərində çağdaş Türkiyə dövlətini qurmuşsa, Heydər Əliyev bütün fəaliyyətini Azərbaycanın gələcəyinə sərf edərək müstəqil Azərbaycan dövlətini xalqına bəxş etmişdir.



Ulu öndər Heydər Əliyev hər zaman qeyd edirdi ki, Azərbaycan dövlətinin başına bundan sonra nə gəlirsə gəlsin, müstəqilliyini itirməyəcək, yenidən heç bir dövlətin əsarəti altına düşməyəcəkdir. Heydər Əliyev Azərbaycanın müstəqilliyinin əbədi olacağını dəfələrlə qeyd etmişdir.

«Mən ömrümün qalan hissəsini xalqıma həsr edəcəyəm», – deyən Heydər Əliyevdən bizə miras qalan mühüm ideyalardan biri də müstəqil Azərbaycan dövləti və dövlətçilik təcrübəsidir. Dahi liderin müdrikliyinin nəticəsidir ki, bu gün xalqımız əmin-amanlıq şəraitində yaşayır.

Heydər Əliyevə xas olan ən gözəl xüsusiyyətlərdən biri də çox sadə, səmimi olması, insanlara diqqət və qayğı göstərməsi idi.

O, yeganə şəxsiyyət idi ki, cəmiyyətin bütün təbəqələrindən dostu var idi. Buna misal olaraq, Lerik rayonunda yaşayan çoban Xanış Şahıyevi göstərə bilərik. Adi bir kənd çobanının qəlbində böyük sevgi qazanmaq dahi liderin sadəliyindən, səmimiliyindən irəli gəlirdi.

Xalqın xilaskarı kimi yaşayıb əvəzsiz lideri kimi dünyadan köçən Heydər Əliyev bu xalqa nəyin nə zaman və nə qədər lazım olduğunu xəstəyə məlhəm verən həkim qədər bilir, bu xalqa hansı məqamda nə lazım olduğunu dəqiq başa düşürdü. Bir sözlə, tarixdə Azərbaycan xalqının psixologiyasını onun qədər bilən ikinci bir şəxs olmayıb.

Ulu öndər Heydər Əliyev hər zaman qeyd edirdi ki, həyatın mənası çox və yaxud az yaşamaqdan ibarət deyil. Onun əsl mənası, uğurlar əldə etmək, ləyaqət və şərəf göstərmək, öz mövqeyini müəyyən etmək, həyatda hamıya nümunə olmaqdır.

O bu gün həyatda yaşamasa da, xalqımızın və bütün türk dünyasının qəlbində daim yaşayır və yaşayacaqdır. Bütün həyatını xalqına, millətinə həsr edən bir dahini yada salmamaq, onu unutmaq olarmı? Əsla! Bu heç vaxt olmayacaq.

Dahi şəxsiyyətin sayəsində Azərbaycan Respublikası günü-gündən inkişaf edir. Xalqımızın həyat səviyyəsi daha da yaxşılaşır. Regionlarımız abadlaşdırılır. Ən başlıcası budur ki, Azərbaycan dünyanın inkişaf etmiş ölkələri ilə siyasi-iqtisadi əlaqələr qurmuş, regional layihələrdə onlarla əməkdaşlıq etmişdir.

2013-cü il fevral ayının 8-də üzərində dövlət suverenliyinin rəmzi – bayraq olan Azərbaycanın ilk peykinin – «Azər Space – 1»in kosmosa buraxılması dövlətimizin ən böyük uğurlarından biridir. Bununla da, Azərbaycan Respublikası peyki kosmosda olan dövlətlər sırasına daxil oldu.

Heydər Əliyevin 2003-cü ildə «Mən İlham Əliyevə özüm qədər inanıram və onun gələcəyinə böyük ümidlər bəsləyirəm», - deməsi Azərbaycanın gələcəyinə doğru atılmış növbəti uğurlu addım idi.

İndi biz fərəhlənirik ki, ümummilli lider Heydər Əliyevin yolu uğurla davam etdirilir. Hörmətli prezidentimiz İlham Əliyevin sayəsində xalqımızın həyat səviyyəsi daha da yaxşılaşır. Mən bir məktəbli olaraq əminəm ki, gələcəkdə dövlətimiz daha da zənginləşəcək, Dağlıq Qarabağ münaqişəsi həll olunaraq torpaqlarımız geri qaytarılacaq və müstəqil Azərbaycan Respublikası qüdrətli dövlətə çevriləcəkdir.

İndi bütün türk dünyası qarşıdan gələn ən əlamətdar bir günə – ümummilli lider Heydər Əliyevin anadan olmasının 91-ci ildönümünü qeyd etməyə hazırlaşır. Mənim bir şagird kimi yazdığım inşa yazısı da Heydər Əliyevin xatirəsinə kiçik bir töhfədir.





***Abdullayeva Humay Şahin qızı***

*Astara Pedaqoji Kollecinin*
*I kurs tələbəsi*

Bəşər tarixi boyunca hər bir xalqın həyatında elə dəyərli dahi şəxsiyyətlər olmuşdur ki, onlar daim xatırlanmış, zaman-zaman xalqın ictimai-siyasi şüurunda dərin silinməz izlər qoymuşlar. Azərbaycan xalqı üçün də belə dəyərli dahi şəxsiyyət məhz ulu öndərimiz Heydər Əliyevdir.

Heydər Əliyev adı hər bir azərbaycanlıya daha doğma, daha əziz gəlir. Gözlərimizin qarşısında işıqlı, nurlu bir sima canlanır. Bu sima ümummilli liderimiz Heydər Əliyevin simasıdır.

Tariximizin yaşayan əfsanəsi o insandır ki, ömrünü xalqına bağışlamışdır. O insandır ki, tariximizi, milli-mənəvi dəyərlərimizi hər zaman üstün şəkildə tanıtmağa çalışmışdır. O insandır ki, adı müasir tariximizə qızıl hərflərlə yazılmışdır. O insandır ki, vətən borcunu yerinə yetirdiyi zaman xalqına, millətinə dəyər vermiş və hər kəsin qəlbində öz abidəsini qurmuşdur.

Bəli, o insan hər kəsin qəlbində bir əfsanə, bir vətənpərvər insan kimi yaşayan ümummilli lider Heydər Əliyevdir.

Heydər Əliyev – Bu iki kəlmə Azərbaycan xalqı üçün böyük bir məna kəsb edir. Çünki bu insan xalqının azad və müstəqil yaşaması üçün əlindən gələni etmiş, xalqına firavan bir gələcək bəxş etmək üçün gecə-gündüz bilmədən çalışmışdır. Ümummilli liderimiz Milli Ordumuzun güclənməsi üçün də əlindən gələni əsirgəməmiş, hətta ciddi iş rejiminə baxmayaraq, o, ali baş komandan olaraq dəfələrlə səngərlərə getmişdir.

Bəlkə, elə buna görə də xalqımız onu böyük bir məhəbbətlə sevmiş və onun ətrafında bir yumruq tək birləşmişdir. Xalqımız Heydər Əliyevi hər zaman xalqına böyük dəyər verən vətənpərvər insan adlandırmışdır.

Vətənpərvər insan Heydər Əliyev olduqca geniş mənaya malik olan vətənpərvərlik anlayışını özündə, vətənə, millətə olan sevgi hissini müxtəlif səviyyə və istiqamətlərdə əks etdirərək birləşdirsə də, bunların zirvələrində vətən üçün hər zaman ölümə hazır olmaq dayanırdı. Bu da vətənpərvərliyin ən uca və ali formasıdır.

Ümummilli liderimiz mədəniyyətimizə, idmanımıza, incəsənətimizə də böyük qayğı göstərmişdir. Onun daxili və xarici siyasəti nəticəsində Azərbaycanın xarici ölkələrlə əlaqəsi genişlənmişdir. Bu əlaqələr nəticəsində bağlanan neft müqavilələri sayəsində isə ölkəmiz daha da gözəlləşmiş, xalqımızın firavan yaşaması üçün şərait yaradılmışdır. Heydər Əliyevin bizim üçün çəkdiyi əziyyətləri unutmaq olmaz. Bizim ona olan minnətdarlığımızın ən başlıca səbəblərindən biri onun bizə bəxş etdiyi azad və müstəqil Azərbaycan Respublikasıdır.

O olmasaydı, bəlkə də, indi biz işıqlı, müstəqil, azad, günü-gündən gözəlləşən bir ölkədə yaşaya bilməzdik. Elə buna görə də ona hər kəs bir şəkildə öz minnətdarlığını bildirmişdir. Kimi ona olan sevgisini, minnətdarlığını əlinə qələm alıb səhifə-səhifə ölməz misralara tökür, kimi də onu öz qəlbində bir əfsanə tək yaşadır.

Əfsanə tək yaşamağa layiq olan bu insan «Həyat üçün yaşasaq da, Vətən üçün ölməliyik» şüarını bütün dünya qarşısında sübuta yetirərək təsdiqlədi. Vətən üçün yaşayan, ömrünü xalqının yolunda çıraq kimi yandırıb gələcəyi göstərən, yandırdığı çırağın şöləsindən hamıya səxavətlə nur paylayan əvəzolunmaz bir sima.

Bu sima heç zaman qaranlığı lənətləmədi, əksinə, orada bir şam yandırmağı özünə borc bildi və onun yandırdığı bu kiçik şam gün keçdikcə böyüdü və böyük bir alova çevrildi. Beləliklə də, işıqlı, müstəqil, azad bir dövlət «OdlarYurdu – Azərbaycan» yarandı.

*Memarı olduğun Azərbaycanın*
*Nə qədər adı var yaşayacaqsan.*
*İnsana nur verən Ulu Tanrının*
*Sönməz günəşitək parlayacaqsan.*

Azərbaycan var olduqca Heydər Əliyev də yaşayacaqdır. İnanıram ki, sevimli prezidentimiz İlham Əliyevin rəhbərliyi ilə nümunə olduğun Azərbaycanın işğal olunmuş torpaqlarını azad etsək, narahat ruhun rahatlanar, biz də çox sevinərik.



Mənə elə gəlir ki, Heydər Əliyev haqqında inşa yazmaq böyük məsuliyyət tələb edir. Ona görə ki, bu cür dahi şəxsiyyətdən yazmaq, onun uğur və nailiyyətlərini, xalqına bəxş etdiyi xoşbəxtliyi ifadə etməkdə sözlər yetərsiz qalır. Mən öz inşamı Heydər Əliyevin ən çox işlətdiyi bir fikirlə bitirmək istərdim: «Hər bir xalqın milli mənsubiyyəti onun qürur mənbəyidir. Mən həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam!»



## *Rizvanlı Səbinə Elman qızı*

***Bakı şəhəri, Fizika-riyaziyyat və İnformatika Təmayüllü Liseyin IX sinif şagirdi***

Tarix sübut edir ki, hər bir xalqın, dövlətin tarixində güclü şəxsiyyətlər olub. Azərbaycanın güclü dövlət kimi formalaşmasında, dünya dövlətləri arasında layiqli yer tutmasında əvəzedilməz xidmətləri və rolu olan Heydər Əliyev də məhz bu insanlardandır. Düşünürəm ki, Heydər Əliyevin dövlətçilik fəaliyyəti və bu sahədə qazandığı uğurlar Allah vergisi olan fitri istedad və nəhəg potensialla yanaşı, ölçüyəgəlməz iş qabiliyyətinin, sonsuz öyrənmək istəyinin və böyük Vətən sevgisinin nəticəsidir. Heydər Əliyev sovet dövrünün ən sərt, güclü və qapalı sistemlərində, təhlükəsizlik və partiya orqanlarında çalışmışdır. Lakin tutduğu vəzifədən, işlədiyi sistemdən asılı olmayaraq, həmişə millət maraqlarına xidmət edib, milli təəssübkeşlik göstərib. Onun Azərbaycan və azərbaycanlılar üçün etdiklərinin heç bir qarşılıq gözləmədən, təmənnasız edildiyini məşhur «Mən həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam» ifadəsi ilə sübut etmək mümkündür. Belə bir qüdrət sahibinin böyük səmimiyyət və qəlb çırpıntısı ilə söylədiyi bu sözlərdə nə qədər böyük sevgi, məhəbbət var. Bunu yalnız həyatını xalqının firavan və müstəqil yaşaması üçün, Vətəni üçün sərf edən bir şəxs deyə bilərdi. Heydər Əliyev bunu yüksək məharətlə böyük tribunalardan söyləmişdir. O bütün ömrünü xalqı, Vətəni üçün sərf etdi, yorulmadan çalışdı, qüdrətli, özü kimi əzəmətli bir dövlət qurdu.

*Sənin rəmzin Azərbaycan bayrağı,*
*Baş qoymağa, can verməyə hazırıq.*
*Dan ulduzu – yurdumuzun mayakı,*
*Şeir də bir təsəllidir, yazırıq.*



Heydər Əliyev hərtərəfli biliyi, bu biliyi yerində tətbiqetmə məharəti, uzaqgörənliyi, dərin məna kəsb edən həqiqi fikirləri ilə hamını heyrətə salmış, buna görə də yalnız Azərbaycanda deyil, bütün dünyada tanınmışdır. Ona dünyanı heyran qoyan insan demək olar. O, müəyyən vəzifələrə yüksəldikcə bundan öz şəxsi mənafeyi üçün yox, Azərbaycan üçün istifadə edirdi. 1987-ci ildə Heydər Əliyev Sovet İttifaqı Mərkəzi Komitəsi Kommunust Partiyası Siyasi Bürosunun və şəxsən baş katib Mixail Qorbaçovun yeritdiyi siyasi xəttə etiraz əlaməti olaraq tutduğu vəzifədən istefa vermişdir. 1990-cı ilin 20 yanvarında Sovet qoşunlarının Azərbaycan xalqına qarşı Bakıda törətdiyi faciə ilə əlaqədar Azərbaycanın Moskvadakı nümayəndəliyində bəyənatla çıxış etmişdir. Azərbaycan xalqına qarşı törədilmiş bu cinayətin təşkilatçıları və icraçılarının cəzalandırılmasını tələb etmişdir. O, Dağlıq Qarabağla əlaqədar kəskin münaqişəli vəziyyətlə bağlı Sovet İttifaqı Partiyasının sıralarını da SSRİ-nin yeritdiyi ikiüzlü siyasətə etiraz əlaməti olaraq tərk etmişdir.

Heydər Əliyev hər zaman xalqına arxalanıb. «Mənim həyat amalım bütün varlığımla sevdiyim Azərbaycana, xalqıma, dövlətimizin siyasi, iqtisadi və mənəvi inkişafına xidmət olub. Bu yolda bütün iradəmi müdrik və qədirbilən xalqımdan almışam. Ən çətin anlarımda, ən mürəkkəb vəziyyətlərdə yalnız və yalnız xalqıma arxalanmışam. Bu da mənə səbir, dözüm və iradə verib, bütün uğurlarımı təmin edib».

2003-cü ildə Azərbaycan xalqı ən böyük itkisini verdi.

*Bir qocaman qartalın qanadları dayandı,*
*O, bir daha qıy vurub dağlardan keçməyəcək...*

2014-cü il mayın 10-u müasir və müstəqil Azərbaycanın qurucusu və memarı, xalqımızın dahi oğlu Heydər Əliyevin 91-ci ildönümüdür. Qədirbilən Azərbaycan xalqı, bütün dünyada Heydər Əliyevi tanıyanlar və sevənlər 11-ci ildir ki, onun doğum gününü onsuz qeyd edirlər. Heydər Əliyevin yoxluğu nə qədər ağır olsa da, özü və əməlləri hər zaman qəlblərdə yaşayır.

*Ölüm sevinməsin qoy! Ömrünü vermir bada*
*El qədrini canından daha əziz bilənlər.*
*Şirin bir xatirətək qalacaqdır dünyada*
*Sevərək yaşayanlar, sevilərək ölənlər!*



## *Abbasova Bəyaz İlham qızı*

***Bərdə şəhəri, 3 nömrəli tam orta məktəbin VIII sinif şagirdi***

*«Vətənə, xalqa, millətimə, müstəqil Azərbaycan Respublikasına hədsiz məhəbbət mənim həyatımın mənası, məzmunudur...»*

**Heydər Əliyev**

*«Mən işlədiyim dövrdə Bərdə şəhərinə on dörd dəfə səfər etmişəm. Hər dəfə Bərdənin gözəlləşdiyinin şahidi olmuşam. Mənim bərdəlilərə xüsusi hörmətim var...»*

**Heydər Əliyev**

Ulu yaradan yer kürəsinə su, hava, torpaq, günəş verdiyi kimi bəşəriyyətin bəzəyi olan insanları da yaratdı. İllər, əsrlər bir-birini əvəz etdi. Cəmiyyətin idarəetmə quruluşu da dəyişdi. Nəhayət, elə bir dövr gəldi ki, dövləti idarə edən şəxsiyyəti Ulu Tanrı Azərbaycan xalqına ərməğan etdi.

*Böyük şəxsiyyətlər yaranır az-az,*
*Hər zaman, hər yerdə inci tapılmaz.*

Dahi Nizaminin bu kəlamında deyildiyi kimi, illər, əsrlər ötdükcə yaddaşlarda yaşayan bir şəxsiyyət göz önündə canlanır. Elə bir şəxsiyyət ki, ölkə rəhbəri kimi əsrimizdə əvəzi yoxdur. Tarix heç nəyi unutmur. Hətta onu tərsinə yazmaq istəyənlər olsa belə, xalqın yaddaşı çox şeyləri zaman qoruyub saxlayır. Hələ keçən əsrin 70-ci illərində SSRİ-nin mövcud olduğu məqamda Azərbaycanın rəhbərliyinə gələn Heydər Əliyev yorulmaz fəaliyyəti ilə respublikanın tanınmasına, milli-mənəvi inkişafına hədsiz qayğı göstərmişdir. Hələ o vaxtlar digər respublikalarla müqayisədə respublikamız misli görünməyən sürətlə irəli getdi.



Zaman sübut etdi ki, hər bir ölkənin vəziyyəti ölkə rəhbərliyinin kimliyindən, şəxsiyyətindən çox asılıdır. Heydər Əliyev olmasaydı, yəqin ki, Azərbaycanın varlığı şübhə altında qalardı. Heydər Əliyev dövlətimizin yer üzündən silinmək təhlükəsinin qarşısını birdəfəlik aldı. Dünyanın bütün dövlətlərinin ən uca kürsüsündən öz səsi ilə bəyan etdi:

«Azərbaycanın müstəqilliyi dönməzdir, əbədidir. Azərbaycan bundan sonra heç bir dövlətin müstəmləkəsi olmayacaqdır».

Heydər Əliyev və Azərbaycan! Qürur və şərəflə səslənən bu iki ad öz tarixi qədər qədim, bənzərsiz, əzəli və əbədi bir diyar, vətən!

Elə bir vətən ki, övladlarımızın məskəni, ecdadlarımızın mədfənidir. Belə vətəni sevməmək olmaz. Ulu öndər Heydər Əliyev də nəinki vətənini sevirdi, hətta vətəni uğrunda canından keçməyə dəfələrlə hazır olduğunu bəyan etmişdi və Heydər Əliyev vətəni yolunda canını qoydu.

Heydər Əliyev 1993-cü ilin iyununda Bakıya vətəni qorumaq missiyası ilə qayıtdı. Bu qayıdışda Heydər Əliyev Azərbaycan müstəqilliyinin dönməzliyini təmin etdi. Azərbaycan dünya birliyində demokratik, hüquqi dövlət kimi tanındı. Milli müstəqillik tariximizin 1993-cü ilin iyunundan başladığını desək, səhv etmərik.

*Sevincdən gözlərdə gilələndi yaş,*
*Çəkilir ürəkdən kədər, qəm, təlaş.*
*Hər döyünən ürək, hər düşünən baş,*
*Dedi: «Bu millətin yiyəsi gəlib».*

Heydər Əliyevin Azərbaycana qayıdışı millətin özünə qayıdışı oldu. Ölkədaxili parçalanmalara son qoyuldu, iqtisadiyyatımız dirçəlməyə başladı. Hətta «Əsrin müqaviləsi» kimi məşhur neft kontraktının imzalanması ölkədə gedən möhkəm sabitliyin nəticəsidir ki, bu gün də bir çox məşhur neft şirkətləri Azərbaycanla əməkdaşlıq edirlər.

Hər hansı bir ölkəni öz müdrik şəxsiyyətlərinə görə tanıyırlar. Azərbaycanı da beynəlxalq miqyasda tanıdan Heydər Əliyevin müdrik, daxili və xarici siyasəti oldu. Heydər Əliyevin siyasətdəki rolu və mövqeyi elə Azərbaycanın mövqeyi demək idi.

Heydər Əliyevin siyasətdəki rolu pərdə-pərdə açılmağa başlayırdı. Avropa Şurasına qəbul olmaq, NATO ilə əməkdaşlıq etmək, İpək yolunun bərpası, Bakı–Tbilisi–Ceyhan boru kəməri və s. bu kimi layihələr.

*Elimin, obamın mərd oğlu olan,*
*Heydər baba ilə fəxr edirik biz.*
*Vətənin, millətin qeydinə qalan,*
*Heydər baba ilə fəxr edirik biz.*

Heydər Əliyev Azərbaycan gənclərinin I forumunda demişdir:

«Məni bu gün sevindirən cəhətlərdən biri və ən vacibi çıxış edən gənclərin Azərbaycan dilində danışmalarıdır».

Heydər Əliyev vətənini sevdiyi kimi, onun dilini də çox sevirdi. Heydər Əliyev 2001-ci il 18 iyun tarixində «Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında» fərman imzaladı. Fərmanda deyilirdi:

«Bütün xalqlarda olduğu kimi, Azərbaycan xalqının da dili onun milli varlığını sübut edən başlıca amillərdəndir».

Tarixdə izi olan şəxsiyyət «Heydər Əliyev erası» Azərbaycan dövlətçiliyinin qızıl dövrüdür.

Müstəqil, suveren Azərbaycan Respublikasının keçdiyi çətin yolun yolçusu olmuş, gənclikdə memar olmaq istəyən bu dahi şəxsiyyət möhtəşəm, güclü, sivil Azərbaycan Respublikasının memarı oldu.

*Böyük haqqı dananlar, çəkilsin yolumuzdan.*
*Onlar şərdir, axırda xeyir qalib gələcək*
*Azərbaycanı sevən hər evdə, hər ürəkdə*
*Heydər Əliyev adlı bir heykəl yüksələcək.*

Heydər Əliyev Azərbaycanın qaranlıq gecələrində parıldayan günəşi oldu. Azərbaycan Heydər Əliyevin şah əsəri oldu. Azərbaycan yaşadıqca, Heydər Əliyev də yaşayacaqdır.

Bu gün dilimizdə «Heydər – Xalq»; «Xalq – Heydər» kəlməsi bir simvola çevrilib.

*Sən elə bir zirvəsən,*
*Küləklər neyləyəcək?*
*Dünənim, bu günümsən.*
*Səninlədir gələcək.*
*Nə qədər Azərbaycan*
*Nə qədər bu millət var*



*Heydər: «Xalqım», – deyəcək*
*Xalq: «Heydər», – söyləyəcək.*

Əzəli bünövrəsi Ulu Öndər tərəfindən qoyulan Azərbaycan öz memarını itirərkən sarsıldı.

Azərbaycan televiziyasında nənəm «xəbərlər» proqramına baxarkən Heydər Əliyevin tabutunun təyyarədən düşürülməsini görüb ağlayırdı. Mən ondan göz yaşlarının səbəbini soruşdum. Cavabı belə oldu: «Güclə ölkəmiz sakitləşmişdi, camaat rahat yaşayırdı. İndi necə olacaq axırımız? Yenə səs-küy, atışma başlayacaq». Mən fikirləşdim ki, «bizim evdə nənəm belə deyirsə, gör neçə evdə nənələr ağlayır, belə deyir». Lakin nənəm bilmirdi ki, Heydər Əliyev özündən sonra bir güc, Azərbaycanı işıqlı gələcəyə aparan dahi bir şəxsiyyət qoyub getmişdir. Bu güc İlham Əliyevdir.

Bu gün bütün rayonlarımızda, şəhərlərimizdə Heydər Əliyevin heykəli yüksəlməkdədir. Lakin mən istəyirəm ki, bu heykəl bütün insanların qəlbində ucalsın.

Heydər Əliyevin qoyub getdiyi siyasət bu gün də davam edir. Çünki o bizim qəlbimizdə, gördüyümüz işlərimizdə yaşayır.

*Çiynində çəkdiyin hər ağırlığı*
*Xalqımız qəlbində daşıyacaqdır.*
*Sənin hünər dolu qəhrəmanlığın*
*Nəsildən-nəsilə yaşayacaqdır.*



## Rəcəbli Mətanət Aydın qızı

**Hacıqabul şəhəri, 1 nömrəli tam orta məktəbin X sinif şagirdi**

Hamıya məlumdur ki, Azərbaycanın müasir tarixində bir sıra hadisələr baş vermişdir. Ən önəmli cəhət budur ki, dövlət müstəqilliyimiz qazanılmışdır. Müstəqilliyimizin əldə olunması isə ümummilli liderimiz Heydər Əliyevlə bağlıdır. O, müstəqillik duyğusunu, onun necə bir hiss olduğunu çox yaxşı bilirdi. Hələ o dövrlərdə müstəqillik sözünü heç kim sərbəst şəkildə deyə bilmirdi. Nümayişlər zamanı rəhbərlər belə bir sözü qorxa-qorxa dilə gətirirdilər. Amma o dahi insan qorxmadan, cəsarətlə söyləyirdi: «SSRİ dağılmaq, süqut dönəmini yaşayır. Onun tərkibində olan bütün dövlətlər kimi, Azərbaycan da müstəqil olmalıdır». Onun qorxmadan dediyi müstəqillik sözü düşmənlərimizdə qıcıq hissi oyadırdı. O öz çıxışlarından birində deyirdi: «Azərbaycanın dövlət müstəqilliyi dönməz olacaqdır, sarsılmaz olacaqdır, əbədi olacaqdır». Belə də oldu. Bu gün Azərbaycan onun sayəsində azad və müstəqildir.

Azərbaycan xalqı arasında birlik yaradan Heydər Əliyev bu birliyin əbədi olacağını söyləyirdi. Heydər Əliyev xalqını, vətənini çox sevirdi. O, həmişə deyərdi: «Mən həyatımın qalan hissəsini xalqıma həsr edirəm». Heydər Əliyevin Azərbaycan üçün etdiyi xidmətlər təkrarolunmaz, əvəzedilməzdir.

Mən bir şagird kimi düşünürəm ki, onun Azərbaycana bəxş etdiyi ən böyük uğurlu siyasət 1994-cü ildə imzalanmış «Əsrin müqaviləsi»dir. Ən böyük dünya şirkətləri ilə bağlanmış bu müqavilə öz xarakterinə və məzmununa görə belə adlanır. Bu siyasət neft istehsalı üçün nəzərdə tutulan ən uğurlu siyasətdir. Bu siyasəti ilə Heydər babamız dosta hörmət, düşmənə isə nifrət mövqeyində dayanırdı.



Peyğəmbərlərimizdən biri deyir: «Əgər öldükdən sonra yaşatmaq istəyirsənsə, özündən sonrakılara əbədi bir şey qoy get». Heydər Əliyev bizə Azərbaycanı hədiyyə etdi. Boş yerə demirlər ki, «Müasir Azərbaycan Heydər Əliyevin şah əsəridir».

Müasir Azərbaycan Heydər baba siyasətinin təntənəsidir. Bu gün bütün dünya bizə Heydər Əliyev zirvəsindən baxır. Bu gün dünyanın ən inkişaf etmiş ölkələrinə baxıram. Bu ölkələrdə iqtisadi tənəzzüllər, siyasi geriliklər baş alıb gedir. Amma mənim ölkəm, vətənim Azərbaycanda iqtisadi tənəzzüllər, siyasi geriliklər çox-çox arxada qalıb. Bütün bunlar isə Heydər Əliyevin siyasəti sayəsində baş tutmuşdur.

Heydər Əliyev hakimiyyətə gələrək çox böyük çətinliklərlə üzləşdi. Amma təslim olmadı, mübarizə apardı. Çünki bilirdi ki, belə getsə Azərbaycan süqut edəcək, yenə də parçalanacaqdır. Onun hakimiyyətə gəlməyə haqqı var idi. Ona görə ki, Azərbaycan onun sayəsində ucalacaq, sabaha qürur və inamla addımlayacaqdır. Onun həyat və fəaliyyəti bir məktəbə bənzəyir. Mən onun həyat və fəaliyyətini öyrənmişəm və öyrənməkdə də davam edirəm. Biz bu gün onun gözü ilə dünyaya baxırıq. Onun davamçısı olan İlham Əliyev öz çıxışlarından birində söyləyir: «Əziz prezidentimiz, biz sənin qurduğun Azərbaycanı inkişaf etdirəcəyik». Onun bu çıxışı, dediyi sözlər necə də gözəl və qürurverici səslənir. Axı bundan gözəl nə ola bilər? Biz sabahın əsl Azərbaycan vətəndaşlarıyıq. Bütün bunlar isə onun siyasəti nəticəsində baş vermişdir.

Bu gün Azərbaycan dünyada qabaqcıl dövlətlərdən biridir. Bütün Qafqazda Azərbaycan birincilər siyahısındadır. O, şərqin incisi, gözəli sayılır. Artıq dünya bizə etibar edir. Beynəlxalq musiqi yarışmalarına, idman olimpiyadalarına ev sahibliyi edirik. Biz dünyaya sübut etdik ki, müstəqil, azad yaşamağa layiq xalqıq. Mən bir Azərbaycan vətəndaşı kimi düşünürəm ki, bütün dünya azərbaycanlıları onunla fəxr etməli, qürur duymalıdır. O, həmişə azərbaycanlı olması ilə fəxr edirdi. Biz isə həm azərbaycanlı olmağımızla, həm də onun kimi həmvətənimizin olması ilə fəxr edirik.

Tarix həmişə keçid dövrlərində, inqilablar zamanında xalqa dahi şəxsiyyətlər bəxş edir. Tarixdən bizə məlumdur ki, Vaşinqtonlar, Bismarklar, Adenauerlər, Atatürklər xalqı belə vəziyyətlərdən çıxarmış, onu azad və müstəqil etmişlər. Bu isə xalqa olan böyük sevgidən irəli gəlir. Bu sevgi tükənməzdir. Heydər Əliyev bu gün həyatda olmasa da, onun ideyaları bizim qəlbimizdə daim yaşayacaqdır.

Xalqımız çox ağır və çətin yollardan keçmiş və nəhayət, öz qurtuluşunu, siyasi liderlərini qazanmışdır. Heydər Əliyev öz çıxışlarında həmişə deyərdi: «Azərbaycan dünyaya günəş kimi doğacaqdır».

O, uşaqları çox sevərdi. Onları «gələcək» adlandırardı. Müasir Azərbaycanın gələcəyi onun fikrinə görə məhz balacaların əlində idi. Onun bir sıra mükafatları, titulları vardır. Amma onun üçün ən böyük mükafat Azərbaycan idi. «Vətəni sevirəm», – deməklə heç kim onu sevdiyini sübut edə bilməz. Onun uğrunda canından keçəndə isə onu, həqiqətən də, sevdiyin sübut olunur. Heç bir dövlətin adında «can» sözü yoxdur. Bu yalnız mənim vətənimə aiddir. Bunun üçün də biz Heydər babamız kimi öz vətənimizi sevirik və onun uğrunda canımızdan keçməyə hazırıq. Sevinirik ki, vətənimizin belə oğulları, qızları var. Onun bu gözəl siyasəti nəticəsində Azərbaycanın üçrəngli, ay-ulduzlu bayrağı BMT-də qürurla dalğalanır. Dəfələrlə deməkdən yorulmuram ki, o, əsl azərbaycanlıdır. Hamı kimi, mən də onun ideyalarını bəyənir və gələcəkdə onun kimi olmaq istəyirəm. Məncə, bu bütün insanların arzusudur. Bizim şüarımız onun bizə verdiyi «sülh» sözüdür. Biz 20 ildən çoxdur ki, bu şəraitdə yaşayırıq. Bu şəraiti bizə hamımızın sevimlisi Heydər baba bəxş etmişdir.









## *Balaşlı Təbriz Malik oğlu*

*Yardımlı rayonu, Anzov kənd tam orta məktəbin IX sinif şagirdi*

Dühalıq yüksək düşüncə bacarığına sahib olmaqla yanaşı, əql və qüdrət sahiblərinin öz ömür yollarında qazandıqları ən kamil davranış vərdişi, milli-mənəvi dəyərlərə sahib olmaq, bəşəri ideyaların sirlərini mənimsəyərək onları həyata tətbiq etmək bacarığıdır. Bütün bunlarsa ağlın gücündən, qüdrətindən məharətlə istifadə edərək sərrast düşüncəli insanların şəxsiyyətini bütövləşdirən amildir. Ulu öndərimiz Heydər Əlirza oğlu məhz belə istedad sahibi olan şəxsiyyətlərdən idi. O, dahi şəxsiyyət, gözəl mütəfəkkir, əzmli insan idi. Heydər Əlirza oğlu Əliyev həmişə xalqının tarixində vətəndaş-şəxsiyyət borcunu layiqincə, ləyaqətlə yerinə yetirmişdir. O bu davranış və xüsusiyyəti ilə həmişə könüllərdə yaşamaqdadır. İndi müasir gəncləri, müstəqil Azərbaycanımızı gələcəyə aparan bir yol var. Müstəqil Azərbaycanımızı gələcəyə aparan bu yol Heydər Əliyev yoludur. Heydər Əliyev bizi, Azərbaycanımızı bütün dünyaya tanıtdı, müstəqil, suveren bir dövlət olduğumuzu bəyan etdi. Bəli, o bu işin təməlini qoydu, biz isə bu işi davam etdirməli, Azərbaycanımızın müstəqilliyini qoruyub saxlamalıyıq.

1969-cu ilin iyun ayı idi. O zaman Azərbaycanda böyük, əsaslı bir dəyişiklik oldu. Həmin vaxt Azərbaycanda Dövlət Təhlükəsizliyi Komitəsinin sədri işləyən Heydər Əliyev Azərbaycana rəhbər təyin edildi. Zəhmətkeş xalq əvvəlcə bu dəyişikliyə o qədər də əhəmiyyət vermədi. Çünki xalqımız bu dəyişikliklərdən çox görmüşdü. O qədər rəhbər gəlib getmişdi ki... Xalqımız təəssüflə deyirdi: «Bu da onlardan biri». Ancaq belə olmadı. O vaxt xalqımız nə biləydi ki, hakimiyyətə gələn Heydər Əliyev doğma Azərbaycanımızın əsl vəziyyətini hamıdan yaxşı görənlərdən, xalqımız haqqında gecə-gündüz düşünənlərdən biri imiş.

O, sadə, zəhmətkeş bir azərbaycanlı ailəsində dünyaya göz açmışdı. Hələ çox gənc ikən ermənilərin min bir hiyləsini öz gözləri ilə görmüşdü. Görə bilmədiklərini isə oxumaqla, tarix haqqında biliklərə dərindən yiyələnməklə öyrənmişdi. Yaxşı oxuması, biliklərə hərtərəfli yiyələnməsi sayəsində o, sayca az bir xalqın oğlu olmasına baxmayaraq, az bir zamanda SSRİ kimi nəhəng bir dövlətin tarixində yüksəldi. Ermənipərəst M.Qorboçovun hiyləsi ilə hakimiyyətdən salınmasına baxmayaraq, o, yenidən müstəqil bir dövlətin – Azərbaycan Respublikasının Prezidenti kimi şərəfli və ləyaqətli bir vəzifəyə ucala bildi.

Heydər Əlirza oğlu Əliyev təkcə Azərbaycanda deyil, dünya miqyasında tanınmış şəxsiyyət idi. O, Azərbaycanı zamanın çətin imtahanlarından, sərt sınaqlarından çıxararaq dünya miqyasında müstəqil elan etmişdi.

Ümumiyyətlə, dünyada, bəşər tarixində elə insanlar olur ki, öz amalı uğrunda canından, qanından belə keçməyə hazır olur. Ulu öndərimiz, möhtərəm prezidentimiz Heydər Əliyevin də amalı Azərbaycanımızı müstəqil, azad bir dövlət elan etmək idi. Heydər Əliyev də bu amal uğrunda sona qədər çalışdı və o bu amalına yetdi. Heydər Əliyev çoxəsrlik dövlətçilik tarixi olan Azərbaycanı dünyaya tanıtdı. Onun sayəsində artıq dünyanın geosiyasi xəritəsində «Azərbaycan» adlı bir yer mövcuddur.

Heydər Əliyev türk dünyasının rəhbəri, görkəmli siyasi xadim, dahi siyasətçi olmaqla həmişə dünya dövlətləri və siyasi xadimlərinin diqqət mərkəzində idi. Onun üçün heç kimdən asılı olmayan, müstəqil Azərbaycanı yaratmaq həmişə aktual mövzu olaraq qalmış, intellektual potensialını buna sərf etmişdir.

Dünyanın bir çox siyasi xadimləri Heydər Əliyevin siyasətinə valeh olmuşlar. Ümummilli lider bir çox türk dövlətləri və türk dövlət xadimləri ilə əlaqədə olmuşdur. O, Azərbaycanın müstəqil bir dövlət kimi formalaşmasından qürurlanmışdır və demişdir: «Mən həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam». Bu gün milli ruhlu gənclərimizin şüarıdır bu söz.

Dünyanın bir çox siyasi xadimləri Heydər Əliyev haqqında gözəl fikirlər söyləmişlər.

ABŞ-ın keçmiş prezidenti Corc Buş siyasətçi haqqında demişdir: «Mən Heydər Əliyevin siyasətinə, uzaqgörənliyinə və şəksiz liderliyinə valehəm».

Özbəkistan prezidenti İslam Kərimov demişdir: «Heydər Əliyev kimi lideri olan xalq xoşbəxtdir».



Rusiya Federasiyasının prezidenti Vladimir Putin Ümummilli Liderlə ümumxalq vida mərasimindəki nitqində demişdir: «Heydər Əliyev təkcə Azərbaycanda deyil, bütün keçmiş Sovet məkanında tanınmış şəxsiyyət idi. Mən onun haqqında çox sözlər eşitmişdim. Ancaq onunla görüşəndən sonra mən onun necə böyük insan olduğunu anladım». Bütün bunlar Heydər Əliyevin zamana və məkana sığmayan böyüklüyündən xəbər verir. Həqiqətən də, Ulu Öndərimizin dahiliyi zamana və məkana sığacaq qədər deyil.

Heydər Əliyev hakimiyyətdə olduğu dövrdə təhsilə, səhiyyəyə xüsusi diqqət və qayğı göstərmişdir. Bir çox islahatlar keçirmiş, gələcək nəsil üçün imkanlar yaratmışdır. O, təhsilə xüsusi önəm vermişdir. O həmişə söyləyirdi ki, gələcək elmli, savadlı, bacarıqlı uşaqların əlindədir. Bu məqsədlə o uşaq bağçaları, məktəblər açdırır, təhsilə qayğı göstərirdi.

Heydər Əliyev 31 mart hadisələrinə də öz etirazını bildirmiş, ermənilərin azərbaycanlılara qarşı vəhşiliklərini soyqırımı adlandırmışdır. O, 31 mart hadisələri haqqında sərəncam vermiş və hər il bu günün Dünya Azərbaycanlılarının Soyqırımı Günü kimi qeyd olunmasını istəmişdir.

Heydər Əliyevin XX əsrdə qurub-yaratdığı Azərbaycan dövləti bu gün bizlərin sayəsində gündən-günə gözəlləşir, müasirləşir. Heydər Əliyev bizlərin qəlbində həmişə yaşamışdır. Bu gün Heydər Əliyev müasir Azərbaycan dövlətinin sinonimi kimi qavranılır. Biz Heydər Əliyevin yoxluğuna üzülməməliyik. Fəxr etməliyik ki, vaxtilə Heydər Əliyevin qurucusu olduğu dövlətdə indi biz yaşayırıq. İndi Azərbaycanımızın igid anaları ulu öndərin yolunu davam etdirən yüzlərlə Heydər Əliyev dünyaya gətirir, boya-başa çatdırıb doğma Vətənə həvalə edirlər. Mən fəxr edirəm ki, yaşadığım dövlətin lideri Heydər Əliyev olub. Mən fəxr edirəm ki, bu ölkənin, doğma yurdun vətəndaşıyam.

Mən inanıram ki, kimliyindən asılı olmayaraq, hər bir azərbaycanlı gəncin qəlbində mənim yazdığım bu səmimi fikirlər mövcuddur.

Heydər Əliyev haqqında fikirləri yazdıqca bitməz. Bir dəftərçəyə sığacaq dərəcədə deyil bu fikirlər.

Mən inşanın sonunu XX əsrdə Heydər Əliyevin, hal-hazırkı dövrdə isə bütün Azərbaycan gənclərinin söylədiyi fikirlə bitirmək istəyirəm: «Mən həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam».



## Mirzəyeva Aysel Əbülfət qızı

*Xocavənd rayonu, 2 nömrəli tam orta məktəbin X sinif şagirdi*

Ana yurdumuzda hələ qədimdən ad-san qazanmış şəxsiyyətlərimiz vardır. Onlar uzun illər keçsə də, tariximizin yaşının üstünə yaş gəlsə də, yaddan çıxmamış, tarixə, yaddaşlara silinməz iz salmışdır. Azərbaycan Respublikasının ulu öndəri Heydər Əlirza oğlu Əliyev kimi...

Heydər Əlirza oğlu Əliyev 1923-cü il may ayının 10-da Naxçıvan Muxtar Respublikasında dünyaya göz açmışdır. Onun doğulması ilə ailəsinə bir xoşbəxtlik gəlmişdir. Sanki onun gəlişi ilə bütün dünyaya sevinc bəxş olunmuşdur. Balaca Heydərin gəlişi, xoşbəxt gülüşü ailəsində hamıdan çox atasını sevindirirdi. O öz oğlu Heydər haqqında fikirləşəndə belə qürur duyurdu. Heç ağlına belə gətirməzdi ki, Heydəri tək özü üçün deyil, bütünlükdə Azərbaycan xalqı üçün yetişdirir. Heydər Əliyev hələ balaca ikən erməni vandallarının mənfur hərəkətlərini görür, anlayır, başa düşürdü. Sanki Heydər Əlirza oğlu Əliyev Vətənini, xalqını, torpaqlarının hər bir qarışını qoruyacağına əbədi and içmişdi. Sonralar bu həqiqətə çevrildi. Tarix elə bu cür şəxsiyyətlərlə ucalır, bu cür oğullarla böyüyürdü. Vətənimiz Azərbaycan hələ qədimdən andında sadiq qalan vətənpərvər oğullar böyütmüşdür.

Heydər baba, sən bizim babamızsan. Səni uşaq xatirələrimdə canlandırdığım kimi təsvir edəcəm. Doğrudur, mən onuncu sinifdə oxuyuram, yəni, böyümüşəm. Amma uzun illərin ötməsinə baxmayaraq, Heydər babamı uşaq sevgisi ilə, solmayan, əbədi zəncirlərlə bir-birinə bağlanmış məhəbbətlə sevirəm. Əziz babam, tam on altı ildir ki, sənin qurduğun, qurucusu olduğun azad Azərbaycan Respublikasında yaşayıram.

Əziz babam, sənin də qeyd etdiyin kimi Azərbaycan Respublikasının müstəqilliyi dönməzdir, əbədidir. Heydər baba, bir dəfə yuxudan sənin



səsinlə oyandım. Sən bu sözləri deyirdin: «Yaşasın elm! Yaşasın mədəniyyət! Yaşasın təhsil!» Mən balaca idim, lakin başa düşməməyimə baxmayaraq, bilirdim ki, bu sözlərdə böyük məna, dərin hikmət var. Əziz babam, sənə olan sevgimi ta o gündən böyütməyə başladım. Bu sevgi Vətənimin, yurdumun, qurduğun müstəqil Azərbaycanın günəşi ilə, bir də uzun illərdən gələn, tarixin süzgəcindən süzülüb təmizlənən, saf duyğularla bəslənmişdir. Bu sevginin böyüməsində məktəbdə müəllimlərimin, evdə valideynlərimin böyük rolu olmuşdur.

Hər dəfə məktəbdə müəllimlərimin, direktorumuzun bu sözlərini eşidirəm: «Heydər Əliyev yaşından asılı olmayaraq, hər kəsin – kiçikdən böyüyə qədər hamının babasıdır, xalqın dayağıdır». Mən əvvəllər özümə bu sualı verirdim. «Mən babamı görə biləcəyəm?» Mən hələ kiçik yaşlarımdan arzularımın bəzilərini torpaqda basdırdım. Zaman keçdi, illər ötdü... Arzularımın gözəlliyindən torpaq münbitləşdi. Mən də bu torpaqda qırmızı qızılgüllər əkdim ki, onlar da böyüyəndə arzularının qoxusu heç olmazsa, onlardan gəlsin. Həyata keçməyən arzularımdan biri də öz babamı görmək idi. Babalarımdan heç birini görmədim. Hər dəfə «baba» kəlməsini, «baba» sözünü eşidəndə dərindən ah çəkirəm. Ümid edirdim ki, bəlkə, Heydər babamı görərəm. Amma yox... Çox əfsuslar ki, yox... Sanki həyat mənə «baba» qadağası qoymuşdu. Amma mən söz vermişəm ki, babalarımı unutmayacağam.

Heydər Əliyev gənc vətəndaşların hələ kiçik yaşlarından elmə, biliyə, təhsilə marağını artırmaq üçün müxtəlif işlər görmüş, alın təri ilə də olsa, buna nail olmuşdur. Hələ tarixdən hər kəsə məlumdur ki, Azərbaycan dili ilk dəfə Səfəvi dövləti tərəfindən yüksək qiymətləndirilmişdir. Diplomatik yazışmalarda Azərbaycan dilindən istifadə olunmuşdur. Heydər Əlirza oğlu Əliyev də Azərbaycan dilinin inkişafı üçün əlindən gələni əsirgəməmişdir. Onun göstərdiyi qayğı, bəslədiyi sevgi Konstitusiyamızın 21-ci maddəsində öz əksini tapmışdır. Ümumtəhsil məktəblərində Azərbaycan dilinin tədris olunmasına xüsusi diqqət və qayğı yetirilmiş, bağçalarda uşaqlara Azərbaycan dilinin öyrədilməsinə xüsusi diqqət yetirilmişdir. Ana dilini sevməyənləri Ulu Öndərimiz hər zaman kəskin tənqid atəşinə tutmuşdur. Elə buradaca Bəxtiyar Vahabzadənin bu şeiri yerinə düşər:

*Ey Ana dilinə xor baxan fasonlu ədabazlar,*<br>
*Könlünüzü oxşamır qoşmalar, telli sazlar?*<br>
*Qoy bunlar mənim olsun,*<br>
*Amma Vətən çörəyi sizlərə qənim olsun!*

Heydər Əliyev Azərbaycan adlı gəmisini tarixin tufanlı, qasırğalı yollarından, okeanından çıxaran, uğurla, yorulmadan irəli – gələcəyə aparan, alnıaçıq, üzüağ, xalqına arxalanan, xalqı ilə fəxr edən dənizçi idi. Elə bir dənizçi ki, onun səsi ilə, dediyi sözlərlə dağ-daş lərzəyə gəlirdi.

Nitq mədəniyyəti hər kəsin sahibi olduğu mülkiyyətdir. Heydər Əliyev öz nitq mədəniyyəti ilə bütün vətəndaşlara nümunə idi. O öz nitqində düzgünlüyü, dəqiqliyi və ifadəliliyi qoruyurdu. Əlbəttə ki, bu nitqə malik olan insan böyük natiqdir.

Dahi liderimiz Heydər Əliyev saatlarla danışar, yorulmaz, müxtəlif jestlərlə nitqini bəzəyərdi. O heç bir yazıdan istifadə etməkdən, insanı yormadan, böyük natiqliklə danışardı. Əsl natiq kimi... Mənə Heydər Əliyev kimi natiq göstərin. Onun kimi müsbət keyfiyyətlərlə zəngin olan, bir tale hikməti ilə zəngin lider varmı? Yoxdur!!!

Xalqımız ona – ulu öndərinə – Heydər Əlirza oğlu Əliyevə bağlanmışdır. Ta kiçiyindən – böyüyünə kimi. Onu itirməyin özü də xalqımız üçün böyük itki olardı. Lakin o gün gəldi. Böyük ağrı və gözüyaşlı hisslərlə dolu olan bir gün...

Xalqımız böyük oğlunu itirdi. Onunla vida mərasiminə böyük kütlə yığışmışdı. Lakin atalar yaxşı deyib: «Allah bir qapını bağlayanda, bir qapını açar». Doğrudan da, belə oldu. Heydər Əliyev kimi bir dahi şəxsiyyət itirən xalq onun kimi bir lider, sanki ikinci Heydəri qazandı – İlham Heydər oğlu Əliyevi. Gedişi ilə bizə İlham Əliyevi bağışlayan Heydər baba yenə də xalqın gözündə ucaldı. Atasını canından çox sevən İlham Əliyev öz atasının yolunu davam etdirir; həm də şərəflə.





## *Muxtarova Günay İlfan qızı*

***Qax şəhəri, 2 nömrəli məktəb-liseyin XI sinif şagirdi***

Hər bir insan taleyini özü yazır. Tale bizim keçmiş, bu gün və gələcəklə yazılmış fəlsəfə kitabımızdır. Bu kitabda müəllim sənsən, vərəqlər isə yazdığın dünyanın biri digərini qarşılayan günləridir. Bəzi kitabların vərəqləri altundan, səhifələri xoşbəxtlikdən, əlifbası nailiyyətlərdən yoğrulub. Bəs bu kitabların müəllifləri kimlərdir?

Onlar yaşadığın dünyanın yaradıcıları, azadlığın carçıları, şərəf salnaməmizin yazarları, gələcəyin təminatçılarıdırlar. Necə də xoşbəxtdir belə ömrü yaşayanlar, sevgi ilə anılanlar. Qibtə ilə xatırlananlar. Hamıya, hər kəsə nümunə olanlar.

Çoxdur belə övladları ərlər, ərənlər məskəni olan Azərbaycanımın. Mənim tarixim səsi ilə bülbüllərlə rəqabətə girən müğənnilərin, sözündə su kimi lətafət olan şairlərin, zəkası ilə elmlərin qənimi olan alimlərin, qılıncı ilə, mübarizəsi ilə əfsanə olan igidlərin tarixidir. Amma tariximdə bir şəxsiyyət var ki, onun bütün həyatı şeirdir, poemadır, təkrarsız şəkildir, sərgidir, tablodur. Belə desəm, daha doğma olar.

XX əsrin əvvəllərində Azərbaycan səmasında doğan, XXI–XXII əsrlərə, qarşıdan gələn bütün eralara işıq salan bir günəşdir. Bu şəxs ümummilli liderimiz, əvəzolunmaz siyasətçi Heydər Əliyevdir.

11 il öncə dahi rəhbərimiz həyat səhnəsinə vida edəndə mən hələ uşaq idim. Lakin ətrafımdakıların kədəri hələ də zehnimdə iz buraxıb. Hamı kədərli idi. Hər kəs çox sevirdi o müdrik şəxsiyyəti. Mən də uşaq olduğuma baxmayaraq, ətrafımdakıların sevgisindən təsirlənərək bu ellər atasına dərin məhəbbət bəsləyirdim. Məni də çox kədərləndirmişdi bu itki. «Ah, mən daha Heydər babamı görməyəcəmmi?» – deyə ağlamışdım.

Lakin illər ötdü, aylar keçdi. Böyüdükcə başa düşdüm ki, əməli ilə, işi ilə yaşaya bilirmiş insanlar. Cismən yox olsalar da, qazandıqları hörmət, məhəbbət qəlblərə həkk etdirirmiş onları. Böyüdükcə anladım ki, Ulu Öndərimiz ölməyib, ölməyəcək də.

Kim belə bir fenomeni unudar, sevməz? Kim belə bir şəxsiyyətə pərəstiş etməz, heyran qalmaz? Həyatı bir məktəb imiş bu dahi rəhbərin. Mən bu məktəbin daimi şagirdi olmaq istəyirəm. Ulu Öndərimizin ömür yolunun əbədi oxucusu olmaq istəyirəm. Çünki bu kitabdan öyrənəcəyim çox şey var. Çox yazılıb onun haqqında, lakin nə qədər yazsalar da, azdır. Bitmir, tükənmir onun haqqında yazılanlar, yazılacaqlar.

1923-cü ildə Naxçıvanda Əlirza kişinin evində dünyaya göz açdı. Hər uşaq kimi qayğısız illərini ata-anasının əhatəsində keçirdi. Heç kəsin ağlına belə gəlmirdi ki, balaca Heydər müstəqil Azərbaycanın qurucusu olacaq. Məktəbə yollanmışdı, həmişə əla qiymətlərlə oxumuşdu. Müəllimləri biliyinə, istedadına heyran qalmışdılar. Onlar təxmin etməzdilər ki, bu balaca uşaq Azərbaycanı dünyaya tanıdacaq, hamının hüsnrəğbətini qazanacaq. Azadlığa təşnə olan qəlbləri dolduracaq.

Onunku haqq vergisi idi. İstəkləri də, arzuları da sonsuz idi, cahan kimi, kainat kimi. Onun qazandığı güc, bilik, istedad sonsuz ümmanda üzən gəmilərin kapitanı oldu. Amma bir arzusu var idi. İstilaçıların zərbələrindən dilim-dilim dilimlənən, ərəb, fars, rus işğalçılarının əsarət məngənəsində sıxılan, boğulan vətənini azadlığını reallaşdırmaq. Mənzil uzaq, yol çətin və məşəqqətli idi.

Lakin heç nə qorxutmadı onu. Daha da iradəli etdi, daha da mətinləşdirdi. Sovetlər dönəmindən başlayaraq mübarizə apardı. Ən müqəddəs neməti – azadlığı daddırdı bizə, özü də ucaldı, bizi də ucaltdı. Şübhəsiz, onu məğlubedilməz edən xalqının sevgisi, məhəbbəti və inamı idi.

Tarixə nəzər salsaq görərik ki, keçən əsrdə xalqımız milli müstəqilliyinin itirilməsi təhlükəsi ilə üz-üzə qalmışdı. Xalqımız ən çətin günlərində – 1993-cü ilin əvvəllərində mövcud hakimiyyətin dəyişilməsini tələb etmiş və taleyini Heydər Əliyevə əmanət etmişdi.

Dahi rəhbərimiz xalqının dar gündə qaldığını görüb, onun təkidli dəvətini qəbul edərək yenidən Azərbaycan siyasətinə qayıtdı. Xalq onu ümid və sevinclə qarşıladı. Həmin günü isə Milli Qurtuluş Günü kimi tarixə yazdı.

Dahi rəhbərimizin siyasi bacarığı nəticəsində xalqımız vətəndaş müharibəsindən, iqtisadi-siyasi xaosdan xilas oldu, bütün xalq bir məfkurə ətrafında səfərbər oldu. Azərbaycanın beynəlxalq aləmdən təcrid olunmaq təhlükəsi aradan qalxdı.



Bu şərəfli həyat yolunu vərəqlədikcə artıq mənə dastan bahadırları, nağıl qəhrəmanları möcüzə kimi görünmədi. Bu səhifələri oxuduqca sanki bir dastan mütaliə edirdim. Qəhrəman, qorxunc, məğlubedilməz, sehrli əjdahaları məğlub edən, işıqlı sabaha çıxan bir xilaskar idi.

Ulu Öndərimiz bir siyasətçitək o qədər təcrübəli idi ki, xalqımızı böhran vəziyyətdən yalnız o çıxartdı. İqtisadiyyatda köklü struktur dəyişiklikləri etdi. Prezidentimiz əmin idi ki, ölkənin siyasi müstəqilliyinin özülünü onun iqtisadi cəhətdən azadlığı şərtləndirir.

Məhz onun imza atdığı layihələr ölkəmizə xarici investorların marağını artırdı, kapital axınını təmin etdi. İqtisadiyyatımızda yeni bir mərhələ başladı. Elə buna görə də müasir, qeyri-adi tikinti vüsətimizin memarı mərhum prezidentimiz hesab edilir.

Dünyanın mahir natiqlərinin nitqlərini kölgədə qoyacaq istedada sahib olan liderimiz öz dilini sevməyə bilərdi ki? Əlbəttə ki, yox. «Hər bir millət öz dili ilə yaranır, o dilini unudan xalq xırda-xırda öz milliyini də unudur», – belə kəlamları deyən öndərin verdiyi fərmanlar dilimizi özümüzə qaytardı, onu məhv olmaq təhlükəsindən xilas etdi.

Dövlət atributlarının ən vacibi, milli təhlükəsizliyin təminatçısı – Milli Ordunun qurulması, tam şəkildə silah-sursatla təmin edilməsi dahi rəhbərimizin uzaqgörən siyasətinin təzahürü idi. Bu bir sərkərdə sayıqlığı idi. Əlbəttə, Ulu Öndər gənclərə və təhsilə, gələcəyə körpü olaraq bu iki sahəyə də diqqət və qayğısını əsirgəməyib. Xarici ölkələrlə layihələrin imzalanması, qabaqcıl Avropa ölkələri ilə əməkdaşlıq, təhsil mübadiləsi, yeni-yeni məktəblərin təmiri və tikintisi bir filosof müdrikliyinin təzahürü idi.

Bir nisgillə köçdü Ulu Öndərimiz bu dünyadan. Qarabağ dərdi ilə köçdü bu cahandan. Amma əminəm ki, onun siyasi kursunun davamçısı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev buna nail olacaq, Qarabağımızda qələbə bayrağımızı dalğalandıracaq.

Biz hər il Ulu Öndərimizin həm anım, həm də doğum günündə xatirəsini hörmətlə yad edirik. Məktəbimizdə Heydər Əliyev otağı yaradılıb. Hər otaqda liderimizə aid bir guşə var. Rayonumuzdakı Heydər Əliyev mərkəzində keçirilən məşğələlərdə yaxından iştirak edir, onun ömür yolunu daha dərindən mənimsəməyə çalışırıq. Çünki hər öyrəndiyimiz nurlu sabaha açılan bir pəncərədir.

Bu il mən İNEPO Beynəlxalq müsabiqəsində iştirak edərək gümüş medal qazandım. Tədbirdən çıxan kimi ən gözəl güllərdən bir dəstə bağlayaraq onun qəbrini ziyarət etdim. Bu mənim mənəvi borcum idi. Çünki hər bir gəncin qazandığı uğurda, nailiyyətdə liderimizin payı var.

Müqəddəs xatirən önündə baş əyirəm, əziz babam. Söz verirəm ki, sənin ideyalarının davamçısı olacağam. Əməlimlə, işimlə ölkəmizin şöhrətini artıracaq, uğurlarımla onu inkişaf etdirəcəyəm. Bu kiçik yazım sənə olan hörmət və ehtiramımın, vətəndaşlıq borcumun, sevgimin kiçik bir təzahürü, qətrəsi, damlasıdır. Mən Respublikanın inkişafı yolunda etdiyin xidmətlərlə bu qətrələri ümmana çevirəcəyəm.





## *Quliyeva Münəvvər Elçin qızı*

***Yevlax şəhəri, 1 nömrəli tam orta məktəbin XI sinif şagirdi***

Dahi, əvəzsiz şəxsiyyət. Müstəqil Azərbaycan dövlətinin səmasında daima parlayan günəş – Heydər Əliyev.

Mənim gözümdə ümummilli liderimiz Heydər Əliyev, insanlara odu bəxş edən Promotey, xalqını yanan ürəyinin işığı ilə azadlığa çıxaran Dankoya bənzəyir.

Böyük rəhbər bütün elmlərin bilicisi idi. Allah hər şeyin yaxşısını ona bəxş etmişdir. Onun nitqindən heç kəs usanmazdı.

Heydər Əliyevin «Ən çox sevdiyiniz kimdir və nədir?» sualına cavabı belə olmuşdur: «Ən çox sevdiyim Azərbaycan və onun xalqıdır».

Onun anadan olduğu və anım günü qeyd edilərkən dünya şöhrətli şəxsin lent yazılarına baxmışam. O, Səməd Vurğunun «Azərbaycan» şeirindən bir parçanı xüsusi intonasiya ilə söylədi. Sonuncu misranı söyləyəndə qəhərləndi. Məndə qəribə bir duyğu yarandı. «Heydər baba doğma vətəni – Azərbaycanı necə də qəlbən sevirmiş».

Dahi şəxsiyyətin nitqini dinləyərkən, əsərlərini oxuyarkən özümü başqa aləmdə hiss edirəm. Heç bir vərəqə baxmadan etdiyi söhbətlər insana bədii zövq verir. Düşünürsən ki, çıxış edən dünyanın ən məşhur natiqi və yazıçısıdır.

Heydər baba deyərdi: «Mən həyatımda yalnız üç şeyə inanıram. Yaradanıma, zəhmətimə, bir də xalqıma». O, hər şeyə xalqın gözü ilə baxırdı. Xalqın rəyini öyrənir, sonra ümumi nəticəyə gəlirdi. Bu dahi insan insanları inandırmaqla düzgün yol göstərirdi.

1993–1995-ci illərdə baş verən qarşıdurma və dövlət çevrilişinə cəhd hadisələri barədə oxumuşam.

Böyük siyasətçi vətəndaş müharibəsinin qarşısını sözlə aldı. Heydər Əliyev sözün qüdrətindən məharətlə istifadə edərək dönükləri zərərsizləşdirdi. Əmin-amanlıq yaratdı.

*Bu xalqa, vətənə əbədi günəş*
*Desək, onun üçün bəlkə də azdı.*
*Vətənin qurtuluş salnaməsini*
*Xalqıyla birlikdə o özü yazdı.*

Dahi diplomat xarici ölkələrə səfər edərkən Azərbaycanın xəritəsini özü ilə aparırdı. Diplomatik nümayəndələri, dövlət başçılarını inandırdı ki, Dağlıq Qarabağ Azərbaycan dövlətinin əzəli torpaqları olmuşdur.

Heydər Əliyevin uzaqgörənliyi öz nəticəsini verdi. Dünya dövlətləri Azərbaycan Respublikasını tanıdı. Azərbaycanla siyasi və ticarət əlaqələri yarandı. Beləliklə, Azərbaycan dövlətinin üçrəngli bayrağı mötəbər məclislərin salonlarında dalğalandı. Nümayəndələrimiz fəxri kürsülərdə əyləşdilər.

*Tanıtdı dünyaya Azərbaycanı*
*Bayraqlar içində bayrağım qalxdı.*
*Bir kəlmə sözünə neçə kürsüdən*
*Milyonlar baş əyib, ayağa qalxdı.*

Böyük filosof ədəbiyyata, incəsənətə böyük qayğı göstərirdi. O, xalq mahnılarını sevərdi, hətta yeri gələndə ifa edərdi. Altı yaşımda televiziyada Heydər babanın oxuduğu «Küçələrə su səpmişəm» mahnısını dinləmişəm.

Onun ən çox sevdiyi insan ömür-gün yoldaşı Zərifə xanım olubdur. Dahi şəxsiyyət bütün Azərbaycan qadınlarına hörmət və qayğı göstərirdi. Uşaq və gəncləri isə qəlbən sevərdi.

Ümummilli Liderimiz Azərbaycanın görkəmli şəxsiyyətlərinin yubileylərinin dünya miqyasında keçirilməsinə xüsusi diqqət ayırırdı. İndi isə bu ənənə onun davamçısı hörmətli prezidentimiz İlham Əliyev tərəfindən həyata keçirilir.

Heydər baba Bakı şəhərini ürəkdən sevirdi. O, təbiətin vurğunu idi. Azərbaycanın dağlarını, çaylarını, Xəzər dənizini seyr etməkdən yorulmazdı. Onun ən çox sevdiyi içki südlü çay olubdur. O, qızılgülü, zoğalı rəngi, xüsusilə baharı, Novruz bayramını sevirdi. Yadımdadır, Heydər baba nəvələri ilə Novruz şənliyində iştirak etmişdi və hətta yumurta da döyüşdürmüşdü.



Onun geyimi, oturuşu, duruşu, etdiyi söhbətlər biz gənclərə örnəkdir.

Bu böyük şəxsiyyət bizə Azərbaycanı sevmək, yenilməzliyi, qeyrətliliyi miras qoyub getmişdi.

Heydər Əliyevin yolunu onun yetirməsi olan hörmətli prezidentimiz İlham Əliyev yüksək səviyyədə davam etdirir.

14 oktyabr 2010-cu il mənim həyatımda əlamətdar gün olubdur. 80 il əvvəl tikilmiş miskin görkəmli məktəbimiz, müasir tələblərə cavab verən üçmərtəbəli bina ilə əvəz edilmişdi. Məktəbimizin açılışında möhtərəm prezidentimiz İlham Əliyev və onun xanımı Mehriban Əliyeva iştirak etdi. Prezidentimiz İlham Əliyev demişdi: «1 nömrəli məktəb gərək hər cəhətdən 1 nömrəli olsun. Bu sözlər biz şagirdləri daha da səylə oxumağa səslədi».

Heydər Əliyev xalqına möhkəm təməli olan dövlət, başda İlham Əliyev olmaqla istedadlı gənclər bəxş etmişdir.

Biz gənclər vətənimizə layiq övlad olmalı və müstəqil Azərbaycanı göz bəbəyimiz kimi qorumalıyıq, necə ki, Heydər baba qoruyurdu.



## Əzimova Səbinə Sabit qızı

*Bakı şəhəri, 138 nömrəli tam orta məktəbin XI sinif şagirdi*

Bəşər tarixi yarandığı gündən bir çox şəxsiyyətlərin uğurlarına, qələbələrinə şahidlik etmişdir. Onların hər birinin öz ölkəsinin inkişafında, quruculuğunda müəyyən qədər rolu olmuşdur. Bu şəxsiyyətlər içərisində ulu öndər, ümummilli liderimiz Heydər Əliyevin özünəməxsus yeri vardır. Onun qoyduğu miras xalqını parlaq, işıqlı bir gələcəyə aparmışdır.

Heydər Əlirza oğlu Əliyev 1923-cü il mayın 10-da Naxçıvan şəhərində dünyaya göz açmışdır. Uşaq vaxtlarından öz bacarığı, savadı ilə digər həmyaşıdlarından fərqlənmişdir. Heydər Əliyev 1969–1982-ci illərdə dövlət rəhbərliyində çalışmışdır. O həmçinin Dövlət Təhlükəsizlik Orqanlarında da vəzifəsini layiqincə yerinə yetirmişdir.

Heydər Əliyev şəxsiyyəti tarixə öz adını qızıl hərflərlə yazmağı bacaran bir şəxsiyyət olmuşdur. O, müstəqil Azərbaycanımızın möhkəm təməlini qoymuşdur ki, bu gün də həmin bünövrənin necə möhkəm, əzəmətli olduğunun şahidi oluruq. Heydər Əliyev şəxsiyyəti uzaqgörən, dahi lider olmuşdur. O, Azərbaycanımızın mədəni, iqtisadi-siyasi, sosial həyatında çox böyük nailiyyətlərə imza atmışdır ki, bu da onun uzaqgörən dövlət xadimi olmasının bariz nümunəsidir.

Onun keçdiyi ömür yolu hər bir şəxsə nümunə ola biləcək şərəfli ömür yoludur. Heydər Əliyev daima ölkəsinin, xalqının rifahı naminə çalışmışdır. Hətta hələ Sovetlər Birliyinin vaxtında ona verilən tapşırıqları, yerinə yetirməli olduğu layihələri məhz xalqının rifahı istiqamətində yönləndirmişdir. Həmin vaxtlarda ulu öndərimiz, dahi Heydər Əliyev hakimiyyətin rəhbəri olan M.Qorbaçovu cəsarətlə, çəkinmədən tənqid etmişdir. Onun bu hərəkəti çoxlarına xoş gəlmədi və o, tutduğu vəzifədən uzaqlaşdırıldı.



Lakin Azərbaycan xalqı onun bu hərəkətini, təbii ki, yüksək qiymətləndirdi. Belə ki, o, vəzifədən azad olduqdan sonra öz doğma yurduna Naxçıvan torpağına üz tutdu. Xalqı onu böyük hörmətlə və sevgi ilə qarşıladı və ona qucaq açdı. Məhz dahi şəxsiyyət, ümummilli liderimiz Heydər Əliyev ilk dəfə Naxçıvanda olarkən bayrağımızı dövlət atributu kimi rəsmiləşdirdi.

Heydər Əliyev hakimiyyətdə olduğu 34 il ərzində xalqının sevgisini qazanmağı bacarmış, hamının sevimli lideri olmuşdur. Xalqımız onun uzaqgörən, fenomen şəxsiyyət olmasını çox gözəl başa düşürdü. Elə buna görə də Azərbaycanda ağır siyasi rejimin mövcud olduğu dövrdə – 1993-cü ildə xalqımızın təkidli tələblərinə əsasən Heydər Əliyev hakimiyyətin başına keçdi. Onun hakimiyyət dövrü dövlətimizin çiçəklənməsi dövrü olmuşdur.

Heydər Əliyev gələcəyi hələ 30–40 il əvvəldən görə və düşünə bilirdi. Onun layihələri, fəaliyyətləri bunu sübut edir. Belə ki, 1994-cü il sentyabr ayında ümummilli liderimiz «Əsrin müqaviləsi» sazişini imzalamışdır ki, bu da yüzilliyin ən vacib, önəmli müqaviləsi olmuşdur.

Heydər Əliyevin yaratdığı strategiya sayəsində dövlətimizin, bugünkü müstəqil Azərbaycanımızın bünövrəsi qoyuldu. Onun strategiyası Heydər Əliyevin layiqli davamçısı prezidentimiz İlham Əliyev tərəfindən davam etdirilir.

Ümummilli Liderimizin etdiyi hər bir hərəkət, atdığı hər bir addım xalqının yaxşı yaşayışını təmin etmək naminə olduğundan onun fəaliyyətlərini saymaqla bitirmək olmaz. O, fenomen şəxsiyyət idi və xalqının hər sahədə birinci olmasına çalışırdı.

Heydər Əliyev təhsilə çox böyük qiymət verirdi. Onun «Təhsil gələcəyimizdir» sözləri buna sübut ola bilər. O, Azərbaycanın oğul və qızlarının, gənc nəslinin savadlı, vətəninə layiqli övladlar olmağını istəyirdi. Buna görə də gənclərimizi inkişaf etmiş dövlətlərin beynəlxalq səviyyəli ali təhsil mərkəzlərinə oxumağa göndərirdi.

Heydər Əliyev şəxsiyyətinin fəaliyyətlərini qeyd etdikdə bir məqamı demək istərdim. Belə ki, o, Azərbaycanımızın ordu quruculuğunda mühüm əhəmiyyət kəsb edən Cəmşid Naxçıvanski adına hərbi məktəbin əsasını qoymuşdur. Məhz o məktəbi bitirmiş şəxslər ordumuzda general, mayor və başqa rütbələr daşıyaraq ölkəmizin müdafiəsini təmin edirlər.

Heydər Əliyev xalqını hərtərəfli düşünürdü. Onun təhsilə, səhiyyəyə, mədəniyyətə olan qayğısı xalqına bağlılığın təcəssümü idi. O, bir çox orta və ali təhsil ocaqlarının, bağçaların, tibb müəssisələrinin, klinikaların, mədəniyyət mərkəzlərinin, sarayların tikintisinə göstəriş vermişdir.

Heydər Əliyev irsinin öyrənilməsi, mənimsənilməsi xalqımızı uğurlu gələcəyə aparan yoldur. Çox insanlar ondan örnək alaraq böyük uğurlara imza atmışdırlar.

Heydər Əliyev təkcə dövlət xadimi, ulu öndər, dahi şəxsiyyət deyildi. O həmçinin bir el ağsaqqalı idi. Xalq arasında belə bir deyim də var idi: «Heydər – Xalq, Xalq – Heydər».

O, Azərbaycan xalqının oğlu, Azərbaycan xalqı da ata Heydərin övladı idi. O, uşaqdan-böyüyə hamı ilə mehriban, səmimi rəftar edir, onların dərdi ilə yaxından tanış olub, lazımi köməkliyi göstərirdi.

Heydər Əliyev nəinki orta və yaşlı nəslin, eləcə də balacaların sevimlisi idi. Yadımdadır, aşağı siniflərdə oxuyarkən «Kimə oxşamaq istərdim?» başlıqlı inşa yazmışdıq. Heç düşünmədən «Mən Heydər Əliyevə oxşamaq istərdim» yazmışdım. Onun bir Ulu Öndər kimi fəaliyyətləri hələ balaca vaxtından məndə böyük rəğbət hissi yaratmışdı və belə bir şəxsiyyətin rəhbəri olduğu ölkədə yaşadığım üçün qürur duyurdum.

Amma çox təəssüf ki, 2003-cü il 12 dekabr tarixində xalqımız üçün böyük faciə üz verdi. Liderimizi, ulu öndərimizi itirdik, Heydər Əliyev bu dünyaya gözlərini əbədi olaraq yumdu. Heydər Əliyev, əslində, ölmədi, o, tam bir əbədiyyətə qovuşdu. Xalqımızın qəlbində əvəzolunmaz, heç vaxt silinməyəcək, unudulmayacaq bir yer tutdu. Onun xatirəsini uca tutan xalqımız Heydər Əliyevin heykəllərini, büstlərini ucaltdı, onun adına məktəblər, parklar, idman kompleksləri və daha nələr yaratdı. Düz deyirlər ki, tarixi şəxsiyyətlər heç vaxt ölmürlər.

Hər il Ulu Öndərimizin ad gününü layiqincə qeyd edirik. Bu il artıq onun anadan olmasının 91-ci ildönümüdür. Bu qədər il keçməsinə baxmayaraq, xalqımız o dahi şəxsiyyəti heç vaxt unutmur və unutmayacaq da! Ulu öndərimiz, ümummilli liderimiz, fenomen şəxsiyyət, siyasi xadim kimi hər kəsin yaddaşlarında dərin iz qoymağı bacaran Heydər Əliyev şəxsiyyəti bundan sonra da neçə-neçə nəsillər tərəfindən seviləcək, onun qoyduğu irs öyrəniləcək, həyat yolu çoxlarına nümunə olacaqdır.






## *Abbasova Günel İlqar qızı*

***Sumqayıt şəhəri, Təbiət Elmləri Təmayüllü Gimnaziyanın IX sinif şagirdi***


*Torpaqda göyərdim, torpaqda bitdim,*
*Səs saldım təklikdə sızılan göyə.*
*Mən Allah olmaqdan imtina etdim,*
*İnsana uzaqdan baxmayım deyə.*

Mən bu yazımı şair Vahid Əzizin sözləri ilə başladım. Ona görə ki, Heydər Əliyevin insanlara uzaqdan baxmamaq üçün onlara yaxın olmaq, Vətənində göyərib torpağına qovuşmaq onun həyatını nağıla, əfsanəyə döndərdiyindən artıq zaman və məkan anlayışları öz əhəmiyyətini itirib. O bütün zamanların bu gününə çevrilib. Bəli, ey Ulu Öndər, doğrudan da, siz xalqımın, vətənimin, torpağımın, yurdumun, yuvamın, odlar yurdu Azərbaycanımın keçmişisiniz, ona görə ki, tariximizi yaratmısınız; bu günüsünüz, çünki ideyalarınız hələ də «Yeni Azərbaycan»ı yaşadır; gələcəyisiniz, çünki bizə amallarınızı əməllərində yaşadacaq, işlərinizi tamamlayacaq, yolunuzu davam etdirəcək, Vətən üçün – Azərbaycan üçün bütün varlığı ilə çalışacaq layiqli davamçı – İlham Əliyev kimi gənc bir prezident bəxş etmisiniz.

On beş yaşım var. Həyatı dərk edirəm, nəyin yaxşı, nəyin pis olduğunu başa düşürəm. Düzdür, hələ insanlar haqqında fikir söyləmək, xüsusən də bu fikirdə haqlı olmaq mənim üçün tezdir. Amma elə şeylər var ki, körpələr böyüklərdən daha tez hiss edib, düzgün nəticə çıxara bilirlər. Axı bizim də düşünən beynimiz, duyan qəlbimiz var. Bir şeirdə oxuduğum kimi «Günortanın günü qədər gözəl» olan, şax görkəmi, təravətli gülüşü ilə insanları valeh edən, mətin addımlı, qartal baxışlı bir insan haqqında söyləyəcəyim fikirlərə «bir qızcığazın qələmindən çıxıb» – söyləyərək

etinasız yanaşmayacaqsınız kimi düşünürəm. Heydər Əliyevin öz sözləri ilə desək: «Həyatda az və ya çox yaşamaq önəmli deyil. Önəmli olan necə yaşamaq, yerini müəyyənləşdirmək, mövqe tutmaq və nümunəvi həyat tərzi keçirməkdir».

Dastanlara sığmayan bir ömür nəğməsini bəstələmək özü bir ucalıqdır. Hamı bu ucalığa, zirvəyə doğru can atır. Ancaq bu zirvəyə çatmaq hər kəsə qismət olmur. Bu yüksəklik xalqın qəlbində özünə əbədiyyət qazananlara xasdır. O zirvə dahi şəxsiyyət Heydər Əliyevindir.

Bir anlıq xəyala dalıram. Sanki onun sakit-sakit yanan dərin atəşli, mavi gözlərini görürəm. Mehriban, mülayim səsi qulaqlarımda cingildəyir. Dinc, sakit danışığı belə dağ şəlaləsi kimi çağlayır. Hərdən elə düşünürəm ki, mən onu görmüşəm, lap yaxından tanıyıram. Əslində, elə düz deyirəm. Uşaq olsam da, Heydər Əliyev üç aprel 2003-cü ildə Sumqayıta gələndə onu qarşılayanlar içərisində mən və babam da var idik. Bu gün onun özünü yaxşı xatırlaya bilməsəm də, həmin günü çox yaxşı xatırlayıram: böyük izdiham var idi. Hamı onu gözləyirdi: «Gəldi, gəldi», – sədası bir anda izdihamı hərəkətə gətirdi. Çoxları irəli yüyürmək, onun bir baxışına, bir duruşuna qonaq olmaq məqsədilə insanları yara-yara önə keçməyə cəhd edirdi. Babam məni çiyinlərinə qaldırıb: «Yaxşı bax, qızım», – dedi. «Gələcəyin şəxsi yaddaşına möhkəm həkk et. Gələcəkdə o şəxsi görməyinlə fəxr edəcəksən», – sözlərini də əlavə etdi. Babam düz deyirmiş. O, azərbaycanlı olduğu üçün fəxr edirdi. Mən də onun yaşadığı illərdə dünyaya gəldiyim üçün, onun abadlaşdırdığı bir ölkədə yaşadığım üçün, bu gün ona «Heydər baba» deyə bildiyim üçün və həm də azərbaycanlı olduğum üçün fəxr edirəm.

Nizami Gəncəviyə görə, kainat əsrarəngiz gözəlliyə malik olsa da, hər şeydən üstün insandır. Həyatda nə varsa, hamısı insan üçündür. Yer üzünün əşrəfidir insan, kainatın bəzəyidir insan. Məncə, bu insan mənəvi gözəlliyi, əxlaqi saflığı, fiziki kamilliyi özündə birləşdirən dahi şəxsiyyət Heydər Əliyevdir.

Xalqın tələbi ilə 1993-cü ildə o, Azərbaycana rəhbər gəldi. Bu, çox böyük qayıdış idi və xalqın tarixinə Qurtuluş Günü kimi daxil oldu. Elə həmin ildə Heydər Əliyev prezident seçildi. Müharibə şəraitində yaşayan Azərbaycanda xaosa son qoyuldu. Güclü, nizami orduya ehtiyacımız var idi. O buna nail oldu və qüdrətli bir ordu yaratdı.

Onun fərmanı ilə mətbuatda senzura ləğv edildi. Azərbaycan cəmiyyətinin həyatında yeni bir dövr başladı.



1995-ci ildə Konstitusiyanın qəbul olunması ölkədə islahatların keçirilməsinə şərait yaratdı. Ölüm cəzası ləğv edildi və biz Şərqdə bu cəzanı ləğv edən ilk ölkə olduq.

Ümummilli lider Heydər Əliyev gənclərin təhsili ilə də yaxından maraqlanırdı. Gənclərin xaricdə təhsil almasına şərait yaradırdı. Bizə bütün sahələrdə ixtisaslı kadrlar gərək idi. Heydər Əliyev bir daha gənclərə qiymət verdiyini sübut etdi. «Xalqın, Vətənin taleyi hər bir insanın taleyinə çevrilməlidir», – deyirdi Ümummilli Lider. O, bu sözləri öz şəxsi nümunəsində həyata keçirməklə biz gənclərə örnək oldu. «Azərbaycanın gələcək tərəqqisi bir çox cəhətdən indiki gənclərimizə nəyi və necə öyrədəcəyimizdən asılı olacaqdır», – sözləri də ona məxsusdur. Mənə elə gəlir ki, o bu sözləri bizim müəllimlərimizə ünvanlamışdı. Gənclərin təlim-tərbiyəsi ilə can-dildən məşğul olan müəllimlərimizə. Bu, böyük məsuliyyətdir. Çünki bu, təkcə gənclərin deyil, Azərbaycanın, vətənin, xalqın da gələcəyini şərtləndirir. «Azərbaycan gəncləri Azərbaycanın gələcəyidir», – sözlərini fəxrlə deyirdi el ağsaqqalı. Mən bu gün fəxr edirəm ki, o gənclərdən biri də mənəm. Mənə və mənim kimi yeniyetmə və gənclərə etibar etdiyiniz üçün sizə minnətdaram, Heydər baba!

Çıxışlarının birində «Xalq bir çox xüsusiyyətləri ilə tanınır, sayılır və dünya xalqları içərisindən fərqlənir. Bu xüsusiyyətlərdən ən böyüyü, ən yüksəyi mədəniyyətdir», – demişdi Ulu Öndər. O bu işə bütün gücünü səfərbər edərək Azərbaycanın incəsənətinin, elminin, mədəniyyətinin inkişafına xüsusi səy göstərdi. Bu onunla nəticələndi ki, Heydər Əliyev məktəbinin layiqli davamçısı İlham Əliyevin fəaliyyəti nəticəsində dünya səviyyəli musiqi yarışması olan Avroviziya Bakıda keçirildi.

Heydər Əliyevin dil siyasəti də məni çox maraqlandırır.

Heydər Əliyevin ardıcıl siyasəti nəticəsində 70-ci illərdən başlayaraq bu məsələ öz həllini tapmışdır. O, bir çox ziyalılarla, ədiblərlə görüşmüş, öz nitqində saf, təmiz Azərbaycan dilində danışmaqla hamıya örnək olmuşdu. Onun xalqımız üçün etdiyi işləri saymaqla bitirmək olmaz. O, müasirlərinin gözü qarşısında Bakını yeniləşdirdi. Azərbaycanda abadlıq işləri apardı. Yeni binalar tikildi, yollar, körpülər salındı. O körpülər ki, zülmətlə nur arasında bir keçiddir. O körpülər ki, keçmişlə gələcəyi birləşdirən ümiddir, diləkdir. O körpülər ki, 1989-cu ildə Cənubi Azərbaycanla aramızda olan sərhəd dirəkləri yıxılanda otaylı-butaylı Azərbaycanı birləşdirdi. Heydər Əliyev tarixə bu günü 31 Dekabr Dünya Azərbaycanlılarının Həmrəylik Günü kimi yazdı.

Mən dahi şəxsiyyətin daha bir xüsusiyyəti haqqında danışmaq istəyirəm. Deyirlər, böyük şəxsiyyətlərin məhəbbəti də böyük olur. Onun Zərifə xanıma olan məhəbbətini hər kəlməsindən duymaq olar. Hər dəfə onun haqqında çəkilmiş filmə baxarkən onun Zərifə xanım Əliyeva haqqında «axı Zərifə də gözəl idi», – sözlərini deyərkən baxışının, duruşunun necə dəyişdiyini, gözlərinin necə parladığını bir daha görmək, duymaq istəyirəm. Bax, əsl məhəbbət budur. Bəlkə də, bu məhəbbət, Zərifə xanıma qovuşmaq arzusudu onu bu tezliklə axirət evinə yolçu edən. Evinə, ailəsinə bağlı idi, məhəbbətinə sadiq idi, övladlarına: İlhama, Sevilə qayğıkeş bir ata idi və bütün bunların fövqündə elini, obasını, yurdunu, yuvasını göz bəbəyi kimi qorumağa qabil bir insan idi Heydər baba!

Bu yaxınlarda dərslərimlə əlaqədar internetdən məlumat toplayarkən prezidentimiz İlham Əliyevin sözləri ilə rastlaşdım. İlham Əliyev deyirdi: «Bu gün gül bayramında uşaqlarla görüşdüm. Onlar məni əhatə etmişdi. Bir-bir gəlib nəsə deyirdilər. Bir qız gəldi və dedi: «Mən Sizi tanıyıram. Siz prezidentsiniz. 4–5 yaşında olardı. Bir qız da yaxınlaşdı. O da 4–5 yaşında olardı. O dedi: «Mən Sizi tanıyıram, Siz Heydər babanın oğlusunuz». Bilirsiniz, bu sözlər bu gün eşitdiyim ən əziz, ən xoş sözlərdir. Bu o deməkdir ki, Heydər Əliyev də yaşayır. Kiçik qızın şüurunda, Azərbaycan xalqının qəlbində yaşayır. Nə qədər Azərbaycan olacaq, Heydər Əliyev də olacaqdır».

Burada bir haşiyəyə çıxmaq istəyirəm. Növbəti istirahət günlərindən biri idi. Bütün nəvələr baba evinə yığışmışdıq. Babam isə evdə yox idi. Az keçmədi ki, baba gəldi. Onun əlində bağlama var idi. Bizi maraq bürüdü. Bağlamanı açanda heyrətləndik. «Axı bu çərçivə babamın nəyinə lazımdır», – deyə düşündük. Babam bu çərçivəyə dahi bir şəxsiyyətin portretini salacağını söylədi. Bu şəxsiyyət Heydər Əliyev idi.

İndi o vaxtdan illər ötüb. Babamın otağında iki çərçivə var. Biri mənim babamındır, digəri isə bütün Azərbaycan uşaqlarının. Hər iki çərçivədən mənə əziz, doğma olan iki insanın çöhrəsi gülümsəyir. Mən ancaq onların şəkilləri ilə danışa bilirəm.

L.Labrier deyirdi: «Həyatda üç mühüm hadisə var: doğulmaq, yaşamaq və ölmək». Heydər Əliyev necə doğulduğunu bilməsə də, bütün uşaqlar kimi dünyaya ağlaya-ağlaya gəlsə də, amalından, əqidəsindən dönməyən əsl insan kimi yaşadı və dahi şəxsiyyət kimi bu dünyanı tərk etdi. Deyilənə görə, o bu dünyadan köçərkən mənalı təbəssümü üzündə imiş. Bu sima heç vaxt unudulmayacaq.





## Əliyeva İlahə Məmmədağa qızı

*Bakı şəhəri, A.Makarenko adına Humanitar Fənlər Təmayüllü Gimnaziyanın X sinif şagirdi*

Dünya tarixi sübut edir ki, tarixi böyük şəxsiyyətlər yaradır. Tarixi şəxsiyyət dedikdə, xalqını göylərə qaldıran, onu gələcəyə aparan insan nəzərdə tutulur. Bu şəxsiyyətlər həm öz xalqının, həm də dünyanın siyasi arenasında mühüm yer tutur, öz işi ilə tarixdə silinməz izlər qoyub gedirlər. Belə dahi insanları tarix yüz ildə bir dəfə yetirir.

Belə unudulmaz şəxslərdən biri 1923-cü il mayın 10-da Azərbaycanın əzəli torpağı olan Naxçıvanda Əliyevlər ailəsində işıqlı sabaha, nurlu gələcəyə göz açdı. Gəlişi ilə ailəsinə böyük sevinc gətirən bu balaca körpə sonralar ulu ərənlər yetirən Azərbaycan xalqına demokratiya, müstəqillik, müasirlik, milli dövlətçilik bəxş edən Heydər Əliyev oldu. Nağıl dili yüyrək olduğu kimi, bu balaca körpə böyümüş, bütün uşaqlar kimi məktəbə getmiş, hazırcavablığı, fitri istedadı ilə müəllimlərin sevimlisinə çevrilmiş və şəxsiyyət kimi yetişdikcə təkcə özünün deyil, gələcəkdə bütöv bir millətin əbədilik lideri olmuşdur.

Orta məktəbi bitirdikdən sonra bu qədd-qamətli, qartal baxışlı, ucaboylu Heydər ADU-nun tarix fakültəsinə daxil olmuşdur. O, məntiqi düşüncəsi ilə həm müəllimlərin, həm də tələbələrin sevimlisinə çevrilmişdir. Ali məktəbi bitirdikdən sonra məktəbdə və universitetdə aldığı bilikləri həyata tətbiq etmək üçün əmək fəaliyyətinə başlayır.

Əmək fəaliyyətinə Naxçıvanda başlayan Heydər Əliyev özünü bacarıqlı, səriştəli bir işçi kimi göstərir və tezliklə Dövlət Təhlükəsizlik orqanlarında işə cəlb olunur. 1941–1967-ci illərdə o, xalqın və dövlətin etimadını qazanmış və 1969-cu ildə Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi təyin olunmuşdur. Respublikamıza rəhbərlik etdiyi 1969–1982-ci illər onun fəaliyyətinin coşqun dövrüdür. Bu illərdə Azərbaycan

Sovet İttifaqının tərkibində olsa da, Heydər Əliyev hər zaman xalqımızı düşünür, respublikamızın nə vaxtsa müstəqilliyə qovuşacağına inanır və bundan ötrü maddi-texniki baza yaradırdı.

1982-ci ildən 1987-ci ilədək Moskvada məsul vəzifədə – SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsində çalışmış və bu illərdəki fəaliyyəti yüksək qiymətləndirilmişdir. 1988-ci ildə ölkəmizdə baş verən hərc-mərcliyi, özbaşınalığı gördükdən sonra Azərbaycana qayıdır. 1990-cı ildə Naxçıvan MR Ali Sovetinin sədri seçildikdən sonra 1992-ci ildə Yeni Azərbaycan Partiyasını yaradır (YAP) və onun sədri seçilir. Bu dövrdə Azərbaycanda vəziyyət olduqca gərgin idi. Çünki Azərbaycanın dilbər guşəsi olan Qarabağın işğalının başlanması bu dövrə təsadüf edir. Dolanışıq çətin olduğundan xalqın yaşamaq həvəsi, sevinci artıq, demək olar ki, tükənmişdi. Belə vəziyyətdə xalqı bir araya gətirmək olduqca çətin idi. Lakin Heydər Əliyev buna gərgin əməyi, böyük ümidləri sayəsində nail ola bildi.

1993-cü il 15 İyunda Heydər Əliyev Azərbaycan Ali Sovetinin sədri seçildi və bu gün müasir tariximizə Milli Qurtuluş günü kimi yazıldı.

Tarixi hadisələr müsbət və mənfi faktorluğundan asılı olmayaraq, öz əhəmiyyətini, dəyərini qoruyub saxlayır. Azərbaycan «Böyük Ermənistan» xülyası ilə tarixi ərazilərimizə təcavüz edən erməni-rus birləşmələrinin hərbi, siyasi hücumlarına sinə gərsə də, daxili çəkişmələr də xalqı çaşbaş salmışdı. Ona görə də xalq öz xilaskarını axtarırdı. O, dünyanın tanınmış ictimai-siyasi xadimlərindən biri – Azərbaycan adlı dövlətin banisi Heydər Əlirza oğlu Əliyev idi.

Azərbaycan xalqının taleyinə şəfəq saçan Günəş 1993-cü il iyunun 15-də vətənin üfüqlərindən boylandı.

Heydər Əliyev həmin il oktyabrın 3-də ümumi səsvermə yolu ilə Azərbaycan Respublikasının Prezidenti seçildi. Azərbaycan Konstitusiyasının və müqəddəs «Qurani-Kərim»in üzərinə əlini qoyaraq and içdi:

«And içirəm ki, Azərbaycan Respublikasına, Azərbaycan xalqına ləyaqətlə xidmət edəcəyəm.

Azərbaycanın ərazi bütövlüyünü, müstəqilliyini qorumaq üçün əlimdən gələni əsirgəməyəcəm».

Heydər Əliyev hakimiyyətdə olduğu illərdə Milli Ordunun möhkəmləndirilməsi, atəşkəsin əldə olunması, Konstitusiyamızın qəbulu kimi uğurlu addımlar atdı.

Heydər Əliyev Azərbaycanı iqtisadi cəhətdən yüksəltmək üçün dünyanın qabaqcıl ölkələri ilə müqavilələr bağlamışdır. Böyük İpək yolunun



bərpası, «Əsrin müqaviləsi»nin imzalanması, «Bakı–Tbilisi–Ceyhan» neft kəmərinin çəkilişi onun uzaqgörənliyinin, fədakar əməyinin bariz nümunəsidir.

Heydər Əliyevin həyatsevərliyinin, bitib-tükənməyən həvəsinin təməlində doğma Azərbaycan dayanırdı. Bu insan bütün duyğuları ilə əsl azərbaycanlı idi. Heydər Əliyev həmişə xalqını özünə arxa sanmış və özü də xalqa dayaq olmuşdur.

Heydər Əliyev bəşəriyyət üçün həqiqi insan anlayışı idi. Bu böyük dahinin şah əsəri müstəqil Azərbaycan dövlətinin qurulması oldu.

Heydər Əliyev qeyri-adi siyasi gedişləri ilə xalqımızı vətəndaş müharibəsi təhlükəsindən qurtardı və onu qansız-qadasız intibah yoluna çıxartdı.

İnsanın ən ali vəzifəsi məhz kamillik zirvəsini fəth etməkdədir. Heydər Əliyev öz zəmanəsinin qaliblərindən idi.

Sadə əməkçi ailəsində dünyaya gələn, lakin dövlət xadimi kimi yüksələrək əlçatmaz ucalıqda dayanan Heydər Əliyevin adı ilə haqlı olaraq xalqımız fəxr edir. Gələcək nəsilləri onun timsalında tərbiyə etmək bu gün hər bir Azərbaycan türkünün borcudur.

Heydər Əliyev haqqında söz söyləmək müasir tariximiz haqqında danışmaq qədər məsuliyyətli işdir.

Məhəmməd Peyğəmbərin gözəl bir kəlamı var: «Dünyada ən xoşbəxt adam ömrü uzun olan deyil, əməli gözəl olandır». Bu kəlam elə bil bizim Heydər babamız üçün deyilib. Heydər Əliyev bütün dünya azərbaycanlılarının layiqli ümummilli liderinə çevrilmişdir. Onun ən böyük arzusu Azərbaycanın xoşbəxt gələcəyini təmin etmək idi. Fəqət amansız ölüm onun bu arzusunu yarımçıq qoydu. 2003-cü ilin soyuq şaxtalı bir qış səhərində öndərimizin qəfil ölümü hər yana yayıldı. Bu ağrılı, acı xəbərə heç kim inanmırdı. Çünki bütün ömrünü xalqına həsr edən, xalqı üçün yaşayan, Azərbaycanın böyük Atatürkü ölə bilməzdi. Xalq – «O ölməmişdir», «O ölə bilməz» – deyə qara bağladı, matəm saxladı, Fəxri xiyabana doğru yol tutdu.

Lakin amansız ölüm onun yalnız pak vücudunu əlimizdən ala bildi. Bütün türk dünyası onun böyüklüyünü etiraf edib qarşısında diz çökdü, onu son mənzilə layiqincə yola saldı. Nə qədər ki Azərbaycan xalqı, Azərbaycan torpağı var, Heydər Əliyev də var olacaq, yaşayacaq və xalq «Heydər» söyləyəcəkdir.

Bu gün ümummilli liderimiz Heydər Əliyevin arzu-istəklərini, prinsiplərini layiqincə yerinə yetirən İlham Əliyev də atasının ənənələrini davam etdirir. Biz çox xoşbəxtik ki, ölkəmizin müqəddəratı etibarlı əllərdədir.

Heydər Əliyevin çırağını rövnəqləndirən millət vəkili, «Qızıl ürək» mükafatının laureatı, Heydər Əliyev Fondunun Prezidenti Mehriban xanım Əliyeva kimi bir şəxs də var. O bütün bu işləri həyat yaddaşı ilə birgə layiqincə yerinə yetirir.

Bu gün mən parta arxasında əyləşərək elmin sirlərinə yiyələnirəm. Əminəm ki, qazandığım bu biliklər gələcəkdə vətənimin rifahının yüksəldilməsinə sərf olunacaq. Əgər mən bu biliklərlə xalqıma, prezidentimiz İlham Əliyevə az da olsa kömək ola bilsəm, özümü əsl vətəndaş kimi hiss edə bilərəm. Yalnız o zaman «Biz Heydər babanın nəvələriyik» sözlərini açıq ürəklə, qürurla söyləyə bilərik...





## *Cəbrayılova Leyla Eynulla qızı*

***Kürdəmir şəhəri, 1 nömrəli tam orta məktəbin X sinif şagirdi***

Dünyaya zaman-zaman öz yaşadığı dövrü qabaqlayan, zamanla ayaqlaşmaq yerinə, zamanı özü ilə ayaqlaşdıran şəxslər gəlib-getmişlər. Bu şəxslər elmə, bəşəriyyətə verdikləri töhfələrlə dünya ədəbiyyatında, tarix səhifələrində silinməz izlər qoymuş, milyon, milyard illər yaşayacaq ideyalar yaratmışlar. Azərbaycan xalqının ən böyük xoşbəxtliyi ondadır ki, çox qədim zamanlardan bu yana Aristotel, Sokrat, Bismark kimi öz varlığını, elmini bütün dünyaya sübut etmiş Nizami Gəncəvi, Məhəmməd Füzuli, Mirzə Ələkbər Sabir kimi dahi mütəfəkkirlərə sahib olmuşdur.

XX əsrdə Azərbaycan məmləkəti daha bir dühanı doğurdu. Heç kəs bilməzdi ki, əsrlərlə sıxışdırılmış, zəbt olunmuş, murdar düşmən pəncələrində tapdanmış Azərbaycan torpaqları həsrət qaldığı azadlıq dadına çatacaq, susdurulmuş, süquta uğramış tarix ən şanlı dövrünü, insanı qürurlandıran, dövlətimiz üçün yeni bir eraya qədəm qoyan zamanı özündə həkk edərək bütün bəşəriyyəti mat qoyacaq. Sözsüz ki, bu sözlərim Azərbaycanın o faciəvi, ağrılı və çətin günlərində ağılasığmaz, reallaşmaq ümidi olmayan ideyalar idi.

Necə deyərlər, Allahdan ümid kəsilməz, hər qaranlıq gecənin bir işıqlı sabahı var. Bizim ümidimiz Azərbaycanın dahi öndəri Heydər Əliyev, işıqlı sabahımız onun hakimiyyətinin, atdığı addımların, həyata keçirdiyi uğurların nəticələri oldu.

XX əsr öz möcüzəsini, «Yad qapılarda yiyəsiz qalan» Azərbaycana sahib çıxıb, onu ayağa qaldıran, yenidən var edən bir dühanı, Heydər Əliyevi bizə – xalqımıza yetirdi.

Lider olmaq... Xalqını, torpağını hər şeydən daha çox sevmək, düşünmək, qorumaq... bütün çətinlikləri qorxmadan, çəkinmədən aradan qaldırmaq... Görəsən, bu necə bir hisdir? Elə düşünməyin ki, mən də lider olmaq arzusundayam. Xeyr! İstəsəm də, ola bilmərəm. Çünki o ünvanın sahibi bəllidir. Lider olmaq hər insanın, eləcə də hər siyasətçinin işi deyil. Bu yalnız qəlbində ucsuz-bucaqsız dəryalar daşıyan, saf və təmiz düşüncələri, qeyri-adi bacarığı olan şəxslərə mənsub ola bilər. Bu bütün dünyaya seçdiyi əqidə ilə, xalqımızın milli məfkurəsinə sadiq qalmaqla müdrik işlər görən, XX əsrin ən böyük siyasətçisi Heydər Əliyevə məxsus ola bilər.

Heydər Əliyev adı ilə tanışlığım hələ kiçik yaşlarımdan başlayıb. Lap kiçik yaşlarımda bizim evdə gedən söhbətlərdə hər zaman eşidərdim: «Heydər Əliyev çox böyük siyasətçi olub. Onun qarşısında dünyanın ən böyük siyasətçiləri belə söz deyə bilməyib: «Siyasətçi» sözünün mənasını başa düşməsəm də, haqqında danışılan adam mənə çox maraqlı və qeyri-adi gəlmişdi. İndi onuncu sinifdə oxuyuram. Uşaqlığımda eşitdiyim həmin qəhrəman haqqında indi daha çox, dolğun məlumatım var. İndi daha yaxşı başa düşürəm ki, Heydər Əliyev, doğrudan da, çox böyük bir zəkaya, məntiqə, bacarığa, qeyri-adi istedada malik olub. Heydər Əliyev – bir baxışı ilə yerləri, göyləri titrədən o möhtəşəm insan mənim uşaqlıqdan görmədən sevdiyim, pərəstiş etdiyim tək insan olub.

Azərbaycanın tikə-tikə doğranıb düşmənlərə yem olduğu, hər kəsin gördüyü, heç kəsin müdaxilə etmədiyi, vətənimizin neçə-neçə oğullarını, qızlarını itirdiyi bir vaxtda bu gedişata hamının «amin» deməsinə baxmayaraq, dahi Öndərimiz ac qurdların arasına daxil olaraq Azərbaycanı yağlı tikə kimi udulmaqdan xilas etdi. Xalq nicat yolunu onunla tapdı. Heydər babam günəşdən qopub gəlmiş nur parçası kimi vətənimizi işıqlandırdı. Susmuş vicdanları oyadaraq xalqı əsarətdən xilas olmağa, vətənin dar gününə yetməyə səslədi. Bütün bunlara qısa bir müddətdə nail olan Heydər Əliyev milyonları öz əqidəsi ilə düzgün işıqlı yola – nicat yoluna apardı. Xalq Heydərə, Heydər də xalqa arxalandı. Şübhəsiz, Heydər Əliyevin həyata keçirdiyi bütün uğurların səbəbi yorulmaz, bir an olsun, xalqı üçün çalışmaqdan bezməyən dahi təfəkkürünün gücünə inanması idisə, digər tərəfdən xalqın ona olan sonsuz sevgisi idi. Xalqın liderinə, xilaskarına arxalanması ona olan rəğbəti və inamı idi. Bu inam gecə-gündüz demədən çalışaraq nəzərdə tutduqlarına qısa müddətdə nail olan Heydər Əliyevə yeni ideyalar bəxş etdi. Daim əldə etdiyinin ən yaxşısı üçün çalışan Liderimiz tükənməz əzmi və səyləri nəticəsində, bəlkə də, ən böyük uğura – xalqı qəflət yuxusundan oyatmağa nail oldu. Xalqımız dostu



ilə düşmənini tanıdı, əzəli Azərbaycan torpaqlarına sahib çıxdı, torpaqlarımızın bütövlüyünü, sarsılmazlığını qırılmaz zəncirlərlə bərkitdi. Bu, Heydər Əliyevin xalqına olan sevgisi idi.

... Dahi öndərimiz 2003-cü il 12 dekabrda əbədiyyətə qovuşdu. O gün təkcə Azərbaycanda deyil, bütün dünyada böyük həyəcan doğurdu. Ona görə ki, Azərbaycanın dahi şəxsiyyəti əbədiyyətə qovuşdu.

Hər kəsin, hər bir Azərbaycan vətəndaşının bildiyi kimi, Heydər Əliyev dünyanın ən böyük dövlətlərinin bayraqları ilə çiyin-çiyinə dalğalanan üçrəngli Azərbaycan bayrağı, azad, müstəqil vətən torpağı, gözlərində sevinc işıqları parlayan milyonlarla körpə, gənc balalar, ən əsası, azad, müstəqil Azərbaycan Respublikası və özü kimi layiqli davamçısı İlham Əliyevi qoyub getdi.



## Cabbarova Rəqsanə Elman qızı

**Şəki Pedaqoji Kollecinin**
**I kurs tələbəsi**

*Danışan dilim deyil,*
*Saf ürəyim danışır,*
*Təmiz arzum, niyyətim,*
*Saf diləyim danışır.*
*Keçmişim işıqlanır,*
*Gələcəyim danışır,*
*Sənin adın gələndə.*

**Z.Yaqub**

Dünyada insanların keçdiyi çox yollar var; məktəb yolu, həyat yolu, sevgi yolu... Bu yollar içərisində asan keçiləni də var, çətin keçiləni də. Ancaq bu yollar içərisində çətin bir yol var – qəbiristanlıq yolu! Necə də çətindir bu yolu keçmək. Necə də ağırdır bu yolla addımlamaq. Mən bu çətinliyi bu yolun yolçusu olandan sonra hiss etdim. Bu yol tanış bir məzara aparırdı – Heydər Əliyevin məzarına.

Bu yolun yolçusu tək mən deyildim. Ucsuz-bucaqsız insan axını gözlərdə kədər, əllərdə bağrı qana dönmüş qızılgüllər, qərənfillər asta-asta o məzara doğru addımlayırdı. Böyük bir izdiham vardı. Nədənsə, bu misralar düşdü yadıma:

*Ölüm var, ölüm kimi,*
*Ölüm var, zülm kimi.*

Bu ölüm, doğrudan da, bir zülm idi. Elə bir şəxsiyyət itirmişdi ki, xalq, o, əvəzedilməz bir şəxsiyyət idi. Elə bir şəxsiyyət ki, milli liderlik səviyyəsinə yüksəlmişdi. Həm milli liderlik, həm də siyasi liderlik keyfiyyətlərinin bir dövlət adamında birləşməsi bəşər tarixində nadir rast gəlinən unikal hadisədir. Məhz bu insan hər iki keyfiyyəti özündə birləşdirə bilmişdi.



Hələ orta məktəbdə oxuduğum zaman tarix müəllimimiz sovet dövlətinin kəskin ictimai-siyasi rejim qurduğu bir vaxtda Heydər Əliyevin azərbaycanyönümlü siyasət həyata keçirməsi haqqında danışmışdı. Mənim yaşım çox olmasa da, bu işin mahiyyətini tam mənası ilə dərk etməyə çalışır, onun böyük ürəyinin xalqımız üçün necə döyündüyünü hiss edir, onunla fəxr edirdim.

Onun hakimiyyətə yenidən gəlişi iqtisadiyyatın və mədəniyyətin çiçəklənməsi ilə yanaşı, ölkəmizi dünyanın ən mütərəqqi ölkələrindən birinə çevirdi. «Yox millətimin imzası imzalar içində» nisgili ilə dünyadan nigaran köçən Məhəmməd Hadi kədərinə son qoyaraq mənsub olduğu millətin imzasını dünyanın inkişaf etmiş xalqlarının imzalarına qatdı. Azərbaycanı dünyaya tanıtdı.

*Əbədi rəhbərsən Azərbaycana,*
*Ona həyat verdin, sən həyat oldun,*
*Ölkəni tanıtdın bütün cahana,*
*Onu sən yaratdın, onu sən qurdun.*

Gözəl insan, qayğıkeş ata, yüksək zəka sahibi, çox zəngin bilik xəzinəsinə, yüksək intellektə malik olan siyasi xadim! Xocalı oda qalananda, Kəlbəcərə vay düşəndə, ağsaqqallar, ağbirçəklər güllələnəndə, ana bətnindən vəhşiliklə çıxarılan körpələr süngüyə keçiriləndə, sinəsi dağlı Vətən səni köməyə harayladı. Amma ömrün vəfa etmədi. Etmədi ki, vətənin qəmli gözlərindən axan acı göz yaşlarını siləsən.

Bir dəfə Rusiya kanallarının birində «Pole çudes» adlı veriliş gedirdi. Aparıcı sual verdi: «Dünyanın ən böyük siyasətçisi kimdir?» Cavabı eşidəndə heyrətə gəldim. Sən demə, dünyada qəbul olunmuş böyük siyasətçi qanı qanımızdan, canı canımızdan olan Heydər Əliyev imiş. Onunla qürur duydum.

Düşünürəm, niyə ölüm adlı qarşısıalınmaz bir kabus milyonlarının qəlbinə hakim kəsilən kədər toxumları yaymağa qadirdir? Hardan gəldi bu ölüm? Axı millətimin dar günüdür. Qarabağ boyda vətən yarası qaysaq bağlamır. Göyüm-göyüm göynədir içimizi.

*Əklillər yasa batdı, tər çiçəklər ağladı,*
*Üzüldü kimsəsizlər, sındı təklər, ağladı.*

*Baxdı bu günə sarı, gələcəklər ağladı*
*«Heydər köçdü» – deyəndə.*

Qəbrin üstünə tər çiçəklər qoyuram. Dəli bir ağlamaq keçir könlümdən. Axı bu ölüm vaxtsız, zamansız idi: axı sən bizə lazım idin.

Baharı çox sevirdi. Sevdiyi, həsrətlə gözlədiyi bahar gəlir. O, sevdiyi bahar qədər də əzizdir bizlərə.

O insan axınında sanki hər şey rəngsiz, cansıxıcı göründü birdən-birə. Başımı yuxarı qaldırıb vətən göylərinə baxdım. Hava qaşqabaqlı idi. Göylərdən sanki bir kədər bir məzlumluq yağırdı yer üzünə. Axı bu gün anım günü idi. Elə bil yer, göy, təbiət – hər şey bu yoxluğu hiss edir, bu itkiyə təəssüflənirdi.

Əziz Vətən! Balasını itirən anatək niyə gözlərinin yaşı qurumur? Başını dik tut! Qoy düşmənin baxıb sevinməsin.

Bəzən insan öz daxilində nə isə bir boşluq hiss edir. Mən bu boşluğu millətimin içində hiss etdim o qara xəbər yayılan gün. Amma insanı yaşadan ümiddir. Bu ümid qığılcımı içimizdə İlham Əliyev hakimiyyətə gələrkən yarandı, böyüdü və qətiyyətə, inama çevrildi.

Uşaq olanda haradansa oxumuşdum ki, hər insanın göy üzündə bir ulduzu var. İnsan dünyadan köçəndə göydə bir ulduz sönür. Hər axşam göy üzünə baxar, ulduzların sönməməsini arzulayardım. Bu sözlərin doğru olduğuna inanmışdım. Ulu Öndərimiz vəfat edən gecə göylərə baxdım. Ulduz axmadı. Təəccübləndim. Sonra başa düşdüm ki, özü adi insanlardan fərqləndiyi kimi, ulduzu da fərqlidir, yəqin. O ən böyük ulduz olan Günəşdir. Günəş heç vaxt sönmədiyi kimi, onun da əməlləri heç vaxt sönməyəcəkdir.

Ulu Öndərimiz özü üçün yaşamadı, öz ömründə ömürlər yaşatdı, tarixlər yazdı.

*Mən əminəm ki,– Nə qədər Azərbaycan,*
*nə qədər bu millət var,*
*xalq «Heydər» söyləyəcəkdir!*





## *Məmmədli Leyla Rantiq qızı*

***Göyçay şəhəri, 7 nömrəli tam***
***orta məktəbin X sinif şagirdi***

Kainatda elə planetlər, ulduzlar vardır ki, ömürlərini başa vurduqdan sonra min illər boyu işıqları yox olmur, itmir. Milli birliyimizin simvolu, ümummilli liderimiz Heydər Əliyevi həmin planetlərlə müqayisə etmək olar. On ildən çoxdur ki, o, həyatda yoxdur. Lakin onun yoxluğunu təsəvvür etmək belə mümkün deyildir. Onun haqqında felin keçmiş zamanında danışmaq heç vaxt ağlımıza gəlmir. O bizimlədir, ana qədər doğma bildiyi Azərbaycanladır. Min illər keçəcək, o, millətimizin sonrakı nəsilləri ilə də birlikdə olacaqdır.

Vəzifə, yüksək dövlət postları ona rahat həyat üçün lazım deyildi, o belə həyatı heç arzulamırdı da. Ali vəzifə ona bütün ruhu, varlığı ilə bağlandığı, candan, ürəkdən çox sevdiyi xalqına xidmət etmək üçün, vətənini bütün dünyada tanıtmaq üçün, millətini düşmənlərdən qorumaq üçün lazım idi.

Heydər Əliyev 1969-cu ildə hakimiyyətə gəldi və sübut etdi ki, Azərbaycan adlı bir məmləkət, azərbaycanlı adlı bir millət var. Heydər Əliyev gəldi və XX əsrin əvvəllərində xalqın dərdini çəkən ziyalıların fikrini ifadə edərək:

*«Qoymuş miləl imzasını övraqi-həyata,*
*Yox millətimin imzası bu imzalar içində»,*

– deyən Məhəmməd Hadinin nisgilinə XX əsrin 70-ci illərindən başlayaraq son qoydu. Heydər Əliyevin gəlişi ilə imzalar içində millətimizin də imzası görünməyə başladı. Həmin illərdə iqtisadiyyatın coşqun olması ilə yanaşı, elm, təhsil, mədəniyyət və incəsənət sahəsində də nailiyyətlər əldə olundu. Ali hərbi məktəblərə qəbul olunan azərbaycanlı gənclərimizin sayı durmadan artmaqda idi.

Qarşısına çıxan ciddi maneələrə, əngəllərə baxmayaraq, o, cəsarətli, qətiyyətli, hətta o dövrlər üçün çox gözlənilməz bir addım ataraq dilimizin Konstitusiyada dövlət dili kimi elan olunmasına nail oldu. Bu, Heydər Əliyevin bir övlad kimi ana vətəninə sevgi, məhəbbət imtahanı idi.

Moskvada işləyərkən də bütün qəlbi, düşüncəsi Azərbaycanda idi. Bütün imkanlardan istifadə edərək Azərbaycanın çiçəklənməsi naminə misilsiz işlər görürdü. Hər bir azərbaycanlı haqlı olaraq ona inanır, güvənir və onunla fəxr edirdi.

Bu gün Azərbaycan əhalisinin böyük bir nəsli Heydər Əliyev hakimiyyətinin iki dövrünün şahididir. Dövr və zaman dəyişir, o isə dəyişən dövrün, zamanın fövqündə dayanırdı. Ən maraqlı və heyrətamiz məqam odur ki, həm 1969-cu il, həm də 1993-cü ildə Heydər Əliyevin üzərinə xilaskarlıq missiyası düşmüşdü.

1993-cü ilin Azərbaycanını xatırlayanda görürük ki, xalq öz müstəqilliyini bayram etmək əvəzinə, sarsıntılar və faciələr yaşayırdı. Belə bir vaxtda o, hakimiyyətə qayıtdı və ilk növbədə, pərən-pərən düşmüş xalqı bir yerə topladı, səfərbər etdi və təxirə salmadan ordu quruculuğuna başladı.

Ali Baş Komandanın cəbhəyə, döyüş bölgəsinə, səngərlərə getməsi, zabit və əsgərlərə müraciəti yenicə formalaşmaqda olan ordunun döyüş ruhunu, qələbə əzmini artırdı. 1994-cü ilin əvvəllərində uğurlu müdafiə və hücum əməliyyatları keçirən döyüşçülərimiz cəbhənin Füzuli, Beyləqan və Ağdam hissələrində düşməni xeyli geri oturtdu. Məhz bu uğurlu əməliyyatlardan sonra ermənilər atəşkəs sazişi imzalamağa məcbur oldular.

Qədim yunan mütəfəkkiri Arximed demişdi: «Mənə istinad nöqtəsi verin, dünyanı məhvərindən çıxarım». Arximed belə bir istinad nöqtəsi tapa bilmədi. Amma xalqın inamına istinad edən Heydər Əliyev dizi üstə çökmüş bir ölkəni dirçəldib ayağa qaldıra bildi. 1993-cü ilin təlatümlü iyun günlərində Bakıya gələn Heydər Əliyev bütün məsuliyyəti öz üzərinə götürdü. Heydər Əliyev gəldi və bəyan etdi: «Mən ömrümün qalan hissəsini də xalqıma bağışlayıram».

Heydər Əliyev özünün müdrik siyasəti nəticəsində Azərbaycanı düşmənlərindən qoruya bildi. Əvvəllər Azərbaycana qarşı qərəzli mövqedən çıxış edənlərin çoxu artıq Azərbaycan həqiqətlərini dilə gətirməyə başladı. Məhz Ulu Öndərin müdrik siyasəti nəticəsində Azərbaycandan kənarda yaşayan soydaşlarımızla əlaqə yarandı, dünyanın hər yerində Azərbaycan diasporunun fəaliyyəti güclənməyə başladı.



Bu gün Ulu Öndərin möhkəm təməl üzərində qurduğu dövlət Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi altında durmadan inkişaf edir, beynəlxalq aləmdə öz mövqelərini daha da möhkəmləndirir. İnanırıq ki, ən böyük dərdimiz olan Dağlıq Qarabağ problemi öz uğurlu həllini tapacaq, Azərbaycanın ərazi bütövlüyü təmin olunacaqdır.

Heydər Əliyev kimi dahi insana, böyük dövlət xadiminə, bütün dövrlərin ən böyük azərbaycanlısına həsr etdiyim bu yazını onun sözləri ilə bitirmək istəyirəm:

«Həyatın mənası çox və yaxud az yaşamaqda deyil, həyatda öz mövqeyini müəyyən etmək, ləyaqət göstərmək və başqalarına nümunə olmaqdadır».



## Məlikzadə Aysel Akif qızı

*Göygöl rayonu, Balçılı kənd*
*1 nömrəli tam orta məktəbin*
*IX sinif şagirdi*

Azərbaycan xalqının tarixində müstəsna xidmətləri olan tarixi şəxsiyyətlər çox olmuşdur. Bunlar zaman-zaman gördükləri işləri və əməlləri ilə yadda qalmış və unudulmamışlar.

Belə tarixi şəxsiyyətlər içərisində Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin xüsusi rolu vardır. Məhz bu dahi insanın səyi nəticəsində Azərbaycan dönməz müstəqilliyə, inkişafa və tərəqqiyə qədəm qoydu. O bütün həyatını doğma xalqına həsr etdi, milli dövlətçiliyin əsasını qoyan dahi bir lider oldu.

1969-cu ilin 14 iyulu əbədi olaraq Azərbaycan Respublikasının tarixinə həkk olundu. Məhz həmin gün möhtərəm Heydər Əliyevin Azərbaycanda ilk dəfə siyasi hakimiyyətə gəldiyi gündür. Azərbaycan dövlətinin həqiqi inkişafı həmin gündən başlayır.

Heydər Əliyev Azərbaycana rəhbərlik etdiyi illərdə ölkənin nüfuzunu artırmış, hərtərəfli inkişafına nail olmuş, müstəqilliyini əbədi və dönməz etmişdir. Kiçik bir ölkə Heydər Əliyevin uğurlu siyasəti nəticəsində dünyada tanınan nüfuzlu bir dövlətə çevrilmişdi.

1993-cü il iyunun 15-i müstəqil Azərbaycanın Qurtuluş Günü oldu. Çünki həmin gün Heydər Əliyev Bakıya dəvət olunmuş, əvvəlcə Milli Məclisin sədri, sonra isə Azərbaycan Respublikasının Prezidenti seçilmişdi. Əgər dahi şəxsiyyət Azərbaycana rəhbərlik etməyi öz üzərinə götürməsəydi, bu gün dünyanın siyasi xəritəsində Azərbaycan Respublikası adlı dövlətin mövcudluğu mümkün olmayacaqdı. O, Azərbaycanı keçmişdə olduğu kimi xanlıqlara bölünməkdən, bütövlükdə məhv olmaqdan xilas etdi. Heydər Əliyev prezidentliyə başladığı illərdə ölkədə müstəqillik, iqtisadi yüksəliş, azadlıq və elmi tərəqqi dövrü başlamışdır.



Heydər Əliyev Respublikaya rəhbərlik etdiyi illərdə minlərlə tədris ocağı və mərkəzləri açıldı. Ümummilli Liderimiz elmin, təhsilin inkişafına hər zaman böyük diqqət və qayğı ilə yanaşmış, məktəbə və müəllimlərə xüsusi hörmət bəsləmiş və öz çıxışlarının birində belə söyləmişdir: «Mən dünyada müəllimdən yüksək ad tanımıram. Bizim hər birimiz elmi dərəcəmizdən, bilik səviyyəmizdən asılı olmayaraq, məktəbə, müəllimə borcluyuq».

Heydər babamız uşaqları da heç vaxt yaddan çıxartmazdı. O hər bir uşağı öz doğma övladı kimi sevərdi, tez-tez məktəblərə, uşaq evlərinə baş çəkər, balaların xoşbəxt və qayğısız böyümələri üçün hər cür qayğı göstərərdi. Heydər baba uşaqlarla görüşər, söhbət edərdi. Görüşlərin birində uşaqlara belə müraciət etmişdi: «Azərbaycanın bu gündən də gözəl gələcəyi vardır və bu gələcəyi quran, yaradan siz olacaqsınız, əziz balalarım. Sizə baxanda hər bir kəs, o cümlədən mən də iftixar hissi keçirirəm». Heydər Əliyev uşaqların təhsilinə xüsusi önəm vermiş, onların savadlı və cəmiyyət üçün yararlı olmalarına çalışmışdır.

Heydər Əliyevin ideya və düşüncələri Azərbaycanın gələcək inkişaf yollarını öyrədir. Onun rəhbərliyi və təşəbbüsü sayəsində Azərbaycan «İpək yolu», Bakı–Tbilisi–Ceyhan və bu kimi bir sıra dünya əhəmiyyətli layihələrin həyata keçirilməsi yönündə bir sıra uğurlar əldə etmiş, uğurlu siyasət nəticəsində vətənimizi bütün dünyaya tanıtmışdı. Təəssüf ki, o, bu gün bizimlə deyil, amma gəlin sarsılmayaq. Çünki bu gün Heydər Əliyevin yolunu layiqincə davam etdirən İlham Əliyev və xanımı Mehriban Əliyeva var. Bu gün bizim şən və qayğıkeş yaşamağımız, nümunəvi təhsilimiz bu insanların sayəsindədir. Azərbaycanda yaşayan bütün insanların dilindən, işindən, dini inancından asılı olmayaraq, hər bir kəsin hüquqları qorunub saxlanılır. Şəhərlərimiz günü-gündən abadlaşır, yeni-yeni park və istirahət mərkəzləri istifadəmizə verilir.

Mənim üçün fəxrdir ki, Ulu Öndərin qurucusu olduğu dövlətdə yaşayıb təhsil alıram. Çox xoşbəxtəm ki, Azərbaycan adlı azad ölkənin azad vətəndaşıyam. Mən də bu gün vətənə borcumu yüksək təhsil alaraq ödəyirəm.

Hərə bir ömür yaşayır, sonra unudulur. Tək-tək insanlar olur ki, ölümündən sonra da yeni həyat, yeni ömür yaşayırlar. Ölməzlik zirvəsi qazanırlar. Ulu Öndərimiz də belə şəxsiyyətlərdəndir. Onun dövrü XX əsr Azərbaycan tarixinin şanlı səhifəsi, ölməzlik zirvəsidir. Heydər Əliyevin xatirəsi Azərbaycan xalqının qəlbində daima yaşayacaqdır! Onun siyasi yolu Azərbaycan Respublikasının yolunu daima işıqlandıracaqdır!



## Kərimova Səmilə Əhməd qızı

**Bakı şəhəri, 6 nömrəli məktəb-liseyin X sinif şagirdi**

Bəli, müasir tariximizə qızıl hərflərlə yazılan, səsləndikdə isə bütün siyasi aləmi lərzəyə gətirən bir ad var – Heydər Əliyev! O, sadə insanlardan öz bacarığı, düşüncə tərzi və ağlı ilə seçilən bir şəxsiyyət olmuşdur. Onun Azərbaycana rəhbərlik etdiyi 30 ildən artıq bir zamanı əhatə edən bir dövrə nəzər salsaq, görərik ki, onun yalnız bir amalı olmuşdur – Ömrünü doğma vətəni Azərbaycana həsr etmək. O bunu öz sözləri ilə təsdiqləyərək demişdi: «Gərək nəbzin vətənin nəbzi ilə vursun». Məncə, Ulu Öndərin bu kəlamı onun necə vətənpərvər olduğunu təsdiqləməyə kifayətdir. Heydər Əliyev Azərbaycana rəhbərlik etdiyi müddətdə hamının sevgisini qazanan bir lider olmuşdur ki, bu da hər kəsə nəsib olmur. Düzdür, onun hakimiyyəti illərində mən hələ uşaq olsam da, mən və mənim bütün yaşıdlarım onu babamız kimi sevirdik və bütün uşaqlar onu Heydər baba kimi tanıyırdılar. İllər keçdi, mən böyüdüm, gəlib 16 yaşa çatdım. Müəyyən şeyləri anlamağa başladım və Heydər baba mənim Ümummilli Liderim oldu. Bu gün o özündən sonra qoyub getdikləri ilə hamımızın sevimlisidir.

Heydər Əliyev kimi insanlara tarixdə az-az rast gəlinir və biz xoşbəxt xalqıq ki, belə bir tarixi şəxsiyyət ölkəmizə başçılıq etmişdir. Bəzən bu barədə fikirləşdikdə təəccüblənirəm. Bütün bu keyfiyyətlərin bir insanda necə cəmlənə bildiyini anlamaqda çətinlik çəkirəm. Çünki Heydər Əliyev quruculuq sahəsində əvəzsiz bir dövlət başçısı, güclü siyasətçi, sözündə sərt və qətiyyətli bir prezident olmaqla bərabər, həm də çox sadə və gülərüz bir insan idi. O, xalqımızın gələcəyi olan uşaqlarla çox səmimi və mehriban davranır, onların hamısını öz doğma nəvəsi kimi qucağına alıb öpür və bağrına basardı. Yeri gəlmişkən, demək lazımdır ki, Heydər Əliyev həmişə UNİCEF-in təşkil etdiyi konsertlərə gələr, uşaqların çıxışlarını çox maraqla izləyərdi. Bir dəfə də o, növbəti konsertlərdən birinə gəlmişdi. Ancaq sonda o, ayağa qalxaraq bütün uşaqlarla birlikdə rəqs etməyə başladı. Yəqin, bu onun uşaqlara qarşı olan sevgisindən irəli gəlirdi.



Heydər Əliyev tarixin Azərbaycana bəxş etdiyi xilaskar idi. Belə ki, ikinci dəfə xalq tərəfindən hakimiyyətə gətirildikdən sonra o, Azərbaycanı sürükləndiyi vətəndaş müharibəsi və özbaşınalıqdan xilas etdi. Xalqın ona göstərdiyi etimadı doğrultdu. Bir sözlə, Heydər Əliyev əsl xilaskar lider kimi ölkəmizi siyasi aləmdə tanıtmaq üçün var gücü ilə çalışdı və buna nail oldu.

*Başını əymədi düşmənə, yada,*
*O qulluq eylədi təmiz, pak ada.*
*Vətən göylərini bulud alanda,*
*Səmada günəştək parladı Heydər!*

Heydər Əliyev həmişə xalqına arxalanmış və xalq da onu özünə dayaq bilmişdir. Dillər əzbəri olan «Heydər–xalq, xalq–Heydər» ifadəsi də bu birliyin bariz nümunəsidir. Xalqımız fəxr edə bilər ki, onun ləyaqətli övladı öz adını dünyanın görkəmli siyasətçiləri ilə bir sıraya yazdırmış və bununla xalqımıza başucalığı gətirmişdir. Əbəs yerə deyil ki, SSRİ MK-nın birinci katibi Mixail Qorbaçov onu «siyasətdə balina» adlandırmış, müsahibələrindən birində isə açıq şəkildə Heydər Əliyevə paxıllıq etdiyini demişdir. Heydər Əliyev bizim üçün «Müstəqil Azərbaycan» adlı şah əsərini qoyub getdiyi üçün heç kəslə müqayisəyə gəlməyəcək bir dövlət başçısı kimi əvəzedilməzdir.

Heydər Əliyev Azərbaycanın dünəni, bu günü və sabahıdır. Biz dünənimizə baxanda Ulu Öndərin canlı həyat salnaməsini, müstəqillik uğrunda mübarizəsini, bu günümüzə baxanda dünyanın sivil ölkələrindən birinə çevrilməkdə olan Azərbaycanı, sabahımıza baxanda isə Heydər Əliyevin ideyaları ilə sabaha inamla addımlayan xalqın etimadını qazanmış sevimli prezidentimizin səyi nəticəsində günü-gündən çiçəklənən Azərbaycanı görürük.

Vətən sevgisi sevgilərin ən ülvisi, ən müqəddəsidir. Heydər Əliyev də Azərbaycanı sonsuz bir məhəbbətlə sevirdi. Bir dəfə o, mötəbər tədbirlərin birində Səməd Vurğunun «Azərbaycan» şeirini deyən zaman kövrəlir. Bu isə insanların yaddaşında «Heydər Əliyevin Azərbaycan sevgisi» adlı xatirə kimi bir iz qoyur. 34 illik çıxışları zamanı hələ bir dəfə də olsun onun kövrəldiyini görən olmamışdır. O yalnız «Azərbaycan» şeirini deyən zaman ürəyi fəxr və qürurla dolmuş və kövrəlmişdi.

Müəllimlərimin Heydər Əliyev haqqında danışdıqlarına qulaq asdıqca onun sağlığında necə bir insan olduğunu daha da yaxşı anlayıram. Mən onun haqqında danışarkən «sağlığında» sözünü işlədirəm, əslində isə bu mənim üçün çox ağırdır. Çünki mən xalqımızın bu cür Lideri itirdiyinə inanmaq istəmirəm.

Heydər Əliyevin vəfat etdiyi tarix hamımızın yadındadır. O vaxt küçələr böyük izdiham və yollara düzülmüş qərənfillərlə dolu idi. Mən uşaq olduğuma görə heç nə anlamırdım. Amma indi hər şeyi yaxşı anlayıram. O gün xalq öz xilaskarını itirmişdi.

Bəli, Heydər Əliyev bir prezident kimi özündə bütün müsbət xüsusiyyətləri cəmləşdirmiş bir insan idi. Bu gün onun ideyaları sayəsində Azərbaycan dinamik inkişaf edir. Dövlətimiz bir çox beynəlxalq təşkilatların üzvü, çoxsaylı iqtisadi layihələrin iştirakçısıdır. Mən inanıram ki, bütün bunları Heydər Əliyevin ruhu görür və özü kimi məğrur olan Azərbaycanı belə gördükcə onun ruhu daim şad olur.

Mən fəxr edirəm ki, Heydər Əliyevin memarı olduğu müstəqil Azərbaycanın vətəndaşıyam. İnşamı da onun bu sözləri ilə tamamlamaq istəyirəm: «Mən həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam».





## *Mütəllimli Günel Azadi qızı*

***Bakı şəhəri, 296 nömrəli tam orta məktəbin IX sinif şagirdi***

Heydər Əliyev tarixin yaratdığı şəxsiyyət olmaqla yanaşı, eyni zamanda tarixi yaradan şəxsiyyətdir. Biz bu sözlərin sadəliyinə inanıb mürəkkəbliyində bata bilərik. XX əsrdə doğan bir günəş, dahi insan, ulu bir sərkərdə haqqında ömrümün sonuna qədər danışsam, yenə də azdır. Tarixə bir nəzər salaq:

1993-cü il may ayları idi. Azərbaycan çətin günlərini yaşayırdı. Xalqımızın Heydər Əliyev kimi bir siyasətçiyə, iradəli bir şəxsiyyətə ehtiyacı var idi. Rəhbərlik Heydər Əliyevi Bakıya dəvət edir. 1993-cü ildən Azərbaycan adlı bir məmləkət dahi şəxsiyyətin hakimiyyətə gəlişi ilə çiçəklənməyə doğru gedir. Heydər Əliyev gələn kimi xalqın qəlbində böyük bir rəğbətə, sevgiyə hakim olur. O sevgi illər boyu bitməyən, tükənməyən, günü-gündən artan bir sevgi olur. Mənim də qəlbimdə Heydər Əliyevə aid böyük bir yer və o yerdə ömrümün sonuna qədər bitməyən bir sevgi vardır.

Heydər Əliyevin Azərbaycanda gördüyü işlər barəsində bu gün söz açsam, nə mürəkkəb yetər, nə də qəlbimdəki sözlərim bitər. Fikrimi bir cümlə ilə ifadə etməyə çalışacağam: «Böyük bəşəriyyət, Azərbaycan adlı məmləkət belə siyasətçi, iradəli, müdrik, dahi şəxsiyyət, lider görməmişdir».

O, tarix yazan, bütün dünyaya Azərbaycanı tanıtdıran və könüllərdə geniş bir yerə sahib olan şərəfli şəxsiyyət idi. Hər zaman səninlə fəxr etmişəm, Ulu Öndərim!

Heydər Əliyev həyatda çox enişli-yoxuşlu yollar keçmişdir. Həyatının ən gözəl günlərində də, ən çətin günlərində də daima yanında olan, bir ömür boyu sevgisini əsirgəməyən bir həyat yoldaşı var idi. Zərifə xanım Əliyeva Heydər Əliyevə hər zamab arxa-dayaq olan, iş həyatında da, ictimai həyatında da yanında olan, onu dünyalar qədər sevən bir qadın idi.

Hər zaman səmimi bir şəkildə xalqın qarşısında qürurla, fəxrlə dimdik durmağı bacarırdı. Heydər Əliyev insanlarla səmimi söhbət etməyi, gəzməyi çox sevirdi. Xalqı ona söykənmişdi, o da xalqına. Məncə, dünyada Heydər Əliyevdən başqa xalqını, millətini daha çox sevən, hörmət edən bir insan yoxdur. Əvəzolunmaz siyasətçi, dahi insan və gözəl bir ata idi.

2003-cü il dekabr ayı idi. Uşaq idim o zamanlar. Ailəmlə birlikdə yenə televiziya qarşısında Heydər Əliyevin çıxışını gözləyirdik. Budur, Heydər Əliyev iri addımlarla gələrək çıxışına başladı. Lakin birdən-birə ürəyini tutaraq yıxıldı. Özünü ələ alıb yenidən xalqın qarşısına çıxdı. «Məni sanki vurdular», – dedi.

Üzərindən bir müddət keçəndən sonra yenidən ailəmlə Ulu Öndərin çıxışını gözləyirdik. Bu dəfə qüdrətli səsi ilə çıxış edən bir şəxsiyyət yox idi. Bu zaman anamın gözlərindən yaş süzülərək:

– Allahım, niyə məhz bu dünyada böyük şəxsiyyətlər, igid oğullar haqqın yoluna tez qovuşur.

Evdəki ağlaşmalardan başa düşdüm ki, artıq O, aramızda yox idi. Son çıxışında xalqına əl edərək bu sözləri qeyd etmişdi:

*Ocaqlarınız daima yansın,*
*Çaylarınız qurumasın,*
*Çıraqlarınız sönməsin.*

Uşaqkən gənclərin görüşündə Böyük İnsanla qarşılaşmışdım. Gözlərinə baxarkən sanki könlümün bir hissəsi sıyrılıb getdi. Gözləri ilə hər şeyi ifadə edirdi. Bir baxışı ilə xalqının qəlbinə yol tapmışdı.

Xeyr, O ölmədi! Ölə bilməz!

Əsrlər boyu adı dillər əzbəri olacaq. Azərbaycan xalqının tarixi onunla bağlıdır. Dünyada tayı-bərabəri olmayan bir şəxsiyyət heç vaxt ölə bilməz. Azərbaycan adlı kiçik bir məmləkəti dünyaya tanıtdıran, nəhəng ölkələrlə rəqabət aparan, xalqını bu qədər sevən, xalqı, milləti, üçün əlindən gələni əsirgəməyən bir şəxsiyyətin, liderin ölümündən danışmayın mənə! Nəinki mən, Azərbaycan xalqı da onun ölümü ilə razılaşmır. Bu gün sərbəst şəkildə gəzir, xalqıma yararlı bir şey edə bilirəmsə, bunu sənə borcluyam, Öndərim. Gənclərə çox şey buraxdın. Dillərimizdən düşməyən kəlamlarını, gəzdikcə könlümüz açılan, çiçəklənən bir Azərbaycanı əmanət etdin. Xalqımıza bir İlham bağışladın.



Azərbaycan Respublikasının bayrağı, Azərbaycan Respublikasının gerbi və «Qurani-Kərim» qarşısında diz çökərək and içirəm!

– Vətənimə sədaqətli, qorxmaz, igid və vətənini ömrü boyu sevən, bayrağını hər yerdə dalğalandıran, torpaqlarımızı geri qaytarmaq üçün cəbhədə vuruşan bir Azərbaycan qızı olacağam. Nə qədər ki indi İlham Əliyev var, Azərbaycan daima günəş kimi parlayacaqdır.

*Ucaltdı hər yerdə bayrağımızı,*
*Yazdı tarixlərə ad-sanımızı.*
*Tanıtdı dünyaya varlığımızı*
*Ulu bir sərkərdə, ulu bir Öndər.*

*Məqsədi bu idi: Vətən ucalsın,*
*Oğulları düşmənləri dağlasın.*
*Analar gözünü sevinc ağlatsın,*
*Ulu bir sərkərdə, ulu bir Öndər.*

*Özündən sonra da davamçı qoydu,*
*Onun da bu yolu Heydər yoludur.*
*Haqqa qovuşsa da, xalqı düşünər,*
*Ulu bir sərkərdə, ulu bir Öndər.*

Heydər Əliyev ömründə iki dəfə kövrəlmişdir. Birinci S.Vurğunun «Azərbaycan» adlı şeirini deyərkən, digəri zabitlərlə görüşərkən. Bu anları heç vaxt yaddan çıxarmaq olmaz.

Azərbaycan indi güclü, qüdrətli, inkişaf etmiş bir ölkədir. Ulu Öndərimizin bizə yadigarı İlham Əliyev günü-gündən Azərbaycanı irəliyə doğru aparır. Azərbaycana gələnlər cənnətə düşmüş kimi, tərk etmək istəmirlər. Qayğıkeş prezidentimizin sayəsində məktəblərdə, universitetlərdə yüksək səviyyədə təhsil alır, idmanla məşğul olur, nitq və təfəkkür səviyyəmizi artırmaq üçün yarışlarda, olimpiadalarda iştirak edirik. Bizim irəliyə doğru getməyimiz üçün dövlət başçımız əlindən gələni edir.

Həyatda bacarmaq üçün, inkişaf etmək üçün oxumaq lazımdır. Ümummilli liderimiz Heydər Əliyev də təhsil sahəsinə çox önəm verərdi. Tez-tez məktəblərə gedər, şagirdlərin təhsili, tərbiyəsi ilə dərindən maraqlanardı. Ulu Öndər əsgərlərimizlə də görüşər, səmimi söhbət edər və onlarla birlikdə yemək yeyərdi.

İndi bizim Vətənə xidmət edən igid, cəsur oğul və qızlarımız var. Qorxmadan ön cəbhədə sinələrini sipər edərək vuruşurlar. Azərbaycan

bu günə qədər çox şəhid vermişdir. Şəhidlik ən uca zirvədir. Torpaqlarımız uğrunda mən də şəhid olmağa hazıram.

Ulu Öndər şəhid ailələrinə çox hörmət bəsləyərdi. Nə sevindirici haldır ki, prezidentimiz İlham Əliyev də şəhid ailələri ilə yaxından maraqlanır. Şəhidlər ölməz, Vətən bölünməz!

Ümummilli Liderimiz bayramları çox sevərdi. Bayramlarda xalqı ilə birlikdə gəzərdi. Ən sevdiyi bayram Novruz bayramı idi. İnşallah, gələn il biz bayramlarımızı Qarabağda keçirəcəyik. Üçrəngli bayrağımızı isə Dağlıq Qarabağın ən yüksək nöqtəsindən asacağıq!

Ulu Öndərim, sən ölmədin! Daima qəlbimizdə böyük yerə sahib olacaqsan. Əgər bu dünyada bütün siyasətçilər birləşsələr, sənin yerini verə bilməzlər. Sən əvəzolunmaz siyasətçisən. Azərbaycan heç vaxt xalqının dar günündə onun əlindən tutan bir şəxsiyyəti unutmaz. Kəlamlarını daim yaşadacağıq. Hər zaman qəlbimizdə səmimiyyətinizlə, mehriban gülüşünüzlə, xeyirxahlığınızla, uzaqgörənliyinizlə qalacaqsınız. Gözünüz arxada qalmasın, Öndərim! Vətən əmin əllərdədir!





## Məmmədli Şahanə Elçin qızı

***Bakı şəhəri, 150 nömrəli tam orta məktəbin XI sinif şagirdi***

Həyatını Azərbaycan xalqının böyük bir tarixinə bərabər tutduğumuz bu dahi şəxsiyyət haqqında yazmaq mənim üçün məsuliyyətli və şərəflidir. Mən bu gün tariximizdə önəmli rol oynayan Cavanşirlər, Babəklər haqqında deyil, məhz tarixin özü haqqında yazıram.

Mən, on birinci sinif şagirdi Heydər Əliyevi necə görürəm, Heydər Əliyev məndən ötrü kimdir?

Tarixdən yarpaqlar...

1923-cü il may ayının 10-da qədim Naxçıvanda – Əlirza kişinin ailəsində bir oğlan dünyaya gəlir, adını Heydər qoyurlar. Əvvəllər öz yaşıdlarından o qədər də fərqlənmir. Lakin yox... Sən demə, heç də belə deyilmiş. Hörmətli müəllimi Lətif Hüseynzadənin dediyinə görə, orta məktəb şagirdi Heydər Əliyev özünün güclü yaddaşı, qeyri-adiliyi ilə yaşıdlarından fərqlənirmiş. Məktəb kursu üzrə bütün fənləri yaxşı oxumaqla bərabər, bacarıqlı təşkilatçılığı, məktəb dram dərnəyi xətti ilə müxtəlif səhnə əsərlərinin tamaşaya qoyulmasında rol ifaçısı kimi də seçilirmiş.

Heydər Əliyev əvvəlcə Naxçıvanda Pedaqoji məktəbi, sonra keçmiş ADU-nun (BDU) tarix fakültəsini fərqlənmə diplomları ilə bitirir, daha sonra isə Rusiyada milli təhlükəsizlik orqanları üçün işçi hazırlayan ali məktəbdə təhsil illəri...

Heydər Əliyev respublika təhlükəsizlik orqanlarında işə başlayır. 1969–1982-ci illərdə isə Azərbaycan KPMK-nın Birinci katibi vəzifəsində çalışır. Azərbaycana rəhbərlik etdiyi illərdə Heydər Əliyev ölkə iqtisadiyyatına, mədəniyyətinə böyük qayğı göstərib, şanlı töhfələr verib.

Atamın dediklərindən: 60-cı illərdə Azərbaycanda rüşvətxorluq baş alıb gedirmiş. Ali məktəblərə, xüsusilə hüquq fakültəsinə ədliyyə işçilərinin

övladları «qəbul olunurmuş». 46 yaşlı gənc, enerjili katib axına qarşı gedir, qartal kimi qanad gərir, gözlənilmədən qərar qəbul edir: Hüquq fakültəsinə ədliyyə orqanlarında çalışan işçilərin övladları sənəd verə bilməz! Konstitusiya buna əsas verirdimi? Qətiyyən yox. Bəs bu qərar necə qəbul olundu?

Heydər Əliyevin böyük cəsarəti, dəmir iradəsi, obyektivliyi və uzaqgörənliyi sayəsində. Bu, dövr üçün son dərəcə vacib bir qərar, cəsarətli bir addım idi. Hər zaman xalqını düşünən, ürəyi xalqı ilə döyünən bu şəxsiyyətin sayəsində kasıb, lakin bacarıqlı və istedadlı gənclər də hüquq fakültəsinə ayaq açdılar.

Heydər Əliyev birinci katib vəzifəsində işlədiyi illərdə min nəfərdən çox azərbaycanlı tələbə keçmiş SSRİ-nin mərkəzi şəhərlərinə oxumağa göndərildi. Dahi siyasətçi hələ o zaman məhz bu şəhərlərdə Azərbaycan diasporunun özəyini yaratmaq məqsədi güdürdü.

Heydər Əliyev gənclərdən fəal həyat mövqeyinə malik olmağı tələb edirdi. Bunun üçün onlara lazımi qədər şərait yaradırdı. Əlindən gələn köməkliyi əsirgəmirdi.

Valideynlərimin dediyinə görə, o vaxt Azərbaycan nəhəng tikinti meydançasını xatırladırdı. Tikmək, qurmaq, yaratmaq Ulu Öndərin əsas devizinə çevrildi. Müasir tələblərə cavab verən yüzlərlə məktəb binası hələ o vaxt istifadəyə verildi. Hər il 500–600 gənc azərbaycanlı Sankt-Peterburqun, Kiyevin, Moskvanın ali təhsil ocaqlarına təhsil almağa göndərildi.

Heydər Əliyevin, şübhəsiz, ən böyük xidmətlərindən biri Azərbaycanda hərbi təhsil sisteminin əsasını qoyması oldu. 1971-ci ildə C.Naxçıvanski adına Hərbi Məktəb fəaliyyətə başladı.

Beləliklə, Heydər Əliyev bütün sahələrdə güclü inkişaf istiqaməti götürdü. Pambıqçılıq, üzümçülük, baramaçılıq və digər sahələr elmi əsaslar üzrə inkişaf edirdi. Sizcə, bütün bu çəkilən əziyyətləri, əldə olunan nailiyyətləri unutmaq olarmı?

Azərbaycanın başının üstünü qara buludlar bürüyəndə Ulu Öndər ikinci dəfə hakimiyyətə gəldi, xalqın iradəsi, arzusu və tələbi ilə. Azərbaycanlıların, bütün soydaşlarımızın qələbənin uzaqda olmadığını hiss etdikləri həmin gün – 1993-cü il 15 iyun Qurtuluş Günü kimi tarixə qızıl hərflərlə yazıldı. Həmin günlərdə misilsiz şəxsiyyət demişdi: «Mən ömrümün qalan hissəsini də xalqıma bağışlayıram». Bu sözlər xalq üçün yaşayan bir ömür sahibinin mənəvi aləmini çox aydın səciyyələndirir.



Heydər Əliyev 1994-cü il may ayının 12-də Ermənistan ilə atəşkəs haqqında saziş imzalanmasına nail oldu. Bu, qorxma, geriçəkilmə demək deyildi, əksinə, ordunu gücləndirmək üçün vaxt qazanmaq idi.

Azərbaycan – Dağlıq Qarabağ həqiqətlərinin dünyaya çatdırılmasında Ümummilli Liderin əvəzsiz rolu olub.

2001-ci il noyabrın 9–10-da Heydər Əliyevin təşəbbüskarlığı nəticəsində Dünya Azərbaycanlılarının I Qurultayı çağırıldı.

Heydər Əliyevin fərmanı və təşkilatçılığı ilə xalqımızın böyük abidəsi olan «Kitabi-Dədə Qorqud» dastanının 2000-ci ilin aprel ayında 1000 illik yubileyi keçirildi.

Xalqımızın parlaq gələcəyinə çevrilə biləcək Bakı–Tbilisi–Ceyhan boru ixrac kəmərinin Azərbaycan hissəsinin təməlinin qoyulması məhz bu müdrik, uzaqgörən siyasətçinin səyi nəticəsində mümkün oldu.

Heydər Əliyev mənim üçün ana dilimizin qayğısına qalması və onun keşiyində möhkəm durmasına görə daha əzizdir. Heydər Əliyevin dilindən söylənilmiş «Hər bir xalqın milliliyini, mənəvi dəyərlərini yaşadan və inkişaf etdirən onun dilidir. Öz ana dilini bilməyən adamlar şikəst adamlardır» sözləri ədəbiyyatımızda da hər zaman aparıcı mövzu olan ana dili anlayışını təfsilatı ilə anlamağımıza yardım edir.

Mən on birinci sinifdə oxuyuram. Bu 11 illik təhsil həyatımda Heydər Əliyevi hər zaman oxumuşam, öyrənmişəm. Mən Heydər Əliyevə yalnız tarixdəki mövqeyinə görə deyil, canlı, zərif insani duyğulara malik bir vətəndaş kimi də qiymət vermək istərdim. Heydər Əliyevi mənim qəlbimdə unudulmaz edən ən başlıca səbəblərdən biri onun 1982-ci ildə böyük şairimizin və repressiya qurbanı olan Hüseyn Cavidin cənazəsini Sibirdən gətirib Naxçıvanda – öz doğma yurdunda torpağa tapşırması oldu. Budur Azərbaycanın parlaq günəşinin ədəbiyyatımıza və onun unudulmaz şəxslərinə olan qayğısı.

Heydər Əliyev nə qədər öz işində ciddi nizama-intizama malik olsa da, o qədər də kövrək, nəcib xarakterli insan idi. S.Vurğunun «Azərbaycan» şeirini söyləyərkən kövrəlməsi, «Tut ağacı» mahnısını dinləyərkən qəlbinin dərinliyində gizlətdiyi incə ruhlu Heydəri üzə çıxartması da bunun bariz nümunəsidir.

«Uşaqlar bizim sevincimiz, xoşbəxtliyimiz, cəmiyyətin gələcəyidir. Onlar hər bir insanın mənəviyyatıdır. Bu gün dünyada və hər bir insanpərvər cəmiyyətdə onlara xüsusi qayğı və xüsusi diqqət göstərilir. Mən Azərbaycanın prezidenti olaraq bəyan edirəm ki, uşaqlara, körpələrə göstərilən qayğı bütün qayğılardan üstündür», – deyən millət atası nəva-

zişə, sevgiyə ehtiyacı olan bütün körpələrə, uşaqlara öz sevgisini verməkdən çəkinməmişdir.

Heydər Əliyev və xalq, xalq və Heydər Əliyev ayrılmazdır. Əbəs yerə deyilmir ki, Heydər: «xalqım», – deyəcək, xalq: «Heydər», – söyləyəcək.

Belə deyir və yazırlar ki, müasir Azərbaycan Heydər Əliyevin şah əsəridir. Bu şah əsərin tacı onun yolunu ləyaqətlə davam etdirən doğma övladı İlham Əliyevdir. Mən bu gün tam məsuliyyətlə, qürur və iftixar hissi ilə deyə bilərəm ki, Azərbaycan xalqı xoşbəxtdir ki, onun İlham Əliyev kimi prezidenti var.

Sözlərimi Ulu Öndərin artıq aforizmə çevrilmiş fikirləri ilə bitirmək istəyirəm: «Hər bir insan üçün milli mənsubiyyəti onun qürur mənbəyidir. Mən həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam!»









## *Mustafayeva Samirə Əfqan qızı*

***Xaçmaz rayonu, Susay kənd tam orta məktəbin XI sinif şagirdi***

*O böyük zəkalı, o dahi insan*
*Bəxş oldu Tanrıdan Azərbaycana*
*Qoydu təməlini müstəqilliyin,*
*Ömrünü həsr etdi doğma xalqına.*

Bəşəriyyət yarandığı gündən çox böyük şəxsiyyətlərə, dahilərə, sərkərdələrə, onların əldə etdikləri şanlı qələbələrə şahidlik edib, bu şəxsiyyətlərin qurub-yaratdıqları, miras qoyduqları dövlətçilik ənənələri mənsub olduqları xalqın gələcəyinə işıq tutub, onların, bəlkə də, yüz illər sonrakı tarixdə mövqeyini müəyyənləşdirib. Məhz buna görə də belə şəxsiyyətlər tarixdə dahi öndər, lider kimi öz layiqli yerlərini tutmuşlar.

Heydər Əliyev də dahi öndər, bacarıqlı siyasi lider kimi xalqının həyatında öz layiqli yerini tutan, Azərbaycanı azad, müstəqil, demokratik dövlət kimi tanıdan, xalqının taleyinə parlaq günəş kimi doğan tarixi şəxsiyyətdir. Məhz bu xüsusiyyətlərinə görə də qədirbilən xalqımız öz dahi oğluna – ümummilli lider Heydər Əliyevə minnətdardır.

Bu dahi şəxsiyyət haqqında danışarkən öncə qeyd etmək lazımdır ki, ulu öndər Heydər Əliyevin xalqına və dövlətinə bəxş etdiyi misilsiz xidmətlər Azərbaycan tarixinin şanlı səhifələrini təşkil etmişdir və etməkdədir. Millətinin və xalqının ali mənafeyini öz fəaliyyətində daim təməl, prinsip və norma kimi qəbul edən ulu öndər Heydər Əliyev bugünkü müstəqil Azərbaycanın memarı və qurucusudur.

Dahi şəxsiyyət Heydər Əliyevin yurduna, dövlətinə bəxş etdiyi misilsiz xidmətlərin, əvəzedilməz dəyərlərin və sərvətlərin mahiyyətini daha dərindən anlamaq üçün bir neçə fakta toxunmaq kifayət edər.

1969-cu ildən hakimiyyət başında qərar tutan ulu öndər Heydər Əliyev istər 70-ci illərdə, istərsə də ağrılı-acılı müstəqillik illərində heç bir dövlət başçısına müyəssər olmayan bir müdriklik nümayiş etdirərək Azərbaycanı, sözün əsl mənasında, ayağa qaldıraraq, iri addımlarla irəliləməsini təmin etdi.

Azərbaycan tarixinin bütöv bir qərinəsi dünya siyasətinin görkəmli nümayəndələrindən, tarixi şəxsiyyətlərindən biri, ümummilli liderimiz Heydər Əliyevin adı ilə bağlıdır. Bu dahi şəxsiyyət bütün varlığı ilə sevdiyi vətənini, xalqını, öz doğma yurdunu, onun dövlətçiliyini tarixin ən çətin sınaq və imtahanlarından böyük məharətlə çıxartmışdır. O, dünya dövlətləri cərgəsində özünün qurub-yaratdığı, şah əsəri olan Azərbaycan dövlətinə yaşamaq hüququ vermişdir.

Ulu Öndər 1993-cü il iyunun 15-də xalqın təkidi və tələbi ilə yenidən siyasi hakimiyyətə qayıtmışdır. Təsadüfi deyil ki, təqvimin bu günü xalqın yaddaşında dönəm anı, Qurtuluş Günü, şərəfli bir tarixin başlanğıc günü kimi qalır.

Ümummilli liderimiz Heydər Əliyev hələ 1993-cü ilin 15 iyununda Milli Məclisin tarixi iclasında ölkə parlamentinin başçısı seçilərkən demişdir: «Mən Azərbaycanın bugünkü ağır, mürəkkəb və gərgin vəziyyətini tam məsuliyyəti ilə dərk edirəm. Azərbaycan xalqının tarixi nailiyyəti olan Azərbaycan Respublikasının dövlət müstəqilliyini qorumağı, möhkəmləndirməyi və inkişaf etdirməyi özüm üçün ən əsas vəzifələrdən biri hesab edirəm. Heç kəsin şübhəsi olmasın ki, ömrümün bundan sonrakı hissəsini harada oluramsa olum, yalnız və yalnız Azərbaycanın müstəqil dövlət kimi inkişaf etməsinə, dünya səviyyəsində tanınmasına həsr edəcəyəm. Azərbaycan bir daha öz müstəqilliyini itirməyəcək, yenidən heç bir dövlətin əsarəti altına düşməyəcəkdir».

Beləliklə, günəşin parlaq şüaları Azərbaycan üzərində parladı. Azərbaycan xalqı öz dahi oğlunu – Heydər Əliyevi Azərbaycan Respublikasının prezidenti seçdi. Bununla da ölkənin ictimai-siyasi, iqtisadi, sosial, hərbi, milli-mədəni həyatında beynəlxalq norma və prinsiplərə uyğun müstəqil dövlət quruculuğu prosesi başladı. Azərbaycanda hakimiyyətə böyük təhlükə yaradan dövlət çevrilişi cəhdlərinə birdəfəlik son qoyuldu. Heydər Əliyevin uğurlu xarici siyasəti nəticəsində 1994-cü il mayın 12-də cəbhədə atəşkəs əldə edildi. Bu illərdə milli ordu quruculuğunda da ciddi dəyişikliklər başladı. Ulu Öndərin fəal diplomatiyası nəticəsində dünyanın demokratik dövlətlərinin və aparıcı siyasi təşkilatlarının vətənimiz Azərbaycana, onun zorla cəlb olunduğu silahlı münaqişəyə münasibəti əsaslı şəkildə dəyişildi.



*Qaldırdın göylərə Odlar yurdunu,*
*Müstəqil bir dövlət eylədin onu.*
*Yaratdın hünərvər Milli Ordunu,*
*Ey ulu xalqımın qəhrəman oğlu.*

Heydər Əliyev görkəmli dövlət başçısı, siyasi lider, təkrarolunmaz tarixi sima olmaqla bərabər, əsl vətəndaş, gözəl insan idi. Hərtərəfli insani keyfiyyətləri, yüksək intellektual səviyyəsi, dərin zəkası, fitri siyasi baxışları, dəmir məntiqi ilə fərqlənən, seçilən tarixi şəxsiyyətlərə çox az təsadüf edilir. Bütün bu müsbət keyfiyyətləri özündə cəmləşdirən Heydər Əlirza oğlu Əliyev Tanrının Azərbaycana bəxş etdiyi ən dəyərli varlıq, tükənməz qüdrət və cəsarət mənbəyi, əbədiyyət simvolu idi.

XX əsr Azərbaycan tarixinin şanlı səhifələrini yaradan ulu öndər Heydər Əliyev ömrünün, həyatının əsas hissəsini xalqına, vətəninə, onun abadlaşmasına, dünya səviyyəsində tanınmasına sərf etdi. Dahi rəhbər ilk əvvəl ordu quruculuğuna başladı. Heydər Əliyevin fəal diplomatiyası nəticəsində Azərbaycan 2001-ci ildən Avropa Şurasının tamhüquqlu üzvü kimi qəbul edildi. Vətənimizi təmsil edən üçrəngli bayrağımız dünyanın demokratik dövlətlərinin, siyasi təşkilatlarının qarşısında dalğalanmağa başladı.

Tarixdə elə günlər var ki, həmin günlər bir millətin, bir dövlətin yox, dünyanın tarixi yaddaşına yazılır. Belə günlərdən biri 1994-cü il 20 sentyabr günüdür. Həmin gün Heydər Əliyevin rəhbərliyi ilə «Əsrin müqaviləsi» imzalandı.

Heydər Əliyev dünyanın perspektivlərini öncədən görməyi bacaran ən nüfuzlu, ən istedadlı tarixi şəxsiyyətlərdən biri, həm dahi şəxsiyyət, həm də şəxsiyyətlərin dahisi olaraq tarixdə qalacaq.

Dahi lider, gözəl insan Heydər Əliyev əsl azərbaycanlı idi. O, azərbaycanlı olması ilə fəxr edir, qürur duyurdu. Onun dilimizə verdiyi önəm xalqa sonsuz məhəbbətindən irəli gəlirdi.

Ulu öndər dahi siyasətçi xadim, əvəzsiz natiq idi. O, dərin zəkası və məntiqi ilə hamını heyran edir, dilimizi dərindən öyrənməyə və mənimsəməyə çağırırdı.

Bu il Heydər Əliyevin anadan olmasının 91 illiyi tamam olur. Bu ərəfədə ulu öndər Heydər Əliyev haqqında söz demək, yazı yaz maq hər birimiz üçün fəxrdir.

Heydər Əliyevin haqq dünyasına qovuşmasından 11 il ötsə də, xalqımız öz dahi oğlunu unutmur. Onun əziz xatirəsini hər bir Azərbaycan vətəndaşı yad edir. Onun keçdiyi həyat yolu xatırlanır.

Hal-hazırda o dahi insan həyatda olmasa da, onun qurub-yaratdığı dövlətə oğlu İlham Əliyev rəhbərlik edir. Sabahımıza inamımız daha böyükdür. Qarşımızda uğurlu gələcəyə yol uzanır. Bu yolun davamçısı – bacarıqlı siyasətçi gözümüzün qabağındadır. Biz inanırıq ki, Heydər Əliyevin həyata keçirə bilmədiyi ideyaların reallaşması İlham Əliyevin sayəsində mümkün olacaqdır. Qoy bu yolda Ulu Tanrı xalqımıza və onun rəhbərinə yar olsun.

Bəli, müstəqil Azərbaycan Heydər Əliyevin şah əsəridir. Mən müstəqil bir ölkənin müstəqil vətəndaşı olmağımla fəxr edir, Heydər Əliyev kimi dahi şəxsiyyətin yaşadığı vətəndə, torpaqda yaşamağımla qürur hissi duyuram.





## *Quliyeva Mehri Mehralı qızı*

***Bakı Sənaye Pedaqoji Kollecinin***
***II kurs tələbəsi***

*Ən mükəmməl insan başqalarına çox yararlı insandır.*

**Hz.Məhəmməd**

«Dahi» titulu insana verilmir. Dahilər bu titulla dünyaya gəlmirlər və məncə, qabiliyyət irsiyyətlə keçmir. Bu titul mücərrəd bacarığa görə deyil, konkret nailiyyətə görə verilir.

Mən hər səhər kollecə gedəndə kollecin dəhlizində bir dahi şəxsiyyətin portreti ilə qarşılaşıram. Portretin aşağısında yazılmışdır: «Azərbaycanın dövlət müstəqilliyi əbədidir, sarsılmazdır, dönməzdir».

Bu portret və bu sözlər uzunmüddətli müstəqilliyimizin, azadlığın, demokratiyanın nə demək olduğunu aşılayan, əsarət altında yaşamamaq, ən əsası, öz dilimizdə təhsil almaq kimi hüquqları bizə verən Heydər Əliyev şəxsiyyətinə məxsusdur.

Heydər Əliyev haqqında danışmaq məndən böyük cəsarət və məsuliyyət tələb edir. Lakin bu an mən özümü çox xoşbəxt hiss edirəm. Bu dahi insana qarşı olan sevgi hissim həyəcana qalib gəlir. Mən sevinirəm ki, çox sevdiyim dahi şəxsiyyət haqqında yazmaq üçün əlimə daha bir fürsət düşüb.

Heydər Əliyev haqqında çox danışıblar – dövlət başçıları, tarixçilər, jurnalistlər... Çoxlu şeirlər, poemalar, hekayələr yazılıb. Bütün bunlar bizim hamımıza məlumdur. Amma mən bu gün adi bir tələbə olaraq, öz ürəyimdən süzülüb gələn fikirlərimi yazacağam.

Milli iftixarımız, xalqımızın böyük oğlu Heydər Əliyev dünya tarixində siyasət nəhənglərindən biri kimi əbədiyaşarlıq haqqı qazanıb. Ona

dərin hörmət bəsləyən, xidmətlərinə dəyər verən hər bir azərbaycanlı onu öz ailəsində, həyatında görür və hiss edir.

1993–2003-cü illər Heydər Əliyev hələ çox gənc olan və müstəqilliyini yenicə qazanmış Azərbaycanı dünyada öz sözünü deyə bilən bir ölkə kimi tanıtdı. Onun ikinci dəfə hakimiyyətə gəldiyi 1993-cü ilə qədər ölkəmiz çox böyük çətinliklərlə üzləşmişdi. Həqiqət bunda idi ki, müstəqilliyini yenicə əldə etmiş, Sovet müstəmləkəsindən çıxmış Azərbaycan təsadüfi və səriştəsiz insanların rəhbərliyi altında möhkəmlənə bilməmişdi.

Heydər Əliyev hələ Moskvada olarkən də qəlbi daim doğma Azərbaycanla döyünmüşdür. O, Sovet qoşunlarının 1990-cı ilin 20 yanvarında Bakıda törətdikləri qanlı faciə ilə əlaqədar çıxış edərək, xalqımıza qarşı törədilmiş bu cinayətin təşkilatçılarının cəzalandırılmasını tələb etmişdi. Hər kəsin qorxu içində yaşadığı bir dövrdə məhz Heydər Əliyev xalqı üçün öz həyatını dəfələrlə təhlükə altına atmışdı.

1993-cü ilin may–iyun aylarında, ölkədə vətəndaş müharibəsi təhlükəsi yarandıqda xalq Heydər Əliyevin hakimiyyətə gətirilməsi tələbi ilə ayağa qalxdı. 1993-cü il iyunun 15-də Heydər Əliyev Bakıya gəldi.

Azərbaycan səmasını qara buludların bürüdüyü bir dövrdə o, səmada günəştək parladı. Belə bir aforizm də var: «Günəşin bir gün çıxması həftələrlə yağan yağışı unutdurar». Heydər Əliyev xalqın səsinə səs verdi. Dillər əzbəri olan «Xalq–Heydər, Heydər–Xalq» deyimi də bundan irəli gəlir.

Onun hakimiyyəti illərində daim gənclərlə iş üzrə məsələlər ön planda olub. O, böyüməkdə olan gənc nəslə hər cür qayğı göstərirdi. Hakimiyyətə gəldiyi gündən «Mən ömrümün qalan hissəsini öz xalqıma həsr edəcəyəm» şüarını rəhbər tutan böyük insan xarici ölkələrlə əlaqələri yaxşılaşdırmağa başladı. Türkiyə, Fransa, ABŞ və başqa ölkələrə səfər etməklə Azərbaycanı tezliklə dünyaya tanıtdı. Heydər Əliyev xarici ölkələrə səfəri zamanı işinin gərgin olmasına baxmayaraq, orada yaşayan azərbaycanlılarla görüşüb onların problemləri ilə maraqlanır və onları təbliğatlandırmağa çalışırdı. Hakimiyyətə gəlməsi ilə bir çox ciddi layihələrə imza atdı. 1994-cü ilin 20 sentyabrında imzalanan «Əsrin müqaviləsi» neft kontraktının müəllifi oldu. Böyük çətinlikləri dəf edərək Bakı–Tbilisi–Ceyhan kəmərini xalqımıza töhfə etdi. Azərbaycanın 2001-ci il yanvarın 17-si Avropa Şurasına qoşulması Heydər Əliyevin xarici siyasətdə əldə etdiyi ən böyük uğuru idi.

Məhz onun uzaqgörən siyasəti nəticəsində Naxçıvanda Ali Məclisin rəhbəri işlədiyi vaxtda, 1991-ci ilin 16 dekabrında imzaladığı fərmanla 31 dekabr Dünya Azərbaycanlılarının Həmrəylik Günü kimi təqvimimizə düşdü.



Bu gün Azərbaycan xalqının ən böyük arzusu reallaşıb. İndi dünyanın siyasi xəritəsində Azərbaycan adlı dövlətin də adı var. Demokratik inkişaf yolunu müəyyənləşdirmiş dövlətin bu günündə və sabahında dünyanın ən böyük siyasətçilərindən biri olan Heydər Əliyevin möhürü vardır.

*Niyə nurla yuyulmasın*
*Nurlanmasın saf qəlbimiz*
*Dünya dahi deyən kəsə*
*Niyə dahi deməyək biz?!*

Mən Heydər Əliyevin misilsiz nitq qabiliyyətinə heyranam. Onun çıxışlarına baxanda hər kəslə öz anlayacağı dildə ünsiyyət qurması məni heyran edir. O, uşaqlarla mehriban bir Baba münasibəti quraraq bütün kiçiklərin sevgisini qazanmışdı. O həm müəllimin, həkimin, sənətkarın, həm də qocanın, böyüyün, kiçiyin dostu idi. Hələ mən orta məktəbdə oxuyarkən, müəllimimiz bizə vaxtı düzgün bölüşdürməkdə Heydər Əliyevi misal göstərərdi.

«Təəccüblə doğuluruq, ümidlə yaşayırıq və həsrətlə ölürük» fəlsəfəsi ilə yaşayanlar üçün tale ömür payı qədər olur. Əcəldən macal tapanlar isə verilmiş ömür fürsətində min ömürlük iş görürlər. Məhz ümummilli liderimiz Heydər Əliyev kimi.

Heydər Əliyev ömür yolunu seçmişdi. Bu, Ulu Tanrının onun üçün seçdiyi yol idi.

Kiçik bir zamanda qüdrətli dövlət qurmaq hər başçıya nəsib olmur və hər başçının işi deyil. Onun ən böyük gücü dərin və universal biliyində, tükənməyən səbrində, uzaqgörənliyində və mahir diplomat olmasında idi.

İnsan həyatını elə yaşamalıdır ki, sonradan ömür kitabını vərəqləyəndə qəlbində ancaq fərəh hissi baş qaldırsın. Ulu öndərimiz Heydər Əliyev isə belə deyərdi: «Həyatın mənası az və yaxud çox yaşamaqdan ibarət deyil, həyatın əsl mənası bu həyatda öz yerini tutmaq, mövqeyini müəyyən etmək, ləyaqət göstərmək və başqaları üçün nümunə olmaqdır».

Əlbəttə, Heydər Əliyev haqqında yazarkən onun Azərbaycan xalqı üçün gördüyü nəhəng işləri, etdiyi fədakarlıqları kiçik bir yazıda işıqlandırmaq olmur. Qələm acizdir bunları təsvir etməkdə.

Heydər Əliyev «Azərbaycan» adlı gəminin kapitanı idi. Hər dəfə bu gəmi fırtınalardan sahilə sağ-salamat qayıdırdı. Çünki onun kapitanı mübariz,

vətənpərvər, hər çətinliyə sinə gərməyi bacaran Heydər Əliyev idi. Biz hamımız vətənpərvərliyi ondan öyrənməli və bu idleyaların təbliğinə çalışmalıyıq.

Mən balaca uşaq olanda sadəcə Heydər babanı tanıyırdım. Sonra böyüdüm və bir şagird kimi ona olan sevgimi inşa yazılarında bölüşdüm. Bu gün isə bir tələbə olaraq bu dahi şəxsiyyət haqqında yazıram. Bir gün müəllim olacağam və onda öz şagirdlərimə ulu öndərimiz Heydər Əliyev haqqında bildiklərimi danışacağam.

Bu gün, Heydər Əliyev aramızda yoxdur. O yalnız cismən aramızda yoxdur. Onun ruhu hələ də bizimlədir. Xalqı üçün yaşayanlar heç vaxt ölmürlər. Onlar öz ölümləri ilə ölümsüzlüyə qovuşurlar.

O kəslər xoşbəxtdir ki, özündən sonra bir davamçı, yadigar qoyub gedirlər. Heydər Əliyevin xalqımıza bəxş etdiyi ən böyük töhfəsi də onun layiqli davamçısı, hamının sevimlisi, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevdir. Xalqımız İlham Əliyevin ölkəmizə uğur və şöhrət gətirən siyasətini yüksək qiymətləndirir. Ötən ilin prezident seçkilərində İlham Əliyevin növbəti dəfə prezident seçilməsi də elə xalqın ona qarşı olan sevgisinin və inamının sübutu idi.

Bu gün, demək olar ki, Heydər Əliyevin bütün arzuları reallaşıb. Amma onun bir arzusu da torpaqlarımızın düşmən tapdağından azad edilməsi idi. Mən inanıram ki, hörmətli prezidentimiz İlham Əliyevin apardığı daxili və xarici siyasət nəticəsində biz tezliklə həmin qələbə sevincini də yaşayacağıq.

Azərbaycanın paytaxtında müqəddəs bir guşə var. Orada ölkəmizə tökülən qan izini silmək üçün fədakarlıqla çalışan, həyatı boyu xalq məhəbbətinin zirvəsində duran Heydər Əliyev uyuyur. May ayının 10-da xalqımız Heydər Əliyevin 91-ci ildönümünü qeyd etmək üçün Fəxri xiyabana gedəcək. Ora gedən minlərdən, milyonlardan biri də mən olacağam.

İllər keçəcək, nəsillər bir-birini əvəz edəcək, Azərbaycanın ulu öndəri Heydər Əliyevin parlaq həyatı, unudulmaz obrazı xalqımızın yazıçı və şairlərinin, bədii əsərlərinin əbədi mövzusuna çevriləcəkdir.

Xalqımızın gələcək nəsilləri bu əsərləri sevə-sevə oxuyacaq və böyük insanın böyük dünyası ilə tanış olacaqlar.

*Ölüm sevinməsin qoy! Ömrünü vermir bada,*
*El qədrini canından daha əziz bilənlər,*
*Şirin bir xatirətək qalacaqdır dünyada,*
*Sevərək yaşayanlar, sevilərək ölənlər.*





## *Qarazadə Rəmziyyə Elnur qızı*

***«Ankara məktəbi» məktəb-liseyin***
***XI sinif şagirdi***

Dünyaya göz açdığımız zaman ilk dəfə gördüyümüz, havasını udub suyunu içdiyimiz, ömrümüzdə ilk dəfə ayağımızı basdığımız torpaq ana Vətəndir. «Ana» və «Vətən» sözləri həmişə yanaşı işlənir. Çünki anamızı sevdiyimiz qədər Vətənimizi də sevirik. Vətəni sevmək, ona səcdəgah kimi baxmaq torpağına, xalqına qəlbən bağlı olmaq deməkdir. Vətəni sevmək onu qorumaq, vətən naminə canını qurban verməyə hazır olmaq deməkdir. Vətəni sevmək, onu göz-bəbəyi kimi qorumaq, hər daşının, hər qarış torpağının qədrini bilmək biz vətəndaşların ən nəcib və ən müdəqqəs borcudur.

Azərbaycan hər zaman öz zəngin sərvətləri, gözəl təbiəti, əlverişli iqtisadi-coğrafi mövqeyinə görə seçilir. Müasir Azərbaycan tarixi dedikdə ilk öncə gözümüzün önündə ulu öndərimiz, xalqına, Vətəninə qəlbən bağlanmış Heydər Əliyevin siması canlanır.

Heydər Əliyev Azərbaycan müstəqilliyinin tarixi yaradıcısıdır. O bütün cəhətlərinə görə daim zirvədə dayanacaq bir şəxsiyyət olmuşdur. Heydər Əliyev xalqı üçün şam kimi əriyən, ətrafa məşəl saçan bir şəxsiyyət idi. Qədim Çin filosofunun dediyi kəlamlar burada lap yerinə düşür: «Şəxsiyyət xalqın məşəlidir, onsuz irəli yol yoxdur». Heydər Əliyev gördüyü işlərlə millətin atası olduğunu sübut etdi. Ataların yolu müqəddəsdir. Ataların yolu nəsillərin yoludur. Bu yol bizi parlaq gələcəyə, arzularımıza aparacaq yoldur.

*Qurduğun, tikdiyin vətən sarayı*
*Azərbaycan adlı əbədi qala.*
*Xoşbəxtdir, ötsə də, illəri, ayı*
*Memardan nişanə – abidə qala.*

Heydər Əliyev 1940–1969-cu illərdə Azərbaycanın təhlükəsizlik orqanlarında müxtəlif vəzifələrdə çalışmışdır. O zaman Azərbaycan SSRİ-nin tərkibində idi. Buna baxmayaraq, Heydər Əliyev Azərbaycanın inkişafı, çiçəklənməsi üçün əlindən gələni edirdi. Heydər Əliyevin Azərbaycanda hakimiyyətini iki yerə bölmək olar: Birinci dövr 1969–1985-ci illəri əhatə edir. Bu illərdə Heydər Əliyev ölkəmizi, xalqımızı SSRİ-nin müstəmləkəçilik zülmündən qurtarmağa çalışmışdı.

SSRİ parçalanandan sonra Azərbaycan müstəqillik qazandı. 1993-cü ildə xalqın istəyi ilə Heydər Əliyev yenidən Azərbaycanın prezidenti oldu. Ümummilli Lider ikinci dəfə hakimiyyətə gəldikdən sonra dağılmış, talan olmuş Azərbaycanı günbəgün, aybaay, ilbəil qurdu və inkişaf etmiş, müstəqil bir dövlət yaratdı. Qədim yunan filosofu demişdir: «Ölkə başçısı baş verəbiləcək hadisələrin qarşısını peşəkarcasına almaqla, əslində, dövlətinə və xalqına xidmət etmiş olur. Çünki ölkə başçısı əbədi deyil, lakin onun qurduğu möhkəm sütunlu dövlət əbədi olur və banisini bəşər tarixi boyu yaşadır». Heydər Əliyev, həqiqətən də, bu sözlərə layiq bir dövlət başçısı olmuşdur.

Heydər Əliyev xalqına, Vətəninə bağlı bir insan idi. Heydər Əliyevin taleyi xalqın, Azərbaycanın taleyi Heydər Əliyevin taleyi idi. O, xalqın kədəri, ağrısı ilə üzülən, xoşbəxtliyi ilə sevinən bir insan idi. Heydər Əliyev Azərbaycanın mədəniyyətini, tarixini, dilini bütün dünyaya tanıtdırdı. O, yaxşı bilirdi ki, bir milləti yer üzündən silmək üçün onun dilini, mədəniyyətini, tarixini əlindən almaq kifayətdir. Bu fikrə sadiq qalan dövlət başçısı hər zaman milli varlığımızı qorumağa çalışırdı.

Ata öz övladlarının qayğısını necə çəkirsə, onları necə nəvazişlə böyüdürsə, ailəsinin xoşbəxtliyi üçün gecəsini gündüzünə qatıb necə əziyyətlə çalışırsa, Heydər Əliyev də dövləti, xalqı üçün rahatlığın, istirahətin, dincliyin nə olduğunu bilmədən çalışırdı. O bu gücü, enerjini haradan alırdı, kimliyindən, şəxsiyyətindən asılı olmayaraq, qarşısındakını öz iradəsinə necə tabe edə bilirdi? Dünyanın yeddi möcüzəsi kimi Heydər Əliyev hələ çox könülləri fəth edəcək. Lakin bu möcüzənin sirri heç vaxt açılmayacaq!

Heydər Əliyev ən böyük siyasətçi idi, ən böyük tarixçi idi, ən böyük iqtisadçı idi, ən böyük memar idi. Heydər Əliyev tarix yazmırdı, onu öz qüvvətli çiyinlərində irəli aparırdı. Heydər Əliyev memarlıqdan mühazirə oxumurdu, memarlığın ən böyük nümunələrini yaradıb gələcək nəsillərə ərməğan edirdi.

Heydər Əliyev Azərbaycanın inkişafı üçün bütün sahələrdə – kənd təsərrüfatı, sosial-iqtisadi, maliyyə və digər sahələrdə əhəmiyyətli tədbirlər həyata keçirmişdir. Əhalinin həyat səviyyəsi, əlillərin, çoxuşaqlı ailələrin, əmək qabiliyyəti olmayanların sosial problemləri prezidentimizin daim



diqqət və qayğısında olmuşdur. Dağlıq Qarabağ problemi Heydər Əliyevin qəlbində bir yara idi. O bu məsələnin həllinə doğru addım-addım gedirdi və son məqsədi görür, bu məqsədə doğru gedən siyasi yolları araşdırırdı.

Heydər Əliyev həm də böyük siyasətçi idi. O yalnız ölkə miqyasında deyil, dünya əhəmiyyətli məsələlərin həllində ağıllı fikirlər söyləyən bir insan idi. Onun bu istedadı, fövqəladə qabiliyyəti, hadisələrin və tarixin gedişatını əvvəlcəldən söyləmə məharəti hələ siyasət aləminə qədəm qoyduğu ilk günlərdən özünü büruzə verirdi.

Heydər Əliyevin Azərbaycan Respublikası üçün etdiyi işləri saymaqla qurtarmaq olmaz. Onun zəngin dünyagörüşü, ən yüksək səviyyədə fəaliyyəti Azərbaycanın inkişafına, çiçəklənməsinə şərait yaratmışdır. Onun dövlət, xalq üçün etdiyi fədakarlıqları əlində bayraq edərək davamçısı olmaq istəyən insanların sayı-hesabı yoxdur. Heydər Əliyev demişdir: «Həyatda şərəflə şərəfsizliyi, şəxsi rifahla milli ictimai borcu, tamahkarlıqla vicdanlılığı insan özü seçir».

Mən inanıram ki, Azərbaycan xalqı Heydər Əliyevin bizə qoyub getdiyi zəngin sərvətdən düzgün istifadə edəcək. Heydər Əliyevin ruhu qədirbilən xalqımızın qəlbində həmişə yaşayacaqdır. Cismi bizimlə olmasa da, ruhu hər zaman bizimlədir.

*Ömrün boyu yalnız qurdun, yaratdın,*
*Qəlbimizdə iradəydin, muraddın,*
*Çox böyükdür dəyanətin, vüqarın,*
*Heydər baba, nurla dolsun məzarın!*

Torpaqlarını azad, xalqını xoşbəxt, firavan görmək onun ən böyük arzusu idi. Onun bu arzusunu həyata keçirmək üçün biz layiqli prezidentimiz İlham Əliyevin ətrafında cəmləşməli, ona hər işdə kömək etməliyik.

Heydər Əliyev vəfat edəndə mən birinci sinifdə oxuyurdum. Onu sadəcə olaraq «Heydər baba» kimi tanıyırdım. Bir də bilirdim ki, Azərbaycan Respublikasının prezidentidir. Amma böyüdükdən sonra onun necə bir dahi olduğunu öyrəndim və onunla fəxr etməyə başladım. Günü-gündən Heydər Əliyevin həyatı, fəaliyyəti haqqında daha çox məlumat əldə edirəm və onun necə bir dahi şəxsiyyət olduğunu daha yaxşı anlayıram. Mənə elə gəlir ki, bu vaxta qədər hələ Heydər Əliyev kimi siyasətçi olmayıb və bundan sonra da olmayacaq. Sonra ümummilli liderimiz Heydər Əliyevin 91 illiyinə həsr olunmuş inşamı Ulu Öndərimizin söylədiyi sözlərlə bitirmək istəyirəm. «Mən həmişə fəxr etmişəm və bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam!»



## *Tağızadə Aytac Şahin qızı*

***Azərbaycan Dövlət Pedaqoji Kollecinin III kurs tələbəsi***

Həyatda hər şey kiçikdən böyüyə, sadədən mürəkkəbliyə doğru dəyişir. Böyük ağaclar kiçik pöhrələrdən başlanır. Cəmi 23 ay yaşayan və Şərqdə ilk müstəqil dövlət olan Azərbaycan Xalq Cümhuriyyətinin süqutundan 3 il sonra güllü-çiçəkli may səhərində Azərbaycanın qurucusu, əvəzolunmaz dühа, doğulduğu Əliyevlər ailəsi ilə birgə Azərbaycanı da nura qərq edən tək günəş dünyaya göz açdı. Bəlkə də, həmin illər və ondan öncəki illərdə də başı bəlalar çəkən, tarixən soyqırım və işğallara məruz qalan bir ölkənin vətəndaşı, nümayəndəsi olan Əlirza Əliyev də inanmazdı ki, evində doğulan, boya-başa çatan övladı balaca Heydər gün gələcək Böyük Azərbaycanın qurucusuna, sərkərdəsinə, Ali Baş Komandanına çevriləcəkdir.

Elə doğulduğu ilk gündən etibarən Heydər Əlirza oğlu Əliyev adını əbədiyaşarlıq zirvəsinə ucalda bilmişdi. O hər zaman deyirdi: «Hər bir insan həyatda öz yerini tapmalıdır. Amma öz yerini, məhz özünə məxsus olan yerini tapmalıdır». Bəli, çünki Heydər Əliyev özü də həyatda öz yerini, özünə məxsus olan yerini tapanlardan idi. Doğulduğu ilk gündən etibarən bu dahi şəxsiyyət öz yerinə, mərtəbəsinə, zirvəsinə ucala bilmişdi.

Hər bir insan hələ dünyaya gəlməmişdən öncə onun taleyi, bəxti yazılır. Heydər Əliyevin taleyinə isə xalqın xilaskarlıq missiyası yazılmışdı. İndi dövlətimizin hər bir nümayəndəsi rahat şəraitdə yaşayırsa, biz hər birimiz səhərimizi güllə səsləri ilə açmırıqsa, deməli, taleyinə xalqın xilaskarlıq missiyası yazılmış bu əvəzolunmaz dühа öz missiyasını uğurla yerinə yetirmişdir. Xalq tarix boyu onu qoruyan, müdafiə edən dahiləri, şəxsiyyətləri, xilaskarları özü yetişdirmişdir. Lakin nə xalq, nə tarix, nə də vətənimiz hələ belə şəxsiyyət görməmişdi. Heydər Əliyev! Bu dahi və



böyük şəxsiyyət heç kimin cürət edib görə bilmədiyi işləri icra etmiş, xalqın başının üstünü kəsən qara buludları dağıtmağa müvəffəq olmuş, insanların əl-qolunu bağlayan bütün zəncirləri, buxovları qırmağa nail olmuşdu.

Hələ Sovet rejiminin azərbaycanlılara, azərbaycançılığa qarşı çıxdığı bir dövrdə müxtəlif illərdə xalqın xilaskar oğlu ali və məsul dövlət vəzifələrinə yüksələ bilməyi bacarmışdır. Yüksəldiyi bu ali və məsul dövlət vəzifələrində isə onun əsas amalı, qayəsi xalq və xalqın taleyi idi. Dünən atamızın, anamızın, bu gün sənin, mənim, sabah gələcək nəslin rahat yaşaması üçün böyük və müstəqil respublika yaratmışdı bu dahi insan. Elə bir respublika ki, insanlar qocaldıqca, o cavanlaşır və günü-gündən tərəqqi edir. Bunun üçünsə o, gecə-gündüz bilmədən çalışır, insanların sabaha, gələcəyə inamla baxmaları üçün əlindən gələni edirdi.

Bir zamanlar sabahını necə açacağını bilməyən və bəlkə də, buna ümid etməyən xalq indi daha rahat və xoşbəxtdir. İstər sosial-iqtisadi, istər təhsil-səhiyyə və digər sahələr baxımından misli görünməmiş çevriliş və inkişaf bu dahi və fövqəladə insanın adı ilə bağlıdır. Qısa müddət ərzində ölkəmiz və cəmiyyətimiz ona yaradılan bu perspektivdən istifadə edərək özünün potensial qüvvəsi ilə dünyaya inteqrasiya edirdi və bu indi də belədir. İstər birinci, istərsə də ikinci dəfə keçirilən prezident seçkilərində Heydər Əlirza oğlu Əliyev xalqın, millətin ona bəslədiyi etimad və dəyərin sayəsində layiq olduğu zirvəyə, mərtəbəyə yüksələ bilmişdi. Heydər Əliyev xalqın qaranlıq sabahına doğan günəş, xalqı əsarət və zülmdən xilas edən xalqın xilaskar oğlu, elə xalqın özünün də dediyi kimi, xalqın oğlu idi.

Allah tərəfindən Azərbaycana və onun xalqına hədiyyə olunan bu dahi, fövqəladə insan hakimiyyətə gəldiyi ilk gündən etibarən yürütdüyü uzaqgörən və ağıllı siyasətin nəticəsində cəmiyyətimizi, ölkəmizi layiq olduğu yerə, mənsəbə çatdırmağı bacarmışdı.

Həm birinci, həm də ikinci dəfə keçirilən prezident seçkilərində xalq prezident qismində gördüyü Heydər Əlirza oğlu Əliyevin hakimiyyətdə yürütdüyü uğurlu və uzaqgörən siyasətindən çox razı idi. Hakimiyyətə gəldiyi ilk günlərdə onun işi daha da çətinləşirdi. Çünki cəmi 23 ay müstəqillik görmüş və 70 il sovet rejiminin quluna, köləsinə çevrilmiş xalqı yenidən dirçəltmək, onu yenidən özünə qaytarmaq lazım idi. Lakin qarşıda duran bütün bu çətinliklərə baxmayaraq, Azərbaycanın Ümummilli Lideri bütün bunların öhdəsindən layiqincə gəlməyi bacardı. İndi ölkəmiz öz mədəniyyəti, siyasəti, iqtisadiyyatı ilə dünya arenasında öz layiqli yerindədir.

Heydər Əliyev gələcəyimiz adlandırdığı uşaqların təhsil sahəsinə də biganə qala bilməzdi. Təhsil sahəsindən danışarkən o deyirdi: «Təhsil sistemi elə bir sistemdir ki, burada heç bir inqilabi dəyişiklikləri etmək olmaz. Ümumiyyətlə, bizim həyatımızın bütün sahələrində edilən dəyişikliklər təkamül xarakteri daşıyır».

Bu gün biz azad və firavan ölkədə yaşadığımız üçün ümummilli liderimiz Heydər Əliyev adlı bir dühaya borclu olduğumuzu unutmamalıyıq.

Azərbaycanın taleyinə ağ günləri gətirən, ömrünü xalqına, millətinə həsr etmiş ümummilli liderimiz Heydər Əlirza oğlu Əliyev soyuq və şaxtalı qış günündə əbədiyyətə qovuşdu. Həmin gün sanki yer-göy zülmətə qərq olmuş, insanlar isə hələ də onun yoxluğu ilə barışa bilmirdilər. Bəli! Gəldi, gördü, səy göstərdi və etdi! Həyatda hər şeyə çarə var, bircə ölümdən başqa. Bəzən insan varlıqla yoxluq arasında qaldıqda sığındığı, təsəlli tapdığı nə isə və ya kim isə olur. Xalqın isə təskinliyi bu idi ki, Heydər Əliyev artıq öz Zərifəsinə qovuşmalı idi. Onların ruhları Tanrı dərgahında əbədiyyətə qarışdı. Millətin digər bir təskinlik yeri isə İlham Əliyev idi. Bu gün Heydər Əlirza oğlu Əliyevin uğurlu siyasətini onun oğlu İlham Heydər oğlu Əliyev uğurla və qürurla davam etdirir. Bunu prezident İlham Əliyevin respublikamızda həyata keçirdiyi tədbirlər sübut edir. İndi Heydər Əliyevin oğlu İlham Əliyev xalqın rəğbəti sayəsində atasının siyasətini olduğu kimi davam etdirir.

İlham Əliyev və Azərbaycanın birinci xanımı Mehriban xanım Əliyevanın təşəbbüsü ilə hər il 12 Dekabr və 10 May Ümummilli Liderin anım və doğum günləri kimi təntənəli surətdə qeyd olunur.

Bu il isə ümummilli liderimiz Heydər Əlirza oğlu Əliyevin 91 illiyi həmişə olduğu kimi dövlət miqyasında təntənəli surətdə qeyd olunacaqdır.

Azərbaycanın bu əvəzolunmaz dahisi təkcə anım və doğum günlərində deyil, hər an, hər dəqiqə insanların yaddaşında yaşayır. Heydər Əliyev bizim əbədi prezidentimizdir!

*Nəfəsimiz – ulu Qorqud dədəmizin*
*od nəfəsi,*
*Mahnımızda yaşar bizim babaların*
*ayaq səsi,*
*Bu torpaqda dünən vardıq, bu gün*
*varıq.*
*Biz keçmişə güvəndikcə, gələcəyə addımlarıq!*





## *Hüseynli İlahə Haqverdi qızı*

***Zəngilan rayonu, 7 nömrəli tam orta məktəbin IX sinif şagirdi***

Azərbaycan xalqının yaddaşında adını tarixə qızıl hərflərlə yazan, sənətindən, peşəsindən asılı olmayaraq xatirələrdə yaşayan, heç vaxt unudulmayan, uşağından qocasına hamının qəlbində özünə əbədi yer tutan insanlar çoxdur. Bu insanlar xalqın taleyində günəş kimi parlayır, millətin gələcəyinə işıq saçır. Bu insanlar başqalarının rahat yatdığı bir vaxtda gecəsini gündüzünə qatanlar, xalqı üçün öz canlarını qurban verməyə belə razı olanlardır. Tanrı bu insanlardan birini də iyirminci əsrin əvvəllərində Azərbaycan xalqına bəxş etdi. Sanki bununla da Azərbaycan üçün yeni bir günəş doğdu. Bu günəş dahi şəxsiyyət Heydər Əlirza oğlu Əliyev idi.

Heydər Əliyev yoxsul bir ailədə anadan olmuşdu. O, fitri istedada malik, elmə böyük həvəs göstərən bir insan idi. Bu istedad onun Azərbaycana rəhbərlik etdiyi dövrlərdə özünü qabarıq şəkildə büruzə vermişdir.

İyirmi əsrin doxsanıncı illərində Azərbaycan xarici qüvvələrin təzyiqi ilə yox olmaq təhlükəsində idi. Artıq Azərbaycan parçalanmaq həddinə çatmışdı. Ölkədə baş verən hərc-mərclik, vətəndaş müharibəsi onu xeyli zəiflətmişdi. Aclığa, qıtlığa, ağrı-acıya dözə bilməyən xalq ayağa qalxdı. İnsanlar o zamankı hökumətdən təkidlə Heydər Əliyevin Naxçıvandan Bakıya gəlməsini tələb etdi. Xalq düşdüyü çətin vəziyyətdən çıxış yolunu bu görkəmli dövlət xadimində gördü. Beləliklə, Ulu Öndər 1993-cü il iyun ayının 15-də Bakıya gəldi. Bu gün tarixə Qurtuluş Günü adı ilə daxil oldu. Həqiqətən də, xalq onun gəlişi ilə düşdüyü çətin vəziyyətdən qurtula bildi. Bəlkə də, Allah özü bu gözəl insanı xalqı xilas etməsi üçün göndərdi.

*Tanrı özü göndəribdir Heydəri,*
*Bu gün vətən Heydərləşən qaladı.*
*Havamız, suyumuz olan rəhbərin*
*Gərək könüllərə yazılsın adı.*
*Bu xalqın yolunda əbədi günəş*
*Desək, onun üçün, bəlkə də, azdır.*
*Vətənin qurtuluş salnaməsini*
*Xalqımla birlikdə o özü yazdı.*

Bəli, həqiqətən də, belə oldu. O, xalqının ölməz rəhbəri, sönməz günəşi oldu.

Ulu Öndər ölkəni inkişaf etdirmək, münaqişələri aradan qaldıraraq dövləti yaşatmaq üçün atəşkəsə nail oldu. O bundan istifadə edərək dünya dövlətlərinin diqqətini Azərbaycana yönəltdi. Və beləliklə, «Əsrin müqaviləsi»ni imzalamağa nail oldu. Bu yerdə Məhəmməd peyğəmbərin belə bir kəlamı yadıma düşür: «Adam var ki, torpağı ilə tanınır, adam var ki, torpağını tanıdır».

Heydər Əliyev sanki əkinçi idi. Elə bir əkinçi ki, Azərbaycan torpağına neçə-neçə əsrlərə qədər kök sala biləcək toxumlar əkdi, yeni bir ağac bitirdi – müstəqil çağdaş Azərbaycan dövlətini yaratdı. Amma o bu ağacın bəhrəsini tam görə bilmədi. Görkəmli dövlət xadimi, Ulu Öndər, Ümummilli Lider 2003-cü ildə bu dünyaya vida dedi, gözlərini əbədi olaraq yumdu. Sanki Azərbaycanın parlayan günəşi söndü. Ancaq mən belə düşünmürəm. O, cismən bizdən ayrılıb, ruhən bizimlədir. Axı vətən üçün, millət üçün doğulanlar, vətəni ucaldanlar ölə bilməz. Axı ürəyində inam olan, gələcəyə nur saçan günəş sönə bilməz. Məncə, bu nur saçan günəş heç zaman Vətənimizin səmalarından əskik olmayacaq.

Ümummilli Liderimizin qətiyyəti, uzaqgörənliyi, qeyri-adi təkrarsız yaddaşı, güclü məntiqi, ensiklopedik biliyi, zəngin təcrübəsi gör-götür məktəbimiz olmalıdır.

Müstəqilliyimizi dönməz, daimi, əbədi edən dahi Heydər Əliyevin arzu və diləklərini məsələ çevirərək ürəklərdə alovlandırmaq bizim borcumuzdur.





## Hafizli Nərmin Əfqan qızı

**Bakı şəhəri, 148 nömrəli tam orta məktəbin X sinif şagirdi**

Azərbaycan xalqının tarixində və taleyüklü məsələlərin həllində dövlət xadimlərinin, igid oğulların, qəhrəman qızların, mütəfəkkirlərin, şairlərin rolu çox böyükdür. Onların isimləri zaman-zaman tarixə yazılmış və unudulmamışdır. Belə insanlardan biri də Azərbaycan respublikasının ümummilli lideri, dahi insan Heydər Əliyevdir.

Ümummilli Lider və siyasi liderlik qabiliyyətinin bir insanda birləşməsi çox nadir rast gəlinən, unikal haldır. Liderlər var ki, dövdət idarəçilik sistemində çalışdıqdan, püxtələşdikdən sonra hər hansı bir səviyyəyə çata bilmişlər. Elə liderlər də var ki, bu idarəetmə bacarığı onların genlərində kodlaşdırılıb. Buna Allahdan vergi deyirlər. Heydər Əliyev məhz ikincilərdəndir.

Heydər Əliyev fenomenal, nadir və unikal bir şəxsiyyətdir. Heydər Əliyev ümummilli lider səviyyəsinə ucalmışdır. Çünki onu xalq sevirdi. Ona böyük rəğbət bəsləyirdi.

Heydər Əliyev iqtisadiyyatı iqtisadiyyatçıdan, incəsənəti sənətşünasdan, təsərrüfatı təsərrüfatçıdan daha yaxşı bilirdi. Heydər Əliyev Bakı Dövlət Universitetinin tarix fakültəsini bitirmişdi. O həm böyük tarixçi, həm böyük mütəfəkkir, həm də siyasi lider idi. Heydər Əliyevin çox gözəl natiqlik bacarığı var idi. Heydər Əliyevin nitqi səlis və konkret idi.

Bu insanı nəinki Azərbaycanda, bütün dünyada sevirdilər. Onun barəsində siyasi xadimlər çox gözəl fikirlər söyləyir, şanına layiq təriflər deyirdilər. Bu isə bizim xalqımız üçün böyük şərəfdir. Vətənimiz üçün başucalığı, üzağlığıdır.

Heydər Əliyev siyasi xadimlər, prezidentlər içərisində birinci sırada dururdu. Bunu təkcə belə bir faktla sübut etmək olar ki, 10–15 il bundan

əvvəl «Planetin səsi» qəzetində belə bir sorğu keçirilir. Bütün dünya üzrə keçirilən bu sorğuda belə bir sual verilir: «Sizcə, ən yaxşı dövlət xadimi kimdir?» Bu sorğuda bir çox dövlət xadimləri və jurnalistlər ən birinci Heydər Əliyevin adını çəkmişlər. Heydər Əliyev 1969-cu ildə birinci dəfə hakimiyyətə gəldi və sanki dövlətimizin, ölkəmizin üzərində günəş parladı.

O zamankı dövlət rəhbərləri deyirdilər ki, Heydər Əliyev quyunun içinə düşməkdə olan bir dövləti xilas etdi. Əslində isə Heydər Əliyev dövləti quyunun içərisindən çıxartdı. Çünki bir çox üzdəniraq düşmənlər bizi, sözün məcazi mənasında, itələyib quyuya salmışdılar.

O zamankı dövrdə dövlətimizin hansı vəziyyətdə olduğu heç kəsə sirr deyil. Heydər Əliyev dövlətimizi parçalanmaqdan, o dövrdəki kimi xanlıqlara bölünməkdən qurtardı. Heydər Əliyev Azərbaycan dövlətinin yüksəlməsi üçün çox çalışdı.

Artıq Azərbaycan adlı dövlət on ildə 20–30 illik inkişaf yolu keçmişdi. Bunun kökündə isə Heydər Əliyevin dövləti idarəetmə bacarığı, möhkəm iradəsi dayanırdı.

«Dağ vüqarlı oğul», «dağ boyda kişi», adətən, böyük insanları belə adlandırırlar. Mən harada yüksək zirvə, dağ görürəmsə, siyasi xadimləri, mütəfəkkirləri, şairləri... onlara bənzədirəm.

Heydər Əliyevi isə dünyadakı ən böyük zirvə olan Everest (Comolunqma) adlanan zirvəyə bənzədirəm. Planetdə Everest zirvəsi kimi yüksək zirvə olmadığı kimi, Heydər Əliyev kimi də böyük siyasi xadim ola bilməz. Bu zirvənin yüksəkliyi uzaqdan göründüyü kimi, Heydər Əliyevin şan-şöhrəti də bütün dünyada tanınmaqdadır.

Heydər Əliyev böyük ürək sahibi idi. O, siyasi böhran zamanında da xaricdə yaşayan azərbaycanlıları düşünmüşdü. O elə böyük insan idi ki, onun haqqında böhtan, şayiə yayanları, onun üçün təxribat törədənləri də əfv edirdi.

Hakimiyyətdə olduğu dövrdə bir çox təxribatların qarşısı hüquqi yolla, qayda-qanunla alındı.

Heydər Əliyev öz ölkəsinin böhtanların fəlakətlərindən, fırtınalarından sağ-salamat və uğurla çıxmasına müvəffəq oldu. Onun hakimiyyəti dövründə «Əsrin müqaviləsi» adlanan Bakı–Tbilisi–Ceyhan neft boru kəmərinin çəkilməsinə nail olundu. Azərbaycan bir çox təşkilatların -BMT-nin, İslam Konfransı Təşkilatının, Türk Dövlətləri Birliyinin, NATO-nun xoşməramlı və nüfuzlu üzvü oldu. Bir sıra gənclik mərkəzləri açıldı, azərbaycanlı gənclərin müxtəlif təhsil mərkəzlərinə üzv olmasına səbəb oldu.



Dünya siyasətçiləri hələ Heydər Əliyevin sağlığında onu dəyərləndirmişdir. İndi də hər bir qədirbilən azərbaycanlının ürəyində onun silinməz izi qalmışdır.

Heydər Əliyevin şərəfli ömür salnaməsi ürəklərdə yaşayır, yaşayacaqdır. Biz də Azərbaycan xalqına layiqli bir vətəndaş olmağa çalışmalıyıq.

Ən sonda isə Ulu Öndərin Dünya Azərbaycanlılarının I Qurultayında söylədiyi ifadəni yada salmaq istəyirəm: «Mən həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam». Mən də fəxr edirəm ki, bu şanlı vətənin vətəndaşıyam. Mən bu dahinin qarşısında baş əyirəm.



## Fərruxova Nazxanım Rövşən qızı

**Bakı şəhəri, 186 nömrəli tam orta məktəbin IX sinif şagirdi**

Bəli, adı müasir tariximizə qızıl hərflərlə yazılan Heydər Əliyev yeri-göyü işığa qərq edən, qaranlıqları aydınlaşdıran dahi bir şəxsiyyət idi. Onun zəkası, ideyaları daim Azərbaycan üzərində günəş kimi parlayacaq, yolumuzu nura qərq edəcək. Xalqımız fəxr edə bilər ki, onun ləyaqətli övladı Heydər Əliyev hələ sağlığında öz adını dünyanın sayılıb-seçilən görkəmli dövlət xadimlərinin, tarixi simalarının siyahısına yazmış və bununla da hər birimizə başıucalıq gətirmişdir.

Hər kəsin dəyəri onun yaşadığı zaman kəsiyində göstərdiyi xidmətləri, əməlləri ilə ölçülür. Bu mənada Ümummilli Liderimiz barədə belə demək mümkündür: «O, Tanrının Azərbaycan xalqını sevərək ona göndərdiyi fədakarlıq simvolu idi». Ulu Öndərin məqsədi, yaşamaq devizi belə idi: «Tanrının ona bəxş etdiyi fitri qabiliyyəti, bütün qüvvə və bacarığını əqli və fiziki potensialını ana yurdu Azərbaycana həsr etmək!»

Heydər Əliyevin dərin məntiqi nitqi, natiqlik məharəti, söz seçmək bacarığı, auditoriya ilə ünsiyyət qurmaq səriştəsi onu dinləyənləri məftun edirdi. Onun nitqi dərin və konkret idi, müzakirə olunan məsələni yüksək səviyyədə ümumiləşdirmək bacarığına malik idi. Böyük öndərin nitq və çıxışlarında artıq söz və ifadə, qeyri-dəqiq fakt və rəqəm olmurdu.

Ulu Öndərin Azərbaycana rəhbərlik etdiyi 30 ildən artıq dövrə nəzər salsaq, bunu aydın sezə bilərik. Məlumdur ki, Heydər Əliyev Azərbaycana müxtəlif ictimai-siyasi formasiyalarda rəhbərlik etmişdir və bu cəhətdən onun rəhbərlik illərini 2 mərhələyə bölmək mümkündür. Birinci mərhələ 1969–1982-ci illəri əhatə edir. Həmin dövrdə ölkəmiz Sovet İttifaqının tərkibində olsa da, Heydər Əliyev ittifaq büdcəsindən ölkəmizə daha çox vəsait ayrılması üçün əlindən gələni etmişdi. Bu gün Heydər Əliyevin uzaqgörənliyi hər birimizdə sevincqarışıq dərin heyrət doğurur. O, hələ



Sovet İttifaqının mövcudluğu şəraitində ölkəmizin nə vaxtsa müstəqilliyə qovuşacağına inanır və bunun üçün güclü maddi-texniki baza yaradırdı.

Heydər Əliyev ikinci dəfə Azərbaycana ölkəmiz müstəqillik qazandıqdan sonra gəlmişdir. Heydər Əliyev 1993-cü ilin iyun ayında ikinci dəfə ali rəhbərliyə qayıdanda ölkəmizin vəziyyəti çox ağır idi. Ayrı-ayrı qüvvələr, nadan siyasətçilər ölkəmizi vətəndaş qarşıdurmasının astanasına gətirib çıxarmış, ölkəmizin parçalanması, müstəqilliyimizin əldən getməsi təhlükəsi yaranmışdı. Belə bir ağır vəziyyətdə xalq öz böyük oğlu Heydər Əliyevi yenidən rəhbərliyə çağırdı və xalqına arxalanan, onun səsinə səs verən Ulu Öndər yenidən hakimiyyətə gəldi. O öz müdrikliyi ilə xaosun qarşısını aldı, dövlətimizi ahəngdar inkişaf relslərinin üzərinə çıxardı.

Buna görə də Heydər Əliyev öz adını tarixə digər böyük xidmətləri ilə yanaşı, ilk növbədə, müstəqil Azərbaycanın qurucusu kimi daxil etmişdir. Onun rəhbərlik etdiyi illər respublikamız üçün hakimiyyətin möhkəmlənməsi, iqtisadi dirçəliş, çiçəklənmə, beynəlxalq nüfuzlu təşkilatlarla, dünya dövlətləri ilə sıx əməkdaşlığın qurulması, xalqın rifah halının yaxşılaşması illəri olmuşdur.

Heydər Əliyev üçün ən böyük ağrı Vətən ağrısı, xalq ağrısı idi. Millətinin ayağına dəyən daş onun qəlbinə dəyirdi. Bu sözləri yazarkən 20 Yanvar faciəsi yada düşür. Ölkəmiz üzərinə qoşun yeridiləndə, günahsız insanlar qətlə yetiriləndə Heydər Əliyev buna sakit yanaşa bilmədi. O, Azərbaycanın Moskvadakı nümayəndəliyinə gələrək İttifaq rəhbərliyinin vəhşiliklərinə qəti etirazını bildirdi. O zamanlar qapalı həyat tərzi keçirməyə məcbur edilən bir şəxs üçün belə bir addımı atmaq, həqiqətən də, qəhrəmanlığa bərabər idi.

Heydər Əliyevin böyüklüyü onun milliliyində, mənsub olduğu xalqa, adət-ənənələrə bağlılığında idi. O, köklərə möhkəm bağlı olduğu üçün çox güclü, qüdrətli idi. Göstərdiyi bütün fəaliyyəti boyu böyük öndər xalqına dayaq durmuş və xalqını da özünə arxa sanmışdır. Məşhur dillər əzbəri olan «Xalq–Heydər, Heydər–Xalq» deyimi də məhz bu qırılmaz bağlılığın dəqiq ifadəsidir.

Xalqımız hər hansı bir çətin məsələnin həlli yolunu, xilaskarlıq missiyasını Heydər Əliyevdə görürdü. Bu, on illərlə formalaşmış doğru və düzgün fikirdir. O, bir neçə il bundan sonra görüləcək işi tezliklə həyata keçirməyi bacaran, nadir keyfiyyətlərə malik təcrübəli dövlət xadimi və uzaqgörən siyasətçi idi. Onun siyasəti ölçülüb biçilmiş, gələcəyə ünvanlanmışdı. Bu gün Heydər Əliyev siyasətinin layiqli varisi İlham Əliyevdir.

Prezidentimiz İlham Əliyevin rəhbərliyi ilə keçirilən uğurlu islahatlar, əldə olunan nəticələr xalqımızın sabaha olan inamını qat-qat artırmış, onlarda Heydər Əliyev siyasətinin uğurla davam etdirilməsi və irəliləməsinə, Azərbaycan gələcəyinin etibarlı əllərdə olmasına əminlik yaratmışdır.



## Əfəndizadə Nərmin Tahir qızı

**Bakı şəhəri, «Tərəqqi» liseyinin**
**X sinif şagirdi**

İnsan üçün azadlıqdan, dövlət üçün xalqının azadlığından şirin nemət yoxdur. Əgər insan müstəqil və demokratik dövlətdə yaşayırsa, bu onun üçün ən böyük xoşbəxtlikdir. Azərbaycanda Azərbaycan xalqı üçün xoşbəxtliyin ən uca zirvəsi məhz dahi lider, görkəmli dövlət xadimi, uzaqgörən və iti ağıla sahib siyasətçi Heydər Əliyevin adıyla bağlıdır. O elə bir şəxsiyyət, elə bir qəhrəman idi ki, düşmənlərimizin bağrını yarır, çıxışları ilə millətimizin qəlbini sevinc hissləri ilə doldururdu.

*Tanıtdı dünyaya Azərbaycanı*
*Bayraqlar içində bayrağım qalxdı.*
*Bir kəlmə sözünə neçə kürsüdən*
*Milyonlar baş əyib, ayağa qalxdı.*

1969-cu ildə Avropada Sovet hakimiyyəti tərəfindən Azərbaycana təyin edilmiş rəhbər barədə xəbərlər yayılmağa başladı. O zaman həmin rəhbərin gənc DTK məmuru olduğu xüsusilə vurğulanırdı. Sonradan Azərbaycanın günü-gündən abadlaşması, inkişaf etməsi, Bakının gözəl və firavan şəhərə çevrilməsini görən xalqın Heydər Əliyevə rəğbəti daha da artdı. Millətin qəlbi fərəh hissləri ilə dolub-daşdı.

Bu gün Azərbaycan xalqı dünya arenasında öz sözünü deyə, öz ayaqları üstündə dura bilirsə, ən kiçik uğur qazanırsa, biz bunun üçün Heydər Əliyevə borcluyuq.

Heydər Əliyevin rəhbərliyi dövründə ağır və təlatümlü hadisələr çox olsa da, 1993-cü ilin iyununda baş vermiş hadisələr: xaos və anarxiya, siyasi sabitliyin pozulması, ağır daxili və xarici vəziyyət, xalqın gərginliyi onu həyatının, bəlkə də, ən çətin qərarlarını qəbul etməyə vadar etdi. Baş



verənlər bir daha sübut etdi ki, Azərbaycana yalnız mərd, görkəmli siyasətçi və xarizmatik lider başçılıq edə bilər.

1994-cü ildə «Əsrin müqaviləsi» imzalandı. Azərbaycanda o dövrdə siyasi sabitlik olmadığından xalqımız neftini xaricə çıxarda bilmirdi. Heydər Əliyevin yaratdığı sabitlik nəticəsində dövrün, bəlkə də, ən böyük uğurlarından birini – neftimizi xaricə çıxarmaq uğurunu əldə etdik. Bu möhtəşəm müqavilə imzalandı.

Heydər Əliyev təkcə iqtisadiyyatı dirçəltmirdi, o həm də idmana, mədəniyyətə böyük qayğı ilə yanaşırdı. Olimpiya oyunlarında əldə edilən uğurlar buna ən böyük nümunədir.

«Uşaqlar bizim gələcəyimizdir – gələcəyimizi necə yetişdirəcək, onları necə böyüdəcəyiksə, millətimizin, xalqımızın, dövlətimizin sabahı da bundan asılı olacaq» – şüarı altında çıxış edən dövlət başçısı uşaqların yetişdirilməsinin nə qədər ağır, məsuliyyətli və mənəvi qüvvə tələb edən bir iş olduğunu həmişə vurğulayırdı.

«Məktəb təkcə elm, bilik müəssisəsi deyil, həm də mükəmməl tərbiyə ocağıdır» – deyən Ümummilli Lider bununla şagirdlərin Vətəni sevən, gələcəkdə Vətənə faydalı olacaq ruhda böyüdülməsinin vacib olduğunu ön plana çəkirdi.

Müharibə onun memar olmaq istəyini yarıda qoysa da, o müstəqil Azərbaycan kimi dahi bir əsərin memarı oldu. Heydər Əliyev özündən sonra çiçəklənən, inkişaf edən dövləti qoyub getmədi, o həm də – Odlar Yurdunu atası qədər sevən, Vətəninə əlindən gəldiyindən daha çox xidmət edən, Azərbaycan Respublikasının görkəmli lideri, Ali Baş Komandanı İlham Əliyevi qoyub getdi. Bəli, bu gün dövlətimizin hər bir qələbəsinə, hegemon dövlətlər arasında tanınmasına və sözünü deyə bilməsinə görə Heydər Əliyevə borclu olduğu qədər, İlham Əliyevə də borcluyuq.

Hesab edirəm ki, bu cür dövlət başçılarımız olduğu üçün çox şanslıyıq. Bu şansı dəyərləndirmək üçün biz çox çalışmalı, oxumalı, bilik sahibi olmalı, Vətənimizin gələcəyi üçün hər şeyə hazır olmalıyıq.



## Məmmədova Nuranə Məhəmməd qızı

*Tovuz rayonu, Azaflı kənd tam orta məktəbin XI sinif şagirdi*

Tarix kitablarından öyrəndim ki, Heydər Əliyev lap gənc yaşlarından müxtəlif vəzifələrdə çalışmış və hansı vəzifəni tutmasından asılı olmayaraq həmişə uğur qazanmışdır. İllər keçdikcə təcrübəsi artmış və nəhayət, 1969-cu ildə Azərbaycan Respublikasının rəhbəri təyin olunmuşdur. O vaxt Azərbaycan SSRİ adlanan dövlətin tərkibində idi. Bütün sazişlər, qərarlar SSRİ-nin diktəsi ilə həyata keçirilirdi. O vaxt Heydər Əliyev siyasi iradə nümayiş etdirərək bir sıra qərarları Azərbaycanın xeyrinə qəbul etdirə bilmişdir. Heydər Əliyevin hakimiyyətdə olduğu 1969–1985-ci illər Azərbaycan iqtisadiyyatının sürətlə inkişaf etdiyi illər olmuşdur. İstər siyasi, istər sosial, istər təhsil və mədəniyyət sahəsi olsun – hamısı bu dahi şəxsiyyətin uzaqgörənliyi sayəsində öz çiçəklənmə dövrünü yaşamışdır. Təsadüfi deyil ki, o dövrün qüdrətli dövləti sayılan SSRİ Heydər Əliyevin bacarığından və səriştəsindən istifadə etmək qərarına gələrək onu SSRİ Nazirlər Sovetinin sədrinin birinci müavini vəzifəsinə təyin edir. Heydər Əliyev bu vəzifədə də öz xalqının və dövlətinin fədakar müdafiəçisi olur. Mən fədakar sözünü təsadüfi işlətmədim. Çünki 1990-cı ilin 20 Yanvar hadisələrindən sonra onun partiya biletindən imtina etməsi və tutduğu vəzifədən istefa verməsini bəyan etməsi onun qorxmaz və fədakar insan olduğuna ən dəyərli sübutdur. Təsadüfi deyil ki, 20 Yanvar hadisələrinə də qiymət yalnız Heydər Əliyevin ikinci dəfə hakimiyyətə qayıdışından sonra verilmişdir. Bu, Azərbaycan xalqının qorxmaz və fədakar oğlunun gərgin əməyi və siyasi iradəsinin nəticəsində mümkün olmuşdur.

Mən daha çox onun ikinci dəfə hakimiyyətə qayıtdıqdan sonra gördüyü işlər barəsində olan düşüncələrimi qeyd etmək istərdim.



1988-ci ildən başlayaraq Azərbaycan çox ciddi sınaqlar qarşısında qalmışdır. Mənfur qonşularımız sayılan ermənilər xalqımızı elan olunmamış Qarabağ müharibəsinə cəlb etdilər. O vaxtdan başlayaraq Azərbaycan xalqı və Azərbaycan dövləti öz torpaqlarını müdafiə etmək məcburiyyətində qaldı. Əvvəlcə Ermənistandan qovulan soydaşlarımız, sonra ermənilərin Qarabağ torpaqlarına iddiaları, yandırılan kəndlər, qətlə yetirilən günahsız insanlar, evlərindən didərgin salınan azərbaycanlılar... Bu siyahını daha da uzatmaq olar. 1990-cı ilin yanvarında Bakıda azadlıq uğrunda mübarizəyə qalxmış dinc insanların güllələbaran edilməsi, tankların silahsız insanların üstünə yeridilməsi SSRİ adlanan bir dövlətin süqut etməzdən qabaq törətdiyi vəhşilik olmuşdur. Bu qanlı hadisələrin baş verdiyi vaxtda Azərbaycan xalqının müdrik bir siyasətçiyə, uzaqgörən bir liderə, xalqı arxasınca apara biləcək bir rəhbərə ehtiyacı var idi. Xalqın təkidli çağırışlarından sonra Moskvadan qayıdıb Naxçıvanda yaşayan Heydər Əliyev Bakıya qayıtdı.

Heydər Əliyev ölkəmizin çətin günündə xalqını tək qoymadı. Az qala dağılmaq ərəfəsində olan dövlətimizi parçalanmaqdan xilas etdi. Ayrı-ayrı dövlətlərdən ibarət olub pərakəndə şəkildə döyüşən əsgərlərimizi vahid bir komanda altında birləşdirərək hazırkı Milli Ordumuzun əsasını qoydu. Hər gün evlərə gələn, anaları gözü yaşlı qoyan şəhid tabutlarının qarşısını 1994-cü ilin may ayında imzalanmış «Atəşkəs müqaviləsi» ilə aldı.

Müharibədə nisbi sakitlik əldə olunduqdan sonra Heydər Əliyev bütün diqqətini ordu quruculuğuna, ölkənin dağılmış iqtisadiyyatının bərpasına, savadlı kadrların yetişdirilməsinə yönəltdi. Vaxtilə kitablarda adına rast gəldiyimiz qədim İpək yolu yenidən bərpa olundu, uzaq Şərqdən Avropaya qədər uzanan bu ticarət yolu Azərbaycandan keçməklə ölkəmizin qüdrətinin artmasına köməklik göstərdi.

Ölkə daxilindəki quruculuq işləri ilə yanaşı, dövlətimizin xarici siyasətində də qazandığı uğurlarda Heydər Əliyevin rolu böyükdür. BMT, Avropa Şurası kimi tanınmış təşkilatlara üzv olan Azərbaycan bu yüksək təşkilatlarda öz sözünü deyə bilən bir dövlət kimi çıxış edir. Heydər Əliyev BMT-nin tribunasından çıxış edərək Azərbaycanın üzləşdiyi çətin problemləri bütün dünyaya bildirdi. XX əsrin ən dəhşətli, qəddarlıqla törədilmiş, damarlarda qanı belə donduran Xocalı faciəsi haqqında dünya ictimaiyyətinin məlumatlandırılmasında Heydər Əliyevin rolu danılmazdır. Erməni vəhşiliyini, qaniçənliyini pisləyən Heydər Əliyev Xocalı soyqırımını bəşər tarixinin ən dəhşətli faciəsi adlandıraraq, ona dünya səviyyəsində siyasi qiymət verilməsinə nail olmuşdur.

Ulu Öndərin gördüyü bütün işlər Azərbaycan xalqının rifahı, xoş gələcəyi üçün nəzərdə tutulmuşdur. Heydər Əliyevin gördüyü bütün işləri sağlığında öz əli ilə özünə ucaltdığı abidə adlandırmaq olar.

Heydər Əliyevin gördüyü işlər Azərbaycan tarixinə iri və qızıl hərflərlə yazılmış bir abidədir. Dünyanın tanınmış siyasətçiləri Heydər Əliyevin fikri ilə hesablaşır, onun siyasi kursunu bəyənirdilər. Heydər Əliyev fenomen bir şəxsiyyət idi. Bütün sahələr üzrə biliyə malik olan Ulu Öndər hər kəsi öz dilində danışdırmağı bacarırdı. Yeri gələndə qocalarla, ağsaqqallarla hesablaşmağı bacarır, yeri gələndə körpə uşaqların sevimli babasına çevrilirdi.

Bu gün Heydər Əliyev cismən aramızda olmasa da, ruhən həmişə bizimlədir. Təməlini qoyduğu müstəqil Azərbaycan dövləti dünya dövlətləri arasında tanınmış bir dövlətə çevrilmişdir. Müstəqilliyimizin yaşı iyirmi üç il olsa da, bu illər ərzində Azərbaycan dövləti şərəfli bir yol keçmişdir. Heydər Əliyevin davamçısı olan hörmətli prezidentimiz İlham Əliyev də siyasi iradə nümayiş etdirərək Azərbaycan xalqının rifahı uğrunda əzmlə çalışır. Azərbaycanın beynəlxalq tədbirlərin keçirildiyi bir ölkə kimi dünya dövlətləri arasında tanınması ölkəmizin sülh və sabitlik tərəfdarı olduğunu sübut edir. İdman, təhsil, mədəniyyət sahəsində qazanılmış uğurlar Ulu Öndərin uzaqgörən siyasətinin davamı hesab edilə bilər. 2015-ci ildə keçiriləcək Avropa Olimpiya oyunlarına da Azərbaycan ev sahibliyi edəcəkdir. Bu, bir daha Azərbaycanın tərəqqi edən bir dövlət olduğunu sübut edir.

Zaman gələcək, Ali Baş Komandan İlham Əliyevin başçılıq etdiyi Azərbaycan ordusu üçrəngli bayrağımızı Xankəndi səmasında dalğalandıracaqdır.





## *Atayeva Tünzalə Eltifat qızı*

***Xızı rayonu, Giləzi qəsəbə tam orta məktəbin XI sinif şagirdi***

*Kəssə hər kəs tökülən qan izini,*
*Qurtaran dahi odur yer üzünü.*

**H.Cavid**

Azərbaycan xalqının tale payında onu zülmətdən nurlu aləmə çəkib gətirən dahilər az olmayıb. Millətimizin ağsaqqalı, hünər dağı – Heydər Əliyev belə bir dahidir. Bu müqəddəs insan haqqında düşüncələrimi sözə çevirib ağ vərəqlərə köçürtmək qismətimə düşdüyü üçün özümü dünyanın ən xoşbəxt gənci hesab edirəm.

Həyatda elə insanlar var ki, onların təbiətində ucalıq, düşüncələrində gözqamaşdıran parlaqlıq vardır. Belə insanlar doğulur, yaşayıb-yaradır, lakin ölmürlər. Günəşə, ulduza çevrilib əfsanələşirlər. Bəlkə, günəş də, ay da, ulduz da belə insanların ruhudur, gecə-gündüz yolumuzu işıqlandırır, səmamıza nur çiləyir. Heydər Əliyev də məhz belə əfsanələşən, ölümsüzləşən şəxsiyyətdir.

Heydər Əliyev o qədər böyük şəxsiyyətdir ki, onun bu böyüklüyünü əks etdirməkdə sözlər də acizdir. Kiçik adamlar haqqında böyük sözlər tapılır. Bəs böyük şəxsiyyətlər haqqında hansı sözləri tapasan ki, onların ucalığını, əzəmətini layiqincə vəsf edə biləsən?! Ümidimiz, gümanımız, gələcəyə inamımız o dahi insanın – Heydər Əlirza oğlu Əliyevin varlığında, ideallarındadır. O heç kimlə, heç kəslə müqayisəyə gəlməzdir! Bəli, həyatı, sözün əsl mənasında, hikmətli bir nağıla bənzəyən görkəmli dövlət xadimi, dünya şöhrətli siyasətçi Heydər Əliyevdən söz açmaq elə doğma yurdumuz olan Azərbaycandan danışmaq deməkdir. Çünki o, xal-

qının həmişə döyünən qəlbi, vuran nəbzi olmuşdur. Onun bütün mənalı həyatı Azərbaycan adlı bir məmləkətin inkişafına həsr olunmuşdur. Onun Azərbaycanın inkişafı naminə gördüyü işlər bəşəri xarakter daşıyırdı. Ulu Öndərin əzəməti, vüqarı, dəyanəti, dövlətçilik təcrübəsi misilsiz bir nümunə idi. Savadını, sağlamlığını, cavanlığını, bir sözlə, bütün həyatını xalqına bağışlayan, onu tarixin dərin girdablarından salamat çıxaran bu insanı sevməmək mümkün deyil.

O, xalqına otuz dörd il rəhbərlik etdi. Xalqın zəngin dövlətçilik ənənələrinə sadiq qalan rəhbər Şah İsmayıldan Fətəli xana qədər gedən yolu öz iti zəkasının süzgəcindən keçirtdi. Ulu Öndərin böyük istedadı sayəsində Azərbaycan 1993-cü ilin xaosundan qurtula bildi. Olduqca mürəkkəb bir şəraitdə Heydər Əliyev çoxlarının görə bilmədiyi işləri öz əməlləri ilə gerçəkləşdirdi. Bəli, xalqımızın XX əsrədək uğurları məhz Heydər Əliyevin tarixi fəaliyyəti ilə bağlıdır. Dahi rəhbər xalqın tələbi ilə ikinci dəfə hakimiyyətə gəldikdən sonra qısa bir müddət ərzində vətəndaş müharibəsinin qarşısını ala bildi. Xalq milli fəlakətdən xilas oldu. Bu illərdə dövlətimizin əsas atributlarından biri sayılan Milli Ordumuz yaradıldı. Pərakəndə silahlı dəstələr tərk-silah edildi. O qanlı-qadalı hadisələrdən bizi aylar, illər ayırır. Hər bir çətinliyin keçmişdə qaldığı bugünkü sakit dövrdə olub-keçənləri rəvan, təmkinli bir dillə sadalamaq çox asandır. Həqiqətdə isə hərcmərcliyin, «mənəm-mənəmliyin» hökm sürdüyü bir cəmiyyətdə sabitlik yaratmaq, doğrudan da, əsl hünər istəyir. O, bir daha sübut etdi ki, Azərbaycanın müstəqilliyi əbədidir, sarsılmazdır, dönməzdir! Müstəqil Azərbaycanın yeni Kostitusiyasının qəbulu, Milli Məclisə seçkilərin keçirilməsi, «Əsrin müqaviləsi»nin bağlanması, Bakı–Tbilisi–Ceyhan neft kəmərinin çəkilməsi kimi nəhəng işlər məhz Heydər Əliyevin monumental fəaliyyətinin nəticəsidir.

Heydər Əliyev dühası elə bir sönməz günəşdir ki, o, həmişə zirvələrdən şölə saçacaq, canı qədər sevdiyi xalqını nura boyayacaq. Biz bu işığı daima öz üzərimizdə hiss edirik. Elə bu səbəbdən də indi bütün dünya bizə inanır. Bu inam Heydər Əliyev siyasətinin uzaqgörənliyinin bəhrəsidir.

Həyat mübarizədir. Kimlər bu keşməkeşli yollardan uğurla keçə bilirsə, onların adları tarixin tozlu səhifələrinə qızıl hərflərlə həkk olunur. Heydər Əliyevin adı kimi! Dahi şəxsiyyət! Yenilməz sərkərdə! Ulu Öndər! Ümummilli Lider! Bir sözlə, böyük insan!



Mənim tarixin özü qədər qədim, ulu xalqım! Nə qədər xoşbəxtsən ki, dünyanın tanıyıb həsəd apardığı belə bir dahi şəxsiyyət sənin payına düşüb. İllər ötəcək, çox küləklər əsəcək, Heydər Əliyevin adı heç bir zaman unudulmayacaq, çünki onun İlham Əliyev kimi davamçısı var. Xalqın qəlbinə müstəqillik, azadlıq toxumunu səpən bir şəxsiyyətin arzularını həyata keçirtməyə qadir layiqli davamçısı var. Lakin Heydər Əliyev dühası möhtərəm prezidentimiz – İlham Əliyevin timsalında hər zaman yanımızda olacaq, yaşayacaq, yaradacaq! Gözəl məmləkətimizi – Azərbaycanımızı işıqlı sabahlara aparacaq!



## İbrahimova Asya Xalıq qızı

**Ağdaş Dövlət Humanitar Kollecinin IV kurs tələbəsi**

1923-cü il 10 may... Bu gün Azərbaycan göylərində bir günəş doğdu. O günəş ki, elə o vaxtdan bu günə qədər Azərbaycan səmalarında parlayır.

Bu günəş xalqın böyük oğlu, ümummilli liderimiz, əvəzsiz şəxsiyyət Heydər Əlirza oğlu Əliyevdir!

Heydər Əliyev yaşadı-yaratdı, sevildi, seçildi, ən əsası ümumxalq məhəbbətini qazandı.

Yaşadığı vaxt ərzində bir arzusu vardı: müstəqil Azərbaycan dövlətini qurmaq. Bu amalına sadiq qaldı. O bu dövləti etibarlı əllərə tapşırıb dünyasını dəyişdi.

1993-cü il... Bu vaxtlar Azərbaycanda vətəndaş müharibəsi təhlükəsi baş qaldırmışdı; torpaqlarımız itirilir, xalqımız şəhidlər verirdi.

Bu günlərdə insanların köməyinə Uca Tanrı öz xilaskar oğlunu – Heydər Əliyevi göndərdi. 1993-cü il oktyabr ayında demokratik şəraitdə prezident seçilən Heydər Əliyev neçə-neçə insanların ümid yerinə çevrildi.

Heydər Əliyevin gəlişi ilə ölkədə vətəndaş müharibəsi təhlükəsi aradan qaldırıldı, atəşkəs əldə edildi. Milli ordu quruculuğunda yeni dəyişikliklər oldu və iqtisadiyyatımız dirçəldi. Hər şeydən öncə, Azərbaycan müstəqil dövlət oldu. Azərbaycanda azad mətbuat, azad söz, yeni ictimai-siyasi çoxpartiyalı sistem yarandı. Yeni konstitusiya qəbul olundu. Ölkəmiz Avropa və onun humanist və siyasi dəyərlərinə inteqrasiya yolunu tutdu.

Heydər Əliyev sadə bir əməksevər ailədən, xalqın içindən çıxmışdı. Elə ona görə də o harda olmasından asılı olmayaraq, öz xalqını daima qorumağa çalışıb, onu sevib. Elə özünün də dediyi kimi: «Hər bir insan ilk öncə mənsub olduğu dövləti, cəmiyyəti sevməlidir».



Heydər Əliyev elə şəxsiyyət idi ki, onun hər gördüyü iş dünya miqyasında tanınırdı.

Türkiyənin ictimai-siyasi xadimi Akkan Suverin demişdir: «Heydər Əliyev təkcə ölkəsinin prezidenti deyil, o, XX əsrə keçən xəzinə idi».

Heydər Əliyevin Azərbaycan xalqı üzərində zəhməti çox böyük olmuşdur, indi Azərbaycanın elə bir şəhəri, rayonu yoxdur ki, orda Heydər Əliyevin zəhməti, işıqlı əməlləri öz faydasını göstərməsin.

Heydər Əliyev gənclərə xüsusi diqqət yetirir. Elə ilk dəfə 1969-cu ildə siyasi hakimiyyətə gələrkən də onun gənclərə xüsusi diqqəti hiss edilirdi. O vaxtlar azərbaycanlı bir neçə gənci SSRİ-nin tanınmış universitetlərində oxumağa göndərmişdir. Elə bunun nəticəsidir ki, indi o insanlar Azərbaycanın müstəqilliyinin möhkəmlənməsində xüsusi rol oynayırlar.

Gənclərlə daima ünsiyyətdə olur, onların fikirlərini öyrənir və müvafiq işlər görürdü. «XXI əsr Gənclər əsridir», – deyən Heydər Əliyev gənclərə demişdir: «Hər bir vətəndaş, xüsusilə də gənclər vətənpərvər olmalıdır».

Heydər Əliyev öz ağlı, düşüncəsi ilə daima seçilmişdir.

Xalqın haqlı olaraq «Qurtuluş Günü» adlandırdığı tarixə – Azərbaycan xalqının itən ümidlərinin geri qayıtdığı o günə görə Azərbaycan xalqı, həqiqətən də, Heydər Əliyevə borcludur.

Heydər Əliyev haqqında dünyanın bir çox görkəmli xadimləri dəyərli sözlər söyləmişlər.

*«Heydər Əliyev təkcə Azərbaycanın xoşbəxt və firavanlığı üçün göstərdiyi xidmətlərə görə deyil, o bütün türk və dünya tarixinin nadir lideridir».*

**Rəcəb Tayyib Ərdoğan**

*Bütün dünya liderləri kimi Heydər Əliyev də hamını öz arxasınca apara bildi.*

*Heydər Əliyev siyasi cəhətdən möhkəm məntiqli, zəkalı, istədiyini tez çatdıra bilən şəxsiyyət, bir sözlə, şəksiz liderdir.*

*Azərbaycan xalqı xoşbəxtdir ki, onun Heydər Əliyev kimi prezidenti olmuşdur.*

**Vladimir Putin**

Heydər Əliyev gördüyü işlərlə bu günün və gələcəyin lideri adını qazandı.

Biz daima Heydər Əliyev irsini öyrənib, ondan nəticə çıxaracağıq.

Heydər Əliyevin bir çox kəlamları var.

«Heç bir kəs özünə başqa dövləti düşmən hesab etməməlidi».

«İndi hamı fəxr edə bilər ki, mən azərbaycanlıyam, mənim millətimin dövləti və mənim ölkəm var».

«Bu gün sizin başlıca vəzifəniz oxumaqdan, müstəqil işləmək vərdişləri əldə etməkdən, həqiqəti axtarmaq və ona nail olmaq bacarığına yiyələnməkdən, yəni kamil mütəxəssis olmaq, cəmiyyətimizə daha çox fayda vermək üçün zəhmətlə, səylə, əzmlə bilik, mədəniyyət, ictimai vərdiş ehtiyatı toplamaqdan ibarətdir».

**Heydər Əliyev**

Heydər Əliyev 2003-cü il dekabrın 12-də dünyasını dəyişdi.

Biz Heydər Əliyev dühasını nə qədər oxusaq da, onu oxuyub qurtara bilmərik, çünki Heydər Əliyev dühası sonu görünməyən bir dəryadır.

Bu gün o böyük şəxsiyyətin davamçısı İlham Əliyevdir. İlham Əliyev Heydər Əliyev irsinə sadiq qalaraq onun tutduğu yolu davam etdirir.

Nə qədər Azərbaycan, nə qədər ki bu xalq var, Heydər Əliyev daima bizim qəlbimizdə yaşayacaqdır.





## *Aslanlı Əli Afiq oğlu*

***Respublika İncəsənət Gimnaziyasının IX sinif şagirdi***

*«Elm ağılı meydana gətirər, həyat isə müdrikliyi».*

**İmmanuil Kant**

Dövrümüzün ən böyük tarixi şəxsiyyətlərindən, görkəmli dövlət xadimlərindən biri, xalqımızın ümummilli lideri Heydər Əlirza oğlu Əliyevin adı və həyatı hər zaman müstəqilliyimizin tarixi ilə qoşa çəkilir. Azərbaycan Respublikasının son 50 illik tarixinin hər bir səhifəsi ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır. Çox az dövlət xadimi tapılar ki, bu qədər böyük müddət ərzində millətinə sevərək və sevilərək rəhbərlik edə bilsin. Keçmiş SSRİ Dövlət Plan Komitəsinin sədri söyləmişdir: «Mən Azərbaycanı, Azərbaycan xalqını Heydər Əliyev qədər sevən ikinci adam tanımıram». Ulu Öndərimiz ömrünü xalqı yolunda şam kimi əritmiş, Tanrının ona ərməğan etdiyi fitri istedadı, bilik və bacarığı bütünlüklə millətinə həsr etmiş bir insandır. Elə şamın gözəlliyi də onun yanaraq ətrafa işıq saçmasındadır. Onu təkcə Azərbaycan xalqı yox, bütün türk dünyası sevir və Heydər Əliyevlə fəxr edir.

*Bu vətənə, bu xalqa olmusan sipər, baba.*
*Bütün türk dünyasının babası, Heydər baba!*

Amerika Birləşmiş Ştatlarında onu Corc Vaşinqtonla, Fransada Şarl de Qolla, Böyük Britaniyada Çörçillə, Türkiyədə Atatürklə müqayisə edirlər. Lakin mən düşünürəm ki, Heydər Əliyev kiminlə, hansı tarixi şəxsiyyətlə müqayisə olunmasından asılı olmayaraq, özünəməxsus və bənzərsiz, heç bir tarixi şəxsiyyətlə müqayisəolunmaz bir insandır. Onun müdrikliyi,

qeyri-adi zəkası sayəsində aparıcı dünya dövlətlərinin arasına bir ad da yazıldı. Azərbaycan adı idi bu ad. İndi təkcə Azərbaycanda yox, ölkəmizin hüdudlarından kənarda, ayrı-ayrı xarici dövlətlərdə yaşayan tarixçilər, siyasətçilər, yazıçılar Heydər Əliyev şəxsiyyətinə olan sonsuz hörmət hissini hər biri öz sahəsi üzrə bildirməyə çalışır.

Ümummilli liderimiz Heydər Əliyev milli dəyərlərimizi hər zaman qorumuş, hər şeydən üstün tutmuşdur. Ulu Öndərimiz ana dilimiz olan müqəddəs Azərbaycan dilinə böyük hörmətlə yanaşmış və ona biganə yanaşmağın, xüsusən də onun kimsə tərəfindən dəyişdirilməsinin yolverilməz olduğunu göstərərək demişdir: «Hər bir xalqın milliliyini, mənəvi dəyərlərini yaşadan, inkişaf etdirən onun dilidir». Xalqımız heç zaman Ümummilli Liderinin dəyərli sözlərini unutmamış, onun kəlamlarından ibrət almışdır. 2001-ci il 9 avqust fərmanı ilə avqustun 1-i Ana dili günü kimi qeyd olunmağa başlamışdır.

Təhsili millətin gələcəyi sayan Ulu Öndər istedadlı şagirdlərə xüsusi qayğı və diqqət göstərmişdir. Belə ki, 1996-cı il iyunun 2-də «Gənclərin qızıl kitabı» haqqında fərman imzalanmışdır. Həmin gündən məktəbimizin – İncəsənət Gimnaziyasının həyatında mühüm dəyişikliklər baş vermişdir. Çünki həmin kitaba yazılan ilk ad məktəbimizin qabaqcıl şagirdlərindən biri olan Surxay Əsgərovun adı oldu. Artıq həmin günün sabahı dünyanın 46 ölkəsində gimnaziyamız barəsində qəzet və jurnallarda məqalələr çap olundu, televiziya və radioda verilişlər yayımlandı. Ulu Öndərimizin bünövrəsini qoyduğu təhsil sistemi bu günə kimi də uğurla davam etdirilir.

Ümummilli liderimiz Heydər Əliyevin təfəkkürünün həddi-hüdudu yox idi. İti zəkalı, möcüzə yaddaşlı, şair təbiətli, sərkərdə cəsarətli və bu kimi ən gözəl bəşəri sifətləri öz varlığında birləşdirən insan idi. Bu qədər hərtərəfli olmasına görə mən Ulu Öndərimizi «ensiklopedik zəka sahibi» adlandırardım. Heydər Əliyevin şəxsi qabiliyyəti onun bir məktəb olması düşüncələrini formalaşdırır. O bizi sabaha aparan nurlu işıq, gələcəyimizdir. O bizim hamımıza bir nümunədir. Ümummilli Liderimizin müdrik kəlamları xalqımızın həyat amalına çevriləcək və gələcəyə gedən yolumuzun üzərində bir mayak olacaqdır. Ulu Öndər söyləmişdir: «Azərbaycanın dövlət müstəqilliyi əbədidir, dönməzdir, sarsılmazdır». Ulu Öndər bütün dünya azərbaycanlılarını həmrəy yaşamağa və milli birliyə çağırırdı: «Dünya azərbaycanlılarının, bütün azərbaycanlıların bir vətəni var, o da Azərbaycandır».



*Dühasıyla günəş kimi işıq saçan,*
*Gələcəyə inam dolu yollar açan.*
*Ürəklərdə, xəyallarda sakin olan*
*Heydər adlı babamız var,*
*Bir əbədi dünyamız var.*

Ulu öndərimiz Heydər Əliyev hər zaman xalqımızın qəlbində yaşayacaqdır. Çünki bu gün ana torpağımızı Heydər Əliyev adı olmadan təsəvvür etmək mümkün deyil. Onun izi hər bir sahədə duyulur. Və bu gün dövlətimizin qayğısına bayaq söz açdığım Heydər Əliyev məktəbinin layiqli davamçısı prezidentimiz İlham Əliyev qalır. Eyni zamanda prezidentimizin ailəsinin də xalqımıza böyük töhfələri olur.

Sonda isə bunu söyləmək istəyirəm ki, bu gün mən də Ulu Öndərimiz kimi Azərbaycan torpağında boya-başa çatdığıma, bir azərbaycanlı olduğuma görə fəxr edirəm. Mən hələ adi şagird ola bilərəm. Lakin böyüyəndə Ümummilli Liderimiz kimi Vətənimizin çiçəklənməsi üçün əlimdən gələni əsirgəməyəcəyəm. Biz hamımız ulu öndər Heydər Əliyevin söylədiyi kimi həmrəy olacaq, doğma torpaqlarımızı düşmənlərdən, yadelli hücumlardan sonsuzadək qoruyacaq, itirilmiş torpaqlarımızı bərpa edəcəyik. Biz bunu etməkdə çətinlik çəkməyəcəyik, çünki bizim hər birimizin qəlbində bir Heydər Əliyev sevgisi yaşayır!



## *Tahirli Əli Araz oğlu*

***Daşkəsən şəhəri, 2 nömrəli tam orta məktəbin VIII sinif şagirdi***

Təbiətdə dağların ən uca zirvələri olduğu kimi, təbiətin bir parçası olan insan cəmiyyətində də mənəvi baxımdan zirvə sayılan insanlar var. Coğrafi baxımdan dünyadakı ən uca zirvələr Azərbaycanda olmasa da, fəxr edə bilərik ki, Azərbaycan torpağının, Azərbaycan xalqının XX əsrdə bəşəriyyətə bəxş etdiyi tarixi şəxsiyyət Heydər Əliyev insanlığın ən uca zirvələrindəndir.

Heydər Əliyev Azərbaycanın canlı və şərəfli salnaməsi, DTK sisteminə rəhbərlik edən ilk azərbaycanlı və ilk general, XX əsrdə dünyanın iki super dövlətindən biri SSRİ-nin ali rəhbərliyində təmsil olunan ilk və yeganə azərbaycanlı, 1969–1982-ci illərdə Azərbaycana intibah və tərəqqi dövrü bəxş edən rəhbər, SSRİ dağıldıqdan sonra 1991–1993-cü illərdə Azərbaycanı parçalamaq istəyən daxili və xarici qüvvələrin planlarını alt-üst edən və müstəqil Azərbaycanın siyasi memarı olan Ümummilli Lider, XX əsrin ən böyük energetika hadisəsi olan «Əsrin müqaviləsi»nin memarı və banisi, 30 ildən çox bir dövrdə Cənubi və Şimali Qafqazın nüfuzlu ağsaqqalı, milli və dini dəyərlərə hörmətlə yanaşan bir müsəlman, İlham Əliyev kimi böyük bir şəxsiyyətin sələfi və nəhayət, hamıya örnək olan ailə başçısıdır.

Heydər Əliyev elə nadir şəxsiyyətlərdəndir ki, tarix beləlváltoz əməlləri, fəaliyyəti ilə yaranır. Onun kəşməkəşli həyatı, zəngin bioqrafiyası isə bütöv bir dövrün canlı salnaməsidir. Bu salnamənin xalqımızın qadir, yaradıcı əməyini əks etdirən səhifələri rəhbərin şərəfli və mənalı ömrünün unudulmaz anlarıdır.

1969-cu il. Azərbaycan KPMK-nın avqust plenumu keçirilir. Yenicə Azərbaycan KPMK-ya birinci katib seçilmiş Heydər Əliyev bu plenumda məruzə edir. Bu məruzədə onun xarakterik cizgiləri: qətiyyəti və prinsipiallığı parlaq şəkildə üzə çıxdı. Bu məruzə gənc Heydər Əliyevin manifesti idi. O, Azərbaycana rəhbərlik etdiyi illərdə, hətta Kremldə yüksək dövlət vəzifəsi tutduğu dövrdə belə öz proqram məramına xilaf çıxmadı. Heydər Əliyev bütün bilik və bacarığını, təcrübəsini ona sərf etdi ki, qoynunda doğulub boy atdığı, suyu, havası, çörəyi ilə ərsəyə çatdığı doğma torpağı, ana yurdu Azərbaycanı dünyaya tanıtsın. Və tanıtdı da.



1970–1982-ci illər respublika iqtisadiyyatının, elm, mədəniyyət, təhsil, səhiyyə, rabitə və s. kimi sosial sahələrin ən gur inkişaf etdiyi illərdir. Bu dövrdə Azərbaycanda 250 müəssisə və sex tikilmişdir. Neftayırma sənayesi müəssisələri tamamilə yenidən tikilmiş, elektron, elektrotexnika, radiotexnika və cihazqayırma sənayesi zavodları tikilmişdir.

Möhtəşəm sarayların bir-biri ilə bəhsə girən, müasir mehmanxana binalarının tikilməsi, yeni metro stansiyalarının açılışı, görkəmli şəxsiyyətlərə abidələrin qoyulması, universal ticarət mərkəzlərinin, məktəblərin, şahmat evlərinin tikilməsi, qonşu xalqların elm və incəsənət günlərinin açılışı, tanınmış elm və mədəniyyət xadimlərinin yubileyləri... Bu siyahını uzatdıqca uzatmaq olar.

1991–1993-cü illər Azərbaycan tarixinin, bəlkə də, ən ağrılı, ən ziddiyyətli dövrlərindən biri idi. Bir yandan 1988-ci ildən davam edən Qarabağ müharibəsindəki uğursuzluqlar, bir yandan da dövlət strukturlarının iflic vəziyyətinə düşməsi ictimai həyata öz mənfi təsirini göstərirdi. Xalqda gələcəyə inamsızlıq yaranmışdı. Bu dövrdə Azərbaycan tufanlı dənizdə azmış gəmini xatırladırdı. Onu ya qayalara çırpılaraq dağılmaq, ya da okeanda batıb qərq olmaq təhlükəsi gözləyirdi. Azərbaycanı düçar olduğu bu bəlalardan xilas etmək lazım idi. Belə bir məsuliyyətli məqamda xalq öz qəti sözünü dedi: «Azərbaycanı düçar olduğu bu bəlalardan yalnız xalqımızın müdrik oğlu Heydər Əliyev xilas edə bilər». Bu hökmün, qətiyyətin arxasında uzun və ağır sınaqlardan çıxmış inam dururdu. Bununla da, Azərbaycan tarixinin yeni bir mərhələsi başladı:

*Onun sayəsində qazandıq zəfər,*
*Heydər Əliyevdir o ulu öndər.*
*Yaradan Heydəri dahi yaradıb,*
*Onu siyasətin şahı yaradıb.*
*Hər yerdə söylədi sözünü qəti,*
*Həmişə düşündü xalqı, milləti.*
*Şam kimi əridi hey damla-damla,*
*İstiqlal yolunu getdi inamla.*

*Mənalı ötüşdü ömrün hər anı,*
*Tanıtdı dünyaya Azərbaycanı.*

Heydər Əliyevin Bakıya qədəm qoyduğu gündən hadisələr müsbət istiqamətdə cərəyan etdi. Vətəndaş müharibəsi təhlükəsi aradan qalxdı. 1994-cü ilin mayında uzun sürən və minlərlə insan həyatını məhv edən qanlı müharibədə atəşkəs elan olundu. Ölkəmiz üçün həyati əhəmiyyət daşıyan «Əsrin müqaviləsi» 1994-cü il 20 sentyabrda imzalandı. Heydər Əliyevin ölkədə bərqərar etdiyi ictimai-siyasi sabitlik xarici sərmayəçilərin ölkəyə gəlib, iqtisadiyyatın ən müxtəlif sahələrinə yatırım qoyması üçün stimul oldu. Azərbaycan dünya birliyində çox güclü tərəfdaşlar, müttəfiqlər qazandı. İndi ölkəmiz BMT, ATƏT, Avropa Şurası kimi mötəbər beynəlxalq qurumların üzvüdür. Qitənin, dünyanın taleyüklü məsələləri həll olunarkən biz də bərabərhüquqlu üzv kimi öz mövqeyimizi bildiririk.

Heç kimə sirr deyil ki, Heydər Əliyevin missiyasını davam etdirən şəxs olmasa, biz əldə etdiyimiz nailiyyətləri itirə bilərdik. Yaxşı ki, belə bir şəxsiyyət var. O, Heydər Əliyev məktəbinin yetirməsi, Ulu Öndərin fiziki, mənəvi və siyasi varisi, Azərbaycan Respublikasının Prezidenti İlham Heydər oğlu Əliyevdir.

Bu gün Ulu Öndər həyatda olmasa da, onun ideyaları yaşayır, siyasi və iqtisadi kursu davam etdirilir. Bu kurs o qədər bəşəri, o qədər irimiqyaslıdır ki, bu kursu layiqincə davam etdirən şəxs müasir dünya siyasi arenasının zirvələrindən hesab olunmalıdır. Dünyanın ən məşhur dövlət və siyasət xadimlərinin söylədiyi fikirlər əsas verir ki, mübaliğəsiz olaraq Heydər Əliyev şəxsiyyəti ilə İlham Əliyev şəxsiyyətini yanaşı qoyaq, bu iki zirvəni qoşa təsəvvür edək.

Mən hər sabah məktəbə gedəndə rayonumuzun mərkəzində yerləşən, Heydər Əliyevin şərəfinə ucaldılmış heykəlin qarşısında bir anlıq dayanıram. Sevinirəm, fəxr edirəm ki, Heydər Əliyev kimi dahi bir şəxsiyyətin yaratdığı dövlətin vətəndaşıyam.





## Babazadə Amanə Altay qızı

**Lerik şəhəri, 1 nömrəli Texniki Fənlər Təmayüllü liseyin XI sinif şagirdi**

*Vətən oğlu, ata oldun bizə sən,*
*Ata kimi qayğımızı çəkirdin*
*Şair kimi həssas idin sözə sən,*
*Danışdıqda sözdən sözü çəkirdin.*

Başqasının fikrinə hörmət etmək, ondan faydalı bir şey öyrənmək qabiliyyəti hər bir insana lazımdır. Bu fikir Azərbaycanın böyük oğlu, dahi şəxsiyyət, əvəzolunmaz insan – Heydər Əliyevə aiddir. Uşaq vaxtımdan onun bu mənalı, dəyərli sözünü özümə bir silah seçdim. Bu günə qədər müəllimlərimdən, ətrafımdakı insanlardan çox şey öyrəndim. Onlardan biri də budur: «Tarixdə insanlar iki cür olur, bəziləri müharibə edir, nahaq qan axıdır, günahsız insanların qətlinə səbəb olur, bəziləri isə dövlət qurur, həyat verir, inkişaf etdirir». Möhtəşəm siyasətçi Heydər Əliyev ikincilərdəndir.

1993-cü ilin may-iyun aylarında Azərbaycan böhran vəziyyətində idi. 15 İyunda Heydər Əliyev Bakıya dəvət edildi. O gün illərlə müstəqilliyini itirmiş, əzilmiş, təhqir olunmuş bir xalqın qurtuluşu oldu. O gəldi, gəlişi ilə xalqına dözüm, inam, ümid verdi. Azərbaycan yenidən çiçəklənməyə başladı. Bunu siz etdiniz, Heydər baba! Azərbaycanı ayağa qaldırmaq üçün çalışdınız, çırpındınız. Məhz sizin sayənizdə addımlayır Azərbaycan xalqı. Atəşkəs yaratdınız, neçə-neçə uğurlara vəsilə oldunuz. Bunun bariz nümunəsi 1994-cü ildə imzalanan, Azərbaycanın çökmüş olan iqtisadiyyatını dirildən, tarixə «Əsrin müqaviləsi» adı altında düşən neft müqaviləsidir. Kifayətləndiniz? Yox! Siz yenə də dayanmadan çalışdınız. Dayanmadınız. «Hər bir müstəqil dövlətə ordu lazımdır» – dediniz və sözünüzün üstündə durdunuz. Bu gün mən fəxrlə deyirəm: «Azərbaycan ordusu gücə, texni-

kaya, hər cür silah-sursata və bircə an belə düşünmədən vətən yolunda canından keçən mübariz oğullara malikdir. Sizin sayənizdə, Heydər baba!»

Heydər Əliyevin həyat yolundan, uğurlarından danışsaq, kəlmələr yetməz, əlbəttə ki. Müstəqil Azərbaycan dövləti yaratmaq uğrunda mübarizə 1969-cu ildən Heydər Əliyevin hakimiyyətə ilk gəlişindən başlamışdır. O bizə rəhbərlik etməzdən əvvəl bir çox vəzifələrdə işləmişdir. Uzaqgörən siyasətçi o dövrlərdə də milləti üçün çalışırdı. Heydər Əliyev bir sıra yüksək vəzifələrə təyin edilmiş, lakin xain adamların səyləri nəticəsində vəzifələrdən uzaqlaşdırılmışdır. Amma xalq dözdü, nə yaxşı ki, dözdü. Xalqımızın üstündən qara buludlar çəkilməyə başladı. O vaxt ki, o dahi şəxsiyyət bizə rəhbər seçildi.

«Öz ana dilini bilməmək, onu qiymətləndirməmək, əlbəttə ki, xalqın qarşısında böyük qəbahətdir». Bu fikir Heydər Əliyevə aiddir. Onun bu sözləri indiyə qədər qulağımdadır. «Mən istəyirdim ki, Azərbaycan gəncləri Şekspiri ingilis, Puşkini rus, Nəsimini, Nizamini isə Azərbaycan dilində oxusun». Məhz onun sayəsində neçə-neçə kitablar tərcümə olunaraq kitabxanalara verildi. Əgər bu gün Azərbaycanın gələcəyi olan uşaqlar rahat məktəbə gedib, istedikləri ali təhsil müəssisələrində təhsil almaq şansı qazanırlarsa, sizin daxili siyasətiniz nəticəsindədir.

«Konstitusiya vicdan azadlığıdır, biz isə onun qarantıyıq» – dediniz. Siz bu sözləri deyəndə bir çoxları şübhə ilə yanaşdı. Əslində, haqlı idilər, çünki müxtəlif vaxtlarda, müxtəlif şəxsiyyətlərin dilindən konstitusiya, söz, vicdan azadlığı vədləri eşitmişdilər, amma sadəcə eşitmişdilər. Sizsə əməl etdiniz. 1995-ci ilin 12 noyabrında Müstəqil Azərbaycanın ilk Konstitusiyası referendum yolu ilə qəbul olundu.

Azərbaycan günü-gündən çiçəklənir, inkişaf edir. Təəssüf, çox təəssüf ki, siz bunu görmədiniz. Heydər Əliyev 2003-cü il dekabr ayının 12-də xalqına əlvida dedi. Millətimizin beynində, şübhəsiz, yenə də suallar, oyandı: yenəmi o günlər qayıdacaq?!

*Bir oğul böyütdü – oğul deyirəm!*
*İşıqlı gələcək açarı onda.*
*Bir ev sevinmədi, bir el sevindi.*
*Heydər davamçısı İlham olanda.*

Bəli, bizim üstümüzdə hamıdan çox əməyi olan möhtəşəm siyasətçi xalqını onun qədər sevən oğul yetişdirmişdi, onun layiqli davamçısı İlham Əliyevi.



Tarixdə öz dəst-xətti olan çox az adam var. Onların baş sıralarında mən sizin adınızı gördüm. Siz zamanın nadir dühalarındansınız. Heydər Əliyev heç vaxt yıxılmaz, sarsılmaz bir Azərbaycan səltənəti yaratdı. Bununla yanaşı, bir qala da ucaltdı. Sevgi qalası, böyük bir xalqın ürəyində adı Heydər Əliyev olan məhəbbət qalası:

*Nə qədər Azərbaycan*
*Nə qədər bu millət var,*
*Heydər – «Xalqım» deyəcək*
*Xalq – «Heydər» söyləyəcək.*



## *Fərəczadə Milanə Şəmsi qızı*

***Bakı şəhəri, 132–134 nömrəli Təhsil Kompleksinin IX sinif şagirdi***

1923-cü ildə yer üzünə elə bir insan gəlir ki, o da adi uşaqlar kimi doğulur, böyüyür, məktəbə gedir. Heç kimdən fərqlənmir. Bu adi uşaq böyüyüb şəxsiyyətə çevrilir. Sözün əsl mənasında, şəxsiyyətə. Hamı onun bu nüfuzunu hiss edir və gələcəkdə qüdrətli bir şəxs olacağına inanır. Belə insanları zamanmı yaradır? Əgər zaman əhəmiyyət kəsb edirsə, nə üçün bir şəxsin yaranması üçün bir əsr, bəzən daha çox vaxt sərf olunur? Tarixdə dövrü üçün əvəzolunmaz insanlar az gəlib bu həyata. Şəxsiyyətdir bu insanlar. Zaman tarix yaradır. Tarix şəxsiyyət formalaşdırır. Adi bir uşaq kamil bir insana çevrilir. Gənc yaşlarında elin ağsaqqalına çevrilir.

Müxtəlif dövrlərdə xalqı üçün tarix yaradan şəxsiyyətlər az olmayıb. Azərbaycanın şanlı səhifələri vərəq-vərəqdir. XX əsr Azərbaycan üçün dəyişkən tarix və təkrarolunmaz hadisələrlə zəngindir. Bu hadisələr Azərbaycan üçün bir sınaq meydanı idi. Bu sınaq meydanında əsl igidlik göstərən isə yenə o böyük insandır. Çünki o, ayrı-ayrı dövrlərdə Azərbaycana rəhbərlik edib.

1969-cu ildə Azərbaycan rəhbərliyinə hələ bu aləm üçün yeni olan bir şəxs gəldi. Bu, Heydər Əliyev idi. O, ciddi idarəçilik məktəbi keçmiş və hətta artıq general rütbəsinə yüksəlmişdi. O, Azərbaycanda iqtisadi bazanın əsasını qoymağa çalışırdı. Halbuki zaman o zaman deyildi. Hər şey Moskvanın əli ilə həll olunurdu. Lakin Heydər Əliyevin dövründə həyatın elə bir sahəsi qalmamışdı ki, inkişaf etməsin. Bakı, Sumqayıt, Gəncə, Naxçıvan və s. bölgələr inkişaf edirdi. Yeni məktəblər, muzeylər açılırdı. Respublikada Səttar Bəhlulzadə, Niyazi, Rəsul Rza, Lətif Kərimov kimi korifeylər fəaliyyət göstərirdi. Minlərlə gənc Leninqradda, Kiyevdə, Minskdə



təhsil alırdı. Bu onu göstərirdi ki, o həm gözəl dövlət başçısı, həm də dahi uzaqgörən siyasətçi idi. O, müstəqil Azərbaycanı qurmağa çalışırdı. O, yarıməsrlik tarixi qabaqlamışdı. Heydər Əliyev Azərbaycanın təməl daşını, daha doğrusu, bünövrəsini qranitdən tökmüşdü.

O, xalqını sevirdi. Sevgisini hər vəchlə nümayiş etdirirdi. Onun – o böyük insanın hələ sovetlər dövründə Azərbaycan üçün etdikləri əvəzolunmaz idi. O təkcə Moskvanı razı salmağa çalışmırdı, həm də Azərbaycanın milli mədəni irsini qorumağa çalışırdı.

Heydər Əliyev dəfələrlə ermənilərin xain planlarını alt-üst etmişdi. Bəlkə də, Qarabağ müharibəsi başlananda o, hakimiyyətdə olsaydı, bu qədər torpaqlarımız işğal olunmazdı. O, fenomenal yaddaşa malik insan idi. İqtisadiyyatın, elmin, mədəniyyətin hər bir sahəsindən xəbəri vardı. O, hər bir azərbaycanlının müdafiə olunmasını istəyirdi. Elə buna görə də 1990-cı ilin 20 Yanvarında Sovet qoşunlarının Bakıda törətdiyi qanlı faciəyə laqeyd qala bilmədi. Ertəsi gün Azərbaycanın Moskvadakı nümayəndəliyindən bəyanatla çıxış edərək bu cinayətin təşkilatçılarının və icraçılarının cəzalandırılmasını tələb edir. Etiraz əlaməti olaraq Kommunist Partiyası sıralarını tərk edir. Dahi siyasətçi doğma torpağında yenidən siyasətə addım atdı. Hələ o dövrdə Azərbaycanda vəziyyət gərgin idi.

Azərbaycan dünya xəritəsindən silinmək təhlükəsi ilə üzbəüz qalmışdı.

Heydər Əliyev Azərbaycanı həm Şərq, həm də Qərb ölkələrinə yenidən tanıtdı. Azərbaycan bir neçə beynəlxalq təşkilatlara üzv oldu. Neçə-neçə mötəbər tədbirlərə ev sahibliyi etdi. Azərbaycan kül içindən dirçələn bir pöhrə kimi qol-qanad açdı. Azərbaycan nefti tək gəlir yox, həm də nüfuz gətirdi. Bu nüfuz Ümummilli Liderimizin növbəti uğurlarından biri idi. Milli liderliklə siyasi liderlik keyfiyyəti bu dahi insanda cəmləşmişdi. Heydər Əliyev fəaliyyət göstərdiyi bütün digər sahələrdə özünü I şəxs kimi təsdiq etmişdi.

Heydər Əliyev Azərbaycan xalqının yaddaşında xilaskar və qurucu dövlət xadimi kimi qalmışdı. O, unikal bir insan idi. Dünya siyasətinə təsir etmək gücünə malik idi. O, beynəlxalq səviyyədə düşünməyi və məsələləri həll etməyi bacarırdı. Heydər Əliyev qeyd edirdi ki, biz nazik sapın üstü ilə gedirik. Odur ki, biz gərək bu siyasəti o qədər ağıl və məharətlə aparaq ki, Azərbaycanın siyasətinə heç bir zərər dəyməsin. Onun siyasəti milli maraqlar üzərində qurulmuşdu. Heydər Əliyevin Azərbaycan və azərbaycanlılar üçün etdiklərindən saatlarla danışmaq olar. Lakin onu qeyd etmək lazımdır ki, o, müstəqil Azərbaycanı qurdu.

Deyirlər, zaman hər şeyi həll edir. Zamanı dayandırmaq, vaxtı durdurmaq qeyri-mümkündür. Zaman öz axarı ilə hərəkət edir və baş verən hadisələrin üzərinə tarixin qara pərdələrini çəkir. İllər, əsrlər ötdükcə tarixləşən hadisələr zamanın süzgəcindən keçərək keçmişin qara pərdələrini parçalayır. Belə hadisələrin tarixi aşıb xatirələrə çevrilməsinə isə insan səbəb olub. Zamanın fövqündə durmağı isə yalnız və yalnız şəxsiyyətlər bacarır. Belə insan isə hamımızın tanıdığı və örnək ola biləcəyi insan Heydər Əliyevdir.

*Heydər baba – yeni dövrün memarı,*
*Heydər baba – yurdumun şah damarı.*
*Heydər baba – xoşbəxtliyin vüqarı,*
*Səadətə, azadlığa bayraqdır.*









## *Xəlilova Laura Ülfət qızı*

***Qusar şəhəri, 1 nömrəli tam orta məktəbin XI sinif şagirdi***

10 may 1923-cü il qədim Naxçıvan torpağı... Gözəl bir yaz səhəri, qeyri-adi bir gün... Parlaq günəş, olduqca təravətli çiçəklər... Füsunkar bir təbiət... Aydın səmada mələklər də bu gözəllikdən vəcdə gələrək rəqs edir, xoş müjdələrdən xəbər verməyə hazırlaşırdılar.

Nə biləydin ki, həmin gün Əlirza kişinin ailəsində dünyaya gələn bir uşaq Azərbaycan tarixinə qızıl hərflərlə həkk olunacaq və xalqın qəlbində həmişəlik yaşayacaqdır. Tanrının Azərbaycan xalqına bəxş etdiyi bu insan Heydər Əlirza oğlu Əliyev idi. Tanrı onu bizə bağışladı ki, Odlar diyarı Azərbaycanın bu insana çox böyük ehtiyacı olacaqdı.

1920-ci illərdə Mustafa Kamal Atatürk Türkiyəni böhrandan xilas etmişsə, 1990-cı illərdə Heydər babamız Azərbaycan adlı məmləkətimizi məhvolmadan xilas etdi. Xilas etdi ki, əcdadlarımızın bizə əmanət qoyduğu bu ulu torpağa düşmən ayağı dəyməsin, sərvətlərimiz düşmən əlinə keçməsin, Azərbaycan məhv olmasın. Çox şərəfli bir ömür yaşadı və yaşatdı Azərbaycana mənim Heydər babam. Həqiqətən də, düşməni lərzəyə salan bir şəxsiyyət idi Heydər Əliyev.

XX əsrin sonları... Xalqımızın tarixinə ziddiyyətli hadisələrlə daxil olmuş bir dövr. Tarixin bu mürəkkəb dövründə əziz babamız bir şəxsiyyət kimi formalaşmış və mətinləşmişdi.

O, hakimiyyətə gəldiyi ilk gündən yalnız qardaş qanı deyil, həm də vətəndaş qanı axıdılmasının qarşısını aldı. Heydər Əliyevin zəkası, istedadı, bilik və bacarığı o qədər güclü idi ki, ən vəhşi silahları susdur, qana susamışları sakitləşdirdi.

Ömrünü doğma Vətəni Azərbaycanın dünəni, bu günü və sabahına həsr etdi mənim Heydər babam.

Heydər Əliyev deyəndə gözümün önündə nurlu simalı, qartal baxışlı, gözlərindən səmimilik, mehribanlıq və cəsarət yağan müdrik bir şəxs canlanır.

Hər gün «Mən həmişə fəxr etmişəm və bu gün də fəxr edirəm ki, azərbaycanlıyam» – sözlərini eşidirəm. Bu sözləri eşitdikcə fərəhlənirəm, fəxr edirəm ki, mən də Azərbaycan adlı məmləkətdə yaşayıram.

Xatırlayıram... Mən onda uşaq idim. Heç məktəbə getmirdim. Evimizdə divardan bir şəkil asılmışdı. Valideynlərim həmin şəklə xüsusi ehtiram göstərirdilər. Bir gün anamdan soruşurdum ki, ana, o, kimdir? Anam mehriban təbəssümlə dedi ki, qızım O, Heydər babadır.

Bəli, O, Heydər baba idi. Mənim Heydər babam elə bir sönməz günəşdir ki, öz isti nəfəsi ilə Azərbaycana yeni təravət gətirdi. O, xalqımızı zülmətdən qurtardı, onun işığını yandırdı. Dünyanın müxtəlif yerlərinə səpələnmiş soydaşlarımızın həmrəyliyini yaratdı. «Əsrin müqaviləsi» imzalandı, Bakı–Ceyhan, Bakı–Supsa neft kəmərləri çəkildi, üçrəngli bayrağımız Avropa Şurası Parlament Assambleyasının qarşısında – Strasburqda dalğalandı.

Müstəqil Respublikamızın ilk milli Konstitusiyasının qəbulu, Şərqdə ilk dəfə ölüm hökmünün ləğvi, demokratik yolla prezident və parlament seçkilərinin keçirilməsi, Milli Ordunun yaradılması, «Böyük İpək yolu»nun bərpası, ana dilimizə olan qayğı, milli və tarixi sərvətlərimizin qorunması Ulu Öndərimizin tarixi xidmətləridir. O, xalqına arxalandı, xalqından güc aldı, Yeni Azərbaycan Partiyasını yaratdı. Bu gün bu partiya ətrafında minlərlə Azərbaycan vətəndaşı birləşərək doğma Vətənin və millətin çiçəklənməsi üçün gərgin fəaliyyət göstərir. Bu gün gözlərimiz önündə Vətənimizin qurucusu, memarı, ulu öndərimiz Heydər Əliyevin şərəfli ömür yolu canlanır. «Mən gələcək nəsillərə çox güclü, qüdrətli, iqtisadi cəhətdən inkişaf etmiş Azərbaycan qoyub getmək istəyirəm» – deyən Heydər Əliyev xalqına verdiyi vədlərin hamısını yerinə yetirdi. Tanrı tərəfindən verilən ömrünü şərəflə yaşadı, amma ömrü sona yetmədi. İnsana bir dəfə verilən həyatı əsl insan kimi yaşadı, əbədi yaşamaq haqqı qazandı, əbədiyyətə qovuşdu.

Onun «Mən İlham Əliyevə özüm qədər inanıram və onun gələcəyinə böyük ümidlər bəsləyirəm» – ifadəsi Azərbaycanın gələcəyi naminə deyilmiş sözlər idi.

Həyatda və dövlət idarəçiliyi sahəsində Ulu Öndərimizin ən layiqli davamçısı möhtərəm prezidentimiz İlham Əliyev və Heydər Əliyev Fondunun prezidenti, UNESCO və ISESCO-nun xoşməramlı səfiri, MM-in üzvü



Mehriban xanım Əliyevanın gərgin əməyi sayəsində Azərbaycan böyük uğurlar qazandı. Möhtərəm prezidentimiz İlham Əliyev andiçmə mərasimində demişdir: «...Əsrin olan Azərbaycanın müstəqilliyini qoruyacaq, möhkəmləndirəcək, inkişaf etdirəcəyik. Sizin siyasətinizlə yeni qələbələrə doğru gedəcəyik».

Bu gün Azərbaycan xəritəsinə nəzər yetirək. Sözümüzü hansı uğurumuzdan başlayaq və harada yekunlaşdıraq. Hər şey göz qabağındadır.

Əziz babam, bir günəştək Azərbaycan xalqının yoluna nur saçdınız. Azərbaycanın sönməz günəşi sizsiniz – Ulu Öndərimiz.



## Məmmədzadə Gülşən Mehman qızı

*Ağdaş rayonu, Texniki, Humanitar və Təbiət Təmayüllü Gimnaziyanın X sinif şagirdi*

Bəli, deyəsən, gecə-gündüz fikirləşdiyim, arzularım, duyğularım, hislərim yavaş-yavaş üzə çıxmağa başlayır. Qoy yazdığım bu inşa mənim kiçik bir kitabım olsun. Sadəcə olaraq içimdən gələnləri duyduğum kimi yazmaq istəyirəm. Lakin bu yazımda nə qədər qüsurlar olsa belə, mən yenə də öz arzu və istəklərimi sizlərlə bölüşmək istəyirəm.

Qoy fikirlərimi Mərhəmətli və Rəhimdil Allahın adı ilə başlayım. Bu mənim dinimə, dilimə, elimə, obama, havama, suyuma, torpağıma olan məhəbbətimdən irəli gəlir. İnşama elə bir cümlə ilə başlamaq istəyirəm ki, ürəyimdə olan «tikan» çıxsın və rahatlaşım. Müdriklərimiz: «Hər bulağın suyu qoynundan süzülüb gəldiyi dağın xislətini üzə çıxarır, dadını, tamını büruzə verir. Bir ovuc buğda da xırmandakı taxılın keyfiyyətinin carcısıdır», – demişlər.

Biz Tanrının ən sevimli qulu və millətiyik. Sual verə bilərsiniz, nəyə görə? Bütün bəşəriyyətə üstün gələn din bizim dinimizdir. İslam dini və onun peyğəmbəri (s.ə.s.) Məhəmməd peyğəmbərdir. Bütün ölkələrə örnək olan ölkəmiz Odlar Yurdu Azərbaycandır. Bütün ölkə rəhbərlərinə örnək olan rəhbərimiz ölməz ulu öndər Heydər Əlirza oğlu Əliyevdir.

Oxuduğum bir kitabda Heydər Əliyev haqda belə yazmışdılar: «Heydər digər yaşıdlarından çox fərqlənirdi. Adi uşaq oyunlarına belə məntiqlə yanaşırdı. Yoldaşları onun çox bacarıqlı, ağıllı, düşüncəli oduğunu etiraf edirdilər».

Ulu Öndərin təhsil aldığı beynəlmiləl məktəbin üç – Azərbaycan, rus, erməni bölməsi vardı. Heydər Azərbaycan bölməsində oxuyurdu. Lakin rusdilli yaşıdları ilə daim ünsiyyətdə olduğu üçün rus dilini çox gözəl bilir, fikirlərini aydın ifadə edirdi. Hətta rus dili müəllimi Həsən Qazıyev onu



digər şagirdlərə nümunə göstərib belə deyirdi: «Baxın, Heydər rus dilini necə gözəl bilir».

Balaca olanda nənələrimiz, babalarımız bizlərə nağıllar danışardılar. Nağıllardakı qəhrəmanları bizə örnək olsun deyə öz xəyallarında canlandırdıqları kimi təqdim edirdilər. Lakin mənim vəsf etdiyim qəhrəmanım bütün nağıl qəhrəmanlarını kölgədə qoyur. Məhz mənim qəhrəmanım Azərbaycan tarixində silinməz iz qoymuş, öz dəst-xətti ilə seçilən, cəsarət, ləyaqət, müdriklik simvolu, ölməz ulu öndər Heydər Əlirza oğlu Əliyevdir. Yazdıqlarımı diqqətlə oxuyun, mən Heydər Əliyevin siyasətindən heç nə yazmadım. Əgər mən o nöqtələrə toxunası olsam, gərək qalınlığı bilinməyən bir kitab yazım. Sadəcə olaraq onu necə oldu ki, tanıdım və sevdim? Bu haqda yazacağam.

Həmin gün bizim evdə ancaq Heydər baba ilə bağlı söhbətlər getdi. Valideynlərim çox qəribə hislər keçirirdilər. Tez-tez deyirdilər: – «İndi necə olacaq?» Elə bil bir anlıq dünyanın sonu gəlmişdi. O fikirlərimi çatdırmaqda çətinlik çəkirəm.

Bildiyimiz kimi, 2003-cü il dekabrın 15-də xalq öz canından çox sevdiyi oğlunu Fəxri Xiyabanda torpağa basdırmaq üçün doğma Bakının küçələrinə çıxdı.

Mən 2004-cü il 15 sentyabrda 1-ci sinfə ilk qədəmlərimi qoymuşam.

Həmin gün tədbirdə çoxlu çıxışlar oldu. Kimisi birinciləri təbrik edir, kimisi tövsiyələr verirdi. Mənim üçün ən yadda qalan çıxış anamın tribunadan etdiyi çıxış oldu. Anam öz çıxışında belə deyirdi. «Əziz toplantı iştirakçıları, əgər biz övladlarımızı bu gün sülh şəraitində, qorxusuz, sevinclə, fərəhlə təhsil ocağına gətiririksə, bir şəxsiyyətə borcluyuq. Bu şəxsiyyət Azərbaycanı çiçəklənmə mərhələsinə gətirmiş, dünya siyasətçisi, danılmaz şəxsiyyət, el atası, siz körpələrin babası Heydər Əlirza oğlu Əliyevdir.

Sinfə girən kimi Heydər babanın böyük bir şəklini divardan asılı gördüm. Hicran müəllimə bizi şəklin qarşısında saxladıb onun haqqında gözəl fikirlər söylədi. Sonra biz partalarımızda əyləşdik. Təbii ki, mən o zamanlar oxumağı, yazmağı bilmirdim. Bir müddətdən sonra mən oxumağı, yazmağı öyrəndim. Mən, həmçinin hər kəsdən gizlin bir məktəbdə də oxuyurdum. Bu, Heydər Əliyev məktəbi idi. Mən ayrı-ayrı sinif otaqlarını gəzdikcə, şəhərlərdə olan tədbirlərdə, bayramlarda Heydər Əliyevin söyləmiş olduğu fikirləri oxuyur, özümə nümunə götürürdüm. Onun söyləmiş olduğu hər bir fikir mənim üçün örnək idi. Mənim onun haqqında bildiyim fikirlər məni bir sorğuda düşündürür. Heydər baba, sən nəyə aşiqsən?

Dünyayamı? Kainatamı? Vətənəmi? Təbiətəmi? Torpağamı? Siyasətəmi? Sənətəmi? İnsanlaramı? Qoy mən deyim. Sənin geniş qəlbin bütün sahələrdə çırpınan bir sülh göyərçinidir. Səməd Vurğunun bir bənd şeiri mənə elə gəlir ki, lap yerinə düşər:

*Qartal kimi qanadlanıb fəzaları aşarsan*
*Bir ülviyyət aləminin qucağında yaşarsan.*
*Sən ki, həyat aşiqisən, qoy bu eşqin var olsun*
*Nəsillərdən-nəsillərə adın yadigar olsun.*

İnşamın başlığında necə çətinlik çəkirdimsə, eləcə də sonluğunda çətinlik çəkirəm. Bu Şəxsiyyət haqqında yazıb nöqtə qoymaq mümkün deyil. Mən onsuz da nöqtə qoymuram. Allah izin verərsə, böyüyəndə «Heydər baba qəlbimizin nişanı» başlığı altında kitab yazacağam.





## Əsədova Məleykə Fazil qızı

***Lənkəran şəhəri, 1 nömrəli tam orta məktəbin X sinif şagirdi***

Hər bir xalqın tarixində müstəsna xidmətlər göstərmiş, xalqın, millətin çox ağır durumunda sinəsini qabağa verən və öz mənsub olduğu xalqın taleyüklü ağırlıqlarını çiyinlərində daşıyan şəxsiyyətlər, simalar mövcud olmuşdur. Azərbaycan xalqı da bu silsilədən olan öyünüləsi öndərlərlə kifayət qədər zəngindir.

Tariximizin ən qədim dövrlərindən dövlətçilik ənənələrimizin qorunmasında, xalqımızın milli şüurunun, milli özünüdərkin formalaşmasında Babək, Səttarxan, Cavad xan, Məhəmməd Əmin Rəsulzadə, Seyid Cəfər Pişəvəri və başqaları ayrı-ayrılıqda öz töhfələrini vermişlər.

Tale elə gətirdi ki, bu ali, çətin, lakin şərəfli missiyanı xalqımızın dahi oğlu Heydər Əliyev öz çiyinlərində daşımalı oldu. Yaxın tarixi keçmişimizə nəzər yetirsək, açıq-aydın görərik ki, bilavasitə bu və ya digər formada bütün uğur və nailiyyətlər ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır.

Azərbaycan dövlətinin inkişafının əsasının 1969-cu ildə Heydər Əliyevin Azərbaycan KP MK-nin birinci katibi seçilməsindən sonra qoyulduğu heç bir kəsə sirr deyil. Ümummilli Liderimiz sovet Azərbaycanını aqrar respublikadan sənayesi, iqtisadiyyatı güclü inkişaf etmiş müstəqil respublikaya çevirdi. Heydər Əliyevin xalqımız qarşısında ən böyük xidmətlərindən biri də Azərbaycan dilinin qorunub saxlanılması istiqamətində görmüş olduğu tədbirlərdir.

Heydər Əliyev Moskvada işlədiyi dövr ərzində də doğma xalqını, vətənini unutmur, xalqımızın problemlərinin həll olunmasında əlindən gələni əsirgəmirdi.

Lakin həmin dövrlərdə dünyada baş verən ictimai-siyasi gərginliklər keçmiş Sovetlər Birliyinin hər yerində olduğu kimi, Azərbaycanda da öz

mənfi təsirlərini göstərməyə başlayır. Belə bir fürsətdən istifadə edən, tarixi və əzəli düşmənimiz olan ermənilərin torpaqlarımıza qarşı növbəti təcavüzü baş verir. Son dərəcə kritik bir zamanda ölkədə milli azadlıq hərəkatı başlayır və nəhayət, 1991-ci il oktyabr ayının 18-də Azərbaycan Respublikasının Dövlət Müstəqilliyi haqqında Konstitusiya Aktı imzalanır. Lakin yenicə müstəqilliyini qazanan Azərbaycan suverenliyini itirmək təhlükəsi qarşısında qalır. «Müstəqilliyi qazanmaq nə qədər çətindirsə, onu qoruyub saxlamaq ondan da çətindir» deyimi Azərbaycanın mövcud vəziyyətinin göstəricisi idi. Bir tərəfdən ölkədə baş verən antiazərbaycan meyilli qüvvələrin hərəkətə keçməsi, digər tərəfdən hakimiyyət uğrunda gedən utancverici mübarizə ölkənin vəziyyətini daha da kəskinləşdirirdi.

«Haqq nazilər, amma üzülməz», deyib babalarımız. Haqqın nazildiyi, lakin üzülmədiyi bir zamanda Azərbaycan dövlətinin başı üzərində yeni bir günəş doğmağa başladı. Yeni doğan bu günəş öz nəfəsi, parlaq şəfəqləri ilə dövlətimizi isitdi və haqqı üzülməyə qoymadı. Heydər Əliyev öz canından belə çox sevdiyi xalqı ilə birlikdə məqsədyönlü siyasəti və Tanrının ona bəxş etdiyi fitri istedadı sayəsində Azərbaycan dövlətinin problemlərinin həll olunması istiqamətində bütün planları həyata keçirdi.

Ümummilli Liderimizin ikinci dəfə hakimiyyətə qayıdışı ilə ölkədəki ictimai-siyasi dağınıqlıqlara son qoyuldu. Naşı siyasətbazların fəaliyyətinə son qoyuldu. İnsanların həyatı normal məcraya düşdü.

Azərbaycan xalqı çox xoşbəxt xalqdır. Ona görə ki, Heydər Əliyev kimi böyük şəxsiyyət, böyük sima bu xalqın keşiyini çəkib, bu xalq üçün əlindən gələni əsirgəməmişdir. Mənim fikrimcə, biz hamımız – bütün Azərbaycan xalqı dünənini, bu gününü və hətta gələcəyini də o dahi insana borcludur.

Mən şagird düşüncəmlə fikirləşirəm ki, Heydər Əliyevin xalq, vətən, torpaq qarşısındakı xidmətlərini saymaqla qurtarmağa bir ömür bəs etməz.

Ulu Öndərimiz hakimiyyətə gəldikdən sonra dövlətimiz inkişafın, iqtisadiyyatın çətin yolu ilə addımlamaqda davam edirdi. BMT-yə üzv qəbul edilən Azərbaycanın dünya ölkələri arasında hörmət və nüfuzu artmağa başlamışdı. Bütün bunlar o dahi insanın yorulmaz əməyinin bəhrəsi idi. Liderimizin tək bir amalı var idi: «Xalqımızın rifah səviyyəsinin yüksəldilməsi, dünya ölkələri arasında dövlətimizin yüksək pillələrdə yer tutması».

Artıq Azərbaycan digər dünya ölkələri ilə diplomatik əlaqələr yaradırdı. Paytaxtımızda Türkiyə, İran, Rusiya kimi dövlətlərin səfirlikləri fəaliyyət göstərməyə başlamışdı. Heydər Əliyev Azərbaycan tarixində bir ilki etdi. O, BMT tribunasından xalqımızın haqq səsini bütün dünyaya tanıtdı.



Daha sonra dövlətimiz islam dövlətlərinin birliyi olan İslam Konfransı Təşkilatına üzv qəbul edildi.

Gözəl Azərbaycanımızın əlverişli coğrafi mövqeyi, təbii sərvətləri digər şirkətlərin diqqətini özünə cəlb etmişdi. 1994-cü il sentyabr ayının 20-də tarixə «Əsrin müqaviləsi» adı altında daxil olan neft müqaviləsi imzalandı.

İndi müstəqil Azərbaycanımız bütün dünyada tanınır. Bir sıra dünya ölkələrində üçrəngli bayrağımız əzəmətlə dalğalanır. Bu bayraq tarixi Azərbaycan torpaqlarında yaşamış bütün dünya azərbaycanlılarının birlik və bərabərlik bayrağıdır. İndi bütün Azərbaycan xalqı bu bayraq altında birləşir. İstiqlal döyüşlərində şəhid olmuş qəhrəmanlarımızın qanı ilə qazanılmış müstəqilliyimizin, azadlığımızın müqəddəs simvolu olan üçrəngli, ay-ulduzlu bayrağımız altında!

Azərbaycan Respublikasının Ümummilli Lideri, xalqımızın dahi oğlu Milli Məclisin tarixi iclasında ölkə parlamentinin başçısı seçilərkən demişdir: «Mən Azərbaycan xalqının bugünkü ağır, gərgin vəziyyətini tam məsuliyyətlə dərk edirəm. Heç bir kəsin şübhəsi olmasın ki, ömrümün bundan sonra qalan hissəsini harada olursa-olsun, yalnız və yalnız Azərbaycan Respublikasının müstəqilliyinin qorunmasına həsr edəcəyəm. Bundan sonra Azərbaycan dövləti heç bir dövlətin əsarəti altına düşməyəcək, heç zaman öz müstəqilliyini itirməyəcəkdir!»

Çox təəssüflər olsun ki, Heydər Əliyev 2003-cü il 12 dekabr tarixində əbədiyyətə qovuşdu. İndi bizi o dahinin ölümündən 11 il ayırır. Aqillərdən biri demişdir: «Dənizdən uzaqlaşdıqca onun böyüklüyü, əzəməti daha böyüyür». Heydər Əliyevin də fiziki yoxluğu bizdən uzaqlaşdıqca onun mənəvi varlığına daha da yaxınlaşırıq. Ümummilli Liderimizin canından çox sevdiyi milləti, xalqı, vətəni qarşısında görmüş olduğu xidmətləri daha geniş mənada dərk edirik.

*Qəbrin nurla dolsun, ey dahi insan,*
*Alimsən, şairsən, gözəl memarsan,*
*Səni unudarmı can Azərbaycan?*
*Biz harda varıqsa, Sən orda varsan!*

Bu gün Heydər Əlirza oğlu Əliyevin şah əsəri olan Azərbaycan parlaq gələcəyə doğru İlhamla, inamla irəliləməkdədir. Ümummilli liderimiz Heydər Əliyevin yorulmaz əməyi ilə qoyulmuş bu inkişaf İlham Əliyev tərəfindən uğurla davam edir. Heydər Əliyev məktəbi isə gələcək inkişaf yolumuza daim işıq saçacaqdır. Sanki o dahi uca Tanrı tərəfindən

Azərbaycana bəxş olunmuş töhfə idi. Sanki Heydər Əliyev xalqı üçün yaranmışdı, xalqına xidmət etmək üçün yaranmışdı və xalqı üçün də yaşadı.

Ulu Öndər hər dəfə gənclərə, şagirdlərə, bir sözlə, bütün Azərbaycan xalqına səsləndiyindən onları vətəni sevməyə, qorumağa çağırardı. Heydər Əliyevin bizim üçün qoyub getdiyi irs, müstəqilliyimiz, onu qorumaq hər bir azərbaycanlının yaddaşına, qəlbinə həkk olunmalı və gələcək nəsillərə ötürülməlidir. Çox illər keçsə belə, xalqımızın dahi oğlu daima qəlblərdə yaşayacaqdır! Nə qədər ki, Azərbaycan xalqı var, Heydər Əliyev də daim qəlblərdədir. Sonda inşamı Heydər Əliyevin çox sevdiyim bir cümləsi ilə bitirmək istəyirəm. «Mən həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam». Mən də azərbaycanlı olduğum üçün, doğrudan da, fəxr edirəm və bu dövlət üçün əlimdən gələni əsirgəməyəcəyimə söz verirəm.





**_Ağamalıyeva Xeyransa_**
**_Bəxtiyar qızı_**
**_9 nömrəli Bakı Peşə Liseyinin_**
**_II kurs şagirdi_**

Heydər Əliyev. Adını və soyadını demək kifayətdir ki, qarşında duran hər bir insanın üzündəki ifadə, gözlərindəki ssenari, hətta jestləri belə dəyişsin. Kimdir Heydər Əliyev? Dahi şəxsiyyət, Ümummilli Lider, uzaqgörən siyasətçi, yoxsa xilaskar? Kimdir Heydər Əliyev? O, güvənə biləcəyimiz bir insan idi.

Bəşər tarixi dəyişikliklər əsri kimi XX əsr Azərbaycan tarixində də böyük əhəmiyyətli hadisələrlə yadda qaldı. Ölən əsrin əvvəllərində Azərbaycan öz müstəqilliyini qazandı və yeni dövlətini qurdu. Ancaq təəssüflər olsun ki, Azərbaycan Demokratik Cümhuriyyətinin ömrü qısa oldu. Yeni yaranaraq ilk addımlarını atmağa başlayan Azərbaycan Cümhuriyyətini devirən millətimizin müstəqilliyinə qənim kəsilən bolşevik imperiyası gənc dövlətimizi yıxdı. Bu bir həqiqətdir ki, xalqımız on illərlə imperiyanın tərkibində yaşamaq məcburiyyətində qalsa belə, haqq yolundan dönmədi, sarsılmadı.

Ötən əsrin sonlarında xalqımız müstəqil tarixi nemətə sahib çıxa bildi.

Bu dəfə xalqın müdrik oğlu, görkəmli siyasi xadim, Azərbaycanın memarı, ümummilli lider Heydər Əliyevin əvəzolunmaz xidmətləri sayəsində Azərbaycan öz müstəqilliyini qazandı və onun inkişafına nail oldu.

Heydər Əliyev Tanrının xalqımıza olan böyük bir hədiyyəsi idi. O hədiyyə ki Azərbaycanın, xalqının azadlığı uğrunda əlindən gələni etdi və əvəzində heç nə tələb etmədi.

O, Azərbaycanın müstəqilliyini möhkəmlətməyi, xalqın azad olmasını, həyat səviyyəsinin artmasını, Azərbaycanın bütün dünya ölkələri arasında nüfuz qazanmasını istəyirdi.

Heydər Əliyevin həyatı elə Azərbaycanın tarixidir. Tarix şəxsiyyətlər yaradır, ancaq bu cür, yəni Heydər Əliyev kimi şəxsiyyətlər isə tarixi.

O, xalq və Vətən üçün nələr etmədi? Bizim - gələcək nəslin azad, suveren bir ölkədə yaşaması üçün nələr etmədi?

O cür müdrik, uzaqgörən siyasətçi insan Azərbaycanın və bizim bu günümüz, sabahımız üçün yaşadı.

Artıq bir neçə ildir ki, dahi şəxsiyyət Heydər Əliyev bizlə deyil. Müdrik ağsaqqal bizləri gözü yaşlı qoydu.

Vaxt keçsə belə, ay, il, əsr, qərinə olsa da, o bizim qəlbimizdə əbədi qalacaq. Heç vaxt, heç zaman unudulmayacaq.

Ümummilli lider Heydər Əliyev tarixini səhifələyərək oxuyub, öyrənməli, söyləyə-söyləyə sevərək təbliğ etməliyik. O bizlərə sevməyi və sevilməyi öyrətdi.

Artıq bizlə olmasa da, cismən ayrılsa da, ruhən hər zaman əbədiyyən bizim yaddaşımızdadır. O, böyüklə böyük, uşaqla uşaq kimi idi. Onun bizim ölkənin başına keçməsi böyük qurtuluş idi.

Heydər Əliyevdən sonra onun qoyub getdiyi Azərbaycanın gələcəyi, azərbaycançılıq ideyasını indi onun oğlu Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan və ən əsası iki dahi şəxsiyyətin – Heydər Əliyev və akademik, görkəmli oftalmoloq Zərifə xanım Əliyevanın oğlu İlham Əliyev yerinə yetirir.

Heydər Əliyev kimi şərəfli ömür yolu keçmiş, xalqa sədaqətlə xidmət göstərən şəxsin həyatını, gördüyü işləri bizdən sonra gələcək nəsillərə öyrətməliyik.

Xilaskarlıq missiyası onun alın yazısı idi. O, Vətəni üçün nələr etmədi?

O, fəxr edirdi ki, xalqı onunla qürur duyur. Heydər Əliyev bizlərə xalqı, milləti, Vətəninin hər bir qarışını, daşını sevdirdi. İndi biz də öz millətimizi, gələcəyimizi, bu gün və sabahımızı sevirik, Heydər Əliyev kimi.





## *Məmmədova Aytac Bayram qızı*

***Gədəbəy rayonu, Arıxdam kənd***
***tam orta məktəbin***
***IX sinif şagirdi***

Hər bir xalqın, dövlətin keçdiyi uzun tarixi yol ərzində yaşamış olan, qürur duyduğu, fəxr etdiyi qəhrəmanları vardır. O qəhrəmanlar yurdunu nəsildən-nəslə keçirərək bu günə gətirdilər. Bir-birinin davamçısı olub daha da güclənərək, tarixi yolu sürətli və əzəmətli keçiblər. Onları yada saldıqda insanı göyə ucaldan duyğular yaranır. Çünki dövlətimizi yaşadan, özgə xalqlara şan-şöhrətlə tanıdan, düşmən qarşısında başımızı ucaldan məhz elə onlardır. Xalqın qəlbində yaşayan, onları kövrəldən şəxsiyyətlərdir.

1923-cü il 10 may. Gözəl bir yaz günü. Bu gün ola bilər hər gün olduğu kimi başlamışdır. Amma sonradan Azərbaycan üçün yeni bir qəhrəman dünyaya gəldi. Bu elə qəhrəmandır ki, Azərbaycanın gələcəyini dəyişdirdi. Xalqının taleyini uçurumdan qurtardı. O, dahi bir liderdir. Məhz bu insanın səyləri nəticəsində Azərbaycan dönməz müstəqilliyə, inkişafa qədəm qoydu, uca bir liderlik zirvəsinə çatdı. O, ömrünü xalqına sərf edən, milli dövlətçiliyin əsasını qoyan bir liderdir. Bəs kimdir o? Bu suala cavab verməsəm də, hər kəs bu cümlələrin kimə aid olduğunu bilər. Hər kəsin gözü qarşısında eyni portret canlanar. Bu portretdə müdrik gözlərlə baxan dahi canlanar. «Vətən», «Vətən» deyən gözlər. İnsanın mübarizə ruhunu artıran gözlər. Amma mən yenə də Ulu Öndərimizin adını söyləmək istəyirəm. O bizim dahi liderimiz Heydər Əliyevdir. Öz yurdunun işıq saçan çırağı, parlaq ulduzudur. Dünyaya işıq saçan günəşdir. 1923-cü il 10 mayda doğan bu günəş ömrünün sonunadək şüalarını yurdunun üzərindən çəkməmişdir. Torpaqlarını isidərək onu dirçəltmişdir.

Bu gün mən böyük və şərəfli işə layiq görüldüm. Heydər Əliyev haqqında inşa yazmaq kimi şərəfli işə. Məni fikir apardı. Çünki bilirəm ki, bu çox məsuliyyətli işdir. Dahimizin həyat və fəaliyyətini yazmaq böyük savad tələb edir. Mənim gücüm buna çatarmı?

Azərbaycan xalqı xoşbəxtdir. Xoşbəxtdir, çünki o bu dünyaya həmişə yaddaşlarda silinməz yazı kimi qalan insan bəxş etmişdir. Bu xoşbəxtliyi xalqına yaşadan Heydər Əliyev də böyük xoşbəxtliyə nail olmuşdur. Azərbaycanın keçmişində dünya şöhrətli siyasətçi, bu günündə unudulmaz qəhrəman, gələcək nəsillər üçün ibrətamiz şəxsiyyətdir Heydər Əliyev. Ömrünü xalqına, dövlətinin müstəqilliyinə sərf etmiş, öz əməlləri ilə xalqın sonsuz məhəbbətini qazanmış, indiki müstəqil, müasir, azad və firavan Azərbaycanın qurucusuna çevrilmişdir. Xalqının qəlbində ən gözəl yerə layiq görülmüşdür.

O bizə Tanrının göndərdiyi bir möcüzə, bir ümiddir. Yaşadıqca böyüyən bir ümid, döyüşlərdə zəfər çalan əsgərdir. Göydə qanad çalan qartaldır.

Azərbaycanımız bu günə böyük çətinliklərdən keçərək gəlib. Əsarət altına düşüb, yadellilərin zülmünə məruz qalıb. Amma hər dövrdə onu düşdüyü çətin vəziyyətdən qurtaran Azərbaycan övladları olmuşdur. XX əsrin çətin vəziyyətindən bizi Heydər Əliyev xilas etmişdir. 1990-cı il Qanlı Yanvar faciəsi, 1992-ci il Xocalı faciəsi bizim silinməz qan yaddaşımızdır. İki əsr qovşağında Azərbaycan çətin dövrünü keçirdi. Hər zaman olduğu kimi, bu dövrdə də Azərbaycan özgə xalqlarının diqqətində olub. Müstəqilliyimizi bərpa etmək, qədim dövrlərdən bu günə qədərki zəngin tarixli Azərbaycanı xilas etmək asan deyildi. Heydər Əliyev Azərbaycanın bir dövlət kimi xəritədən silinməsinin qarşısını aldı. O, 1993-cü il 15 iyun tarixini bizə Qurtuluş Günü kimi bəxş etdi. Öz gərgin əməyi ilə Azərbaycanı bir çox sınaqlardan çıxaran Heydər Əliyev Azərbaycan Respublikasının Prezidenti seçildi. Heydər Əliyev hakimiyyətdə olduğu müddətdə həmişə ağıllı və tədbirli işlər görürdü.

Artıq dünyanın hər yerində Heydər Əliyev deyəndə Azərbaycan, Azərbaycan deyəndə Heydər Əliyev yada düşür. O yalnız öz dövrünün qəhrəmanı olmaqla kifayətlənməyib. Xalqının gələcəyi üçün məşələ çevrilmişdir. Onun qüdrəti, vətəninə olan bağlılığı düşmənlərini qorxuya saldı. Bütün dövlət başçıları onun məharətlərinə inanmağa məcbur oldular. Artıq bunların həqiqət olduğuna inandılar.

İnsan bu dünyaya gəldiyi zaman ağ vərəq kimi olur. Yaşadığı ömründə yaxşı, pis əməlləri, uğurları, fəxrləri ilə, öz həyat yolu ilə bu səhifələri doldurur. Ömrünün sonunadək bu səhifələr bir kitab halına gəlir. Hamı ömrü ilə bir kitab yazır. Amma hamının kitabı oxunmur. İnsan yaşadığı ömründə kitab səhifələrini öz fəaliyyətləri ilə mənalı etməlidir. Çünki insan dünyaya bir dəfə gəlir. Heydər Əliyevin də həyat kitabı mənalı və hər bir azərbaycanlıya örnəkdir.





## *Çobanova Sevinc Mustafa qızı*

*1 nömrəli Sumqayıt Peşə Liseyinin*
*I kurs şagirdi*

1923-cü il mayın 10-da Naxçıvanda zəhmətkeş Əlirza kişinin ailəsində bir oğlan uşağı dünyaya gəldi. Bəli, hamı kimi adi bir insan oğlu dünyaya gəldi. Ulu Babəkin azadlıq hayqırtısından, şah babamız İsmayılın qan daman qılıncından, dahi Nəsiminin «Məndə sığar iki cahan» söyləyən üsyankar misrasından, böyük Məhəmməd Əminin «Azərbaycan, Azərbaycan» söyləyən naləsindən, canı, qanı, varlığı bahasına yaratdığı müstəqil Azərbaycan Cümhuriyyətinin bayrağından doğuldu o. Amma hamı kimi adı bir ömür yaşamadı. Ömrünü qətrə-qətrə şam kimi əritdi, xalqımıza ata, dayaq oldu. Ürəyinin odunu, atəşini Azərbaycan xalqına həsr etdi.

Heç kimin ağlına belə gəlməzdi ki, bu gün, bu il dünyaya yüz ildə bir dəfə adi tarixə düşə biləcək bir insan bəxş edib. Elə bir insan ki, soyu, kökü türkün ən qədim soyundan gələn bir xalqın – Azərbaycan xalqının işıqlı gələcəyi, müstəqilliyi yolunda məşələ çevriləcək. Belə şərəfli ömür hər insana qismət olmur.

Heydər Əliyev tarixi qabaqladı, yeni, daha şərəfli bir Azərbaycan tarixi yaratdı. Biz gəncləri işıqlı gələcəyə aparacaq bir tarix.

Doğrudan da, xalqın, millətin tarixində, taleyində şəxsiyyətin yeri və onun həlledici rolu böyükdür. Bunu bəşər tarixi təkrar-təkrar sübut edib. Azərbaycan xalqının tale ulduzu olmaq, nadir şəxsiyyət zirvəsinə ucalmaq şərəfi Heydər Əliyevin qismətinə düşüb. Bütün Azərbaycan gəncləri bu adla fəxr edir, iftixar hissi keçirir. Onun zəngin, təkrarsız siyasi portretinə həkk olunmuş cizgilərini nəzərdən keçirdikdə Heydər Əliyev ucalığına, böyüklüyünə heyran qalmaya bilmirsən. Heydər Əliyev sağlığında ürəklərdə əbədi heykəlini ucaltdı. Həyata, azadlığımıza inam hissimizi qüvvətləndirdi.

*Sağlığında milyonların ürəyində*
*Heykəlini qoyan insan*
*Ölə bilməz, bil, heç zaman.*

Xalqımızın ən çətin günlərində atəş ürəkli Heydər Əliyev millətinə dəstək oldu. Azərbaycan xalqını müstəqil görmək istəyən, dünya dövlətlərinə meydan oxuya bilən, beynəlxalq arenalarda sözü keçən, himni səslənən dövlətin müəllifi, qurucusu oldu. Heydər Əliyevin müəllifi olduğu bu misilsiz əsərdən – müstəqil Azərbaycandan qiymətli nə ola bilər bizim üçün?

«Müstəqil Azərbaycan» dastanı yaratmış şəxsiyyət necə ölməz olmasın?

*Vətən, şax tut vüqarını,*
*Millət, unut qubarını.*
*Sağlığında milyonların ürəyində*
*Heykəlini qoyan insan*
*Ölə bilməz, bil, heç zaman.*

Azərbaycan dövlətinin və xalqının xilaskarı, əbədiləşmiş Heydər Əliyev. Tək balaca Heydərin yox, milyonlarla azərbaycanlı gəncin ölməz, həmişəyaşar babası. «Xalq mənim dayağım, gücüm və inamımdır», – deyən Heydər Əliyev özü xalqımızın gücünə və inamına çevrilib. Onun inamından, qətiyyətindən ruhlanan Əliflər, Mübarizlər, Ramillər qurban gedib vətən üçün. Məhz bu fədakarlıq Heydər Əliyevi bizə kimliyimizi göstərdiyi tərbiyə ilə bağlıdır. Budur şəxsiyyətin gəncliyə göstərdiyi böyük yol.

*İdrak idi, qüdrət idi,*
*Bir əlçatmaz zirvə idi.*
*İlahidən bu millətə,*
*Bəxş olunan qismət idi.*

«Heydər – Xalq, Xalq – Heydər» deyimi ən çətin məqamda xilaskar kimi meydana atılan, dövlətimiz üçün ən təhlükəli anlarda isə onun köməyinə xalqın gəlməsi böyük məslək birliyi deyilmi? Böyük rəhbərimiz Heydər Əliyevin olduğu müstəqil Azərbaycan dünya azərbaycanlılarının şəriksiz beşiyidir – ana yurdudur. Bunu bütün azərbaycanlılar bilməli, Heydər Əliyev ənənələrinə sadiq qalmalıdır.






## Məsimova Nərmin Mətləb qızı

**Şəmkir rayonu, Düyərli kənd**
**2 nömrəli tam orta məktəbin**
**X sinif şagirdi**


Azərbaycan, düşmənləri yandırıb-yaxan yurdum! Əgər çıraq götürüb sənin tarixini işıqlandırsaq, o zaman görərik ki, necə keşməkəşli həyat yolun olub. Bu keşməkeşdə səni ayağa qaldıran oğullarımız da eyni həyat yolunu keçiblər. Onların həyat yolu bax belə ifadə olunur: dastanlara sığmayacaq bir ömür yolu. Bir işıq mücəssəməsi, «mayası, qayəsi nur», yüksək zirvələrdə dayana biləcək bir ömür yolu. Naxçıvanda zəhmətkeş, sadə fəhlə Əlirza kişinin evində 91 il əvvəl bir oğlan uşağı dünyaya gəldi. Bu gün həyat və fəaliyyəti minlərcə insanın qibtə, maraq dünyasına çevrilən Heydər Əliyevin o vaxt gələcəkdə kim olacağını hələ heç kəs bilmirdi. Heç kəs bilmirdi ki, gələcəkdə dünya siyasətinin nəhənglərindən, XX əsrin dahi şəxsiyyətlərindən biri olacaq. Onu nəinki doğulduğu yerdə, həmçinin bütün dünyada barmaqla göstərəcəklər.

Onun ölkəmiz üçün gördüyü işlər əvəzolunmazdır, kitablara belə sığmazdır. Gəlimli-gedimli dünya, görəsən, neçə dəfə dolub boşalıbsan. Neçə şəxs sinəndə silinməz iz qoyub gedib. «Mən birinciyəm, dünya mənimdir» – deyənlərin heç birini dünya öz tarixində saxlamadı. O şəxsləri yaddaşında saxladı ki, onlar «dünya mənimdir» – demədilər, «mən dünyanınam» – dedilər. Məhz Heydər Əliyev də o şəxsiyyətlərdən oldu.

*Şirin bir xatirətək qalacaqdır dünyada,*
*Sevərək yaşayanlar, sevilərək ölənlər.*

Bəli, o, müstəqil Azərbaycanın qurucusudur. Əvəzolunmaz xidmətlərin qarşısında qələm belə aciz qalır. Nə yazaq, necə yazaq ki, ona layiq olduğu dərəcədə olmasa da, heç olmasa, ona yaxın şəkildə vəsf edə bilək. Vətəni, ananı sevmək necədirsə, onları ifadə etmək necədirsə, bax onu sevmək də belədir. Sözlər yetmir ki, ifadə edəsən. Heç ifadə etməyə ehtiyac

da yoxdur. Heydər Əliyev, hətta ailə həyatı qurarkən belə xalqa nümunə olmağı bacarıb. Xalqın ürəyinə hər əməli ilə yol tapıb, sevilib və yaddaşlara köçüb. Xalq onu ata bildi, sevdi, dəstəklədi.

Bu gün Azərbaycan müstəqildirsə, bütün dünyada tanınırsa, bu, Heydər Əliyevin siyasətinin bəhrəsidir. Azərbaycan XX əsrdə dünya ölkələri arasında bir gəmi, Heydər Əliyev isə onun mahir kapitanı idi. Və onu layiqincə lazım olan limana çatdırdı.

Heydər Əliyevin iqtisadi sahədə atdığı addımlar: «Əsrin müqaviləsi», «Bakı–Tbilisi–Ceyhan» neft boru kəməri ölkəmizin «qara qızılını» dünyaya tanıtdı. Neft strategiyası sayəsində qabaqcıl yer tutduq və bazar iqtisadiyyatında lazım olan mərtəbəyə çatdıq.

Latın əlifbasına keçid, Azərbaycan dilinin dövlət dili elan olunması, mədəniyyətin, təhsilin yüksəlişi, şəhər və kəndlərin bərpası onun siyasətinin nəfəsidir. Onun həyat yolu şərəfli həyat yoludur. Ondan həyatı barədə soruşanda o deyirdi: «Mənim həyatım barəsində danışmaq üçün çox vaxt lazımdır. Buna bir saat bəs etməz. Amma qısa olaraq deyə bilərəm ki, mən 1923-cü il mayın 10-da Naxçıvanda anadan olmuşam». Bütün həyatı boyu tikdi, qurdu, yaratdı. Amma fələk icazə vermədi...

Həmin gün – 12 dekabr. Azərbaycanın dahi şəxsiyyəti əbədiyyətə qovuşdu. Azərbaycanın sinəsinə çalın-çarpaz dağ çəkildi. Vətən üçün, xalq üçün döyünən ürək susdu. O cismən ölsə də, ruhən həmişə bizimlədir. Heydər Əliyev bütün gözəlliklərin ən uca zirvəsində, bütün yüksəkliklərin ən yüksəyində durdu. Ölməzlik zirvəsinə ucaldı.

Ən böyük arzusu Azərbaycanı müstəqil görmək, Qarabağı almaq, dünya ölkələri arasında tanıtmaq idi.

O, ölməzdir, çünki onun Azərbaycan adlı şah əsəri yaşadıqca o da yaşayacaq. O öz mübarək imzasını şah əsərinin üzərinə atdı. Azərbaycan onun balası idi. Üstündə nanə yarpağı kimi əsdiyi, hər nazına, şıltaqlığına dözdüyü balası. O da Azərbaycanın ən sevimli ləyaqətli balasıdır, fəxr olunacaq balası. O bizi sevib-sevilməyə, qurub yaratmağa, nəcib əməllərə, Vətəni qorumağa səslədi.

Azərbaycan narahat olmasın. Ölkəmiz əmin əllərdədir. Heydər Əliyev zəngin dühə, İlham Əliyev sağlam gələcək – deməkdir.

Heydər Əliyev həmişə bizimlə olacaqdır. O, əsrlərdən-əsrlərə adlayacaq. Şirin bir nağıl, xoş avazlı bayatı, unudulmaz musiqi kimi qəlblərimizi oxşayacaq. Bunu onun hər kəlməsi ilə sübut edə bilərik:

«Mən həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam».





## *Qurbanova Nəzrin Əbülfəz qızı*

***3 nömrəli Bakı Peşə Liseyinin***
***I kurs şagirdi***

*«Əgər kimsə Azərbaycanın dövlətçiliyinə xəyanət edəcəksə, mən son damla qanıma qədər onunla mübarizə aparacağam».*

**Heydər Əliyev**

Qarşımda dəftər, əlimdə qələm acizanə şəkildə oturub fikrə dalmışam. Acizəm ona görə ki, mənə bir dahi, əvəzolunmaz, sözün əsl mənasında, dünya şöhrətli lider haqqında inşa yazmaq həvalə olunub.

Mən uşaqlıqdan televiziyada saatlarla çıxışlarına baxdığım və qəlbən sevdiyim o insanı necə təsvir edim, necə deyim?

Mən o, insanı təsvir etmək, onun savadını, böyüklüyünü, dahiliyini və uzaqgörənliyini qələmə almaq üçün çox kiçiyəm. O, sonsuz bir dəniz, mənsə qum dənəciyi, o, göylər qədər uca, mənsə bir damla. Ancaq Allahın izni və onun böyüklüyü ilə özümdə güc toplayıb qələmimi işə saldım. Bilmirəm, ürəyimdəkiləri istədiyim qədər qələmə ala biləcəm, ya yox, amma bütün səy və bacarığımdan istifadə edərək çalışacağam ki, ürəyimdəkiləri qələmə alım...

Çünki haqqında yazdığım insan o qədər hərtərəflidir ki, o qədər böyük qüvvəyə malikdir ki, gözlərindəki məna o qədər dərindir ki, insan baxmağa belə çəkinir. Mən bilmirəm, o dahinin hansı tərəfini yazım. Onun hər sənətdən və sahədən xəbəri var idi. O, şairlə şair dilində, həkimlə həkim dilində, tarixçi ilə tarixçi dilində, müəllimlə müəllim dilində danışırdı. Gözəl mahnı oxuyur, şeir söyləyirdi. Yaxşı yadımdadır, dövlət tədbirlərinin birində incəsənət ustaları ilə ayrıca görüşdü. Səməd Vurğunun Azərbaycan şeirini kövrələ-kövrələ söylədi və gözləri doldu.

Bir insanın necə böyük ürəyi olar, bir insanın qəlbi nə qədər sevgi ilə dolu olar? Vətənə sevgi, el-obasına, dövlətinə, ailəsinə vurğunluq nə qədər olar?

Bəli, bu insanda sevgi sonsuz idi. Onun ürəyi o qədər böyük idi ki, onun qəlbində hər canlıya və cansıza böyük sevgi var idi. Adi bir ağacın çiçək açmasına sevinən bir insana, bəlkə də, həyatında bir qarışqanı belə öldürməyə ürəyi gəlməyən bir insana nə söz deyəsən?

İnsan həmişə güclü, müdrik dahilərin qarşısında özünü zəif hiss edir. Onun böyüklüyünü, gücünü, ilahiliyini qələmə almaq üçün Nizami, Füzuli qələmi lazımdır. Bir insan ki, məşhur ola, yer üzünün tanınmışları onun qarşısında baş əyə, ondan öyrənə, onu özünə ideal seçə, mən kiməm ki, o dahini vəsf edəm. Mən bir müdriklik etalonu olan, kimsəsizlərə sahib çıxan, onlara ata olan, köməksizlərə kömək olan, insanlıqdan xəbəri olmayanlara insanlıq dərsi keçən, öz həyat yoldaşına olan sevgisi və sadiqiyi ilə hamıya örnək olan, ailəsində Vətən üçün prezident yetişdirən bir insandan yazıram.

Bəli, Heydər Əliyev... Söhbət məhz bu əvəzolunmaz dahidən gedir. Elə bir dahidən ki, canını fəda etdi xalqı yolunda, Vətəni yolunda şam kimi şölələndi, insanların qəlbində əbədi abidə tikdi və əbədiləşdi.

Sevgi ülvi bir hisdir. Sevgi elə bir hisdir ki, onun qarşısında hamımız gücsüzük. Sevgi cürbəcür ola bilər. Vətənə, anaya, bayrağa və s. Mənim sevgim isə Heydər Əliyev kimi müdrikə, gözlərində ilahi məna olan və ilahiliyi ilə müqəddəs insanadır.

Bu gün mən Heydər Əliyevdən yazıram, gözlərim yaşlı, ürəyim ağrıyaraq. Çünki o gözəl insan yanımızda, aramızda yoxdur. Əlbəttə, cismən. Çox heyif. Heyiflər olsun ki, bizə əziz olan insanları, bizə arxa, dayaq olan insanları yanımızda saxlaya bilmirik, onlar bizi tərk edib gedirlər. Biz istəsək də, istəməsək də, ayrılmalı oluruq. Gözlərimizdə yaş, ürəyimizdə həsrət və ağrı-acı.

Mən çox istərdim ki, dahimiz bu gün də aramızda olardı, yenə televiziyada onun çıxışları göstərilərdi və mən indi onun çıxışlarına daha çox qulaq asardım, baxardım. Hər sözünü və kəlməsini özümə həyat dərsi, həyat məktəbi seçərdim. Çox heyif. Heyiflər olsun ki, bir mələk kimi uçdu, getdi. Onun dəfninə mən də qucaq dolu qərənfillə getdim. İnsan izdihamı içində idim, batdım, amma mən ona olan sevgimi boğa bilmədim, öz borcumu verdim ürəyimdən gələn hislərimlə, hönkürtümlə. Ulu, müdrik, ilahiliyi ilə cənnətə düşən Heydər Əliyevin ölümü tək məni yox, kiçikdən



böyüyə bütün Azərbaycanı ağlatdı, çünki onun yoxluğu bizi köməksizləşdirdi, təklədi və bir anda anladıq ki, necə bir faciə ilə üzləşdik.

Heydər Əliyevin itkisi elə itki idi ki, ona ağlamamaq, sızlamamaq mümkün deyildi.

«Mən həyatımın qalan hissəsini də xalqıma həsr edəcəm», – dedi Heydər Əliyev. O həsr etmədi, canını fəda etdi, sağlamlığının qeydinə qalmadı, bütün gününü xalqın arasında keçirdi, onların problemləri ilə tanış oldu və həll etdi.

Dünya miqyaslı görüşlər keçirdi, çoxlu nailiyyətlər əldə etdi, müstəqil, suveren Azərbaycan yaratdı və sağlamlıq yaddan çıxdı. Azərbaycan çiçəklənən ərəfədə, insanlar xoş günə çıxdığı dövrdə o bu gözəl günləri görmədi. Minnətdarıq Sizə ona görə ki, yerinizə öz davamçınızı qoyub getdiniz. Layiqli, savadlı davamçınızı. Siz son yaxşılığınızı xalq üçün etdiniz, bizi xəyanətkarların əlinə vermədiniz.

Bu gün biz günbəgün gözəlləşən, inkişaf edən, yeniləşən Azərbaycanda yaşayırıq. Bu gözəl Azərbaycan üçündə Sizə minnətdarıq. Siz cismən bizimlə olmasanız da, mənən bizimləsiniz.

Mən inşanı yazmağa başlayanda qeyd etdim ki, o dahi haqqında yazmaqda çox acizəm, amma yazdım. Ürəyimdəkiləri bacardığım kimi qələmə aldım, sizə çatdırdım. Sonda onu demək istəyirəm ki, illər keçsə də, əsrlər dəyişsə də, Heydər Əliyevin adı həmişə tarixdə qalacaq və əbədiləşəcək. O, adını tarixə qızıl hərflərlə yazdı.



## Abdullayeva Töhfə Etibar qızı

*Bakı şəhəri, S.Bəhlulzadə adına Xarici Dillər Təmayüllü Gimnaziyanın IX sinif şagirdi*

Bismarkın belə bir kəlamı var: «Şəxsiyyəti olmayan xalqın azadlıq uğrunda mübarizəsi ağlasığmazdır. Xalq əvvəlcə şəxsiyyət ətrafında birləşir, yalnız bundan sonra ideyalar haqqında düşünməyə başlayır».

Təbiət və tarix öz varlığında ülvi keyfiyyətlərin bir vəhdət halında birləşdiyi fenomenal insanları çox az-az yetişdirir. Azərbaycan Respublikasının qurucusu və memarı, dahi şəxsiyyət Heydər Əliyev kimi...

Bu dahi insan Azərbaycan xalqının yaddaşında qurucu və xilaskar dövlət xadimi, xalqın məhəbbətini qazanmış öndər kimi qalmışdır. Xalqımızın tarixi taleyində, mənəvi, siyasi və ictimai həyatında, dövlət quruculuğunda onun qədər misilsiz xidmətləri olan ikinci bir dövlət adamı tapmaq mümkün deyil. O, xalqımızın milli iftixarı, ürəklərimizdə yer tapan, özümüzə arxa bildiyimiz böyük azərbaycanlı idi.

Böyük şəxsiyyət, müdrik dövlət xadimi Heydər Əliyevin keçdiyi zəngin həyat yoluna nəzər saldıqda, xalq millət üçün etdiklərini bir-bir göz önünə gətirdikdə bütün bu işlərin bir insan ömrünə sığacaq zaman kəsiyində baş verdiyinə heç cür inanmaq olmur. Çoxları bunu onun fenomenal iş qabiliyyətinin həddən artıq məsuliyyətli və tələbkar olması ilə izah edirlər. Bu, doğrudan da, belədir. Amma zaman və məkan çərçivəsinə sığmayan o nəhənglikdə işləri görmək üçün, məncə, sadalanan keyfiyyətlər bəs eləmir. Çünki o deyilən keyfiyyətlər mənsub olduğu xalqa, torpağa böyük sevgi və məhəbbət hissi ilə döyünən qəlbdən qida almasaydı, elə bilirəm, tükənərdi.

«Azadlıq, istiqlaliyyət hər bir xalqın milli sərvətidir», – deyən Heydər Əliyev bütün ömrü boyu azadlığımızın, dövlət müstəqilliyimizin əbədi və dönməz xarakter almasına çalışmış bu müqəddəs yolda tarixi uğurlar qazanmışdır.



Liderlər var ki, siyasət meydanında illərlə püxtələşdikdən, təcrübə qazandıqdan sonra tanınır. Elə liderlər də var ki, bu onda fitri istedaddır, o sanki siyasət üçün yaranıb. Heydər Əliyev məhz belələrindəndir.

XX əsrdə Allahın Azərbaycan xalqına bəxş etdiyi bu tərəqqipərvər şəxsiyyətin nəhəng siyasət meydanında atdığı addımlar onun əsrimizin tarixində inamlı, danılmaz mövqeyini dəfələrlə sübut etmişdir.

Heydər Əliyevin zamanın tələbi ilə yenidən hakimiyyətə qayıdışı müstəqil dövlətimizin qısa müddətdə möhkəmlənməsi ilə nəticələndi. Ümummilli lider Heydər Əliyevin siyasi hakimiyyətdə olduğu 35 ilə yaxın vaxtın hər bir anı xalqımız üçün silinməz bir tarixdir. Heydər Əliyevin hakimiyyətdə olduğu illərdə tariximizə, tarixi keçmişimizə maraq artmış, tarixi hadisələrin obyektiv tədqiq edilməsi alimlərimizin qarşısına bir vəzifə olaraq qoyulmuşdur. 35 illik tariximiz, elmimiz, təhsilimiz bu dahi şəxsiyyətin adı ilə bağlıdır.

1993-cü ildə Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra bütün problemlər aradan qaldırılmağa başladı. Gənc nəslə diqqət və qayğı dövlətin ən mühüm fəaliyyət sahələrindən birinə çevrildi. Təhsilə və elmə yiyələnməyin vacibliyini xüsusi vurğulayan Heydər Əliyev bildirirdi ki, gənc nəslin vəzifəsi təhsil almaq və müasir tələblərə uyğun səviyyəyə qalxmaqdır.

Azərbaycan xalqının mənəvi-əxlaqi sağlamlığına xüsusi diqqət yetirən Heydər Əliyev üçün dil məsələsi mühüm amil olmuşdur. Azərbaycan yazıçıları ilə müxtəlif görüşlərində o bu məsələyə mənəvi-əxlaqi problemlər kontekstində qiymət vermiş, təhsil, məktəb, elmi-pedaqoji sahələrdə ana dilinin inkişafına xüsusi qayğı ilə yanaşmışdır. Heydər Əliyevin dil haqqında dediyi bir çox qiymətli sözlər bunu bir daha sübut edir. «Zəngin dil mədəniyyəti olan xalq ölməzdir», – deyən Heydər Əliyev bildirirdi ki, hər bir kəs öz ana dilində danışmalıdır.

«Heydər Əliyevin Azərbaycan üçün varlığı taleyin tanrı payıdır» – deyənlər yanılmırlar. Onun dərin zəkası, yüksək humanizmi, böyük siyasi uzaqgörənliyi, polad iradəsi, təmiz nitqi, sarsılmaz qətiyyəti, insanlarla bənzərsiz ünsiyyət qabiliyyəti və saymaqla tükənməyən digər ali, insani keyfiyyətləri həyat və mübarizəsinin əsasına çevrilmiş xalqın yaddaşında dərin iz qoymuşdur.

Azərbaycan təhlükə ilə üz-üzə qalanda xalq öz oğlunu təkidlə hakimiyyətə gətirdi. Məhz Heydər Əliyevin zəkası, qətiyyəti, mübarizliyi Azərbaycanı xilas etdi, ölkədə əmin-amanlıq yarandı. Heydər Əliyev hər bir kəsə, hər bir ziyalıya qarşı qayğıkeş, diqqətcil olmuşdur. Ömrünün 35 ilini

canından çox sevdiyi xalqının çiçəklənməsinə həsr edən Heydər Əliyev Azərbaycanı məhv olmaq təhlükəsindən qorudu. Heydər Əliyevin hakimiyyəti illərində yaşayışımızın bütün sahələrini əhatə edən köklü dəyişikliklər baş vermişdir. Həyatımızın elə sahəsi yoxdur ki, orada Heydər Əliyevin dəst-xətti olmasın. O, yüksəliş, yenilikçilik eşqi ilə aşıb-daşan, Vətənini çox sevən əvəzsiz lider idi.

Hər kəs anadan siyasətçi doğulmur. Amma məhz Heydər Əliyev siyasət üçün yaranan, dünya əhəmiyyətli məsələlərin həllində öz sözünü deyə bilən siyasətçilərdən olub.

Heydər Əliyev hakimiyyətə gəldikdə Azərbaycan çox pis vəziyyətdə idi. Dövləti ağılla idarə etmək lazım idi. Kiçicik bir səhv Vətənimizin dağılmasına gətirib çıxara bilərdi. Heydər Əliyev isə bunu bacardı. O, Azərbaycanı xilas etdi. Heydər Əliyev siyasət «şahmatı»nı çox ağılla oynadı və sonda da qalib gəldi. Biz bu gün müstəqil bir dövlətdə azad yaşaya biliriksə, bu, Heydər Əliyevin sayəsindədir.

Heydər Əliyev bu dünyadan köçsə də, onun adı xalqımız tərəfindən həmişə uca tutulur. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Heydər Əliyevin zəngin həyat yolunu, uzaqgörən siyasətini uğurla davam etdirir. Heydər Əliyevin adı həmişə qəlbimizdə yaşayır, xatirəsi yad olunur. Ulu Öndərin xatirəsini yad etmək biz azərbaycanlıların müqəddəs vəzifəsidir. Axı Heydər Əliyev Azərbaycan xalqının ölməzlik zirvəsidir.





## *Əzizova Aytac Rafael qızı*

***Salyan şəhəri, 2 nömrəli tam orta məktəbin XI sinif şagirdi***

Dahi şəxsiyyət uca bir dağa bənzəyir. Ondan uzaqlaşdıqca onun əzəməti və qüdrəti daha aydın görünür. Heydər Əliyevin də həyatı belədir.

Mənim üçün Heydər Əliyev haqqında inşa yazmaq gözəl hisdir. Ona görə də mən bu insanı fərəh hissi ilə yazıram. Çünki dahi şəxsiyyətə olan dərin məhəbbətimi bildirirəm.

Kiçik yaşlarımdan Heydər Əliyevə qarşı məhəbbətim, sevgim bitməz və tükənməzdir. Hər bir azərbaycanlı kimi, mənim də qəlbimdə Heydər Əliyev sevgisi aşıb-daşır. Televizorda, ictimai yerlərdə Heydər Əliyev haqqında danışılanda sakitcə və maraqla dinləyirəm. Dinlədikcə də vətənimə, xalqıma qarşı məhəbbətim artır.

Heydər Əliyev böyük dövlət xadimidir. Onun heyranlıq doğuran siyasi fəaliyyəti istər ölkə, istərsə də dünya mətbuatında geniş işıqlandırılmışdır.

Ulu Öndərin dövlət müstəqilliyimizin inkişafı, möhkəmləndirilməsi yolunda gördüyü işlər əvəzedilməzdir. Ona görə ki, 1990-cı il 20 Yanvar hadisələrində Azərbaycan xalqının haqq səsini ilk dəfə olaraq məhz Heydər Əliyev bütün dünyaya çatdırdı.

1991-ci ildə Heydər Əliyevin təşəbbüsü ilə 31 dekabr Dünya Azərbaycanlılarının Həmrəylik Günü kimi Naxçıvanda təsbit olundu. Biz hər il bu günü təntənəli şəkildə qeyd edirik.

1993-cü ildə Heydər Əliyev xalqın təkidi ilə hakimiyyətə qayıdır. Həmin ilin iyun ayının 15-də ulu öndər Heydər Əliyev Milli Məclisin tarixi iclasında ölkə parlamentinin başçısı seçilir və bu sözləri deyir: «Azərbaycan Respublikasının bugünkü ağır, mürəkkəb və gərgin vəziyyətini tam məsuliyyətlə dərk edirəm. Azərbaycan xalqının tarixi nailiyyəti olan Azər-

baycan Respublikasının dövlət müstəqilliyini qorumağı özüm üçün əsas vəzifələrdən biri hesab edirəm. Heç kəsin şübhəsi olmasın ki, ömrümün qalan hissəsini yalnız və yalnız Azərbaycan Respublikasının müstəqil dövlət kimi inkişaf edəcəyinə həsr edəcəyəm. Azərbaycan Respublikası bundan sonra öz müstəqilliyini itirməyəcək, heç bir dövlətin əsarəti altına düşməyəcəkdir».

Bu sözlər deyilərkən ölkəmiz ağır günlərini yaşayırdı. Azərbaycan vətəndaş müharibəsi ərəfəsində, qanımız bahasına əldə etdiyimiz müstəqillik təhlükə altında idi. Heydər Əliyevin hakimiyyətə qayıdışı yaranmış vəziyyətdən çıxış yolu açdı. Ən əvvəl qardaş qırğınının qarşısı alındı. Əllərdə oyuncağa çevrilmiş silahlar yığıldı. İnsanların bir-birilərinə yad münasibətinə son qoyuldu. Soyğunçuluq, talançılıq dayandırıldı. Cinayətkarlar məsuliyyətə cəlb olundular. Hüquqi dövlətin əsası qoyuldu. Bütün bunlara nail olmaq üçün isə böyük zəka və tükənməz enerji sərf etmək lazım gəldi.

Bugünkü sabitliyin, quruculuq işlərinin, demokratiya sahəsində əldə olunan nailiyyətlərin hamısı məhz Heydər Əliyevin adı və fəaliyyəti ilə bağlıdır.

Heydər Əliyev öz xalqı qarşısında övladlıq borcunu məsuliyyətlə dərk edərək onun çağırışını cavabsız qoymadı, millətin ağır günündə xilaskar kimi siyasi səhnəyə qayıdaraq ona olan etimadı yüksək səviyyədə doğrultdu.

Azərbaycanın XX əsrin sonunda müstəqillik əldə etməsi Heydər Əliyevin ən böyük müvəffəqiyyəti oldu. Azərbaycanda başlayan milli azadlıq hərəkatı uzaq ellərdə yaşayan və uzun illər həsrətində qaldığımız bacı-qardaşlarımız arasında milli oyanış, milli özünüdərk hisləri yaratdı.

Bu gün hər bir azərbaycanlı böyük ruh yüksəkliyi ilə dövlət müstəqilliyini qorumağı, inkişaf etdirməyi özü üçün borc saymalı və kənarda bu diyarı şərəflə təmsil etməlidir.

Heydər Əliyevin xarici ölkələrə uğurlu səfərləri zamanı ilk öncə bu ölkələrdəki soydaşlarımızla görüşləri onların Azərbaycana olan doğma münasibətini formalaşdırdı, mütəşəkkil təşkilatlanmasına təkan verdi. Heydər Əliyev deyirdi: «Harada yaşayırsansa yaşa, yaxşı da, pis də yaşasan, gərək ürəyin öz vətəninlə, torpağınla döyünsün. Gərək nəbzin vətənin nəbzi ilə vursun. Bu vətənpərvərlik hissi bizim hər birimizdə olmalıdır».

Ulu Öndər 2003-cü il dekabrın on ikisində gözlərini əbədi yumdu. Həmin gün bütün Azərbaycan matəm içində idi. Çünki hamımızın atası olan Heydər ata artıq cismən bizimlə deyildi. Hətta cansız əşyalar belə dil açıb bu kədəri büruzə vermək istəyirdi.



*Pis günündə arxa idin xalqına,*
*Heyran idin dərrakənə, ağlına*
*Tarixdə də yer ayrılıb adına,*
*Ölüm sözü sənə yaraşmır, baba,*
*Ümid idin açılacaq sabaha...*

Sən cismən bizimlə olmasan da, həmişə qəlbimizdəsən, sən hər bir azərbaycanlının qürur mənbəyisən, səninlə fəxr edirəm, əziz babam! Nəinki mən, bütün Azərbaycan xalqı fəxr edir.

Əziz babam! Sənin qoyduğun təməl üzərində Azərbaycan inkişaf edir. Bizim bu uğurumuz, nailiyyətimiz sənin adınla bağlıdır.

Sən bizə Azərbaycan torpağını miras qoyub getdin. Bu miras bizim üçün çox dəyərlidir. Rahat uyu! Bu mirası sənin kimi qoruyub gələcək nəsillərə çatdıran möhtərəm prezidentimiz İlham Əliyev var.

*Ölüm sevinməsin qoy, ömrünü vermir bada,*
*El qədrini canından daha əziz bilənlər.*
*Şirin bir xatirətək qalacaqlar dünyada,*
*Sevərək yaşayanlar, sevilərək ölənlər.*

Sənin ömür yolun haqqında inşa yazdığıma görə çox sevinirəm, babam!
Nə yaxşı ki, sənin yaşadığın vətəndə yaşayıram!
Nə yaxşı ki, sənin qurub-yaratdığın müstəqil Azərbaycanda yaşayıram!



## *Allahverdizadə Cavidan Rəfi oğlu*

*Neftçala rayonu, Qırmızıkənd kənd tam orta məktəbin IX sinif şagirdi*

Heydər Əliyev yazıçılıq bacarığı ilə «Azərbaycan» adlı şah əsərini yazmış, rəssamlıq bacarığı ilə böyük Azərbaycan xalqının rəsmini çəkmiş, həkimlik bacarığı ilə bir dövlətə ürək verib onu yaşatmış, memarlıq bacarığı ilə müasir, müstəqil Azərbaycanın təməlini qoymuşdur.

Görkəmli dramaturqumuz Hüseyn Cavid demişdir:

*Kəssə hər kim tökülən qan izini,*
*Qurtaran dahi odur yer üzünü.*

Bu sözlər bəşəriyyətin xilaskarı hesab edilən Heydər Əliyev kimi dahilərə aid edilə bilər.

Mən «dahi» anlayışını iki məqamda işlətmək istərdim: yaşadıcı dahilər və yaradıcı dahilər. Yaşadıcı dahilər yaratmırlar. Onlar sadəcə yaranmış olan hər hansı bir şeyi yüksəliş səviyyəsinə çatdırırlar. Yaradıcı dahilər isə bəşəriyyətə yeniliklər bəxş edir və onu zənginləşdirirlər. Mən bizim ulu öndərimiz Heydər Əliyevi hər iki dahiyə aid edərdim. Çünki o, Azərbaycan xalqı kimi bir millətin yaşadıcısı, Azərbaycan kimi bir dövlətin yaradıcısıdır.

Görkəmli şairimiz Nəbi Xəzri demişdir: «Xoşbəxt o xalqdır ki, öz günəşi var. O günəş ki, öz parlaq şüaları, isti nəfəsi ilə böyük bir xalqı isidir, qoruyur».

Azərbaycan xalqının üzərinə isə bu günəş 1923-cü il 10 may tarixində doğdu. Hələ ilk gündən Allah onu insanların ən gözəli, ən məğruru seçdi. Onun yaradılışı belə qeyri-adi idi. Çünki bu günəş şərqdən deyil, qərbdən – əfsanələr, igidlər yurdu olan Naxçıvandan doğmuşdu. Onun adı Heydər idi. Xalqımızın ümidi, sabahının bariz nümunəsi olan dahi Heydər Əliyev!



Koroğlunun, Dədə Qorqudun ruhundan qoynaqlanan vücudu onun əsl igid, vətəndaş kimi yetişməsinə səbəb oldu.

Hər bir dahi kimi, Heydər Əliyev də öz gördüyü işlərlə xalqımızın tarixinə əbədi olaraq yazılmışdır. O öz fəaliyyətini həyata keçirdiyi böyük və uğurlu işlərlə bəzəmiş, əsrarəngiz etmişdir.

Demək olar ki, o bunu bütün sahələrdə həyata keçirmişdir.

«Təhsil millətin gələcəyidir» – sözlərini Heydər Əliyev heç də təsadüfi deməmişdir. O bu sözlərlə bizə çatdırmaq istəmişdir ki, istənilən müstəqil bir dövlət və xalqın öz gücü və azadlığı üçün həmişə elmli və bilikli gənclərə ehtiyacı olub və olacaqdır da.

Təhsili gəncliyə kökləyən Heydər Əliyev dühası cəmiyyətin inkişafı üçün təkanverici qüvvəni uşaqların, gənclərin simasında görərək deyirdi: «Gələcək elmli və bilikli şəxslərin çiyinləri üzərində qurulacaqdır. Təhsil və gənclik fenomeni onu – bu uzaqgörən təşkilatçı, təbliğatçı və siyasətçi şəxsi çox düşündürmüş və maraqlandırmışdır.

Ulu öndərimiz Heydər Əliyev, eyni zamanda əsl vətənpərvər sərkərdə olmuşdur.

Sabahımızın işıqlı, təhlükəsiz olması güclü ordudan asılıdır. Böyük, nizamlı şəkildə təşkil olunmuş orduya malik olmaq hər bir dövlət üçün böyük xoşbəxtlikdir. Heydər Əliyev bu xoşbəxtliyi ölkəmizə bəxş etdi və güclü, böyük, nizamlı ordu yaratdı. Həmin ordu bu gün Heydər babanın açdığı cığırla böyük qürur hissi və inamla addımlayır.

Dahi Heydər Əliyev müdrikliyinin parlaq göstəricilərindən biri də onun Yeni Azərbaycan Partiyasını yaratmasıdır. Partiya yaratmaq xalqı gələcəyə inamlı şəkildə, məqsədyönlü istiqamətdə aparmaqdır.

Ümummilli liderimiz Heydər Əliyevin fəaliyyət yolu təkcə bunlarla bitmir.

Müstəqilliyimizin əsas ünsürlərindən olan ana dilimiz, onun özəllikləri və qorunması Ulu Öndərin parlaq zəkasının diqqətindən yayınmamış, şəffaf qəlbindən silinməmişdir. 1995-ci il 12 noyabrda qəbul olunmuş Azərbaycan Respublikası Konstitusiyasının 21-ci maddəsinə əsasən ana dilimizin doğma adının bərpası haqqında qanun qəbul edilmişdir. Bu qanunla Azərbaycan dili türk dilləri ailəsinə aid olan bir dil kimi qəbul və isbat edilmişdir.

O, «Xalqı dünyada tanıdan xüsusiyyətlərdən biri də onun mədəniyyətidir» sözlərini deyərək xoşbəxt simalı xalqımızın üzünə yeni mədəniyyət qapılarını açdı.

Heydər baba! Siz yeni bir tarix yazdınız. Amma özünüz də bilmədən silinməyən tarixlərə həkk edildiniz. Hansı ki, o tarixləri Mirvarid Dilbazi, Bəxtiyar Vahabzadə, Zəlimxan Yaqub kimi onlarla ədib öz qələmlərinin qızıl mürəkkəbi ilə bəzədi.

Heydər baba! Əmin olun ki, sizin yaratdığınız dövlət indi etibarlı və sağlam əllərdədir.

Heydər baba! İndi Sizin o möhtəşəm fəaliyyətinizi oğlunuz İlham Əliyev uğurlu bir şəkildə davam etdirir!

Dünəni, bu günü və sabahı qazanan Heydər baba. Siz əbədiyyətə qarışsanız belə, daim bizim ürəyimizdəsiniz!





## *İbrahimova Gültac İqbal qızı*

***Ağstafa rayonu, Dağkəsəmən kənd 1 nömrəli tam orta məktəbin XI sinif şagirdi***

XX əsrin sonu bizə heç gözləmədiyimiz halda acı, kədər və dəhşət gətirdi. Atasız qalmış övladların, oğulsuz qalmış anaların fəryad səslərini eşitməli olduq.

Belə bir gündə xalqımıza xilaskar, onu dar gündən qurtara biləcək bir insana ehtiyac yarandı. Həm başbilən, həm uzaqgörən bir insan. Vəziyyətin nəbzini tuta bilən, xalqını və vətənini sevən bir insan. Bu insan ümummilli liderimiz Heydər Əlirza oğlu Əliyev oldu.

Ta qədim zamanlardan başlayaraq vətənimizin yeraltı və yerüstü tükənməz sərvətləri, səfalı çölləri, qaynar bulaqları, məhsuldar torpaqları başına bəla olub. Naxələf qonşular, böyük dövlətlər onu çapıb-talamağa, yağlı bir tikə kimi udmağa çalışıblar. Amma Azərbaycan heç zaman onlara baş əyməyib. Məhz Babək, Cavanşir, Qaçaq Nəbi, Qaçaq Kərəm, Xətai kimi oğulları sayəsində. Vətənimizin bu uluları torpağımızı əldən verməmək uğrunda, minlərlə insanı ölümdən qurtarmaq naminə daim var qüvvələri ilə çalışmışlar. Azərbaycanın bu cəsur, yenilməz oğullarının adlarını fəxrlə sadalayarkən, xalqımızı inamla qələbəyə aparan dahi şəxsiyyət Heydər Əliyevin adını çəkməmək olmaz.

1969-cu ilin iyul ayı əbədi olaraq Azərbaycanın tarixinə həkk olunub. Məhz həmin gün Heydər Əliyevin hakimiyyətə gəldiyi gündür və Azərbaycanın inkişafı həmin gündən başlayır. O, hakimiyyətə gələn kimi respublikanın siyasi, sosial-iqtisadi və mədəni həyatını dərindən təhlil etdi, ciddi nöqsanların aradan qaldırılması yollarını müəyyənləşdirdi və qısa müddətdə idarəçiliyi möhkəmləndirdi.

1969–82-ci illərdə hakimiyyətdə olan zaman onun təşəbbüsü ilə çoxlu sayda zavodlar, fabriklər, məktəb binaları, idman kompleksləri açılıb istifadəyə verildi. 1975-ci ildə Bakı Məişət Kondisionerlər zavodu, Badam-

dar, Əhmədli, Günəşli kimi yaşayış məskənləri yaradıldı Onun Hüseyn Cavidin cənazəsini İrkutsk vilayətindən gətirilib doğma yurdu Naxçıvanda dəfn edilməsi təşəbbüsü xalqa olan qayğısını sübut edir.

O, hakimiyyətdə olduğu bu dövr ərzində böyük tarixi keçmişi, zəngin mədəniyyəti ilə daim qürur duyduğu və gələcək nəsillərinin taleyi üçün çalışdığı doğma yurdu – Azərbaycanı ən ağır və sərt sınaqlardan çıxardı.

Onun hakimiyyətə ikinci dəfə gəlişi özbaşınalığın tüğyan etdiyi, müstəqil dövlətçiliyin itirilməsi təhlükəsi ilə qarşılandığı bir vaxta təsadüf etdi. Belə bir vaxtda Azərbaycan xalqı təkidlə hakimiyyətin dəyişməsini tələb etdi. Heydər Əliyev xalqın bu təkidli dəvətini qəbul edib, Bakıya qayıtdı və yenidən hakimiyyətə gəldi. Bu, xalqın böyük sevincinə səbəb oldu və bu gün – 1993-cü il 15 İyul. Azərbaycan tarixinə Milli Qurtuluş Günü kimi daxil oldu.

Milli Məclisin tarixi iclasında ölkə parlamentinin başçısı seçilərkən Heydər Əliyev deyirdi: «Mən Azərbaycan xalqının bugünkü ağır və gərgin vəziyyətini tam məsuliyyətlə dərk edirəm. Azərbaycan xalqının tarixi nailiyyəti olan Azərbaycan Respublikasının müstəqilliyini qorumağı, möhkəmləndirməyi və inkişaf etdirməyi özümə borc bilirəm. Bundan sonra Azərbaycan heç vaxt hansısa dövlətin tərkibinə düşməyəcək və heç vaxt öz müstəqilliyini itirməyəcəkdir». Prezident deyirdi: «Bu dövlətin inkişafına xidmət etmiş bir adam kimi, mən bilirəm ki, biz burda nələr etmişik. Eşidəndə ki, mənim yurdum dağılır, talan edilir, bu dövlətin inkişafına xidmət etmiş bir adam kimi şübhəsiz, heç düşünmədən gəldim və bütün məsuliyyəti öz üzərimə götürdüm». Heydər Əliyev «Mən xalqıma arxalanıram və ömrümün qalan hissəsini də xalqıma bağışlayıram» sözləri onun necə də fədakar olduğunu sübut edir. Bu zaman müdriklərdən birinin dediyi sözlər yadıma düşür. Sanki bu sözlər Heydər Əliyev üçün yazılıb: «Dünyanı qurtarmaq üçün kimsə özünü qurban verməli, kimsə başqaları üçün ömrünü yandırmalı və bu yanğının çırağında qaranlıqlar yarılmalıdır».

Nəhayət, 1993-cü il 3 oktyabrda ümumxalq səsverməsi nəticəsində Heydər Əliyev Azərbaycan Respublikasının Prezidenti seçildi.

Onun hakimiyyəti dövründə, ən əvvəl, qardaş qırğınının qarşısı alındı, soyğunçuluq, talançılıq işləri dayandırıldı. Əsl hakimiyyətin əsası qoyuldu.

Heydər Əliyevin təşəbbüskarlığı ilə 1994-cü il 12 mayda atəşkəs elan olundu. Bu ordu quruculuğunun təkmilləşdirilməsi üçün əlavə vaxt qazanmaq idi.

Tarixdə elə günlər var ki, bu günlər bir millətin, bir dövlətin tarixinə yox, dünyanın yaddaşına yazılır. Belə günlərdən biri də Heydər Əliyevin



rəhbərliyi ilə imzalanmış «Əsrin müqaviləsi» adlanan neft müqaviləsi oldu. Bu müqavilə 1994-cü il 20 sentyabrda 6 ölkə və 10 xarici şirkət arasında imzalanmışdır. Heydər Əliyev deyirdi: «Neft Azərbaycanın ən böyük sərvəti olub, nəinki bugünkü nəslə, hətta gələcək nəsillərə də mənsubdur».

Heydər Əliyev elmə, təhsilə həmişə diqqət yetirirdi. Gənclərin mükəmməl təhsil alması üçün əlindən gələni əsirgəmirdi. O, Azərbaycan Respublikası Gənclərinin I Forumunda deyirdi: «Sizin qarşınızda uzun bir yol durur. Bu yol hamar deyil, maneələrlə dolu bir yoldur. Hər bir azərbaycanlı öz həyat fəaliyyətini qurarkən öz həyatı barədə, öz ailəsi barədə və ən əsası Azərbaycanın gələcəyi barədə düşünməlidir. Çünki maneələrlə dolu olan bu yol Azərbaycanın gələcəyi yoludur. Mən inanıram ki, hər bir Azərbaycan gənci vətənə layiqincə xidmət edəcəkdir».

Heyif ki, ömür Heydər Əliyevə imkan vermədi ki, o daha çox qurub-yaratsın. O, 2003-cü il dekabrın 12-də Amerika Birləşmiş Ştatlarının Klivlend xəstəxanasında vəfat etdi. Bu təkcə azərbaycanlıları deyil, bütün türk dünyasını yasa qərq etdi.

*Sazın sinəsi yandı,*
*Muğamat xal itirdi.*
*Bülbüllər yaşıl çəmən,*
*Çiçəklər bal itirdi.*
*Qaya xınalı kəklik,*
*Zirvə qartal itirdi.*
*«Heydər köçdü», – deyəndə*

**Z.Yaqub**

Heydər Əliyev xalqını coşqun məhəbbətlə sevən, daim sülh arzulayan, elobanın ən sevimli oğlu olan, xalqı ən ağır günlərdən xilas etməyi bacaran dahi şəxsiyyət idi. Bəli, bu gün o artıq aramızda deyil, amma gördüyü işlərlə xalqın qəlbində silinməz iz qoymuşdur və bu gün də xalqın qəlbində yaşayır.

Bu gün Azərbaycan xalqının yeganə təsəllisi İlham Əliyevdir. O, atasının siyasətini davam etdirir. Bu gün Azərbaycan yenə də müstəqil ölkədir. Günü-gündən inkişaf edir, gözəlləşir. Xalqımız üçün yeni iş yerləri açılır, son zamanlarda dövlət büdcəsi də artır. Xarici ölkələrlə əlaqə yaradılır. Milli Ordumuz getdikcə qüvvətlənir. Məhz bunların hamısı İlham Əliyevin uğurlu siyasəti nəticəsində yaranır.

Əzilmişik, amma üzülməmişik. Qəhrəman oğulları, qeyrətli qızları olan xalq heç zaman sına bilməz. Mən inanıram ki, vətənimizin qəhrəman oğulları kükrəyərək ayağa qalxacaq və əsl hərb meydanını düşmənə göstərəcəkdir.



## *Mirzəzadə Günel Nazim qızı*

***Saatlı rayonu, Varxan kənd tam orta məktəbin X sinif şagirdi***

*Vətənpərvərlik insanın daxili duyğusudur, daxili duyğusu olmayan insan mənəviyyatsızdır.*

**Heydər Əliyev**

Qələm əlimdədir. O, əmrə müntəzir dayanaraq, sanki təkid edərək deyir: «Yazmaq vaxtıdır! Yaz, yaz ki, gələcək öz keçmişinin təntənəsini iftixarla xatırlayıb öyünsün, fəxr etsin!»

Mənim Öndərim heç kimin qum zərrəciyində gözü olmayan, kimsənin kiçik qarışqasını belə tapdamayan, insanlığın, insanın sabahı üçün ömür payını bəşəri ideallarının reallığı üçün paylaşdıran, milyonların könül aləminin müdrik fatehidir!

Bu gün o, aramızda olmasa da, vətənimin hər qarışında, onun ağıllı, düşünülmüş, müdrik zəkasının bəhrəsindən doğan əzəmətli, möhtəşəm yaradıcılıq nümunələrinin şahidi oluruq. Böyük Seyid Əzimin misraları yadıma düşür:

*Mövti-cismanım ilə sanma mənim ölməyimi,*
*Seyyida, ölmərəm, aləmdə səsim var mənim.*

«Azərbaycanlı kimi dünyaya gəldiyimə, Azərbaycan dilində danışdığıma, Azərbaycan kimi vətənim olduğuna, Azərbaycanı təmsil etdiyimə görə özümü həmişə xoşbəxt saymışam», – deyən bu vətən oğlunun ömür kitabının ilk səhifəsi 1923-cü il may ayının 10-dan qədim Naxçıvan torpağında başlayır. Tale onu həyatın ən dərəli-təpəli yollarına çıxardı... Zamanın bahar təravətli nəfəsini, qışın sərt üzünü də gördü! Nankor fitnəsinə də tuş gəldi, dost məhəbbətinə də! Lakin heç zaman büdrəmədi! Sərt sınaqları



müdrik zəkası, düşünülmüş siyasəti ilə dəf edərək qocaman bir xalqın qəlbində məşələ döndü!

Mənim liderimin humanist idealları onu vətəndən kənarda da ucaltdı. SSRİ kimi nəhəng bir dövlətin əsas rəhbər vəzifələrindən birinə sahib olması onun insanlığın, haqqın, ədalətin simvolu olduğunun şərhsiz təsdiqidir!

Sinəsi param-parça edilmək təhlükəsində qalan, 20 Yanvar, Xocalı dərdli vətənin harayına səs verib, sızlayan yaralarına məlhəm qoyub sarıyan təbib oldu Heydər Əliyev!

Deyirlər, tarixi insan yox, tarix insanı yaradır. Mən isə çəkinmədən deyərdim ki, Heydər Əliyev öz əməlləri ilə XX əsrin qızıl səhifəli tarixini yaratdı.

Ey bu günümüzün, gələcəyimizin qurucusu dahi insan, bu gün hər bir vətənpərvər Azərbaycan övladının qəlbində ucaldığın möhtəşəm «Heydər Əliyev abidəsi» ilə gələcəyə doğru irəliləməkdəyik. Bizlərə əmanət qoyub getdiyin inamlı gələcəyimizin zəmanəti İlham Əliyev, sənin ocağının müdrikliyindən bəhrələnən, UNESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın mehriban şəfqətlərini öz üzərimizdə hiss etməklə qürur hissi keçirir və deyirəm: «Doğrudan da, biz xoşbəxt bir ölkənin xoştaleli vətəndaşlarıyıq!»



## *Musayev Kənan Xıdır oğlu*

***Quba rayonu, Zizik kənd tam orta məktəbin X sinif şagirdi***

«Azərbaycan xalqı xoşbəxtdir ona görə ki, ona Heydər Əliyev kimi müdrik bir insan rəhbərlik edib». Bu sözlər bir sıra dövlət başçılarının dilindən dəfələrlə səslənib. Bu, bir həqiqətdir. Məhz Heydər Əliyevin səyi nəticəsində Azərbaycan dönməz müstəqilliyə, inkişafa və tərəqqiyə qədəm qoymuşdur. O bütün həyatını xalqına sərf edən, milli dövlətçiliyin əsasını qoyan lider idi.

1969-cu ilin 14 iyulu Azərbaycan xalqının, Azərbaycan Respublikasının tarixinə həkk olundu. Həmin gün Heydər Əliyevin ilk dəfə hakimiyyətə gəldiyi gündür. Ölkəmizin həqiqi inkişafı da elə həmin gündən başlamışdır. 1993-cü il iyulun 15-i Azərbaycanda Qurtuluş Günüdür. Əgər Heydər Əliyev xalqın təkidi ilə Naxçıvandan Bakıya gəlməsəydi, ikinci dəfə Azərbaycana rəhbərlik etməyi qəbul etməsəydi, bu gün dünyanın siyasi xəritəsində Azərbaycan Respublikası adlı dövlətin mövcudluğu mümkün olmayacaqdı.

Heydər Əliyev Azərbaycana gəldikdə ölkə çox ağır bir vəziyyətdə idi. Sonralar o günləri Ulu Öndər belə xatırlayırdı: «Eşidəndə ki, mənim doğma vətənim, mənim doğma torpağım dağılır, uzun müddət bu ölkənin, vətənin inkişafına xidmət etmiş bir insan kimi, mən bilirəm ki, biz burada nələr etmişik və şübhəsiz ki, özümü qurban verməli oldum və gəldim, məsuliyyəti öz üzərimə götürdüm».

Hadisələrin sonrakı gedişatı onu göstərirdi ki, bir tərəfdən vətəndaş müharibələri, digər tərəfdən siyasi hakimiyyətin böhranında sıxılan Azərbaycana rəhbərlik etmək məsuliyyətini yalnız Heydər Əliyev öz üzərinə götürə bilər. Bu tarixi məsuliyyət isə Milli Məclisin Azərbaycan Respublikasının Prezidentinin səlahiyyətlərinin Ali Sovetin sədri Heydər Əliyevə



keçməsi haqqında 24 iyul 1994-cü il tarixli qərarı ilə hüquqi baxımdan təsbit edildi. Bu hadisə sosial münaqişələrin məskəninə çevrilən, vətəndaş itaətsizliyinin əhatəsində yaşayan, qoluzorluluğun və özbaşınalığın tüğyan etdiyi, müstəqil dövlətçiliyini itirmək təhlükəsi ilə qarşılaşan Azərbaycanın bütün bu bəlalardan xilas olması yolunda mühüm əhəmiyyətə malik idi. Bu dövrdə dünyanın diqqət mərkəzi Azərbaycana yönəlmişdi. Bir-birinin ardınca baş verən ağır siyasi proseslər, millətçi separatçılıq Azərbaycanın müstəqilliyini və azadlığını təhlükə altına almışdı. Belə bir ağır siyasi vəziyyətdə bütün bu çətinlikləri yaşadıqdan sonra millət birmənalı olaraq dərk etdi ki, hər kəsdən lider olmaz. Onun özünə layiq rəhbəri olmadan bu bəlalardan xilas olmaq mümkün olmaz.

1993-cü ilin yayında Azərbaycanda baş verən hakimiyyət çevrilişi onun daxili və xarici siyasi fəaliyyətlərinin yeniləşməsinə və ölkənin strateji maraqlarına əsaslanan şəkildə yenidən qurulmasına şərait yaratdı. Heydər Əliyev Azərbaycanı dünyanın siyasi xəritəsindən silinməkdən, keçmişdə olduğu kimi xanlıqlara bölünməkdən, tamamilə məhv olmaqdan qurtardı. Çox qısa bir müddətdə vətəndaş müharibələrinin alovları söndürüldü, ölkədəki silahlı qüvvələr ləğv edildi. Əhalidə olan bütün silah-sursat yığıldı. Müharibədə uzunmüddətli atəşkəsə nail olundu. Dövlət çevrilişi cəhdlərinin qarşısı alındı. Şübhəsiz ki, Azərbaycana qarşı törədilən bütün bu əməllər onun müstəqilliyinə yol verməmək üçün idi. Vətənə və xalqa həqiqi müstəqillik qazandıracaq bir şəxsin yenidən ölkə rəhbərliyinə geri qaytarılması və xalqın mütləq çoxluğunun onun tərəfində olmasını görənlərin məqsədli şəkildə dalbadal təxribat, terror, sui-qəsd və dövlət çevrilişləri törətməsini düşünməmək sadəlövhlük olardı. Çünki onların bədnam niyyətlərinin qarşısını alan bir şəxsin yenidən dövlət sükanının arxasına keçdiyini yaxşı başa düşürdülər. Həmin dövrdə Azərbaycanın həm dostları, həm də bədxahları əmin oldular ki, müstəqilliyimizi geri döndərmək üçün heç bir qüvvə mövcud deyildir. Azərbaycan xalqı öz rəhbərinə inanır, güvənir və dəstəkləyir. Müdrik və uzaqgörən rəhbərimiz xalqını müstəqilliyin çətin, mürəkkəb və keşməkeşli yolları ilə irəli aparır.

1993-cü ilin iyun ayında Heydər Əliyevin Azərbaycana qayıdışı xalqın taleyində böyük rol oynamışdır. Əgər Heydər Əliyev Azərbaycana qayıtmasaydı, müstəqillik, firavanlıq – bütün bunların heç biri olmazdı. Heydər Əliyevin rəhbərliyə başladığı andan etibarən Azərbaycanda müstəqillik, iqtisadi yüksəliş, azadlıq və elmi-tərəqqi dövrü olmuşdur. Çox qısa bir müddətdə Azərbaycan dünya ölkələri arasında layiqli yerini tutmuşdur. Nəhayət, Heydər Əliyevin səyi nəticəsində 1994-cü il tarixində «Əsrin

müqaviləsi» adı altında ən böyük neft kontraktı imzalanmışdır. Azərbaycan İslam Konfransı Təşkilatının Türk Dövlətlər Birliyi, Ümummilli Valyuta Fondu, BMT, NATO kimi təşkilatlarda nüfuzlu yerini tutmuşdu. 2001-ci il Dünya Azərbaycanlılarının I qurultayında Heydər Əliyevin söylədiyi fraza kiçikdən böyüyə hər kəsin yaddaşındadır:

«Mən həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam!» Mən də fərx edirəm ki, bu ölkənin vətəndaşıyam və mənim Heydər Əliyev kimi rəhbərim olub.

Ümummilli lider Heydər Əliyevin ən ağır dərdi xalqın, Vətənin dərdi idi. Məmləkətin ayağına dəyən daş, onun ürəyinə dəyərdi. Bu sözləri yazdıqca 1990-cı il qanlı 20 Yanvar faciəsi yada düşür. Azərbaycanın üzərinə qoşun yeridilməsi və günahsız soydaşlarımızın qətlə yetirilməsini görən Heydər Əliyev bu ağır cinayətə sakit yanaşa bilmədi. O, təqiblərə, özünə və ailəsinə qarşı yönələn təhlükələrə məhəl qoymayaraq Azərbaycanın Moskvadakı daimi üzvlüyünə gedərək, hakimiyyətə qarşı kəskin etirazını bildirmişdi. Həmin dövrdə qapalı həyat tərzi keçirməyə məcbur edilən bir şəxsin belə bir addım atması, sözün əsl mənasında, qəhrəmanlığa bərabər idi.

Mən bu inşamı Ulu Öndərin bu sözləri ilə bitirmək istəyirəm:

«Biz Azərbaycan Xalq Cümhuriyyətinin layiqli varisləri olacağıq, xalqımızın azadlığını qoruyacağıq və saxlayacağıq. Biz bundan sonra da Azərbaycan xalqının müstəqilliyini göz bəbəyimiz kimi qoruyacaq, onu gündən-günə möhkəmləndirəcək, daha da yüksəklərə qaldıracağıq».





## *Mahmudova Gülxanım Anar qızı*

*Masallı rayonu, «Dəfinə» məktəb-liseyinin IX sinif şagirdi*

Deyirlər, hər kəs öz ömrünü, öz taleyini yaşayır. Ulu Öndərimizin yaşadığı ömür isə sadəcə bir insanın bioqrafiyası deyil, bir xalqın, bir məmləkətin tarixidir. Heydər Əliyev ömrünün hansı mərhələsini götürsək, onda Azərbaycandakı iqtisadi, ictimai-sosial iqlimi dəqiq müəyyənləşdirə bilərik. Çünki bu həyatın bütün gücü, qüdrəti, enerjisi, təntənəsi xalqdan qidalanıb, xalqdan alındığı kimi, həm də bütövlükdə xalqa həsr olunmuşdur.

Məşhur bir məsəldə deyilir ki, bütün yollar məbədə aparır. Bizdə də xalqın rifahı naminə görülən bütün işlər yalnız bir ünvana – Heydər Əliyev adına sıx bağlıdır. Çünki Heydər Əliyev ideyaları xalqın nikbin sabahıdır.

Bircə onu demək olar ki, Heydər Əliyevin qurduğu, memarı olduğu müstəqil Azərbaycan dövləti indi dünyanın hər yerində tanınır.

Azərbaycanın XX əsrin 70-ci illərinə qədər olan o ağrı-acılı dövrlərini Heydər Əliyev siyasi hakimiyyətə gəldikdən sonra xalqın və millətin nikbin gələcək arzuları, ümidləri və inamı əvəz etdi.

Heydər Əliyev hakimiyyətə gəldikdən sonra müstəqilliyimizin təməli olan uğurlu işlər gördü və ən əsası dövlətimizin başqa ölkələrdən asılılığını minimuma endirdi.

Ümummilli lider SSRİ rəhbərliyində çalışdığı müddətdə bütün insanlara eyni cür rəftarı ilə nümunə oldu. O, daima milliyyətindən, dilindən və dinindən, irsiyyətindən asılı olmayaraq, bütün insanlara eyni münasibət bəslənilməsinin vacibliyini əsaslandırılmış şəkildə vurğulayırdı.

Ulu Öndər siyasi hakimiyyətə gəldiyi dövrdə Azərbaycan Respublikası iki il idi ki, müstəqillik qazanmışdı. Məlumdur ki, onun siyasi hakimiyyətə gəlməsi zərurətdən yaranmışdı.

Ölkədə siyasi sabitliyin pozulması, cinayətkar dəstələrin özbaşına hərəkətləri, müstəqilliyimizə son qoymaq, sərvətlərimizə sahib olmaq üçün göstərilən xarici təsirlər, erməni vəhşiliyi müstəqilliyimiz üçün böyük təhlükə idi.

Amma Heydər Əliyev bu çətinliklərdən siyasi bacarığı, liderlik zəkası ilə çıxdı. Heydər Əliyevin ikinci dəfə siyasi hakimiyyətə qayıtması ilə Azərbaycanın başı üzərindən qara buludlar yox oldu. Ulu Öndər o buludları dağıdan, Azərbaycanın başı üzərində daim yanan, sönməyən bir günəş oldu.

Heydər Əliyevin dünya səviyyəsində gördüyü işlər dünya rəsmilərinin belə diqqətini cəlb etmişdi. Amerika Birləşmiş Ştatlarının Dövlət Departamentinin rəsmisi Heydər Əliyevin ölümünü belə qiymətləndirirdi. «Heydər Əliyevin ölümü ilə dünya sanki bir qədər balacalaşdı».

2003-cü il soyuq dekabr günlərindən birində televiziyada ağlayan, göz yaşları su kimi axan insanları gördüm. Hamının üzündə xüsusi bir hüzn, kədər vardı. Mən o zaman atamdan soruşdum: «Ata, ermənilər yenə Azərbaycana hücum edib?» Atamın cavabı isə belə oldu: «Qızım, bu insanların göz yaşlarının su kimi axmağı səbəbsiz deyil. Bu, Heydər baba ilə bağlıdır. O bu dünyadan köçüb əbədiyyətə qovuşdu». Küçədəki insanları, ailəmizdəki sükutu gördükdən sonra Heydər baba bu qədər sevildiyi üçün «yəqin ki, çox yaxşı insan imiş» deyə düşündüm.

Bu gün mənim 15 yaşım var. Mən bu gün Heydər babanı balaca uşaq ağlıyla yox, bir yeniyetmə kimi dəyərləndirirəm və mən indi anlayıram ki, Heydər Əlirza oğlu Əliyev yalnız yaxşı insan deyil, həm də ulu öndər, ümummilli lider, ictimai-siyasi xadim, yenilməz sərkərdə, əsl vətənpərvər, möhtəşəm bir lider imiş.

Doğrudur, Heydər Əliyev bu dünyadan köçdü, amma yoxluğu da varlığı qədər möhtəşəm olan şəxsiyyət kimi hamının yaddaşında həmişəlik qaldı.

Tarixi şəxsiyyətlər dünyadan köçdükdən sonra onların yeri müəyyən müddət ərzində boş görünür. Heydər Əliyevin böyüklüyü, digər tarixi şəxsiyyətlərdən fərqi onda idi ki, o özündən sonra dövləti, xalqı, milləti özü qədər idarə edə biləcək uzaqgörən bir siyasətçi qoydu.

Heydər Əliyevlə cismani ayrılığın əzabına dözməyimizə bu amillər səbəb oldu, bu amillərlə təsəlli tapdıq. Heydər Əliyevin səpdiyi təhlükəsizlik, müstəqillik, azadlıq toxumları gündən-günə göyərəcək, cücərəcək. Bu gün iftixarla demək olar ki, Prezident İlham Əliyev Azərbaycan Respublikasının inkişafı, çiçəklənməsi uğrunda işləri böyük məharətlə görür.



Bu gün o ağrılı dekabr günündən bizi 10 ildən çox vaxt ayırır və mən ürəyimdə inam, gözlərimdə sevinc yaşları ilə pıçıldayıram: «Ruhun şad olsun, Ulu Öndər! Sən İlham Əliyev kimi ziyalı, bacarıqlı oğul böyütdün. Yaşadığınız dövrdə hələ heç kim öz xalqını, millətini sənin qədər xoşbəxt etməyi bacarmayıb. Sən xoşbəxtliyin özüsən. Bu xoşbəxtlik yalnız bizi yox, bütün dünyanı xoşbəxt etməyə bəs edər».

Heydər Əliyev elə bir lider idi ki, Azərbaycanın bundan sonrakı liderləri üçün etalon rolunu oynayaraq xalq, millət seçdiyi bütün liderləri məhz onunla müqayisə edəcəkdir.

Doğum günün mübarək, ulu babam, ruhun şad olsun. Əllərim əsə-əsə həyəcanla yazdığım inşanı indi böyük fərəh və qürur hissi ilə bitirirəm.



## Bilalova İlahə Adil qızı

*Azərbaycan Dövlət Dəmir Yolu Liseyinin X sinif şagirdi*

*Mən həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam.*

**Heydər Əliyev**

Dünyada bir çox tarixi şəxsiyyətlər, dövlət xadimləri, siyasətçilər olmuşdur. Həmin insanlar hələ də yaddaşlardan silinməyiblər.

Belə tarixi şəxsiyyətlərdən biri də Azərbaycan Respublikasının ümummilli lideri Heydər Əliyev olmuşdur. O, Azərbaycan xalqının yaddaşında xilaskar dövlət xadimi, xalq məhəbbətini qazanan öndər kimi qalmışdır.

Fəaliyyətinin bütün sahələrində öz layiqli izini qoymuş, başqa sahələr üzrə mütəxəssislərə bilik və bacarığı, təcrübəsi ilə örnək olmuşdur. Neftçi ilə neftçi kimi, siyasətçi ilə siyasətçi kimi, müəllimlə müəllim kimi, tarixçi ilə tarixçi kimi, iqtisadçı ilə iqtisadçı kimi, hərbçi ilə hərbçi kimi, hüquqşünasla hüquqşünas kimi danışmaq, diskussiya etməyi bacarmaq ilahi bir vergidir və hamı bunu görür, qiymətləndirir.

Azərbaycanda elə bir bölgə, rayon, kənd, qəsəbə, şəhər yoxdur ki, orada Heydər Əliyevin gərgin zəhmətinin bəhrələri görünməsin.

Heydər Əliyevin yaratdıqlarını, xalqımıza bəxş etdiyi töhfələri bir-bir sadalasaq, cildlərlə kitablara sığmaz.

Bunlardan biri və ən önəmlisi Heydər Əliyevin təşəbbüsü ilə Azərbaycanda yaradılmış hərbi məktəbdir.

«Hər bir qüdrətli dövlətin qüdrətli ordusu olmalıdır» devizi ilə rahatlıq bilməyən prezidentimiz Azərbaycan gənclərinin gələcəyi üçün çox narahat idi. SSRİ tərkibində olan respublikamızın gənclərinə hərbi peşələrə



yiyələnmək yolundakı ciddi maneələri görən prezidentimiz 1971-ci ildə «Cəmşid Naxçıvanski adına hərbi lisey»in yaradılmasına nail olmuşdur.

1982-ci ildə Heydər Əliyev Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsi Siyasi Bürosunun üzvü seçilmişdir. Daha sonra SSRİ Nazirlər Sovetinin sədrinin baş müavini seçilərək SSRİ liderlərinin biri olmuşdur.

1990-cı il yanvarın 20-də Sovet qoşunlarının Bakıda törətdiyi qanlı cinayətlə əlaqədar, ertəsi gün Heydər Əliyev cinayət təşkilatçılarının cəzalandırılmasını tələb etmişdir. 1991-ci ilin iyulunda Sovet İttifaqı Kommunist Partiyası sıralarını tərk etmişdir.

1993-cü ildə müstəqilliyimizin itirilməsi təhlükəsi yarandığına görə Azərbaycan xalqı Heydər Əliyevin hakimiyyətə gəlməsi üçün ayağa qalxdı.

1993-cü il oktyabrın 3-də ümumxalq səsverməsi nəticəsində xalqımız ən düzgün qərarı vermiş və Heydər Əliyevi Azərbaycan Respublikasının Prezidenti seçmişdir.

Heydər Əliyevin qətiyyəti, təşəbbüsü, uzaqgörənliyi nəticəsində Ermənistanla razılaşma əldə edilmiş, beş ildən artıq davam edən müharibə dayandırılmış, müstəqilliyimiz bərpa olunmuşdur.

Heydər Əliyev vətənpərvər bir şəxsiyyət kimi Azərbaycanı dünyada tanıtmağa çalışmışdır. Buna misal olaraq «Əsrin müqaviləsi»ni göstərmək olar. 1994-cü ildə imzalanmış «Əsrin müqaviləsi» Azərbaycan siyasi, iqtisadi və informasiya blokadası şəraitində olarkən imzalanmışdır. Həmin dövrdə Azərbaycan haqqında dünyada heç bir məlumat yox idi. Belə bir şəraitdə Heydər Əliyev dünyanın inkişaf etmiş, qüdrətli dövlətini təmsil edən 11 neft şirkəti ilə «Əsrin müqaviləsi»ni imzalamağa nail olmuşdur. Azərbaycan üçün mühüm əhəmiyyəti olan bu müqavilə həm ölkə daxilində sabitliyin bərqərar olması, həm də xarici siyasətdə bir çox uğurların əldə olunması üçün müstəsna rol oynamışdır.

1995-ci il noyabrın 12-də Heydər Əliyevin başçılığı ilə Azərbaycan Respublikasının Konstitusiyası ümumxalq səsverməsi yolu ilə qəbul edilmişdir.

1998-ci ildə keçirilən seçkilərdə Heydər Əliyev yenidən Azərbaycan Respublikasının Prezidenti seçilmişdir.

Heydər Əliyev 2003-cü il dekabrın 12-də ABŞ-ın Klivlent Klinikasında dünyasını dəyişmişdir.

Heydər Əliyev təkcə Azərbaycanda deyil, bütün dünyada öz sözünü deyən siyasətçi idi. Onun söylədiyi fikirlər, verdiyi qərarlar hər zaman özünü doğrultmuş, Azərbaycan üçün böyük xeyri olmuşdur.

Heydər Əliyev Azərbaycana rəhbərlik etdiyi illərdə uzaqgörən daxili və xarici siyasəti nəticəsində Azərbaycanı xarici ölkələrdə tanıtmış, müstəqilliyimizi əbədi və toxunulmaz etmişdir.

Bu gün Azərbaycan Heydər Əliyev siyasətinin bəhrələrini görür, ondan faydalanır.

Azərbaycan xalqı Heydər Əliyev siyasəti ilə irəliləyir və inanıram ki, belə də davam edəcəkdir. Gələcək yüzillikdəki siyasətçilər də Heydər Əliyev yolunu seçəcək və onunla irəliləyəcəklər.










## *Məmmədova Aytac Elçin qızı*

***Bakı şəhəri, Humanitar Fənlər Təmayüllü məktəb-liseyin X sinif şagirdi***


Vətənə, xalqa bağlı olan, bütün həyatını vətəninə və xalqına həsr edən, gözəl işlər görən və məhz bunlarla yadda qalan insanlar biz gənclərə və yeniyetmələrə örnəkdir. Biz də zaman-zaman xalqımızın içərisindən belə nadir insanları seçir, onlara inanır və öz gələcəyimizi onlara etibar edirik. Belə bir deyim vardır: «Tarix yoxdur, tarixi yaradan şəxsiyyətlər vardır». Həmin tarix ki, o güclü şəxsiyyətləri sevir. O şəxsiyyətləri ki, onlar millətin böhranlı vaxtlarında meydana çıxır və öz əməlləri ilə öz həmvətənlilərinin şüurlarını nurlandırır. Bu baxımdan biz çox bəxtəvər xalqıq. Çünki bizim tariximizin zirvəsində elə bir insan durur ki, neçə-neçə əsrlər də keçsə, unudulmayacaq və o zirvənin fatehi olaraq qalacaqdır. Çox şükürlər olsun ki, Tanrı bizə Heydər Əliyev kimi bir dühanı bəxş etdi. Mən bu gün böyük bir şərəf və qürur hissiylə deyərdim ki, əziz babam, siz Allahın zəka nurundan yoğrulan Azərbaycan xalqının görən gözü, vuran ürəyi idiniz.

*Kimin sinəsində böyüksə ürək,*
*Onun məhəbbəti qalib gələcək.*

Son dərəcə fenomenal bir şəxsiyyət olan Heydər Əliyev insan zəkasının elə bir sahəsi yoxdur ki, o həmin ixtisasın gözəl bilicisi, mütəxəssisi, sərrafı olmasın. İstər siyasət, istər iqtisadiyyat, dil, ədəbiyyat, tarix, fəlsəfə... Ona görə də Heydər Əliyev haqqında danışmaq bu sahələrin hər birinin canlı klassikindən danışmaq deməkdir. Onun yüksək idarəçilik, respublikaçılıq ideyaları xalqımızı 1993-cü ilin xaosundan çıxartdı. 1994-cü il sentyabr ayının 20-də «Əsrin müqaviləsi»ni imzalayan Heydər Əliyev Azərbaycanın İqtisadi İnkişaf Konsepsiyasının əsasını qoydu.

O, siyasətə elə lider kimi gəlmişdi. Azərbaycan xalqı da onu lider kimi qəbul etdi. Məmləkətimizə rəhbərlik etdiyi illərdə Azərbaycan xalqının əsl lideri olduğunu sübut etdi Heydər Əliyev.

Məşhur alimlərdən birinin belə bir kəlməsi vardır: «Mənə dayaq nöqtəsini göstərin, Yeri məhvərindən çıxarım». Heydər Əliyev də xalqımızın dayaq nöqtəsi, istinad yeri idi.

Təsadüfi deyildir ki, onun hakimiyyətə gəldikdən sonra irəli sürdüyü məsələlər, söylədiyi fikirlər öz aktuallığı, düşgünlüyü, obyektivliyi və hər tərəfdən ölçülüb biçilməsi ilə ətrafdakıları heyrətləndirmiş, ona siyasət aləminin nəhəngi adını qazandırmışdır. Bill Klintonun da qeyd etdiyi kimi: «Heydər Əliyev nəinki Azərbaycanı, Amerikanı, hətta bütün dünyanı idarə edə biləcək siyasi xadimdir».

«Doğma canım, varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır. Bütün şüurlu ömrümü onun inkişafına həsr etmişəm. Bundan sonrakı ömrümü də vətənimə, xalqıma bağışlayıram» – bu idi Heydər Əliyevin həyat devizi, şüarı.

Heydər Əliyevin həyatı Azərbaycanın respublikaçılıq tarixinin yarıdan çoxunu əhatə edir. Azərbaycanın son 50 illik inkişaf tarixinin hər bir səhifəsi Heydər Əliyevin iştirakı ilə yaradılıb və yazılıb. Məhz buna görə də mən deyərdim ki, Heydər Əliyev həm də istedadlı, bacarıqlı bir yazıçıdır. Çünki o, «Azərbaycan» adlı nəhəng və hər səhifəsi şanlı tariximizi əks etdirən epopeyanın müəllifidir. Bu nəhəng salnamənin hər bir səhifəsini vərəqlədikcə görürsən ki, 60-cı illərin tənəzzül edən Azərbaycanı ilə 70-ci illərin qaynar həyatlı, gündən-günə çiçəklənən, yeni uğurlar əldə edən Azərbaycanı arasında böyük fərq var. Bütün bunlar Heydər Əliyevin nəhəng işlərinin nəticəsidir.

Heydər babam bilirdi ki, gələcəkdə qüdrətli bir dövlət yaratmaq üçün güclü ordusu olmalıdır. Elə bu məqsədlə də 1971-ci ildə Cəmşid Naxçıvanski adına ilk Hərbi Məktəbin açılması bu yolda atılan əsas addımlardan biridir. Bu gün də ordumuzun hər cür texniki avadanlıqlarla təchiz olunması, «Mübariz», «İstiqlal» kimi silahların istehsala buraxılması Heydər Əliyev tərəfindən yaradılmış ordu quruculuğunun əsasını təşkil edir.

Azərbaycan cəmiyyətinin mənəvi-əxlaqi sağlamlığına xüsusi diqqət yetirən Heydər Əliyev üçün dil məsələsi də çox əhəmiyyətli olmuşdur. Müasir Azərbaycan dilinin formalaşmasında və inkişafında Şah İsmayıl Xətai və Heydər Əliyevin rolu misilsizdir. Ümummilli lider xalqımızı işıqlı gələcəyə aparan yolun əsasını xalqımızın maariflənməsində, yüksək təhsil almasında görürdü. Və buna görə də ölkəmizdə yeni-yeni orta və ali



məktəblərin yaradılması üçün əlindən gələni əsirgəmirdi Heydər Əliyev. «Təhsil millətin gələcəyidir» deyərdi həmişə və bu gün də ölkəmizdə bizlərin maariflənməsi, dünyagörüşümüzün yüksək səviyyədə olması üçün keçirilən bilik yarışları, fənn olimpiadaları bu istiqamətdə keçirilən əsas tədbirlərdir.

Mən də bu gün Heydər Əliyevin layiqli davamçısı olmaq arzusu ilə bu müsabiqədə iştirak edirəm.

Ey tarix içərisində tarix yaradan xilaskarımız, rahat uyu! Çünki sən üzərinə düşən ilahi missiyanı layiqincə yerinə yetirdin. Azərbaycan xalqı da heç vaxt səni unutmayacaq! Sən daima bizim qəlbimizdə və xatirimizdə əbədi yaşayacaqsan!



## Bağırov Ağa Orxan oğlu

**Bakı Avropa Liseyinin XI sinif şagirdi**

Azərbaycan tarixində taleyüklü məsələlərin həllində müstəsna xidmətləri olan dahi şəxsiyyətlər, görkəmli dövlət adamları çox olmuşdur. Bu insanlar zaman-zaman öz gördükləri işləri ilə yadda qalmış, unudulmamışlar.

Belə dövlət xadimləri arasında Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin xüsusi rolu vardır. Bu dahi insan vətənimizə, millətimizə göstərdiyi misilsiz xidmətləri ilə öz adını Azərbaycan tarixinə qızıl hərflərlə yazmışdır.

Görkəmli dövlət, siyasət adamları içərisində yalnız Heydər Əliyev milli lider səviyyəsinə yüksələ bilmişdi. Milli liderliklə siyasi liderlik amilinin bir şəxsdə birləşməsi bəşər tarixində nadir rast gəlinən unikal haldır. Ümummilli liderimiz Heydər Əliyev bu iki cəhəti özündə ehtiva etməklə bərabər, xalqın sevgisini, məhəbbətini də qazana bilmişdir.

Xalqımız bu dahi şəxsə daima xilaskarı, onları işıqlı bir sabaha apara biləcək yeganə azərbaycanlı kimi baxmışdır. Millətimiz onu hər zaman dərin məhəbbətlə sevmiş, rəğbət göstərmişdir.

Ümumiyyətlə, Azərbaycanın tarixində, ictimai, milli, mədəni həyatında Heydər Əliyev qədər xidməti olan ikinci bir şəxs tapmaq çox çətindir. Bu mənada o bizim milli iftixarımız, ürəklərimizdə daim yaşayan böyük azərbaycanlı idi.

Heydər Əliyev bütün ömrünü Vətəninə, millətinə həsr edən fenomenal bir şəxsiyyət idi. O, hər zaman xalqı üçün, xalqın rifahı üçün çalışmış, bu barədə əlindən gələn hər bir işi görmüşdür. Onun «Mən ömrümün qalan hissəsini də xalqıma bağışlayıram» kəlmələri bu gün də bütün soydaşlarımızın dillər əzbəridir.



Ümummilli liderimiz mahir siyasətçi idi. Siyasət sahəsində elə şəxslər olur ki, onlar fəaliyyətə başlayıb püxtələşdikdən sonra tanınırlar. Lakin elə şəxsiyyətlər də olur ki, bu xüsusiyyət onlarda «doğulduğu gündən» formalaşıb genlərində kodlaşdırılır.

Heydər Əliyev məhz ikincilərdən idi. Bu dahi şəxs təkcə keçmiş ittifaq səviyyəsində deyil, bütün Qərb miqyasında sözü keçən dahi siyasətçi idi. O, yaranmış ən çətin vəziyyətdən belə baş çıxarmağı bacaran, ən mürəkkəb anlarda belə xalqın, dövlətin rifahını düşünən bir insan idi.

Heydər Əliyev siyasət sahəsində dünyanın ən öndə gedən mahir siyasətçilərindən biri hesab olunur. Onun belə bir dövlət xadimi olmağının səbəbi dərin, universal biliyə, iti yaddaşa, bütün vacib tarixi biliklərə malik olmasında idi. Səbir, təmkin, zəka, diqqət Heydər Əliyev şəxsiyyətinin əsas xüsusiyyəti idi.

Ulu Öndərimiz həm də böyük xarizmaya sahib idi. Onun hər vəziyyətdən baş çıxarması, gələcəkdə olacaq siyasi hadisələri qabaqcadan söyləmək bacarığı bir çox dövlət xadimlərini, siyasətçiləri təəccübləndirmişdi. Bu gün də bir çox şəxs siyasəti məhz Heydər Əliyevdən öyrəndiyini dünyada etiraf edir.

Heydər Əliyev həm də mahir natiq idi. Onun auditoriyanı ələ almaq bacarığı, xalqı ilə ünsiyyət qurmağı hər kəsi valeh edirdi.

Heydər Əliyev Allahın Azərbaycana, dünyaya bəxş etdiyi nadir şəxs idi. Bizlər onu məhz xalqımıza, millətimizə, dövlətimizə göstərdiyi misilsiz xidmətlərinə görə sevirik. Qısa bir zaman müddətində Azərbaycan kimi kiçik bir dövləti dünyaya tanıdan Ulu Öndərimiz onun adının, imicinin yüksəldilməsi üçün nə lazımdırsa etmişdir. Bugünkü azad, müstəqil Azərbaycan onun əməyinin bariz nümunəsidir. Heydər Əliyev 1994-cü ildə «Əsrin müqaviləsi» adlı neft müqaviləsini imzalayaraq Azərbaycan və Azərbaycan neftinin şöhrətini bütün dünyaya yaymışdır. Daha sonra imzalanan Bakı–Tbilisi–Ceyhan və Bakı–Tbilisi–Ərzurum boru xətləri ölkəmizin beynəlxalq aləmdəki nüfuzunu daha da artırmışdır.

Ümummilli liderimiz Heydər Əliyevin Azərbaycan üçün etdiklərini saymaqla bitirmək olmaz. Onun sərəncamı ilə dövlətimiz latın qrafikalı əlifba sisteminə keçmişdir. Hər il avqustun 1-i Azərbaycanda Azərbaycan dili və Əlifba Günü kimi qeyd olunur. Bu Ulu Öndərin dilimizin inkişafı üçün atdığı ən böyük addımlardan biri idi.

Heydər Əliyev dünyada daima tarazlığın, sülhün olmasına çalışmışdır. O, hətta mənfur düşmənlərimiz olan ermənilərlə belə sülh dilində danışmağa çalışdı. Bu sahədə Ümummilli Liderimizin beynəlxalq «Atatürk»

sülh mükafatına layiq görülməsi buna bir daha sübutdur. O hər kəsi dostluğa, qardaşlığa səsləyirdi.

Heydər Əliyev bir çox dövlət xadimlərindən fərqli olaraq, dövlətinin, ölkəsinin hər bir sahəsində öz liderliyini göstərmişdir. Bu, ölkə başçılarında olması vacib olan çox vacib bir amildir. Ulu Öndərimizin xüsusi qayğı göstərdiyi sahələrdən biri də mədəniyyət sahəsi idi. O, tez-tez mədəniyyət işçiləri, şair və yazıçılarla görüşlər keçirir, onlara olan hörmət və sevgisini bildirirdi.

Heydər Əliyevin təşəbbüsü ilə görkəmli şairimiz Məhəmməd Füzulinin 500 illik yubileyi keçirilmişdir. Daha sonra Azərbaycanın tarixi salnaməsi olan «Kitabi-Dədə Qorqud» dastanının 1300 illiyi münasibəti ilə təntənəli tədbir keçirilmişdir. Bu tədbir ədəbiyyatımıza, mədəniyyətimizə, tariximizə böyük sevgi və hörmət münasibətini göstərən bir tədbir idi.

Heydər Əliyev Azərbaycanın çətin zamanlarında hər zaman xalqının, dövlətinin yanında olmuşdur. Ulu öndərimiz ölməkdə olan Azərbaycanımızın dərdinə məlhəm oldu, onu sağaltdı. Xalqımızı, millətimizi, dövlətimizi «qara buludlar» arxasından çıxardaraq işıqlı, günəşli bir sabaha çatdırdı.

Bu gün hər bir soydaşımız Heydər Əliyevin «Mən həmişə fəxr etmişəm və bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam!» kəlamını özünə şüar seçərək ulu öndərimizi yaşadır.

Bu gün Heydər Əliyevin uğurlu siyasətini onun oğlu İlham Əliyev layiqincə davam etdirir. İlham Əliyev Azərbaycanın beynəlxalq aləmdəki adını gündən-günə yüksəldir və xalqın, millətin böyük sevgisini qazanmaqla dövlətimizin – Azərbaycan Respublikasının güclü bir ölkəyə çevrilməsi uğrunda əzmlə çalışır.





## *Səlimzadə Təranə Nizami qızı*

*Ağsu rayonu, Bico kənd tam orta məktəbin XI sinif şagirdi*

Hər bir xalqın dahi şəxsiyyəti olduğu kimi, Azərbaycan xalqının da dahi, qüdrətli oğlu Heydər Əliyevdir.

Heydər Əliyev həmişə xalqına inanmış, arxalanmış, həmçinin özü də xalqına dayaq olmuşdur. Heydər Əliyev Azərbaycan xalqının Şahdağı, dünya siyasətində isə Everest zirvəsidir.

Heydər Əliyev ölkəmizə müxtəlif dövrlərdə rəhbərlik etmişdir. Heydər Əliyevin rəhbərlik illərini iki mərhələyə bölmək olar:

Birinci mərhələ 1969–1982-ci illəri əhatə edir. İkinci mərhələ isə 1993–2003-cü illəri əhatə edir.

Bildiyimiz kimi, bir sıra xarici və daxili qüvvələr Azərbaycanın müstəqilliyinə mane olurdular.

Belə bir vaxtda xalq öz oğluna – Heydər Əliyevə arxalanıb onu rəhbərliyə dəvət etdi. Heydər Əliyev xalqını məhvolma təhlükəsindən, dövlətimizin müstəqilliyinin əlindən alınması təhlükəsindən qurtardı. Məhz buna görə də Heydər Əliyevin adı tariximizə dövlət qurucusu kimi də daxil olmuşdur.

Heydər Əliyev Azərbaycanın parlaq günəşidir. Bizi ümummilli liderimiz Heydər Əliyevin vəfatından 11 illik zaman ayırsa da, Heydər Əliyev həmişə xalqının qəlbində yaşayacaqdır.

Ömrünü xalqına bağışlayanları xalqımız heç vaxt unutmur.

Bir gün Rusiyanın televiziya kanallarından birində yayımlanan «Pole çudes» verilişinə baxırdım. Finala çıxan qadına aparıcı belə bir sual verdi: «Dünyanın ən böyük siyasətçisi kimdir?» Qadın isə heç tərəddüd etmədən belə bir cavab verir: «Heydər Əliyev».

Təbii ki, cavab düz idi. Bu zaman qəlbimi iftixar hissi bürüdü. Fəxr etdim ki, mən də Heydər Əliyevin qurub-yaratdığı bir ölkədə yaşayıram.

*Heydər günəşindən nur alan ölkə,*
*Hər çirkin əmələ salacaq kölgə.*
*Ulu öndərimi yetirən millət,*
*Daha çəkməyəcək əzab-əziyyət.*

Hal-hazırda Heydər Əliyevin siyasətini uğurla onun layiqli davamçısı, oğlu İlham Əliyev davam etdirir.

*İlhamdır Heydərin yerində duran,*
*İlhamdır ölkədə qurub, yaradan.*
*Həqiqət yoludur, tutduğu düz yol,*
*Heydərin oğluna arxayınıq biz.*

Hal-hazırda Azərbaycan Respublikası prezidentimiz İlham Əliyevin başçılığı ilə dünyanın ən qabaqcıl ölkələri arasında durur.

Bunun üçün prezidentimiz İlham Əliyevə öz minnətdarlığımızı bildiririk.





## Bilalzadə Aytən Asif qızı

**Zərdab rayonu, Əlibəyli kənd tam orta məktəbin IX sinif şagirdi**

O tarixi şəxsiyyətlər unudulmur ki, nəcib və xeyirxah əməllərinə sağlığında layiqli qiymətlər verilir. O tarixi şəxsiyyət xoşbəxtdir ki, ömrünü xalqına həsr edib, Azərbaycan xalqının hər bir vətəndaşının ürəyində silinməz yeri və mövqeyi olub. Heydər Əliyev belə şəxiyyətlərdəndir.

Tarixinin taleyi Heydər Əliyev kimi dahi şəxsiyyətin əlində olan bu xalq, hər zaman, hər yerdə Heydər Əliyevin hakimiyyətdə olmasını istəmiş, bu amalla da onu ən çətin zamanda hakimiyyətə gətirmişdir. 1993-cü ildə dərin böhran içərisində çapalayan bir xalqı intensiv inkişaf yoluna çıxaran Heydər Əliyev Azərbaycanı yenidən dirçəltmişdir.

Öz ölkəsinin tarixində müstəsna rol oynamış şəxsiyyətlər, dühalar tarixin zaman adlanan sədlərini dəf edərək zamansızlaşır, əbədiyaşarlıq hüququ qazanırlar.

Heydər Əliyev Azərbaycanın ən çətin anlarında, sərt dolanbaclarında onu çiyinləri üzərinə qaldırmışdır. Heydər Əliyev tarixin ən sərt sınaqlarından öz ölkəsini üzüağ çıxarmağı bacarmışdır. Heydər Əliyevin yalnız bir məqsədi var idi: Azərbaycanı bir dövlət, onun xalqını isə bir millət kimi yüksəklərə qaldırmaq. O bunu bacardı.

Heydər Əliyev müstəqilliyimizin, müasirliyimizin, dövlətçiliyimizin banisidir. Heydər Əliyev yaradıcı insan, dahi şəxsiyyət, eyni zamanda Azərbaycan xalqının sönməz günəşidir. Heydər Əliyevin şəxsiyyətinə xas olan keyfiyyətləri, dərin zəkası, parlaq istedadı və dünyagörüşü həm sağlığında, həm də bu günümüzdə dərin hörmətlə qeyd edilir və hər zaman vurğulanır. Heydər Əliyev Azərbaycan ölkəsinin qaranlıqda olduğu bir vaxtda qəfildən yanan, hər bir bucağı işıqlandıran bir məşəldir.

Heydər Əliyev azərbaycanlı olduğu üçün, Azərbaycan vətəndaşı olduğu üçün həmişə və hər yerdə qürur hissi keçirir və fəxr edirdi. Bu gün isə Azərbaycan Heydər Əliyev kimi dahi şəxsiyyəti olduğu üçün fəxr edir və illər keçməsinə baxmayaraq, fəxr edəcəkdir.

Heydər Əliyev ən çətin anlarında yanında olduğu Azərbaycanın fəxri, nicatı, böyük, parlaq şəxsiyyəti və vüqarıdır.

Bu gün hər bir Azərbaycan vətəndaşının xoşbəxt olmağının, xoşbəxt yaşamağının yeganə səbəbi var. Bu da Heydər Əliyevin qoyduğu, cızdığı ana xəttin layiqincə davam etdirilməsidir.

Bir dövlətin ki, bünövrəsi dahi şəxsiyyət, müdrik insan, gözəl siyasətçi tərəfindən qoyulub, o, dövlət heç bir zaman büdrəməz.

Heydər Əliyevin sayəsində bu gün Azərbaycan müasir və müstəqil inkişaf yolundadır. Və bu yolu uğurla addımlayır.

Heydər Əliyevin bizə miras qoyduğu bu dövlət, bu xalq bu gün prezident İlham Əliyev tərəfindən qorunub saxlanılır və idarə edilir. Heydər Əliyevin siyasi kursu hələ uzun müddət dillər əzbəri olacaq, qürurla qeyd olunacaqdır.





## *Abbasova Əfsanə Əli qızı*

***İmişli şəhəri, 1 nömrəli məktəb-liseyin XI sinif şagirdi***

*«Xalqıma, millətimə, Azərbaycan Respublikasına hədsiz məhəbbət mənim həyatımın mənası, məzmunudur».*

**Heydər Əliyev**

Bəşəriyyət yaranandan bəri cəmiyyət ibtidaidən aliyə, sadədən mürəkkəbə doğru inkişaf edir. İnsanlar yavaş-yavaş sürü halında yaşamağı tərgitmiş, ayrı-ayrı qəbilələr, xalqlar, millətlər halında yaşamağa başlamışdır. Cəmiyyətin inkişafının sonrakı mərhələlərində bu xalqlar və millətlər özlərinin maddi və mənəvi sərvətlərini yaratmağa, özlərini təsdiq etməyə çalışmışlar.

Azərbaycan xalqı da qədim zamanlardan bəri yaranmış və özünü təsdiqləməyə başlamışdır. Bu formalaşmada və özünütəsdiqdə ayrı-ayrı dövlət və ictimai-siyasi xadimlərin mühüm rolu olmuşdur. Ayrı-ayrı zaman kəsiyində yaşamış Cavanşir, Babək, Uzun Həsən, Abbasqulu ağa Bakıxanov, Mirzə Fətəli Axundzadə, Firidun bəy Köçərli, Cəlil Məmmədquluzadə kimi dövət və ictimai-siyasi xadimlər bir amal üçün çalışmış, xalqın formalaşmasında mühüm rol oynamışlar.

Əlverişli coğrafi mövqedə yerləşən Azərbaycan zaman-zaman xarici hücumlara məruz qalmış, lakin əsrin hər dövründə başının üstünü alan qara qüvvələri məhv etmək üçün igid oğul və qızlar yetişdirmişdir. Əzəli düşmənimiz ermənilər də fürsət düşdükcə torpaqlarımıza göz dikib, öz havadarları hesabına ərazilərimizi işğal etməyə çalışıblar.

XX əsrin 90-cı illərində Sovet məkanında siyasi vəziyyət gərginləşdi. Belə bir şəraitdə xalqımız meydanlara axışdı. Onlar rəhbərlikdən ermə-

lərin Qarabağdakı işğalçılığına son qoymalarını, xüsusilə azadlıq istəyirdilər. O zaman Azərbaycan rəhbərliyi heç bir əməli addımlar atmırdı. Siyasi vəziyyət gərginləşirdi. Beləliklə, Ermənistanla elan olunmamış Qarabağ müharibəsi başlandı. Cəbhədə şiddətli döyüşlər gedirdi. Belə gərgin bir zamanda ölkə daxilində hakimiyyət hərc-mərcliyi, «taxt-tac uğrunda» mübarizə başlamışdı. Bir tərəfdən də vətəndaş müharibəsi ölkədə xaosu daha da artırırdı. Hökumət rəhbərləri isə xalqın haqlı tələblərinə məhəl qoymur, müdrik siyasətçi Heydər Əliyevlə əlaqə belə yaratmaq istəmirdilər. Xalq isə anlayırdı ki, onu bu çətin vəziyyətdən yalnız və yalnız o çıxara bilər.

Güc gücə arxalandı. Uzaqgörən siyasətçi Heydər Əliyev xalqın güclü sevgisindən, xalq isə onun iradəsindən güc aldı. O, yenidən Azərbaycana rəhbərlik etməyə başladı. 1993-cü ilin oktyabrında keçirilən prezident seçkilərində xalq yekdil olaraq bu xilaskar siyasi rəhbərə səs verdi.

Heydər Əliyev yaxşı bilirdi ki, ölkədə yüksəlişə gedən yol iqtisadiyyatdan keçir. Ona görə də 1994-cü ilin sentyabr ayında imzalanan «Əsrin müqaviləsi» Azərbaycanı neft ölkəsinə çevirdi.

Daxili sabitlik xarici əlaqələrin qurulmasına zəmin yaratdı. Xarici ölkələrdə səfirliklər, lobbilər, diasporlar yaradıldı. Ölkəmiz MDB-yə, NATO-ya, AŞPA-ya və bu kimi digər nüfuzlu təşkilatlara üzv oldu. Bütün bunlar Heydər Əliyevin gərgin siyasi fəaliyyətinin əməli nəticələri idi. Ulu öndər Heydər Əliyev xarici ölkələrdə səfərlərdə olur, Azərbaycanın haqq işini dünyaya çatdırırdı. Siyasi tribunalarda, diplomatik münasibətlərdə iti zəkası ilə, əsl lider qabiliyyəti ilə etdiyi siyasi gedişlərlə dünya siyasi liderlərini «mat» qoyurdu. Təsadüfi deyil ki, onun ölkəmizə rəhbərliyi dövründə xarici dövlətlərlə münasibətlər genişləndi, iqtisadi, mədəni əlaqələr gücləndi.

Bu gün Azərbaycan müstəqil bir respublikadır. Onun qurucusu isə ulu öndərimiz Heydər Əliyevdir. O ən böyük əsərini – Azərbaycan Respublikasını yaratmaqla ən böyük siyasi liderə, siyasi memara çevrildi.

Hər bir azərbaycanlının qəlbində özünə əziz yer tutan Heydər Əliyev xalqın qəlbində daim yaşayacaq. Qəlbindəki vətən sevgisi, şərəfli ömür yolu, vətənə sədaqətli xidməti bu dahi siyasi lideri əlçatmaz zirvəyə yüksəltdi. O, əsl vətəndaş idi. Vətənini sevən, onu qoruyan əsl vətənpərvər idi.

Dahi rəhbər xalqının hər bir nümayəndəsinin xoşbəxtliyinə çalışırdı. Humanist, insanpərvər bir şəxsiyyət olan Heydər Əliyev uşaqları böyük məhəbbətlə sevirdi. Bütün qəlbi ilə vətənə, xalqa bağlı olan Heydər Əliyevin böyük Səməd Vurğunun məşhur «Azərbaycan» şeirini necə deməsi, vətən məhəbbətindən gözlərinin necə yaşarması, yəqin ki, hər kəsin xatirindədir. Bax, budur əsl vətənpərvərlik məktəbi. Biz gənclər bu məktəbdən bəhrələnməliyik. Heydər Əliyevin siyasi kursu, azərbaycançılıq ideologiyası nəsillərə nümunədir.



İllər ötsə belə, xalq bu dahi lideri heç vaxt unutmur, onun əmanət qoyduğu ideyaları layiqincə davam etdirir. Həqiqətən də, illər əsrlərə qovuşacaq. Bu qədirbilən xalqımız Heydər Əliyevin xatirəsini hər zaman əziz tutacaq. Bu dahi rəhbər xalqımızın taleyüklü məsələsini, min qəddi əyən mənəvi yükü o qüdrətli çiyinlərində, o əzəmətli yerişi ilə inamla irəli aparmağı bacardı və beləcə yaddaşların əbədi qəhrəmanına çevrildi...

*Qəbrin nurla dolsun, ey dahi insan!*
*Alimsən, şairsən, gözəl memarsan.*
*Səni unudarmı can Azərbaycan?*
*Biz harda varıqsa, sən orda varsan.*

Bu gün Azərbaycan etibarlı əllərdədir. Ümummilli liderimiz Heydər Əliyevin siyasi kursunu, azərbaycançılıq ideologiyalarını oğlu İlham Heydər oğlu Əliyev layiqincə davam və inkişaf etdirir. Onun rəhbərliyi ilə ölkəmiz möhtəşəm tədbirlərə ev sahibliyi edir, dünya artan gücümüzü görür. Nə qədər ki, nəsillərə nümunə olan dahi rəhbər Heydər Əliyev, onun azərbaycançılıq ideologiyaları yaşayır, Azərbaycan müstəqillik yolları ilə inamla addımlayacaq. Müstəqilliyimiz Ulu Öndərimizin dili ilə desək, dönməzdir, əbədidir!!!



## Əliyeva Sənubər Yaşar qızı

*3 nömrəli Gəncə Peşə Liseyinin I kurs şagirdi*

Xalqımızın ümummilli lideri, böyük siyasətçi Heydər Əliyev öz ali liderlik keyfiyyətləri ilə dünya siyasətçilərinin ən uca zirvəsində duran tarixi şəxsiyyətlərdən biri idi. O, təkcə öz ömrünün müdriklik zirvəsinə deyil, bütöv bir xalqın tarixi zirvəsinə ucalmışdı. Bu tarixi şəxsiyyətin fəaliyyətinin hər bir səhifəsi Azərbaycanın son əlli illik tarixinin bütün mərhələləri ilə üst-üstə düşür. Ümumiyyətlə, ölkəmizin müasir dövr tarixini Heydər Əliyevdən ayrı təsəvvür etmək mümkün deyil.

Ümumxalq məhəbbəti qazanan Heydər Əliyevin bitib-tükənməyən enerjisi xalqımızı daim yaradıcılıq uğurlarına, aydın sabaha ruhlandırmışdır.

Azərbaycanın dövlət müstəqilliyi, xalqımızın öz azadlığına qovuşması, əldə olunan yeniliklər parlaq dühа sahibi Heydər Əliyevin adı və şəxsiyyəti ilə qırılmaz tellərlə bağlıdır. Bu günlər əziz xatirəsini dərin hörmət və ehtiramla yad etdiyimiz Ümummilli Liderimiz dərin zəkası sayəsində respublikamızın ən çətin məqamlarında xilas yolunu tapmış, xilaskarlıq missiyasını yerinə yetirərək onu ən çətin siyasi və iqtisadi böhranların məngənəsindən qurtarmışdır. İndi əbəs yerə demirlər ki, müstəqil Azərbaycan Heydər Əliyevin şah əsəridir. Eyni zamanda müstəqil Azərbaycanın memarı və qurucusu Heydər Əliyevi olduğu kimi təsvir etməyə sözün də qüdrəti çatmaz.

O, 1993-cü ildə ikinci dəfə xalqın istəyi ilə hakimiyyətə qayıtdı. Hakimiyyətə gəldiyi gün – 15 iyun tariximizə Milli Qurtuluş Günü kimi daxil oldu. Heydər Əliyev öz ölkəsi üçün əlindən gələni edən, çalışdığı qədər xalqına kömək olan dahi bir şəxsiyyət idi. O, xalqına fikrini belə bildirmişdir: «Azərbaycan mənim ürəyimdir, həyatımdır. Mən ömrümün qalan hissəsini də Azərbaycan xalqına bağışlayıram».



Azərbaycan xoşbəxt dövlətdir. Ona görə ki, həmişə Tanrı sevgisi ilə məlhəmlik tapıb. Azərbaycan xalqı xoşbəxt xalqdır. Ona görə ki, Azərbaycana Heydər Əliyev kimi bir dühа bəxş edib.

Heydər Əliyev yaşadığı və mənsub olduğu dövrə elə bir imza atmışdır ki, həm müasirləri, həm də ardıcılları onun əsərini oxuyur və onun irsini öyrənir.

Xalq arasında belə bir deyim var. Bu deyim milyonların ürək səsidir: «Xalq Heydər, Heydər–Xalq». Xalq heç vaxt Heydər Əliyevi unutmur. O bizim qəlbimizdə daim yaşayır.

*Nə qədər Azərbaycan,*
*Nə qədər bu millət var,*
*Heydər: – «Xalqım!» – deyəcək*
*Xalq: – «Heydər!» – söyləyəcək.*

Heydər Əliyev xalqa əziz olduğu qədər də doğmadır. Ulu Öndərimizin davamçısı olan İlham Əliyev də Azərbaycan xalqı ilə birlikdə işğal olunmuş torpaqlarımızı tezliklə geri qaytaracaq. Mən bir şagird kimi buna inanıram və ümid edirəm ki, Azərbaycan dövləti daim müstəqil bir dövlət kimi yaşayacaq və bayrağımız daim zirvələrdə dalğalanacaqdır.

Ümummilli Liderimizin bir sözünü heç vaxt unutmaq olmaz. Onun belə bir sözü vardır: «Mən həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam!»

Mən də fəxr edirəm ki, Heydər Əliyevin yaşadığı ölkədə doğulub böyümüşəm. Heç zaman unutmayaq ki, biz azərbaycanlıyıq!



## Canalıyeva Fidan Xəqani qızı

**İsmayıllı şəhəri, 3 nömrəli tam orta məktəbin X sinif şagirdi**

Qələm əlimdə, dəftər qarşımda Azərbaycana əbədi səadət gətirən, onu dünyada tanıdan, üçrəngli bayrağımızı ən uca zirvələrə qaldıran ümummilli liderimiz, dahi rəhbərimiz Heydər Əliyev haqqında yazıya başlayıram.

Nə yazacağımı, necə yazacağımı bilmirəm. Ona görə yox ki, söz tapmıram. Ona görə yaza bilmirəm ki, elə bil sözlərin gücü çatmır qəlbimdəki hisləri ifadə etməyə, onu layiq olduğu kimi qiymətləndirməyə.

İstəyirəm bütün dünya səsimi eşitsin. Tarix bizə elə bir şəxsiyyət bəxş edib ki, nə qədər canımızda can var ondan nümunə götürüb, ondan dərs almalıyıq.

Dahilərin ölümünü qürub edən günəşə bənzədirəm. Günəş qürub edir və səhər yenidən öz ilıq şüalarını yer üzünə səpələyir. Heydər Əliyev də bax beləcə qürub edən günəşə və açılan səhərə bənzəyir. Çünki hər açılan səhər insanlara sevinc və səadət bəxş edir.

Heydər Əliyev öz ölümü ilə ölümsüzlüyə qovuşdu. Ölümün özü belə bu dahi şəxsiyyətə qarşı gələ bilmədi.

*Ölümün özü varlığına baş əyir,*
*Sən əlçatmaz zirvəsən, sənə çatmaq gərəkdir.*

Elə bu səbəbdən də Heydər Əliyevin ölümü belə həyat qədər dəyərlidir. Cavid demişkən:

*Həyat var ki, ölüm qədər zəhərli*
*Ölüm var ki, həyatdan da dəyərli.*

Mən bu gün qürurla deyə bilərəm ki, mənim babam yaşayır. Çünki o özündən sonra Azərbaycanın strategiyasını qoydu.



Qurtuluşumuzun – milli mənəviyyatımızın təvəllüdü adınla bağlıdır, baba. Bu gün sənin sayəndə ölkəmizdə sabitlik hökm sürür. Xalqın milli dəyərlərini əsas tutaraq Azərbaycan Respublikasının Konstitusiyasını yaratdı. Ümummilli Liderimiz bunun sayəsində Azərbaycanı dünyaya tanıtdı. «Beynəlxalq hüquqla sivilizasiyalı dünyaya qovuşduq» – deyən Ümummilli Liderimizin sayəsində dünya Azərbaycanı qəbul etdi. Daha nə etmədi o dahi rəhbər!

Təhsilimizi ən uca zirvələrə qaldırdı. Bir çox mənbələrdən bildiyim məlumata görə, XX əsrin 80-ci illərində təhsil sahəsində çatışmazlıqlar çox idi. Dahi şəxsiyyət Heydər Əliyev bütün bu çatışmazlıqları aradan qaldıraraq təhsilimizi kamilləşdirdi. Bu gün məni ən çox sevindirən təhsil sahəsindəki inkişafdır. Gənclərimiz öz təhsillərini davam etdirmək üçün xaricə göndərilir. 80-ci illərdə də öz balalarını xaricə təhsil almağa göndərirdi Heydər Əliyev. Yol onun yoludur, davam etdirənsə onun layiqli davamçısı İlham Əliyevdir.

Təhsilimizə görə fəxr edə bilərsən, baba. Bu gün təhsilimiz dünyaya inteqrasiya edir.

Ən böyük arzusu dünya azərbaycanlılarını bir görmək idi. Buna görə 31 dekabr «Dünya Azərbaycanlılarının Həmrəylik gününü» təsis etdin. Bu gün sənin sayəndə bu bayram nəinki Azərbaycanda, azərbaycanlıların var olduğu hər yerdə qeyd edilir.

Yaratdığın Yeni Azərbaycan Partiyası bütün dünyada tanınır. Dünya azərbaycanlılarının birlik səsi, birlik partiyasıdır Yeni Azərbaycan Partiyası.

Heydər Əliyev həyatı işıqdan alan bir məşəldir. Sönməyən bir günəşdir. Bu günəş daima öz şüaları ilə Azərbaycanı işıqlandıracaq, onun başı üstündə şöləlnəcəkdir. Bu günəş nəinki Azərbaycanın, bütün tərəqqipərvər dövlətlərin yoluna nur saçacaqdır.

Heydər Əliyev təkcə səmimilik, vətənpərvərlik simvolu olmadı. O həm də dünya tarixinə rəhbərlə xalqın birliyini sübut etdi.

*Nə qədər Azərbaycan,*
*Nə qədər bu millət var,*
*Heydər: «Xalqım!» – deyəcək.*
*Xalq: – «Heydər!» – söyləyəcək.*

Fenomenal insan, ensiklopedik şəxsiyyət, hansı sahədən danışırdınsa elə bil o sahənin adamı olurdun. Ədəbiyyatdan danışanda ədəbiyyatçı idin. Tarixdən danışanda tarixçi idin. Bircə onu bilirəm ki, ən böyük memar idin.

Heç kəsin yaratmadığı, yarada bilmədiyi bir – əsər yaratdın – Müstəqil Azərbaycan! Bu sənin şah əsərindir. Dünyaya bəxş etdiyin təkrarsız əsər!

Uşaqların sevimli, mehriban babası idin. Bu gün sənin irsini gəlinin Mehriban xanım davam etdirir. Bizlərin sevimlisi Mehriban xanım bu gün sənin adını daşıyan Heydər Əliyev Fonduna rəhbərlik edir. Onun sayəsində hər gün bir yeni bilik ocağı istifadəyə verilir ki, qoy təhsil almağa imkanı olmayan uşaqlar elmdən məhrum olmasınlar.

Baba, bu gün həyat yoldaşınız, Azərbaycan elminə böyük töfhələr vermiş, görkəmli oftalmoloq Zərifə Əliyevanın adını daşıyan liseydə sizin 91-ci ildönümünüzə həsr olunmuş inşa yazırıq. Sizin həyat yolunuz sonsuz bir ümmandır. Əgər bu ümmandan bir zərrə götürmək bizə qismət olubsa, özümüzü xoşbəxt hiss edə bilərik.

Deyirlər bu dünyada tam xoşbəxt insan olmur. Mənsə bunun əksini söyləyərdim. Çünki siz, sözün əsl mənasında, dünyanın ən xoşbəxt insanısınız. Çünki bir insan ömrü ərzində bu qədər iş görmək heç kəsə nəsib olmur.

Baba sən idealsan, uğur gətirənsən! Bu gün sənin adın yüzlərlə uşağa verilir. Mənsə sənin adını özümə təxəllüs seçib, aldığım hər nəfəsdə səni yaşadacağam – Fidan Heydər!





## *Quliyev Nicat Elgiz oğlu*

***Zaqatala şəhəri, 3 nömrəli tam orta məktəbin XI sinif şagirdi***

Belə bir müsabiqədə iştirak etdiyimə görə ürəyim fəxrlə doludur. Ümummilli Liderin şərəfli ömür yolu o qədər uzun, etdikləri o qədər çoxdur ki, sanki bir ucsuz-bucaqsız dəryadır. Mən də bu dəryadan bircə damcı götürə bilmişəmsə, özümü xoşbəxt hiss edirəm.

*Hər kəsin həyatında,*
*Hər insanın ömründə,*
*Görünür yerin sənin.*
*Qədirbilən xalqının*
*Səni sevən könlündə*
*Sağlığında ucalıb*
*Məğrur heykəlin sənin.*
*Hələ çiynimizdədir*
*Uğurlu əlin sənin.*

Əlimə qələm alanda həyəcanlandım. Gözlərim önündə ulu babanın dastanlara sığmayan mübarizə dolu həyatı canlandı.

*Ömrün şirin bir nəğmə,*
*Həyatın tarix dərsi*
*Belə ömür yaşamaq*
*Arzusudur hər kəsin.*

XX əsrin II onilliyinin 3-cü ili idi. Qədim Naxçıvanda, işıqlı may günlərinin birində, sadə bir azərbaycanlı ailəsində əqli, zəkası, zehni, idrakı, hökmü, qüdrəti və siyasəti ilə dünyanı mat qoyacaq bir bəşər övladı anadan oldu. Valideynləri ona Heydər adı verəndə hələ bilmirdilər ki, bu

məsum körpə Şeyx Heydərdən də şöhrətli şəxsiyyət, qüdrətli, bacarıqlı sərkərdə olacaq.

*Ay elə tək-tək doğar,*
*Gün elə tək-tək doğar,*
*Heydər kimi oğulu*
*Analar tək-tək doğar.*

Zaman keçdikcə məktəb illəri, gənclik həyatı arxada qalır. Tükənməz daxili enerjisi, biliyi, bacarığı və istedadı sayəsində pillədən-pilləyə, rütbədən-rütbəyə, zirvədən-zirvəyə ucalır. Zaman keçdikcə bir evin, bir nəslin övladı olmaqdan savayı, başqa böyük bir millətin, bir xalqın atası, milyonların babası olur.

Heydər babam hakimiyyətə gəldikdən sonra hamını öz uzaqgörənliyi, dərin zəkası, ağlı və səbri ilə dinlədi və hər kəsə də öz qəti sözünü dedi. İlk öncə qeyrətsizliklərə qeyrət dərsi verdi. Ölkə daxilində vətəndaş müharibəsinin qarşısını aldı, atəşkəsə nail oldu, sağlam işgüzar iqlim yaratdı. Ordum varsa, yurdum var, – dedi.

Dünya getdikcə çalxalanır. Şərqdə baş verən hadisələr bütün xalqları, xüsusən də uşaqları, elə mənim özümü də çox sarsıdır. Tanrıya şükürlər, mələklər qanadlarında bizə xilaskar göndərməsəydi, taleyimiz indi kimlərinsə əlində oyuncağa çevriləcəkdi... İlham kimi oğulu bizə bəxş etdiyinə görə ruhuna dualar oxuyuruq. Sən əsrlər, qərinələr keçsə belə, unudulmayacaqsan! Sənin inamın, cəsarətin xalqa güc verdi. Sən bu millət üçün nələr etmədin. Azərbaycan adlı sabahında günəştək yandın. Qaçqının taleyini öz taleyin sandın, dərdinə öz dərdin kimi yandın, toy-düyününə sevinc payını qatdın. Məğrur babam, ömrünü xalqının yolunda şam kimi gilə-gilə əritdin, bizim xoşbəxtliyimiz üçün yeni-yeni layihələrə imza atdın.

*Azərbaycan, öyünməyə haqqın var!*
*Saya gəlməz igidlərin, dünənin, bu günün var.*
*Heydər kimi ərlərin var.*
*Oğlun, qızın igid, qəşəng*
*Bakı–Ceyhan kəmərin var.*
*Bayrağında yaşar üç rəng*
*İşıqdan sən tutdun çələng.*

Ömrün şirin nəğmətək, həyatın bir hünər salnaməsi kimi qəlbimizdə yaşayacaq. Ömrünü xalqına qurban verdin, bizimlə hər zaman bir olan



babam. Sən xalqına ən şirin neməti azadlığı, doğma dilimizi, dinimizi bəxş etdin. Mənəviyyatımızı, kimliyimizi, adət-ənənələrimizi özümüzə qaytardın.

*Ölüm sevinməsin qoy, ömrünü vermir bada*
*El qədrini canından daha əziz bilənlər*
*Şirin bir xatirətək qalacaqdır dünyada*
*Sevərək yaşayanlar, sevilərək ölənlər.*

Bəli, o, xalqının yolunda yandı, amma işığı bütün bəşəriyyətə yayıldı. Dahilər ölmür, sadəcə cismən torpağa, ruhən isə əbədiyyətə qovuşurlar.

*Sən elə bir zirvəsən, küləklər neyləyəcək?*
*Dünənim, bu günümsən, səninlədir gələcək.*
*Nə qədər Azərbaycan, nə qədər bu millət var*
*Heydər «Xalqım» – deyəcək, xalq: «Heydər» – söyləyəcək.*

Sənin ölümündən danışmağa dilim gəlmir. Çünki sən ölümünlə ölümsüzlük yaratdın. Sən dünyadan köçdün, dünyada qalmaq üçün. Ölümün belə varlığına baş əydi...

Yurdumuz sənin əməllərinlə günü-gündən çiçəklənir, qələbələrimizin sayı durmadan artır, düşmən xar olur, dost sevinir. Ulu babam, bayrağımız yüksəldikcə ömür məşəlin yolumuzda, uğurlu əlin çiynimizdədir.

Azərbaycan gəncliyi! Ulu Öndərin biz gənclərə güvəni sonsuz idi, «Azərbaycanın gələcəyi sağlam əllərdədir» deyəndə yanılmırdı. Biz gənclər öndərimizin güvənini heç vaxt sarsıtmadıq. Azərbaycanın haqq işini hər zaman və hər yerdə müdafiə etdik. Başda alternativsiz və ləyaqətli prezidentimiz İlham Əliyev olmaqla hər birimiz Ulu Öndərimizin yaratdığı bu yolda uğurlu addımlarla addımlayırıq.

Bütün Türk dünyasının məşəlini sanki Atatürk bu insana vermişdi. Avropa tarixində şərəfli yer tutdun. Hələ sağlığında ən böyük abidən xalqın sənə olan məhəbbəti oldu. Ulu Öndərimiz Vətənimizə və xalqımıza etdiyi sədaqətli xidmətlərinə görə türk və dünya tarixində hər zaman şərəfli yer tutmuşdur.

## MÜNDƏRİCAT

Heydər Əliyevin milli təhsil quruculuğu ideyaları müasirləşmə yollarında *(Mikayıl Cabbarov)* . . . . . . . . . . . . . . . . . . . . 5
Respublika müsabiqəsi qaliblərinin inşa yazıları . . . . . . . . . . . . . . . . . 15
Respublika müsabiqəsi iştirakçılarının inşa yazıları . . . . . . . . . . . . . . 102

---

Buraxılışa məsul ***Faiq Şahbazlı***

Kitabı nəşrə hazırlayanlar ***Sədaqət Məmmədova,***
***Mehriban Vəliyeva,***
***Aysel Rəsulzadə,***
***Əminə Səfərova,***
***Rəsmiyyə Məmmədova,***
***Səbinə Rzayeva,***
***Yeganə Hüseynova***
Bədii və texniki redaktoru ***Abdulla Ələkbərov***
Kompüter tərtibatçıları ***Səbinə Məmmədova,***
***Təhmasib Mehdiyev***
Korrektorları ***Natəvan Məmmədova, Ülkər Rəhimova***

HEYDƏR ƏLİYEV
MƏKTƏBLİLƏRİN GÖZÜ İLƏ

«Təhsil Nəşriyyat-Poliqrafiya» MMC
Bakı, AZ 1052, F.Xoyski küç., 121A

Azf-281560